**İMAM XOMEYNİ (r.ə)**

# VİLAYƏTİ-FƏQİH

## İSLAM HÖKÜMƏTİ SİSTEMİ

**İmam Xomeyni əsərlərini tənzim
və nəşr edən müəssisə
Beynalxalq əlaqələr şöbəsi**



Kitabın əvvəlində çap olan şəkil İmam Xomeyni həzrətlərinin Nəcəf hövzəsində Vilayəti-fəqih kitbının tədris etdiyi dövr aiddir.

| | |
|---|---|
| **Kitabın adı:** | Vilayəti-Fəqih |
| **Müəllif:** | İmam Xomeyni (s.ə) |
| **Nəşr edən:** | İmam Xomeyni əsərlərini tənzim və nəşr edən müəssisə Beynalxalq əlaqələr şöbəsi |
| **Çap növbəsi:** | Birinci çap, 1996 m. 1375 h.ş. 1417 h.q |
| **Ünvan:** | İran – Tehran Bahünər prospekti, Yasir kecəsi № 3 |
| **Telefon:** | 2283138, 2287774-5 |
| **Faks:** | 2287773 |
| **Teleks:** | 22935 |

# NAŞİRDƏN

## Bismillahir-rəhmanir-rəhim

*Əlhəmdu lillahi və la hovlə və la qüvvətə illla billahil-Əliyyil-əzim, vəssəlatu vəssəlamu əla rəsulillah Mühəmmədin xataminnəbiyyin və alihit-təyyibin.*

«**Vilayəti-Fəqih**» kitabı imam Xomeyni həzrətlərinin 1389-cu il zilqədə ayının 13-dən zilhəccə ayının ikisinə Nəcəf şəhərində olarkən söylədiyi on üç nitqdən (məruzədən) ibarətdir. Bu məruzələr o illərdə müxtəlif surətdə, bəzən kamil və bəzən də bir-iki qısa məcmuə şəklində buraxılmışdır.

Nəhayət, 1349-cu hicri şəmsi ilində redaktə olunub imam təsdiq etdikdən sonra çapa hazırlandı və ilk dəfə olaraq imamın müridləri tərəfindən Livanda çap etdirilib gizlincə İrana göndərildi və eyni vaxtda Avropada, Amerika, Pakistan və Əfqanıstan ölkələrinə göndərildi.

Bu kitab 1356-cı ildə İranda «İmam Müsəvi Kaşiful-Qitadan bir məktub» adı ilə «Cihadi-əkbər» kitabına əlavə olunaraq çap edildi.

«Vilayəti-Fəqih» kitabı imam Xomeyninin başqa əsərləri kimi şah rejimi tərəfindən qadağan edilmişdi və hətta bir çoxları bu kitabı mütaliə etdiklərinə görə zindana salmışdılar.

«SAVAK»[1]-ın təzyiqlərinə baxmayaraq kitabda fiqhi əsaslarla izah edilən islam hökuməti ideyası müsəlmanların arasında geniş yayıldı və 15 xordad qiyamıın habelə imam Xomeyni hərəkatının ən mühüm amalları kimi çıxış etdi. Fəqihlər vilayəti-fəqih barəsində yeri gəldikcə bəziləri qısa şəkildə, bəziləri isə təfsilatla söz açmışlar. Amma keçmiş əsrlərdə yaşayan fəqihlərin kitablarında bu mövzu ətrafında kamil və əhatəli bəhs edilmişdir. Ələbəttə, bunun səbəbi müsəlman ölkələrinin keçmişdə siyasi və ictimai şəraiti və zülmkar hökumətlərin istilası idi ki, bu kimi mövzulardan söz açılması imkan verilmirdi. Eyni halda ilə fəqihlərinin vilayəti-fəqihin ixtiyarları barədə nəzərlərinin müxtəlifliyinə baxmayaraq

[1] «SAVAK» adı ilə məşhur olan şah rejiminin «təhlükəsizlik təşkilatı» 1336-cı ildə Məhəmməd-Rza şahın fərmanı ilə təsis edildi. «SAVAK» müsəlman mübarizlərini və rejimə müxalif qüvvələri tapdalamaq məqsədi ilə yaranmışdı və MKİ (Mərkəzi kəşfiyyat idarəsi) və «MOSSAD» (İsrailin təhlükəsizlik təşkilatı) ilə əməkdaşlıq edirdi. «SAVAK»-ın zindana salınmış siyasi məhbuslara işkəncə verməkdə rəhimsizliyi bir həddə çatmışdı ki, Beynəlxalq əfv təşkilatının baş katibi 1354-ci ildə elan etdi ki, İran Bəşər huquqlarını pozmaqda dünyada birinci yeri tutur.

hamısı cameüş-şərait olan fəqihin hakimiyyətinə həmrəydirlər. Son vaxtlar vilayətə aid fəqihlərin görüşləri bir sıra kitablarda toplanmışdır.

Əldə olan qaynaqlar rəhmətlik Ayətullah Molla Əhməd Nəraqi (Qacar dövrü alimlərindəndir) «Əvaidül-əyyam» əsərində başqalarından kamil və geniş şəkildə bu mövzudan söz açmışdır. O, ümumiyyətlə sübut etmişdir ki, «Qeybət əsrində» fəqih iki halda vilayətə malikdir:

1- Peyğəmbər və imamların (ə) ixtiyarı və vilayətləri (hakimiyyəti) olan işlərdə, şərh dəlilə müstəsna edilən işlərdən başqa...

2- Allah bəndələrinin dini və dünyəvi işləri ilə bağlı fəaliyyətində.

Sonra fəqihlərin vilayətinin on qism işinə və vəzifəsinə işarə edir, o cümlədən: Fətva (fitva) vermək, ilahi hüdudu (qanunları) həyata keçirmək, yetimlər, dəlilər və qaib olanların (itkin düşənlərin) malını qoruyub-hifz etmək, məsum inamın malına yiyələnmək və s.

Alim bu səhəni ayələr, rəvayətləri və fiqhi sübutlara istinad edərək təfsilatla araşdırmışdır.[1]

Rəhmətlik Nəraqinin sözlərindən «vilayəti-fəqih» - dedikdə höküməti də nəzərdə tutduğu məlum olur. Amma bu barədə geniş və açıq bəhs etməmişdir.

Nəraqidən sonra imam Xomeyni həzrətləri yeganə fəqihdir ki, başqa fəqihlər kimi, bu mövzudan söz açdıqdan əlavə, vilayəti-fəqihi həmən hökümət mənasında götürüb birinci dəfə olaraq geniş və ətraflı şəkildə söz açılmışdır. Dediyimiz kimi İmam həzrətləri vilayəti-fəqih bəhsini bir dəfə şifahi surətdə 13-iclasda Nəcəfdə tədris etmişdir ki, əlinizdəki kitab o dərslərin redaktə olunmuş şəkilidir. Bir dəfə də beş cildlik «Əlbəy»[2] kitabının ikinci cildində həmin tərzdə bəhs etmişdir.

İmam Xomeyni «Vilayəti-fəqih» kitabında «vilayət» mövzusunu çox mühüm bir mövzu kimi qeyd edərək vilayətinin hökümət və siyasi yönlərini daha ətraflı araşdırmışdır. Bu sahədə bu kimi mühüm islami mövzunun etinasızlığa uğramasının ictimai və siyasi amillərini açıqlayandan sonra fiqhi dəlillərə (sübutlara) əsaslanaraq fəqihin hökümət qurması üçün təcrübi yolları və proqramlarını irəli sürür.

İmam həzrətləri əvvəlcə düşmənlərin islamı məhv etmək planlarına işarə edir və aydın sübutlarla onların «islam texnika və elm əsrində cəmiyyəti idarə etməyə qadir deyil» və ya «islamın hüquq qaydaları cəmiyyətin problemlərini həll etməkdə zəifdir» kimi şübhələrinə cavab verir və göstərirki, düşmənlərin zəhərli təbliğatı dinin siyasətdən

---

[1] «Kitabül-bəy» cild 2, səh. 459-501, İsmailiyan nəşriyatı, Qüm.
[2] Həmin mənbə.

ayırmasına lazımi şərait yaratmaq üçün din elmləri hövzələrində də təsir etmişdir. İmam Xomeyni daxili nöqsanlara və yeni sivilizasiyanın qarşısında özünü itirib özünə yad qalmağa işarə edərək şəriət tələblərini, müsəlman mütəfəkkirləri xəbərdar edir ki, tam ciddiyətlə öz siyasi və ictimai vəzifələrinə əməl edib bu kimi məkrli planlara və şübhələrə uymasınlar. Ona görə ki, islam maddi inkişaf və sivilizasiya ilə müxalif deyildir. İctimai problemlərin həlli üçün etiqadi və əxlaqi yollar vardır. İslam kamil bir din kimi bütün problemlərin uğurlu həllinə qadirdir. Amma bu, alim şəxslərin və ziyalıların səyini də tələb edir.

İmam Xomeyni Peyğəmbər-Əkrəmin xəlifə təyin etməsinə işarə edib bu məsələni qaldırır ki, xəlifə əhkamı bəyan etmək üçün xəlifəliyəmi seçilmişdir? Məgər əhkam söyləmək üçün xəlifə lazımdır? Xəlifə hökümət, qanun-qaydaları həyata keçirmək üçündür. Əsas məsələ budur ki, biz islami hökümətin yaranması zəruriliyinə inanaq, belə olan halda xəlifənin vəzifəsi məlum olacaqdır.

İmam həzrətləri islam hökümətin bərpa edilməsinin zəruri olduğunu bir sıra dəlilllərlə göstərir:

1- Peyğəmbərin hökümət yaratması;

2- İlahi əhkamın həyata keçirilməsinin daimi olması;

3- İslam qanunlarının mahiyyətcə hökümət olmadan həyata keçirilməsinin qeyri-mümkünlüyü: Maliyə, müdafiə, huquqi və cəza qanunları kimi.

İmam Xomeyni islam hökümətinin zəruriliyini sübut etdikdən sonra «Bəni-Ümeyyə» dövründən başlanıb və «Bəni-Abbas» dövründə də davam edən bu əsasdan yayınmanın keçmişinə işarə edir. İmam Xomeyni həzrətləri təkid edir ki, bu vəziyyəti dəyişdirmək üçün qiyam etməyi əql həm də şəriət lazım bilir. Demək siyasi bir inqilab lazım gəlir. Həm tağut hökümətini aradan qaldırmaq, həm islam höküməti üçün şərait yaratmaq, həm də müxtəlif xarici və daxili amillər təsirində təfriqədə olan ümmətdə birlik yaratmaq lazımdır. İmam Xomeyni sonra Fəzl ibn Şazandan hökümət haqqında bir sıra rəvayətlər misal gətirir.

«Vilayəti-Fəqih» kitabının mühüm bir hissəsi islam höküməti ilə başqa hökümətlərin arasındakı fərqlərə həsr edilmişdir və bu məsələyə toxunulmuşdur ki, islami höküməti bir növ məşrutə hökümətdir, islam qanunlarına bağlıdır. Buna əsasən İmam Xomeyninin fikrincə qanunvericilik orqanlarını başqa hökümətlərdə olduğu kimi deyil, islam hökümətləri cərçivəsində müxtəlif təşkilatlar, nazirliklər və icra orqanları üçün proqram müəyyənləşdirir...

İmam Xomeyni həzrətləri sonra hakimin (rəhbərin) xüsusiyyətlərinə işarə edir və deyir: «Hakim əql və müdriklik kimi ümumi şəraitdən əlavə olaraq iki əsas şərtə də malik olmalıdır: qanun bilmək və ədalətli olmaq».

İmam Xomeyni daha sonra əlavə edir: «İmam Zamanın qaib olduğu məsələsi bir tərəfdən, digər tərəfdən islam əhkamının həyata keçirilməsinin zəruriliyi və əhkamı həyata keçirmək üçün Allah-Təala tərəfindən bir şəxsin təyin olmadığı dövrdə vəzifə ola bilər?»

İmam Xomeyni həzrətləri bunu araşdırdıqdan sonra belə nəticəyə gəlir: «Allah İslamın ilk dövründən Həzrət İmam Zamanın qeybətinə kimi olan hökümət xarakterini qeybət dövründən sonrakı dövrlərə də aid olduğunu bildirmişdir. Elm və ədalətdən ibarət olan bu xarakterlər bizim əsrimizdə olan bir çox fəqihlərdə mövcuddur. Əgər fəqihlər birləşsələr, dünyada ədalət hökümətini yarada bilərlər».

Sonra əlavə edir: «Vilayəti-Fəqih» əslində «etibari» bir mövzudur, Peyğəmbər və İmamların cəmiyyəti idarə etməkdə malik olduqları ixtiyar və məsuliyyətlərə (vəzifələrə) eləcə cümlə şəraitə malik olan fəqih də malikdir. Bu vilayətin əslində «Cəldən» başqa bir həqiqəti yoxdur və öz-özlüyündə bir məqam olmayıb, fəqət əhkamı icra etmək üçün bir vizifədir».

İmam həzrətləri sonra hökümətin mütərəqqi məqsədlərinə və hakimin lazımi xislətlərinə işarə edərək rəvayətlərə əsaslanaraq fəqihin hökümətə rəhbərlik etməsinə dair sübutlarını göstərir.

Kitabın son hissəsi ilahi məqsədə çatmaq uğrunda uzun mübarizə aparmaq üçün proqramlaşdırma işinin zəruriliyinə həsr edilmişdir. İmam bu hissədə əvəl təbliğat, təlim işlərinə, onların əhəmiyyətinə işarə edir və deyir: «İctimai təşkilatlar və qurumlar bu iki işin xidmətində olmalıdır. Aşura kimi əməl etmək lazımdır. Elə iş görmək lazımdır ki, islam höküməti qurmaq üçün dalğalar yaransın və yığıncaqlar bərpa edilsin, tezlikdə nəticə verəcəyini gözləməyək, uzun bir mübarizə üçün hazırlanmaq gərəkdir (lazımdır)».

Təlim-tərbiyə işlərinə başlamaq hövzələri islah etmək, müstəmləkəçilik əxlaqiyyat məfkurəsini aradan qaldırmaq, yalançı müqəddəsləri islah etmək, dini hövzələri saray axundlarından təmizləmək, zülmkar höküməti aradan qaldırmaq üçün təcrübi işlərə başlamaq və s. kitabın son hissəsində araşdırılan mövzulardandır.

Oxucuların diqqətini bu məsələyə cəlb edirik ki, İmam Xomeyni öz ilahi qiyamını Allahın inayəti (yardımı) və xalqın 22 bəhməndə birliyi nəticəsində İranda şahlıq büsatını pozub, islam cümhuriyyəti təşkil

edilməsi ilə nəticəyə çatdıqdan sonra, İranın ümumxalq istəyinə və islam əsas qanununa əsasən islam inqilabı rəhbəri kimi müsəlman cəmiyyətinin hidayət və rəhbərliyini öhdəsinə götürdü. Buna əsasən əsası bu kitabda göstərilən İmam Xomeynin vilayəti-fəqih sahəsində baxışlarını dəqiq öyrənmək o zaman kamil şəkildə ola bilər ki, onun cəmiyyətə rəhbərlik etdiyi dövrdə onun əməlinə, vilayəti-fəqih və ixtiyarlarının məhdudəsi barədə irəli sürdüyü görüşlərinə və bu mövzuya toğunduğu nitqlər, pəyamlar, müraciətlər və məktublarına düzgün diqqət edilsin.[1]

«Pərvərdigara! Zülmkarların əlini müsəlman ölkələrdən üz! İslam və müsəlman ölkələrə xəyanət edənlərin kökünü kəs! Müsəlman ölkələrin başçılarını ağır yuxudan oyat ki, xalqların xeyrinə işləsinlər və şəxsi ixtilaflardan əl çəksinlər. Gənc nəslə, din və universitet tələbələrinə inayət (yardım) et ki, islamın müqəddəs məqsədləri uğrunda ayağa qalxsınlar və vahid sırada istismarçıların və onların xəbis əməllərinin caynağından xilas olmaq və müsəlman ölkələri müdafiə etmək yolunda birləşsinlər. Fəqihlər və alimləri müvəffəq et ki, cəmiyyəti ayıltmaqda və hidayət etməkdə səy göstərib islamın müqəddəs məqsədlərini müsəlmanlara, xüsusilə gənc nəslə aydınlaşdırsınlar və bununla da islam hökümətinin bərpa edilməsinə çalışsınlar».[2]

و لا حول و لا قوة الا بالله العلي العظيم

**İmam Xomeyni (r.ə) əsərlərini**
**Tənzim və nəşr edən müəssisə**

---

[1] İmam Xomeyni bu sahədə nəzər və görüşləri «rəhbərlik və vilayət İmam Xomeyni həzrətlərinin kəlam və pəyamında» adlı bir kitabında bu müsəsisə tərəfindən tənzim edilib capa hazırlanmaqdadır.

[2] Bu kitabın sonunda dərc olan dua.

# MÜQƏDDIMƏ

## Bismillahir-rəhmanir-rəhim

الحمد لله رب العالمين و صلى الله على خير خلقه محمد و آله اجمعين

## Vilayəti-Fəqih mövzusunun zəruriliyi

«**Vilayəti-Fəqih**» (Din aliminin hakimiyyəti) mövzusunun ətrafında bəhs girişmək bir sıra məsələləri irəli sürməyə imkan yaradır. Vilayəti-fəqih, o mövzulardandır ki, onun sübut edilməsinə ehtiyac yoxdur. Bu mənada ki, islam ehtiqadıyyatını və əhkamını öyrənən şəxs «Vilayəti-fəqihi» təsdiq edib onun zəruriliyini qəbul edəcəkdir. Bu gün ona xüsusi diqqət yetirmək müsəlmanların ictimai vəziyyətlərindən irəli gəlmişdir. Müsəlmanlar və din elmləri hövzələrinin indiki vəziyyətlərinin tarixi bir keçmişi var ki, ona işarə edirəm.

## İslamı əksinə təqdim etməkdə istismarçıların rolu

İslam hərakatı əvvəldə yəhudilərin yaratdığı problemlərə məruz qaldı. Ziddi-islam təbliğatları və fikri hiylələri də əvvəl onlar başladılar. Bu təbliğatlar o qədər güclü idi ki, onun indi də izləri görünməkdədir. Onlardan sonra başqa bir baxımdan yəhudilərdən daha şeytan olan qəbilələrdir. Bunlar istismarçı kimi 300 il bundan əvvəl və ya çoxdan bəri islam ölkələrinə yol tapdılar,[1] və öz istismarçı məqsədlərini üçün islamı məhv etməyə zəmin yartamaq istədilər. Camaatı islamdan uzaq salmaqla istəmirdilər ki, xristianlıq inkişaf etsin, onlar nə xristianlığa, nə də islama, inanırdılar, lakin bu müddət ərzində və Xaç müharibələri[2] əsnasında hiss etmişdilər ki, onların maddi mənfəətlərini və siyasi qüdrətlərini hədələyən

---

[1] 16-cı əsrin ortalarında, yəni üç əsr bundan əvvəl Portuqaliyalılar və onların ardınca Hollandiya, İngiltərə, Fransa və İtaliyalılar müsəlman ölkələri istismar etməyə başladılar. Əvvəl yeni kəşf edilmiş Afrika və dəniz yolları açılandan sonra isə (əlaqələri osmanlıların qüstəniyyəyə hökümət etdikləri dövrdə Avropadan kəsilmişdi) Asiya ölkələrini istismar etdilər.

[2] 11-ci və 13-cü əsrlərdə müsəlmanlarla Avropa xristianları arasında gedən müharibələr Səlib yürüşləri adlanmışdır. Orşəlimi (Beytul-müqəddəsi) müsəlmanlardan almaq üçün bu müharibələr başlandı və 8 mərhələdə baş verdi. 1096-cı miladi ildə papa II Urbanın fitvası ilə başlandı və Fransa padşahı «Lui»nin 1270-də ölümü ilə sona çatdı. Xristianlılar Xaç şəkilində qırmızı rəngli bir parçanı sağ çiyinlərinə saldıqlarına görə Səlib ordusu adlandılar.

ancaq İslam və islam hökümləridir. Müxtəlif yollarla islamın əleyhinə təbliğatlar aparırdılar. Ruhani hövzələrdə düzəltdikləri təbliğatçılar universitet, dövlət müəssisələrində olan əməllərin və istismarçı dövlətlərin xidmətində olan şərqşünasların hamısı əl-ələ verib islam mövzularını təhrif etməyə çalışdılar. Belə halda təhsil almışlardan çoxu islamı yanlış başa düşürdülər.

İslam, haqq və ədalət uğrunda mübarizə aparan şəxslərin, azadlıq və müstəqillik istəyənlərin dini olmaqla bərabər mübarizlərin və istismara qarşı duran bir xalqın məktəbidir. Amma bunlar islamı başqa cürə təqdim edib və edirlər. İslam xalqın beynində yaratdıqları nadürüst təsəvvürlərin və din hövzələrində irəli sürülən fikirlərin səbəbi odur ki, islamın inqilabı və həyatı xassəsini ondan alsınlar və qoymasınlar ki, müsəlmanlar hərəkata başlasınlar, azadlıq istəsinlər, islam əhkamının həyata keçirilməsini tələb etsinlər, səadətlərini təmin edən bir hökümət qursunlar və (nəticədə) insanlığa yaraşan yaşayışları olsun.

Məsələn onlar: «İslam kamil din deyil, yaşayış dini deyil, cəmiyyət üçün qanun-qaydaları yoxdur, hökümət sistemi və hökümət qanunları gətirməmişdir, islam heyz və nifas hökmlərindən ibarətdir, əxlaq normaları olsa da, amma yaşayış və cəmiyyəti idarə etməyə bir qüvvələri yoxdur» - deyə islamın əleyhinə təbliğat edirdilər. Onların zəhərli təbliğatları öz işini gördü. İndi sadə xalqdan əlavə elm xadimləri; istər ziyalılar, istərsə də ruhanilər islamı düzgün başa düşməyiblər. İslam haqqında səhv təsəvvürləri var. Camaat qərib bir şəxsi tanımadıqları kimi islamı da tanımırlar. Sanki İslam dünya xalqları arasında qərib (yalqız) olub. Bu gün bir nəfər islamı olduğu kimi təqdim etmək istəsə belə, camaat qəbul etməz, hətta istismarçıların nökərləri ilə dini hövzələrdə iğtişaş salarlar.

Həqiqi islamla hal-hazırda tanıdılmış islamın nə dərəcədə fərqli olduğunu bildirmək üçün diqqətinizi Quran və hədis kitablarının əhkam risalələri ilə nə dərəcədə fərqli olduğuna cəlb edirəm. İslam əhkamı və qanunlarının qaynağı olan Quran və hədis kitabları ilə indiki müctəhidlərin yazdıqları əhkam risalələri, ictimai həyatda təsir göstərmə və digər baxımdan tam fərqlidir. Quranda ictimayyətə aid olan ayələr ibadətə aid olan ayələrdən yüzdə 99-dəfə çoxdur, (ibadi ayələr isə yüzdə bir də belə olmaz) 50 kitabdan ibarət[1] olan hədis kitablarından üç-dörd

[1] Fiqh və hədis terminində «kitab» bir mövzuya aid cəm olan hədislərə ya bir mövzuya aid olan hökmlərə deyilir. Misal üçün «kitabüt-tövhid», «kitabül-iman vəl-

kitab ibadətə aiddir, bir qismi əxlaq normaları, qalanları isə ictimaiyyət, iğtisadiyyat, hüquq və aiyasət sahəsindədir.

Siz gənc nəslsiniz və inşallah islama faydalı olacaqsınız. Mənim müxtəsərcə dediyim siz özünüz tam ciddiyətlə izləyəcəksiniz. Özünüz hər necə məsləhət görürsünüz yazılı ya şifahi şəkildə camaatı ayıldın; deyin ki, islamın başına nələr gəlib və indi nə kimi düşmənləri və dərdləri var. Qoymayın islamın həqiqət və mahiyyəti gizli qalsın. Qoymayın islamı inhirafa uğramış xristianlıq kimi xalqla haqq (Allah) arasında olan bir din kimi qələmə verilsin. «Məscidlə» kilsə fərqlidir. O zaman qərbdə (heç nədən xəbəri olmayıb) yerli əhalilər vəhşi halında, yaşayırdı. Amerikada isə yarım vəhşi qırmızı dərililər yaşayırdılar. Roma və İranda zorakılıq, ayrıseçkilik hökm sürürdü. Orada xalq hökümətdən və qanundan xəbəri yox idi.[1] Allah-Təala Həzrət Rəsuli-Əkrəmin (s) vasitəsilə bir sıra qanunlar göndərdi ki, insan onun əzəmətinə heyran qaldı. Allah hər bir şey üçün – insanın ana bətnində yaranmasından ölüb məzara gedənə kimi qanun göndərmişdir. İbadətə aid qanun olduğu kimi ictimayyət və hökümət işlərinə də aid qanunları vardır. İslam hüququ mütərəqqi və kamil bir hüquq sistemidir. Uzaq keçmişdən «Qüəza», «Müamilə», «Hüdud»[2], «Qisas»[3], Beynalxalq əlaqələr, sülh və müharibə, ümumi və xüsusi beynalxalq hüququ islam qayda-qanunlarının bir güşəsidir (hissəsidir). Elə bir mövzu yoxdur ki, islamda ona aid qayda-qanun müəyyən olmasın.

Əcnəbilər müsəlmanları islamdan yayındırmaq üçün təlqin ediblər ki, islam heç bir xüsusiyyəti yoxdur, islam bir sıra «heyz» və «nifas» əhkəmından ibarətdir və axundlar ancaq heyz və nifasa aid qaydaları oxumalıdırlar.

Əslində həqiqət də budur. İslam dünyagörüşünü, baxım və sistemlərini tanıtmaq fikrində olmayan, əsas işləri onların dedikləri

---

küfr», «kitabüs-səlat» və s... məsələn hədis sahəsində «Üsuli-Kafi» 35 kitabı ehtiva edir və fəqih sahəsində şərayeül-islam 50 kitabı ehtiva edir.

[1] «İslam sivilizasiyası (mədəniyiyyəti) tarixi» Corci Zeydan clid 10 səh. 33, 41; «İranın ictimai tarixi» Mürtəza Rəvəndi səh. 660; «İran sasanilər dövründə» A. Kriston səh. 470, 523; «Dünya, besət dövründə» Şəhid Bahünər; Əkbər Haşimi Rəfsəncani «Roma tarixi»; Albermale və Jul İzak «Qədim kilsə tarixi Roma imperiyasında».

[2] Hədd – şəriətdə müəyyən təqsirlərə və qanuna zidd hərəkətlərə görə nəzərdə tutulmuş cəzalara deyilir.

[3] İslam fikində qisas ona deyilir ki, cinayətkar gördüyü cinayətin misli kimi qanun hökmü ilə cəzalanır, cinayətkar adam öldürsə, öldürülür, bir şəxsin üzvünü kəssə, üzvü kəsilir, yaralasa, yaralanır, cinayətə məruz qalan şəxs cinayətkarın qisasını və ya qisas əvəzinə diyə (qan pulu) ödəməsini istəyə bilər.

mövzulara (heyz-nifasa) həsr edən, islamın başqa kitablarını unudan axundlar bu kimi hücuma məruz qalmaqdadırlar. Axundlar da təqsirkardırlar, təkcə xaricilər təqsirkar deyillər. Əlbəttə, əcnəbilər öz siyasi və iqtisadi mənafeləri üçün neçə yüz il bundan əvvəl dəsisələr (hiylələr) hazırlamışlar və hövzələrin səhlənkarlığı nəticəsində müvəffəq ola bilmişlər. Hətta bizim içimizdə elə ruhanilər olubdur ki, bilməyərəkdən onlara köməklik də etmişlər.

Bəzən belə uydururlar ki, islam əhkamı naqisdir, məsələn guya: İslam «hüquqi və cəza qanunları, ya məhkəmə üsulları lazımi səviyyədə deyil» - deyirlər. Onun ardınca İngiltərənin əmələri məşrutənin əsasını oyuncaq edirdilər. Xalqı (əldə olan sübutlara görə) aldadırlar. Özlərinin siyasi cinayətlərindən qafildirlər. Məşrutənin əvvəlində əsas qanunu tənzim etmək istəyəndə Belçikanın mülki huquq məcəlləsini Belçika səfirliyindən alıb və neçə nəfər (adlarını çəkmirəm) əsas qanunu onun üzündən yazdılar. Əskiklərini də Franasa və İngiltərənin mülki huquq məcəllələrindən faydalanaraq təkmilləşdirdilər.[1] Xalqı aldatmaq üçün islam əhkamından bəzi hökmləri da ona əlavə etdilər. Səltənətə aid olan bu əsas qanunu harası islamdandır? Bunlar hamısı İslama ziddir. İslam hökümət tərzinə ziddir. İslam səltənətə qırmızı qələm çəkib onun busatını İrandan, Şərqi Roma, Misir və Yəməndə pozdu. Həzrət Rəsuli-Əkrəmin (s) şərqi Roma imperiyasına (Herakliyusa)[2] və İran padşahına[3] yazdığı mübarək məktublarında onları imperiya və padşahlıq sistemindən əl çəkməyə dəvət etmişdir, onları Allahın bəndəlrini öz pərəstişkarları hesab etməklərindən çəkindirmiş və istəmişdir ki, onları həqiqi sultana ibadət etməkdə azad buraxsınlar.[4] Səltənətə elə bir hökümət tərzi idi ki, Həzrət

---

[1] Məşrutə əsas qanunun ilk forması deputatların bir dəstəsi tərəfindən hazırlanıb 51 əsldə qərara alındı. Kəsrəvi bu barədə yazır: «Guya müşirüd-dövlə, mötəminulmülk və sədr-əzəmin oğulları onu yazırdılar, lap doğrusu tərcümə edirdilər». Ondan sonra bir komissiya təşkil edildi ki, «Əsas qanuna» «lazımı qeydlər» əlavə edilsin bu mətn 107 əsldə hazırlandı.

[2] Birinci Herqul (575-641 m.) şərqi Roma imperiyası.

[3] İkinci Xosrov Pərviz (628 m.) Sasanilər padşahı.

[4] İslam Peyğəmbəri hicrətin 6-cı ilində qonşu ölkələrin başçılarına tərəf elçilər göndərdi. Onlardan birini Əbdüllah ibn Hüzafeyi – səhmi Xosrov Pərvizi, birinidə Dühəyyət ibn Kəlbi – Roma qeysərinin sarayına göndərdi. İslam Peyğəmbəri onları islam və təkallahlığa dəvət etdi. Həzrət Xosrov Pərvizə xitabən yazdı:

بسم الله الرحمن الرحيم. من محمد رسول الله الى كسرى عظيم فارس. سلام على من اتبع الهدى و آمن بالله و رسوله، و شهد ان لا اله الله وحده لا شريك له و ان محمد عبده و رسوله. أعوذك بدعايه الله. فانى رسول الله الى الناس كافه. لانذر من كان حيان و يحق القول على الكافرين. أسلم تسلم فان ابيت، فعليك اثم المجوس

«Mehriban və bağışlayan Allahın adı ilə. Allahın Rəsulu Məhəmməddən Pars hökmdarı Kəsraya. Salam olsun o şəxsə ki, hidayət yolunun izləyicisi ola, Allaha və

Seyyidüş-şühəda (ə) ona qarşı çıxdı və nəhayət bu yolda şəhid edildi. «Yezidin[1] vəlihədliyini qəbul edilməsi səltənəti rəsmən tanımasın» - deyə qiyam etdi. İslamda səltənət və vəliəhdlik adında bir şey yoxdur. Əgər nöqsan budursa, bəli! İslam naqisdir. Necə ki, islamın ribaxorluq, fəhşa və çaxır satma üçün qanun-qaydası yoxdur. Ona görə ki, əslində bunlar islamda haramdır. İslam ölkələrində bu kimi işləri həyata keçirmək istəyən istismarçıların qondarma (saxta) hökümətləri əlbəttə ki, islamı naqis bilir, bunun üçün Belçika, Fransa və İngiltərədən və son vaxtlar Amerikadan qanun öyrənməli olurlar. İslamın bu kimi işlər üçün qayda-qanunu olmadığı islamın kamilliyini sübut edir və bu fəxrdir.

İngiltərə dövləti məşrutənin əvvəlində iki məqsəd görə bu planı hazırladı: Biri – vaxtı ilə aşkara çıxan Car Rusiyasının İranda nüfuzunu aradan aparmaq idi. İkincisi isə Qərbin qanunlarını İrana idxal etməklə islamı meydandan kənar etmək idi.

Əcnəbi qanunlarının islam cəmiyyətinə qəbul etdirilməsi bir çox problemlər yaratdı. Məhkəmə qayda-qanunlarından xəbəri olan şəxslər bilir ki, bir iddianın sübutu bir ömür vaxt tələb edirdi. Gənclikdə gördüyümüz bir məhkəmə vəkili deyirdi ki, iki dəstə arasında olan bir ixtilafın xitam tapacağı uğrunda bir ömr məhkəmələrə ayaq döymüşəm, məndən sonra oğlum onu davam etdirəcəkdir. Əlbəttə bəzi dosyelərə tez yetişilir. Amma haqsız olaraq hakim öz adamlarının tərəfini saxlayaraq hökm verirdilir. İndiki, məhkəmə qanunları hamımızı ancaq zəhmətə salmışdır. Adam öz huququnu əldə edə bilmir. Bir halda ki, məhkəmədə

---

Onun elcisinə iman gətirə, Allahdan başqa bir tanrının olmasına, yeganə Allah olub şəriki olmamasına inana və Mühəmməd Onun bəndəsi və elçisi olmasına şəhadət verə. Səni Allaha tərəf çağırıram. Mən Allahın bütün insanlara göndərilən elçisiyəm. İslama üz gətir ki, amanda qalasan. Əgər boyun qaçırsan məcusların günahı sənin boynunadır».

Həzrətin Herqula xitabən məktubu:

بسم الله الرحمن الرحيم. من محمد بن عبدالله الى هرقل عظيم الروم. سلام على من اتبع الهدى. أما بعد؛ فانى أعودك بدعاية الاسلام، أسلم تسلم؛ يوتك الله أجرك مرتين، فان توليت، فانما عليك اثم الاريسين.و يا أهل الكتاب تعالوا الى كلمه سواء بيننا و بينكم الا نعبد الا الله و لا نشرك به شيئا. و لا يتخذ بعضنا أربابا من دون الله. فان تولوا اشهدوا بأنا مسلمون.

Mehriban və bağışlayan Allahın adı ilə. Abdullah oğlu Məhəmməddən böyük Roma hökmdarı Herqula: «Salam olsun o şəxsə ki, hidayət yolunu izlədi. Əmma bəd (daha sonra) Mən səni islama cağırıram. İslamı qəbul et ki, amanda qalasan və Allah da sənə iki dəfə mükafat verə. Əgər boyundan qaçırsan millətinin günahı sənin boynundadır və «Ey əhli-kitab, gəlin bizimlə sizin aranızda olan kəlməyə üz gətirək. O kəlmə budur ki, Allahdan başqasına pərəstiş etməyək və ona heç bir şərik qoşmayaq və bəzilərimiz bəzimizi yeganə Allahın əvəzinə tanrı seçməsin və əgər üz cevirsələr, deyin ki, şahid olun ki, biz müsəlmanıq». «Məkatibür-Rəsul» cild 1, səh. 90 və 105.

[1] Müaviyə ibn Əbüsüfyanın oğlu Yezid (25-64 h.q) Əməvilərin ikinci xəlifəsi.

bütün qaydalara riayət etmək lazımdır. Camaatın vaxtı, yaşayış tərzi və hər iki tərəfin iş və peşələri nəzərə alınmalıdır. Vaxtı ilə hakimin iki-üç gündə öhdəsindən gəldiyyi iddialara (şikayətlər) indi iyirmi ildə bitmir. Bu müddət ərzində gənclər, qoca kişilər, hər gün məhkəməyə ayaq döyməlidirlər və nəhayətdə heç bir nəticəyə də çatmırlar. Hər kim rüşvət verməkdə cəld olsa, öz işini nahaq da olsa belə tez yola sala bilir; Yoxsa bir ömr avara qalacaqdır.

Bəzən qəzetlərdə və kitablarda yazılır ki, islamın cəza qanunları sərt qanunlardır! Hətta bir nəfər yazmışdı ki, ərəblərin əhval-ruhiyyələrinin sərtliyi baxımından bu kimi qanunlar yaradılmışdır. Mən təəccüblənirəm ki, bunlar nə üçün belə düşünürlər? Digər tərəfdən 10 qram narkotik maddədən ötrü birinin öldürülməsinin adını qanun qoyurlar (on nəfəri necə müddət bundan əvvəl və bir nəfəri də bu son günlərdə 10 qram heroin üçün öldürüblər). Bu kimi insanlığa zidd olan qanun fəsadın qarşısını alırıq deyə qərara almaq sərtlik deyildirmi? Mən demirəm ki, narkotik maddələrin satışı sərbəst buraxılsın, lakin cazası ölüm deyil, cazası ona uyğun şəkildə olmalıdır.[1] Araq içənə 80 zərbə şallaq vuranda deyirsiniz ki, sərtlikdir, 10 qram narkotik maddə üçün bir insanı öldürmək bəs nədir? Bir halda ki, cəmiyyətdə peyda olan bu fəsadların əsl mənşəyi sərxoşedici maddələri istehlak etməkdir: Təsadüflər intiharlar, adam öldürmələr və bir çox bu kimi cinayətlər spirtli içkilərdən irəli gəlir. Hətta narkotik maddələr spirtli içgilərə alışqanlıqdır, lakin çaxır içənə bir söz deyilmir, Qərbdə bu iş qadağan deyil, alıb-satması da qanuna zidd sayılmır. Amma fəsad-fəhşanın (pis işlərin) qarşısını almaq üçün araq içənə 80 zərbə şallaq vurulduqda zinakara 100 şallaq vurulduqda və evli olub zina edənə rəcm[2] edildikdə, protest olaraq dad-haray qopardırlar ki, bu nə qanundur, bunu ərəblər gətirib və i.a. Halbuki islamın cəza qanunları fəsadı (pozgunluğu) aradan aparmaq üçün tənzim edilmişdir. (Bu kafirlər) nəslləri pozan, cavanları fəsada çəkən, işləri tətilə uğradan və əyyaşlıq (arvadbazlıq) ənənəsi törədən fəsad fəhşanın isə yolunu açmış və onu yayırlar. İndi islam fəsadın qarşısını almaq üçün fasid bir adama ümumxalqın qarşısında şallaq hökm etdikdə, onu sərtlik adlandırırlar, bu sərtlikdirmi?[3]

---

[1] İmam ədalətə riayət edilməməyə etiraz edir.

[2] Cəza qanunlarında baliğ və aqil olub nigah etmiş olan bir kişi ya qadın yoldaşına əli çata bilməsi mümkün olmamaq şərti ilə zina etsə, onun cəzası rəcmdir (daşlanılır).

[3] İslam qanunlarında cinayətkarı cəzalandırarkən bir sıra möminlərin orada olması cəzalandırma ənənəsi hesab edilmişdir. Şiə fəqihləri bu ənənəni saxlayıb ona riayət etməyi təkid etmişlər. Onlar «Nur» surəsinin 2-ci ayəsinə istinad edirlər: ***«Möminlərdən***

Digər tərəfdən bunların ərbablarının əli ilə 15 ilə yaxın Vyetnamda[1] baş verən cinayətlərin və qırğınların, qat tökmələrin eybi olmur. Amma İslam bəçəriyyətin mənfəti üçün cinayətkarın cəzalandırılmasına hökm etdikdə, fəryad qoparırlar ki, bu nə işdir və s. Bu hiylələr neçə yüz il bundan əvvəl hazırlanıb və tədriclə həyata keçirilir. Əvvəlcə məktəb açdılar, biz və bizim kimilər səhlənkarlıq edib dinmədik, tədriclə artdı və indi görürsünüz ki, təbliğatçılar bizim kəndlərimizə gedir və bizim uşaqlarımızı dinsiz ya xristian ruhunda tərbiyələndirirlər.[2]

Onlar bizi gerilikdə, bizim sərvətimizi talayıb bizi yoxsulluqda və fəqirlikdə saxlamaq istəyirdilər. Onlar istəyirdilər ki, bizim yoxsullarımız eləcə yoxsul olaraq qalsınlar və yoxsulluğu aradan qaldıran islam hökümlərinə diqqət etməsinlər, onların nökərləri isə böyük saraylarda kef çəkməkdə olsunlar. Bunlar bir sıra hiylələrdir ki, dalğası din və elm hövzələrini elə bürümüşdür ki, islam hökümətindən və vəziyyətindən danışmaq istəyən şəxs təqiyyə (ehtiyatlı) ilə danışmalıdır. Neçə ki, bu kitab birinci dəfə çapdan çıxanda şahın İraqdakı səfirliyi etirazlarını bildirib və özlərini rusvay etdilər. İndi iş o yerə çatıbdır ki, əsgərlik

***bir dəstə zinakar kişi və qadının cəzalandlrmasında şahid olmalıdırlar (görməlidirlər). Bununla orada hazır olan şəxslər bu əməldən ibrət alırlar».***

[1] Vyetnam xalqı uzun illər Fransa və Yaponiya istismarçıların əleyhinə mübarizə apardıqdan sonra 1960-cı ildə Amerika ilə geniş bir müharibəyə başladı. Bu müharibə 1973-və ildə Amerika qüvvələrinin məğlubiyyəti ilə sona çatdı, lakin Vyetnam xalqına ağır zərbə və xəsarətlər dəydi. Aşağıda qeyd alınan rəqəmlər bu rəhimsiz hücumun ağırlığını və tələfatının miqdarını dəqiq göstərə bilməsə də müasir tarixdə baş verən hadisələrin açılığını göstərə bilər 1965-ci ilə qədər cənubi Vyetnamda 170 min nəfər öldürülmüş, 800 min nəfər yaralanmış, 400 min nəfər yaxalanmış və 5 min nəfər əsir alınmışdır. Amerika radiosu 1963-cü ilin yanvarında bildirmişdir ki, 1962-də Amerika hava qüvvələri 50 dəfə kəndlərə hücum etmişdir. General Hargenzimin dediyinə görə həmin ildə 30 min nəfərə yaxın kəndli həlak edilmişdir. Amerika qüvvələri ayda 30 min dəfə uçuşları olub və 2600 kənddən 1400 kənd napalm bombaları və kimyəvi silahlarla məhv edilmişdir. Qırmızı Xaç təşkilatı raport vermişdir ki, cənubi Vyetnamda zəhərli maddələrdən ən çox əhalisi olan yaşayış məntəqələrində istifadə edildiyinə görə yerli əhalilər müxtəlif dəri xəstəliklərinə tutulmuşlar. Mal-heyvan sürüləri qırılmış, ağaclar və əkin sahələri aradan getmişdir.

[2] İrana 1835-də göndərilən ilk misioner Caltin Perginz və İzahil Qrant keşişlərinin başçılıq etdiyi bir heyət idi. 1932-də Ürmiyədə ilk məktəbi açdılar və 1255-də İran şahının himayəsini qazana bildilər. «Sonralar İranın şimal və qərb məntəqələrində Amerikalılar və başqa yerlərdə İngilislər fəaliyyətə başaldılar», 1871-də İranda 48 mərkəz təsis etdilər. Misionerlərin mərkəzi Tehran, Təbriz, Həmədan və Səlmas idi. Amerikanın misionerlərinin fəaliyyəti çox geniş idi. Misionerlər 230 yerli əhaliyə, 25 kilsə, 4578 məzhəbi mərasimi, 208 məktəbli və 1680890 səhifə qəzetə rəhbərlik etmiş, 1910 dollar yardım almışdılar.

«İran-Amerikanın siyasi əlaqələri», Abraham mürtərcim Aram.

geyimini ədalət və mürrüvvətə xilafını bilirlər.[1] Halbu ki, bizim imamlarımız əsgər, sərdar və hərbi rəhbər olub, müharibələrdə hərbi geyimlə iştirak etmişlər, onlar müharibədə düşməndən bir çoxunu öldürüb, özlərindən də şəhidlər vermişdir. Həzrət Əmir mübarək başına «dəmir papaq» qoyub zireh geyərdi və qılınc həmayil edərdi. Həzrət İmam Həsən və İmam Hüseyn də onu yolunu davam etdirdilər. Lakin sonrakı imamlara imkan yaranmadı, yoxsa imamların hamısı bu xüsusiyyətlərə malik idilər. İndi iş o yerə çatıbdır ki, əsgərlik (hərbi) geyim geymək ədalətə zidd bir hərəkət sayılır. İslam höküməti təşkil etsək elə həmin don-əba ilə təşkil verməliyik, yoxsa mürüvvət və ədalətə zidd bir hərəkət olar. (İmam Xomeyni (r.ə) bu sözləri tənz kimi söyləyib) Bunlar həmən təbliğatın dalğasıdır ki, biz sübut etməliyik ki, islam bütün hökümət qayda-qanunlarına malikdir.

Budur bizim vəziyyətimiz! Xaricilər təbliğatla bu vəziyyəti yaratmışlar. İslamın siyasi və məhkəmə (cəza) qanunlarını kənara qoyublar, onun yerinə isə Avropa qanunlarını rəhbər tuturlar ki, islamı kiçiltsinlər və cəmiyyətdən kənar etsinlər.

## Qərbin maddi (texniki) inkişafı mərlhələsi qarşısında cəmiyyət üzvlərinin vəziyyəti

İstismarın təxribatçı və fasidedici rolunu dedik və indi daxili amilləri əlavə edirik. O da istismarçıların maddi tərəqqiləri qarşısında özünü itirməkdir. İstismarçı ölkələr elmi, texniki inkişafla yaxud Asiya və Afrika xalqlarını qarət etməklə onların sərvətli olmalarını gördükdə bunlar özlətini itirdilər, belə düşündülər ki, texnika sahəsində inkişaf etmək üçün öz qanun və etiqadiyyatları kənara qoyulmalıdır! Onlar Aya getdikdə bunlar özlərinə yad qalıb xəyal edirlər ki, (inkişaf etmək üçün) öz qanunlarından əl çəkməlidirlər. Aya getməyin islam qanunlarına nə dəxli var?!

Məgər görmürsünüz ki, müxtəlif ölkələr ziddiyyətli qanunlarla texnika və elmi inkişafa çatmışlar və irəliyirlər. Onlar Merkuri planetinə, kəhkəşanlara getsələr belə yenə əxlaqiyyat, səadət və ruhi yüksəklik

---

[1] Ədalət elə bir daxili qüvvədir ki, insanı haram işləri tərk etməyə və vacib işləri görməyə vadar edir. Ədalət qazi, imam-camaat və müftinin şərtlərindəndir, mürüvvət isə yaxşı işləri izləyib pis işlərdən uzaq olmaqdır. «Şərh-lümə» kitabının haşiyəsində camaat namazı bəhsində əsgərlik paltarı geymək ədalət və mürüvvətə zidd bir hərəkət kimi qeyd edilmişdir.

baxımından acizdirlər və ictimai problemlərini həll edə bilmirlər. Ona görə ki, ictimai problemləri həll etmək üçün etiqadi və əxlaqi yollar lazımdır, maddi qüdrət, sərvət toplamaq onları həll edə bilməz. Sərvət, qüdrət imana möhtacdır ki, kamil olub insanın qulluğunda olsun. Buna əsasən biri bir şey düzəltməklə biz öz dinimizdən, bəşər həyatı və bəşərin dünya və axirəti ilə əlaqədar olan qanunlarından əl çəkək.

İstismarçılar bizim düşmənlərimizdirlər, onlar təbliğat aparmaqla cəmiyyətdə təsir buraxmışdılar. İstismarçılar belə təbliğat apardılar ki güya islamda hökümət təşkilatları yoxdur. Aydındır ki, bu təbliğat müsəlmanları siyasətdən uzaq saxlamaq üçün istismarçıların hiyləsidir. Bu söz bizim etiqadiyyatımızın ziddindəndir.

Biz «Vilayətə» inanırıq və inanırıq ki, özünə xəlifə seçməli idi və seçibdir də.[1] Xəlifə təyin etmək əhkam söyləmək üçündürmü? Axı əhkam söyləmək üçün xəlifəyə ehtiyac yoxdur. O Həzrət özü əhkam deyirdi, əhkamı bir kitabda toplayıb hamıya çatdırıla bilərdi. Əql baxımından xəlifənin müəyyən edilməsinin vacibliyi hökümət məsələsidir. Qanun icra etmək üçün xəlifə lazımdır. Qanun icra orqanı lazımdır. Bütün ölkələrdə qanunvericiliyin təklikdə faydası yoxdur, bəşər səadətini təmin edə bilməz. Qanunvericilikdən sonra orqanları yaratmaq lazımdır. Bir hökümət icraiyyə qüvvələri olmasa ona nöqsanlıqdır. Buna əsasən islamda icra orqanı da yaranmışdır. Peyğəmbər xəlifə təyin etməsə "ما بلغ رسالته"[2] risalətini çatdırmamış olur. Əhkamın icrasının və icra orqanlarının olmasının zərurəti və onun risalətin reallaşmasında və bəşər səadətinə səbəb olan ədalətli sistemin yaranmasında ifa edəcəyi rolun əhəmiyyəti canişin və xəlifə təyin etmək risalətin tamamlanması ilə eyni olmasına səbəb olmuşdur.

## Hökümət təşkil edilməsinin zəruri olmasına inanmaq rəvayətin bir hisssəsidir

---

[1] Peyğəmbər müxtəlif vəziyyətlərdə Həzrət Əlinin xilifəliyinə təkid etmişdir. O cümlədən Yovmud-dar hədisində, Mənzilət və səqəleyn hədislərində, Vilayət ayəsində, Qidir-Xumda... [«Tarixi Təbəri», «Sireyi-ibn Hişam», «Əlqədir» Əllamə Əmini Təbrizli, «Maidə» surəsi, ayə 55, 67; «Təfsiri-kəbir»]

[2] «Maidə» surəsi, ayə 67.

Həzrət Rəsulun zamanında təkcə qanunu söyləmirdilər, icra da edirdilər. Rəsulullah özü qanunu icra edirdi. Məsələn cəza qanunlarını icra edir, oğrunun əlini kəsir, hədd vurub rəcm edirdi.[1] Xəlifə də bu işləri körməlidir. Xəlifə qanunverici qüvvə deyil, Allahın əhkamını icra etməlidir. Belə halda hökümət təşkil etmək və icra orqanları yaratmaq lazım gəlir. Hökumət təşkil etməyə icra orqanları və idarə dairələri yaratmağa inanmaq vilayətin bir hissəsidir. Necə ki onun üçün mübarizə aparmaq vilayətə inanmaqdır. Yaxşı diqqət edin. Onlar islamı pis tanıtdırdıqlarına rəğmən siz də islamı olduğu kimi təqdim edin. Deyin ki, biz vilayətə inanırıq və bilirik ki, Həzrət Rəsul xəlifə müəyyən edib və Allah onu vadar etmişdir ki, xəlifə təyin etsin. Hökumətin təşkil edilməsinin zəruriliyinə inanmalıyıq və səy etməliyik ki, icra orqanları yaransın. İslam hökumətinin təşkil edilməsi yolunda mübarizə aparmaq vilayətə inanmağı tələb edir. Siz islam qanunlarını və onu ictimai təsirlərini yazıb nəşr edin. Təbliğat işinizi təkmilləşdirin. Diqqət edin ki, siz İslam hökümətı qurmalısınız. Özünüzə inanın, bu işi şübhəsiz ki, görə biləcəksiniz. İstismarcılar 300-400 il bundan əvvəl nə yaratdılar? Onlar sıfırdan başlayıb buraya çatıblar. Biz də sıfırdan başlamalıyaq. Qərbə uyan bir neçə şəxsin hay-küyündən qorxmayın. İslamı xalqa yaxşı tanıtdırın. Qoy gənc nəsl belə təsəvvür etməsin ki, axundlar Nəcəf və Qumda heyz və nifas əhkamı oxuyur, siyasətə qarışmırlar. Siyasət dindən ayrı deyil. «Siyasət dindən ayrıdır və islam alimləri siyasətə qarışmamalıdırlar» - kimi sözləri istismarçılar yaymışlar, bunu dinsizlər deyir. Məgər Peyğəmbər zamanında siyasət dindən ayrı idi? Məgər o vaxtda bir dəstə ruhani və digər bir dəstə siyasətçi idini? Məgər haqq ya nahaqq xəlifələr vaxtında, Həzrət Əmir vaxtında siyasət dindən ayrı idimi? Bu sözləri istismarçılar və onların tabeliyində olanlar düzəldiblər ki, dini dünya işlərinə qoşulmaqdan və müsəlmanların cəmiyyətlərini tənzimata salmaqdan saxlasınlar və islam alimlərini də xalqdan və azadlıq yolunda mübarizə aparanlardan ayırsınlar. Belə olduqda xalqa istila tapıb sərvətlərini oğurlaya bilərlər. Onlar bunu istəyir.

Əgər müsəlmanlar namaz qılmaq, dua və zikr etməkdən başqa bir işimiz olmasa istismarçılar və onlara birləşən zülümkar dövlətlərin bizimlə heç bir işləri olmaz, sən get hər nə qədər azan deyirsən de, namaz qılırsan qıl, qoy hər nəyimizi aparsınlar, biz oturaq dinməyək. « لا حول ولا

[1] «Vəsalüş-şiə» çild 18, səh. 376, 509.

«قوّة الا بالله» öləndən sonra bizə əcr verəcəklər. Bizim məntiqimiz bu olsa bizimlə işləri yoxdur. O nakişi (İngiltərənin İraqı işğal etdiyi hərbçi) soruşdu ki, minarədən azan verən şəxs İngiltərə siyasətinə bir ziyan yetirərmi? Dedilər yox. Dedi: Qoy hər nə qədər istəyir baxırsın! Siz istismarçıların siyasəti ilə bir işiniz olmasa və islamı həmin bəhs etdiyimiz əhkama məhdud bilib ondan kənara çıxmasanız sizinlə işləri yoxdur. Siz istədiyiniz qədər namaz qılın, onlar sizin neftinizi istəyirlər, namazınızla işləri yoxdur! Sizin ölkənizi öz istehsalatlarına bazar etmək istəyirlər. Həmin səbəbə görə də onların əlləri ilə iş başına gələn hökümətlər bizim texnika sahəsində inkişaf etməyimizin qarşısını alırlar və ya asılı və montaj sənaye düzəldirlər. Onlar istəyirlər ki, biz adam olmayaq. Onlar adamdan qorxurlar, bir adam peyda olsa, ondan qorxurlar ona görə ki, çoxalıb zülm və istismarın əsasını poza bilərlər, ona görə də adamları öldürür, dustaq edir ya sürgün edirlər və ya «siyasi» təqsirlə təqsirləndirib boğurlar. Peyğəmnər siyasətçi idi. Bu səhv təbliği istismarcıların əməlləri edirlər ki, sizi siyasətdən uzaq saxlasınlar, ictimai işlərə qoşulmağınızın qarşısı alınsın və qoymasınlar xain dövlətlər və onların ziddi-islam, xalqa zidd olan siyasətləri əleyhinə mübarizəyə girəsiniz və onlar hər nə qələt dartırlar, dartsınlar (hər nə iş görmək istəsələr, görsünlər) və bir kəs olmasın ki, onların qarşısında durdun.[Onlar belə bir şərait yaratmaq istəyirlər].

## BİRİNCİ HİSSƏ

## İSLAM HÖKÜMƏTİNİN QURULMASININ ZƏRURİLİYİ:

## Qanunu həyata keçirmək üçün icra orqanlarının olmasının vacibliyi

Qanun məcəlləsi cəmiyyəti islah etmək üçün kifayət deyil. Qanun bəşərə səadət yaradıb, bəşəri islah etməsi üçün onu həyata keçirən bir şəxs lazımdır. Buna əsasən Allah-Təala qanun məcəlləsi, şəriət hökmləri yanında bir hökümət sistemi və idarə yaratmışdır.

Həzrət Rəsuli-Əkrəmin (s) icra işlərinin və müsəlman cəmiyyətinin sədri idi. Vəhyi çatdırıb etiqadiyyat və hökümləri təfsir etməkdən əlavə islam hökümlərini həyata keçirməklə İslam dövlətini qurmuşdur. Onda da cəza qanununun bəyan edilməsinə kifayət edilmirdi, hətta onunla yanaşı onu icra da edirdi. Hədd vurur, əl kəsir və rəcm edirdi. Həzrət Rəsuldan (s) sonra xəlifənin vəzifəsi bu idi. Həzrət Rəsul (s) təkcə ediqadiyyat və hökmləri bəyan etmək üçün deyil, qanunları həyata keçirmək üçün xəlifə təyin etdi. İslam sistemini bərpa etmək və hökümləri həyata keçirmək üçün xəlifə təyin etmək məsələsi o dərəcədə mühüm idi ki, onsuz Həzrət Peyğəmbər öz risalətini tamamlaya bilməzdi. Ona görə ki, müsəlmanlar Həzrət Rəsuldan (s) sonra da axirət və dünya səadətlərinin təyin edilməsi üçün qanunları həyata keçirə bilən və İslam sistemini qura bilən şəxsə möhtac idilər.

Əslində qanun və ictimai sistemlər üşün icra hakim lazımdır. Bütün ölkələrdə belədir ki, sırf qanunvericiliyin faydası yoxdur. Sırf qanunvericilik bəşər səadətini təmin edə bilmir, qanunvericiliyin ardınca icra orqanı təşkil edir. İcra orqanları qanunları və məhkəmə hökümləri icra etməlidir. Buna əsasən islamın qanunvericiliyi olduğu kimi icra orqanı da var. Vəliyyi-əmr icra orqanın baş sədridir.

## Hökümət təşkil etmək Peyğəmbəri sünnəsidir (üslubudur)

Peyğəmbərin sünnəsi və üslubu hökümət təşkil etməyin zəruriliyini subut edir. Ona görə ki, əvvala özü hökumət qurdu və tarixdə vardır ki, qanunları icra etmiş, islam sistemini bərpa etməklə cəmiyyəti idarə etmiş, ətraf ölkələrə vali göndərmiş, qəzavət etmiş və qazi müəyyən etmişdir. Qəbilə başçıları və padşahlarının yanına elçilər göndərmiş, müqavilə bağlamış, müharibədə komandir olmuş və bir sözlə hökumətliyə aid ali qanunları həyata keçirmişdir. İkincisi, özündən sonra üçün Allahın əmri ilə hakim müəyyən etmişdir. Allah-Təala tərəfindən Peyğəmbərdən

sonrakı nəsil üçün hakim təyin edilməsinin mənası budur ki, Həzrət Rəsulun (s) vəfatından sonra da hökümət lazımdır və Həzrət Rəsul öz vəsiyyəti ilə ilahi göstərişi bəyan etdikdə hökümətin təşkilinin zəruriliyini göstərir.

## İslam qanunları həmişə həyata keçirilməlidir

Aydındır ki, hökümləri həyata keçirməyin zəruriliyi təkcə o Həzrətin zamanına aid deyildir, o Həzrətin vəfatından sonra da davam edir. Ayeyi-şərifəyə əsasən İslam hökümləri xas bir zaman və məkana həsr olmur və əbədi olaraq qalmalı və icra edilməlidir. Bu hökmlər yalnız Həzrət Rəsulun zamanına aid deyildir ki, ondan sonra tərk edilsin və məsələn daha hüdud və qisas hökmləri (cəza qanunları) icra edilməsin, ya müəyyən vergilər alınmasın, yaxud ölkəni və ümməti müdafiə etməkdən çəkinilsin. «İslam qanunları müəyyən bir zaman məkana aidir» - sözü İslam etiqadiyyatına ziddir. Buna əsasən Həzrət Rəsuldan sonra hökmləri həyata keçirmək əbədi olaraq zəruri olduğuna görə hökümət təşkil etmək və idarə sistemi yaratmaq da zəruridir. Hökümətsizlik və idarəsizlik anarxizmə dönüşdür. İctimai, əxlaqi və etiqadi fəsad yaradar. Deməк anarxizmdən qaçmaq üçü hökümət və idarəçilik lazımdır.

Buna əsasən şəriətə, əqlə görə Həzrət Rəsul və Həzrət Əli ibn Əbutalib zamanında zəruri olan hökümət və icra orqanı, o Həzrətlərdən sonra da zəruri və lazımdır.

Mətləbi aydınlaşdırmaq üçün soruşmalıyıq ki, Həzrət Sahibəzzamanın kiçik müddətli qeybətindən[1] indiyə kimi 1000 ildən çox keçir, bəlkə 100 min il bundan sonra da Həzrətin qeybəti davam edəcəkdir və Həzrətin zuhur etməsi məsləhət olmayacaq. Belə olan halda bu uzun müddət ərzində islam hökmləri tətil edilməlidir, yoxsa həyata keçirilməlidir? İslam Peyğəmbərinin o hökmlərini təbliğ etmək, izah etmək və həyata keçirmək üçün 23 il ağır əziyyətlərə qatlaşdı, görəsən Peyğəmbər həzrətləri bu hökmləri məhdud bir müddət üçün gətirmişdir? Görəsən Allah öz göndərdiyi hökmlərin həyata keçirilməsini ancaq ilk iki yüz il üçün əmr etmişdir? İslam kiçik müddətli qeybətdən sonra hər şeyi buraxmışdırmı?

---

[1] Şiələrin on ikinçi imamı Həzrət hüccəti ibn Həsən 260 h.q ildə gözlərdən qaib oldu. O vaxtdan 329 h.q ilə kimi dörd nümayəndəsi vasitəsilə ilə camaatla əlaqə olubdur. Bu müddətə «kiçik müddətli qeybət» adı vermişdir. Bu qeybətən sonra Həzrətin uzun müddətli qeybəti başladı.

Buna etiqad etmək İslamın köhnəlməsini iddia etməkdən daha pisdir. Heç kəs deyə bilməz ki, İslamın ərazi bütövlüyünü və sərhədlərin müdafiə etmək lazım deyildir! Heç kəs deyə bilməz ki, bu gün «Cizyə»[1], «Xərac»[2], «Xums»[3], «Zəkat»[4] almaq lazım deyildir. Heç kəs deyə bilməz ki, İslamın cəza qanunları (qisas, diyə) kənara qoyulmalıdır. Hər kəs İslam hökümətinin qurulması zəruriliyini inkar etsə, İslam hökmlərini həyata keçirilməsi zəruriliyini və nəticədə İslamın kamil və əbədi bir din olmasını inkar etmiş olar.

## Həzrət Əli ibn Əbutalib tutduğu mövqe

Həzrət Rəsuli-Əkrəmin vəfatından sonra müsəlmanlardan heç bir nəfər hökumətin lazım olmasına şübhə etmədi.

Heç kəs demədi ki, hökumətə ehtiyac yoxdur. Heç kəsdən belə bir söz eşidilmədi. Hökumətin qurulmasında hamı həmrəy idi. İxtilaf ancaq hökumətə başçılıq edəcək şəxsin haqqında idi. Buna əsasən Həzrət Rəsuli-Əkrəm (s), xəlifələr və Həzrət Əli (ə) dövründə də hökumət quruldu. Dövlət dairələri, təşkilatları işə başladı.

## İslam qanunlarının mahiyyəti

Hökumətin təşkl edilməsi zəruriliyinə digər bir sübut da İslam qanunları – şəriət hökümlərinin mahiyyət və keyfiyyətidir. Bu qanunların mahiyyət və keyfiyyəti göstərir ki, bir dövlət yaratmaq cəmiyyətin siyasi, iqtisadi və mədəni idarəsi üçün qərara alınmışdır.

**Əvvəla:** Şəriət hökmləri bir sıra rəngarəng qanun və qaydaları ehtiva edir ki, bu da bir ictimai sistem yaradır. Bu hüquq sistemində, bəşərin hər bir ehtiyacı ödənilmişdir. Qonşu ilə davranmaq, övlad, qohumlar,

---

[1] Əhli-kitabın İslam hökümətinə verdiyi vergiyə cizyə deyilir.

[2] İslam hökümətinin torpaq sahiblərindən aldığı vergiyə deyilir.

[3] İslamda ödənilməsi vacib olan vergilərdən biri də xumsdur ki, 7 şeyə əlaqə bağlayır: 1-Hərbi kafirlərlə müharibədən alınan qənimətlər; 2-mədənlər - yer altı sərvətlər; 3-xəzinə; 4-dənizin dərinliklərindən əldə edilən mərcan, mirvari kimi qiymətli daşlar; 5-miqdarı, sahibi məlum olmayan və ayırd etməsi mümkün olmayan harama qarışmış halal mal; 6-zimmi kafirin müsəlmandan aldığı torpaq sahəsi; 7-hər kəsin illik xərcindən artıq qalan malı.

[4] Ödənilməsi vacib olan vergilərdən biri də zəkatdır ki, 9 şeydən ödənilir: 1-dəvə; 2-qaramal; 3-qoyun; 4-qızıl; 5-gümüş; 6-buğda; 7-arpa; 8-xurma; 9-kişmiş.

Bir də «fitrə zəkatı» deyilən bir zəkat var ki, fitrə bayramı axşamı yoxsullara verilir, miqdarı isə üç kq buğda, arpa, düyü və s.-dir.

vətəndaşlar ilə necə rəftar etmək, şəxsi işlər və evlənmə ənənələr daxil olmaqla müharibə, sülh, başqa xalqlarla əlaqə yaratmaq, cəza qanunları, ticarət, sənət və əkinçilik qanunları bu hüquq sistemində öz əksini tapmışdır. Nigahdan əvvəl, ana bətninə uşaq düşməmişdən əvvəl də qanun var və göstəriş verilir ki, nigah necə olmalı, rüşeym bağlanan vaxt insanın qidası nə olmalıdır, südəmərlik dövründə ata-ananın vəzifəsi nədir, uşaq necə tərbiyə olunmalı, və kişi arvadı və uşaqları ilə necə davranmalıdır. Bu mərhələlərin hər birində kamil və fazil insan tərbiyə etmək üçün qanunlar vardır. İslam hökuməti, cəmiyyətin siyasi və iqtisadi əlaqələrinə o qədər əhəmiyyət verir ki, pak, fəzilətli insanın tərbiyəsi üçün lazım şərait hazırlansın.

Qurani-Məcid insanın kamal və səadətə çatmasına ehtiyac olan bütün hökm və qanunları əhatə edir. «Kafi»[1] kitabında «İnsanların bütün ehtiyacları kitab (Quran) və sünnədə (rəvayətlərdə) bəyan edilmişdir»[2] başlıqlı bir fəsil var. Quran «تبيان كل شيء»[3] hər bir şeyi aydınlaşdırır. İmam and içir ki, - Rəvayətlərə görə möhtac olduğu hər bir şey kitab və sünnədə mövcuddur və buna şübhə yoxdur.[4]

و نزّلنا عليك الكتاب تبيانا لكلّ شيء

**İkincisi:** Şəriət hökmlərinin mahiyyət və keyfiyyətini araşdırmaqla başa düşürük ki, onların həyata keçirmək və onlara əməl etmək hökümət təşkil etməyi tələb edir. İcra və idarə orqanı yaratmadan ilahi hökmləri həyata keçirmək olmaz.

Biz bəzilərini burada qeyd edirik, lakin oxucular başqa faktlara da baxa bilərlər.

## İKİNCİ HİSSƏ

## İSLAM HÖKMLƏRİNDƏN BİR NEÇƏSİNİN ARAŞDIRILMASI:

[1] «Əlkafi filhədis» şiənin dörd ən qiymətli kitablarından biridir ki, Mühəmməd ibn Yəqub Kuleyninin (328 h.q) vasitəsilə toplanmışdır ki, 34 hissə, 326 fəsl və 16000 hədisi ehtiva edir.

[2] «Üsuli-Kafi» cild 1, səh. 76, 80.

[3] «Nəhl» surəsi, ayə 89 bir qismi.

[4] عن ابي عبدالله قال: انّ الله تبارك وتعالى انزل في القرآن تبيان كلّ شيء حتى والله ما ترك الله شيئا يحتاج اليه العباد حتى لا يستطيع عبد يقول لو كان هذا انزل في القرآن الا وقد انزله الله فيه

«Üsuli-Kafi» cild 1, səh. 76, 77.

**1- Maliyyə qanun-qaydaları**

İslamın qərarlarında nəzərə alınan vergilər və büdcələr sadəcə yoxsulları və yoxsul seyidləri təmin etmək üçün deyil, eyni halda hökumət təşkil etmək və böyük bir dövlətin xərcini təmin etmək üçündür.

İslam üçün xums böyük gəlirlərdəndir ki, beytül-mala tökülür. Bizim məzhəbimizə görə əkinçilk mənfəətləri, ticarət, yeraltı sərvətlər və ümumiyyətlə, bütün mənfəətlər və gəlirlərdən alınır. Demək tərəvəz satandan gəmiçiliklə məşğul olan şəxsləri ehtiva edir. Bu şəxslər öz gəlirlərinin beşdə birini şəxsi xərcləri çıxdıqdan sonra İslam hakiminə verilirməlidir. Aydındır ki, bu həcmdə olan gəlir müsəlman ölkəsini idarə etmək və ehtiyacları ödəmək üçündür. Əgər müsəlman ölkələri ya bütün dünyanın - əgər islamın əlində olsa - xumsunu hesab etsək, məlum olar ki, bu kimi vergini qərara almaqda məqsəd seyidin və ya mollahın ehtiyacını ödəmək üçün deyil, (məsələ bundan mühüm,) məqsəd hökümətin böyük təşkilatlarının maddi ehtiyaclarını ödəməkdir.

Əgər İslam hökuməti yaransa, həmin xums, zəkat, cizyə və xərac ilə ölkəni idarə etmək lazımdır. Seyidlərin buna ehtiyacı yoxdur. Bağdad bazarının xumsu seyidlərin, din elimləri hövzələrinin və müsəlman yoxsulları üçün kifayətdir (Tehran, İstanbul, Qahirə və s. bazarları hələ qalsın). Bu kimi yüksək miqdarda büdcənin təyin edilməsi hökumət qurmağın və ölkəni idarə etməyin zəruriliyini göstərir. Bu büdcə ümumxalqın ehtiyaclarını ödəmək, abadlıq işləri aparmaq, səhiyyə, mədəniyyət, müdafiə sahəsində xərc etmək üçün təyin edilmişdir. Xüsusilə, İslamda o büdcənin toplanması, saxlanılması və xərc edilməsi üçün lazımi tədbirlər görülmüşdür. Dövlət başçısı, valilər, dövlət işçiləri və nazirlərin bu büdcədən istifadə etməkdə başqalarından üstünlükləri yoxdur. Hamı eyni huquqa malikdir və hamının payı birdir. Görəsən bu həçmdə olan bir büdcəni biz dənizə tökməliyik? Yoxsa torpaq altında gizlətməliyik ki, Həzrət özü gəlsin?[1] (İmam Xomeyni bu sualı tənz kimi söyləmişdir-mürtəcim) Yoxsa əlli nəfər seyid onu yesin? Yaxud beş yüz nəfər seyidə verilməlidir ki, heç bilməsinlər nə eləsinlər? Halbuki, seyidlər və yoxsulların payı güzaranlarını təmin etmək miqdarındadır. İslamın büdcə sistemində hər hansı bir gəlir üçün müəyyyən sandığı və onun müəyyən xərc edilməli yerləri vardır. Bir sandıq zəkat, biri

[1] Xumsun xərc edilməsi yerində, xüsusilə «Səhmi-İmam» deylən onun yarısının harada xərc edilməsi barədə İmamiyyə fəqihlərinin fikir ayrılıqları var. Bəziləri onu məsum İmamın malikiyyətinə keçməsini iddia edirlər. «Şərhi-lümə» cild 1, səh. 184.

sədəqələr, nəzirlər və biri də xums üçün müəyyən edilmişdir. Seyidlərin maaşı ancaq xums sandığından verilir. Rəvayətdə var ki, seyidlər də ilin axırında illik xərcindən artıq gələni islam hakiminə qaytarmalıdır. Onların payı az düşdükdə isə islam hakimi onun payını artırmalıdır.[1]

Digər tərəfdən «Əhli-zimmə»[2] üçün qərara alınmış «cizyə»[3] və əkinəcək yerlərindən alınan xərac böyük bir gəlirdi. Bu iki vergilərin qərara alınması hakimiyyətin və hökümətin olmasını tələb edir. Yəni hakimin vəzifəsidir ki, əhli-zimmədən malı və gəlirlərinə nisbətən başqa vergilər alıb onların torpaq sahələri və əhşamlarından uyğun vergi alsın.

Habelə «Malullah» adlanan və İslam dövlətinin əlində olan geniş torpaq sahələrinə xərac adlı vergini toplamalıdır. Bu iş, nizamlı, tədbirli və sistematik təşkilatları tələb edir. Bu iş İslam hökumətləri başçılarının öhdəsindədir ki, bu vergiləri uyğun və məsləhət üzündən müəyyən edib sonra toplayıb müsəlmanların xeyrinə xərcləsin.

Görürsünüz ki, islamın maliyə hökmləri hökumətin təşkil edilməsini tələb edir və onu icra etmək islami təşkilatlar olmadan mümkün deyildir.

## 2- İslamın müdafiə etmək hökumət tələb edir

Digər tərəfdən islamın sistemini qorumağa və müsəlman ümmətinin müstəqilliyi və ərazi bütövlüyünü müdafiə etməyə aid hökmlər hökumətin təşkil edilməsini tələb edir. Misal üçün

و اعدّوا لهم ما استطعتم من قوّة و من رباط الخيل

---

1

"عن عبد الصالح (ع): وله نصف الخمس كملاً ونصف الخمس الباقى بين اهل بيته. فسهمٌ ليتا ماهم، سهم لمساكينهم، وسهم لا بناء سبيلهم. يقسم بينهم على الكتاب والسنّة ما يستغنون في سنّتهم فان فضل عنهم شيء، فهو للوالي، و ان عجز او نقص عن استغنائهم، كان على الوالي ان ينفق من عنده بقدر ما يستغنون به. و انّما صار عليه ان يمونهم لانّ له ما فضل عنهم"

İmam Musa ibn Cəfər (ə) buyurub: Xumsun yarısı İmama aidir. Digər yarısı isə onun ailəsinin arasında bölünər. Ondan bir pay onların yetimlərinə, bir pay yoxsullarına və bir pay da yolda qalmışlara verilir ki, Quran hökmü və Peyğəmbərin (s) buyurduğu əsasında bir illik xərclərini ödəsin. Əgər ilik xərclərdən artıq qalsa, artığı islam hakiminə yetirilir. Əgər lazım miqdardan az olsa, hakim onların ehtiyaclarını bir təhər ödəməlidir. Onların illik xərcinin təmin edilməsi ona görə hakimin öhdəsinə qoyulmuşdur ki, onların illik xərclərindən artıq qalanı hakimə (imama) yetirilir.

2 Əhli-zimmə səmavi kitabların tabeçiləridirlər ki, müsəlmanlarla müqavilə bağlayıb müsəlman cəmiyyətdə yaşayırlar.

3 Cizyə kitab əhlindən (yəhudi, xristianlılar və zərdüştlər) müsəlman ölkələrdə yaşadıqları üçün alınan vergidir. Cizyə hər il onların şəxsən özlərinə ya yerlərinə bağlanır. Onun miqdarı islam hakiminin öhdəsindədir. «Təhrirül-vəsilə» cild 2, səh. 448-450.

***«Düşmənlər qarşısında bacardığınız qədər silah və at (minik) hazırlayın»*** [1] bu ayə silahlı qüvvələrin daha çox gücləndirilməsini başa salır. Əgər müsəlmanlar bu hökmə əməl edib hökumət təşkil etməklə geniş hərbi avadanlıqlara malik olsaydılar, bir dəstə yəhudi bizim torpağımızı işğal edə bilməz, Məscidi-Əqsanı təxrib edə bilməzdi; bunların hamısı müsəlmanların saleh və laiqli bir hökümət təşkil etməmələrindən irəli gəlimişdir. Əgər müsəlman ölkələri hökumətləri imanlı xalqın nümayəndəsi və İslam hökumlərini həyata keçirən olsaydılar, kiçik ixtilafları kənara qoyub təfriqə salmadan əl götürərdilər və birləşərdilər. Onda Amerika, İngiltərə və əcnəbilərin xadimləri olan bir dəstə yəhudi bu işləri görə bilməzdi. Bu müsəlmanlara hökumət edənlərin bacarıqsızlığından irəli gəlmişdir.

«و اعدّوا لهم ما استطعتم من قوّة و من رباط الخيل» -Ayəsi göstəriş verir ki, lazımi qədər qüvvə toplayın, hazırlıq görün ki, düşmənlər sizə zülm və təcavüz edə bilməsin. Biz güclü deyilik, hazırlıq görməmişik və birləşməmişdik, ona görə də əcnəbilərin təcavüzlərinə məruz qaldıq və qalırıq, hal-hazırda da zülm görməkdəyik.

**3- Cəza qanunları**

Diyə kimi alınıb sahibinə verilməli, «Hüdud»[2] və «Qisas»[3] kimi İslam hakiminin nəzəri ilə icra edilməli hökümlər hökumət təşkilatları olmadan icra edilməz. Bu qanunların hamısı dövlət təşkilatına bağlıdır.

## Siyasi bir inqilab lazımdır

Həzrət Rəsuli-Əkrəm (s) dünyadan rehlət etdikdən sonra müanidlər və «Bəni-Ümeyyə»[4] (Allahın onlara lənəti olsun) İslam hökumətinin Həzrət Əli (ə)-ın rəhbərliyi ilə başlanmasına mane oldular. Nəticədə

---

[1] «Ənfal» surəsi, ayə 60

[2] Hədd – şəriətdə o cismi cəzalara deyilir ki, cinayətkara cinayətə mürtəkib olduqda tətbiq edilir. Bu cəzaların miqdarı şəriətdə müəyyən edilmişdir.

[3] Qisas – islam fikhində o cəzaya deyilir ki, cinayətkara onun törətdiyi cinayətin eyni tətbiq edilir. İstər adam öldürmə istərsə də bir üzvü kəsmək olsun, yaxud üzvi ziyan yetirmək. Bu br şəraitdədir ki, üzərində cinayət törədilmiş şəxsin başçısı qisasın icra edilməsini istəsin. «Şərhi-lümə» cild 2, səh. 372.

[4] Qüreyş qəbiləsindən, Ümeyyə ibn Əbuşəms ibn Əbdümənafın övladları. Müaviyə 41 h.q ildə xandandan xəlifəliyə çatan birinci şəxsdir. Bu silsilə 132 h.q ildə ikinci Mərvanın öldürülməsi ilə sona çatdı.

Allah-Təalanın və Həzrət Rəsulun (s) istədiyi hökümət bərqərar olmadı. Hökumətin proqramları islam qayda-qanunları əsasında olmadı. «Bəni-Ümeyyə» və «Bəni-Abbas»[1] xəlifələrinin idarəetmə tərzləri və siyasətləri anti-islam idi. Hökumət üsulu dəyişildi və İran padşahları, Roma imperiyası və Misir fironlarının hökumət üsulu kimi oldu. Həmin qeyri-islami üsul eləcə davam etdi.

Şəriət qanunlarına və ağlımızın əmr etdiyinə görə biz hökumət üsulunun bu qeyri-islami və anti-islam şəklində davam etməsinə mane olmalıyıq. Bunun dəlili aydındır:

Ona görə ki, qeyri-islami bir hökumət üsulunun bərqərar olması İslamın siyasi sistemi və hökumət üsulunun həyata keçirilməsi mənasındadır.

Bundan əlavə hər hansı bir qeyri-islami hökumətin başçısı Tağut[2] olduğuna görə, o rejim müşrik bir rejim olur, biz isə müsəlmanların cəmiyyətində müşrikləri aradan aparmalıyıq. Həmçinin biz mömin və yüksək dərəcələrə malik olan şəxslər tərbiyə etmək üçün əlverişli şərait hazırlamalıyıq. Belə bir şərait tağut hakimiyyətinin yartadığı şəraitlə tam ziddiyyətlidir. Tağut hakimiyyəti yartdığı şəraitin nəticəsi gördüyünüz bu fəsaddır. Bu isə «fəsadün fil-ərz»i yer üzündə fəsad törətməkdir ki, hökmən aradan qaldırılmalıdır və ona səbəbkar olanlar isə cəzalandırılmalıdırlar. Firon da Misirdə həmin fəsada səbəbkar oldu «انه كان من المفسدين» ***«O fəsad törədənlərdən idi»***.[3] Elə bir siyasi-ictimai şəraitdə mömin, təqvalı və ədalətli insan yaşaya bilməz. Öz imanını qoruya bilməz. Belə olan halda onun üçün ancaq iki yol var: Ya məcbur olaraq düzgün olmayan işlərə batmalıdır, ya da ki, bu kimi pis işlərə batmamaq və tağuta təslim olamamaq üçün onların əleyhinə mübarizəyə girişib fasid şəraiti aradan qaldırmalıdır.

Biz hökmən fasid hökumətləri, fəsad törədənləri, xəyanətkar, zülmkar və qəddar hakimləri yox etməliyik. Bu, müsəlman ölkələrdə olan bütün müsəlmanların vəzifəsidir. Bununla islam inqilabı qələbə çalacaq.

## İslami birlik lazımdır

---

[1] Peyğəmbərin əmisi Əbdülmüttəlib oğlu Abbasın övladı. Bu silsilə 132 h.q ildə Əbdüllah Səffahın xəlifəliyi ilə başladı və 656 h.q ildə Mötəsimin öldürülməsi ilə sona çatdı.

[2] Tağut təcavüzkara və Allahdan qeyri məbudlara deyilir.

[3] «Qəsas» surəsi, ayə 4.

Digər tərəfdən istismarçılar, müstəbid hakimlər islam yurdunu parçalayıblar. İslam ümmətini bir-birindən ayırıb par-parça etdilər. Rusiya, İngiltətrə, Avstriya və başqa müstəmləkəçi dövlətlər birləşib Osmanlı[1] dövləti ilə döyüşüb hər birisi o böyük dövlətin torpağından bir hissəni ayırdı. Baxmayaraq ki, Osmanlı dövlətinin başçıları əksərən ləyaqətsiz idilər, hətta bəziləri fasid idi, lakin camaatın arasından saleh şəxslərin dövlətə bir gün başçılıq edib istismar büsatını aradan qaldırmaq ehtimalı üzündən müstəmləkəçilər üçün bir təhlükə sayılırdı. Buna görə də birinci dünya müharibəsində onu bölüşdürdülər və 10-15 qarış torpağı olan ölkələri meydana gətirib hər birini öz məmurlarına verdilər.

Biz İslam ümmətini birləşdirmək, müsəlman vətənimizi müstəmləkəçilərin əlindən qurtarmaq üçün hökumət təşkil etməkdən başqa bir yolumuz yoxdur. Müsəlman xalqlarının azadlığı və birliyini təmin etmək üçün zülmkar hökumətləri aradan qaldırmaq lazımdır və ondan sonra xalqın xadimi olan ədalətli islami hökumət qurmalıyıq. Hökumət qurmaq islam sistemini və müsəlmanların birliyini qorumaq üçündür. Necə ki, Həzrət Fatimə (s.ə) öz xütbəsində buyurur ki, «imamət islam sistemini qorumaq və müsəlmanları dağınıqlıqdan qurtarıb birləşdirmək üçündür».[2]

### Məzlumları xilas etmək üçün hökumət qurmaq lazımdır

İstismarçılar özlərinin siyasi xadimləri ilə xalqa ağır iqtisadi sistemi qəbul etdirərək, onları iki dəstəyə bölmüşlər: bir dəstə zülümkarlar və o biri dəstəsi məzlumlar. Bir tərəfdə milyonlarla ac, səhiyyədən məhrum, mədəniyyətdən geri saxlanmış müsəlman, o biri tərəfdə isə hərcayı, əyyaş, fasid siyasi qüdrətə malik olan və say baxımından azlıq təşkil edən sərvətlilər vardır. Ac, az təminatlı xalq özünü zülmkar hakimlərin zülmündən qurtarma üçün səy göstərirlər və lakin hakimiyyətdə zülmükar onlara mane olurlar. Biz, məzlum və xalq kütlələrini mütləq qurtarmalıyıq. Bizim vəzifəmiz məzlumları himayə etmək və zalımlarla düşmən olmaqdır. Bu həmin vəzifədir ki, Həzrət Əli (ə) öz iki oğluna xitabən

---

[1] Osmanlı imperiyası 19-cu əsrin əvvəlindən parçalanmağa başladı. 1913 m. ildə Balkan döyüşündə bu imperiyanın avropa hissələri, əlindən çıxdı. 1913 m. ilində birinci dünya müharibəsində ərəb ölkələri, İraq, Suriya, Ərəbistan, İordaniya və Fələstin ölkələri ondan ayrıldı və Avropa dövlətlərinin nəzarəti altına keçdi. Sonra isə indiki Türkiyə dövləti ərazisinə məhdud oldu.

[2] "و طاعتنا نظاماً للملة و إمامتنا لمّا للفرقة" «Kəşfül-qəmmə» cild 1, səh. 483.

etdiyi vəsiyyətdə xatırlayır ki, «وكونا للظالم خصماً و للمظلوم عونا» **«Zülümkara düşmən olun məzlumu himayə edin».**[1]

Müsəlman alimlər zülmkarların naməşru (şəriətə uymayan) işlərinin qarşısını almalıdırlar. Buna mane olmaq lazımdır ki, böyük bir dəstə ac qalan halda haramxor və quldur zalımlar bol nemət içində yaşasınlar. Həzrət Əli (ə) buyurub: Mən ona görə hökümətə başçılıq etməklə razılaşdım ki, Allah-Təala müsəlman alimlərdən müstəbidlərin bol nemət içində olub quldurluq etmələri və məzlumların aclığı və az təminatlı olduğu barədə sakit qalmamaq və susmamağa dair söz almışdır.

أما وَ الّذي فلَقَ الحَبَّةَ وَ بَرَأَ النَّسَمَةَ، لَوْ لا حُضُورُ الحاضِرِ وَ قِيامُ الحُجَّةِ بوُجُودِ النّاصِرِ وَ ما أخَذَ اللّهُ عَلى العُلَماءِ أنْ لا يُقارُّوا عَلى كِظَّةِ ظالِمٍ وَ لا سَغَبِ مظلومٍ، لألقَيْتُ حَبْلَها عَلى غارِبها وَ لَسَقَيْتُ آخِرَها بكَأسِ أوَّلِها؛ وَ لألفَيْتُمْ دُنْياكُمْ هذِهِ أزْهَدَ عِنْدى مِنْ عَفْطَةِ عَنْزٍ

**«And olsun toxumu göyərdənə və canı yaradana, əgər beyət edənlərin yığışması olmasaydı, yardımçı tapmaqla mənim üçün höccət tamam olmasaydı və əgər Allah-Təalanın alimlərdən zülmkarların zülm, tamahkarlığı və məzlumların məhrumluğu, üzücü aclıqları qarşısında süküt etmələrinə dair söz alması olmasaydı hökümətin noxdasını (ipini) boynuna dolayardım (buraxardım) və əsla onun ətrafına dolanmazdım və görərdiniz ki, bu dünyanın qiyməti mənim yanımda keçi asqırağından da dəyərsizdir».**[2]

Bu gün necə sakit qala bilərik? Bir halda ki, bir dəstə xəyanətkar, haramxor və əcnəbi xadimləri əcnəbilərin yardımı və süngü zoru ilə yüz milyon müsəlmanın əllərinin əməyinə sahib olub qoymurlar ki, onllar azacıq nemətlərdən faydalansınlar. İslam alimləri və bütün müsəlmanlar bu vəziyyətə son qoymalıdırlar və yüz milyon müsəlmanın səadət yolu olan bu yolda, zülmkar hökumətləri aradan qaldırıb İslam hökuməti qurmalıdırlar.

## Hədislər baxımından hökümətin gərəkliyi

İslam hökmlərinə, Həzrət Rəsuli-Əkrəmin (s) və Həzrət Əli (ə)-ın üslubuna və Quran ayələrinə əsasən hökumətin təşkil edilməsi zəruri bir məsələdir. Nümunə olaraq, Həzrət İmam Rzadan (ə) bir rəvayət edirik. Rəvayətin ilk hissəsi peyğəmbərlik məsələsinə aid olduğuna görə burada onu deyil, rəvayətin son hissəsini qeyd edirik. İmam (ə) buyurur:

---

[1] «Nəhcül bəlağə» səh. 997, məktub 47.
[2] «Nəhcül bəlağə» səh.52, xütbə 3

عبد الواحد بنُ محمد بنِ عَبدوس النيسابوري العطّار، قالَ حدَّثني أبو الحسن على بنُ محمدِ بنِ قُتَيْبَةَ النيسابوري، قالَ قال أبو مُحمد الفضل بن شاذان النيسابوري: إنْ سَألَ سائِلٌ فقالَ: اخْبِرْني هَلْ يَجُوزُ أنْ يُكلِفَ الحَكيمُ ... فإنْ قالَ قائِلٌ: وَ لِمَ جَعَلَ أولِى الأمْرِ وَ أمَرَ بطاعَتِهِمْ؟ قيلَ لِعِلَلٍ كَثيرَةٍ. مِنْها، أنَّ الخَلقَ لَمّا وُقِفُوا عَلى حَدٍّ مَحْدُودٍ وَ اُمِرُوا أنْ لا يَتَعدُّوا تِلْكَ الحُدُودَ- لِما فِيهِ مِنْ فَسادِهِمْ- لَمْ يَكُنْ يَثْبُتُ ذلك و لا يَقُومُ إلا بأنْ يَجْعَلَ عَلَيْهم فِيها أميناً يَأخُذُهُمْ بالوَقفِ عِنْدَ ما أبيحَ لَهُم وَ يَمْنَعُهُمْ مِنَ التَّعدي عَلى ما حَظَرَ عَلَيْهم؛ لأنَّهُ لو لَمْ يَكُنْ ذلِك لَكانَ أحَدٌ لا يَتْرُكُ لَذَّتَهُ و مَنْفَعَتَهُ لِفَسادِ غَيرِه. فَجُعِلَ عَلَيْهم قَيِّمٌ يَمْنَعُهُمْ مِن الفَسادِ و يُقيمُ فيهم الحُدودَ و الأحكامَ. وَ مِنها أنّا لا نَجدُ فِرْقَةً مِنَ الفِرَقِ و لا مِلَّةً مِنَ المِلَلِ بَقَوْا و عاشُوا الا بقَيّمٍ وَ رئيسٍ لِما لا بُدَّ لَهُمْ مِنْهُ فى أمْرِ الدِّينِ وَ الدُّنيا. فَلَمْ يَجُزْ فِي حِكمةِ الحَكيم أنْ يَتْرُكَ الخَلقَ مِمّا يَعْلَمُ أنَّهُ لا بُدَّ لَهُمْ مِنْهُ وَ لا قِوامَ لَهُمْ إلّا بِهِ فَيُقاتِلُونَ به عَدُوَّهُم وَ يَقسِمونَ بِهِ فَيْئَهُمْ وَ يُقيمُون بِهِ جُمْعَهُم وَ جَماعَتَهُمْ وَ يُمْنَعُ ظالِمُهُمْ مِنْ مَظلُومِهِمْ. و مِنْها أنَّهُ لَوْ لَمْ يَجْعَلْ لَهُمْ إماماً قَيِّماً أميناً حافِظاً مُسْتَوْدَعاً، لَدَرسَتِ المِلَّةُ وَ ذَهَبَ الدينُ وَ غُيّرَتِ السُّنَنُ وَ الأحْكامُ، وَ لَزادَ فيهِ المُبْتَدِعُونَ و نَقصَ مِنْهُ المُلحِدُونَ و شَبَّهُوا ذلِكَ عَلى المُسْلِمينَ. اذْ قدْ وَجَدْنَا الخَلقَ مَنْقُوصينَ مُحْتاجينَ غَيْرَ كامِلينَ، مَعَ اخْتِلافِهم وَ اخْتِلافِ أهْوائِهِمْ وَ تَشَتُّتِ حالاتِهِمْ، فَلَوْ لَمْ يَجْعَلْ قَيِّماً حافِظاً لما جاءَ بِهِ الرَّسُولُ الأوّلُ، لَفَسَدُوا عَلى نَحْوِ ما بَيَّنّاه و غُيِّرَتِ الشَّرائِعُ وَ السُّنَنُ وَ الأحْكامُ و الأيمانُ. وَ كانَ فى ذلِكَ فَسادُ الخَلقِ أجْمَعينَ

**«Bir şəxs soruşsa ki, Allah nə üçün hakim təyin edib ona itaət etməyi əmr etmişdir, cavabda demək lazımdır ki: Müxtəlif səbəblərə görədir, onlardan biri budur ki, insanlar müəyyən qayda-qanun üzrə hərəkət etməli və həddən aşmamalıdırlar, yoxsa fəsada qərq olaqcaqlar. Digər tərəfdən bir qüdrət ya şəxs bu işi öhdəsinə götürməli və hüquqlara təcavüz edilməyin qarşısını almalıdır; əks təqdirdə, camaat ilahi qanunlara riayət etməzlər. Yəni əgər belə bir şəxs olmasa heç kəs başqalarına zərər-ziyan verəcəkli mənfəətindən göz yummaz və nəticədə öz mənafeyini təmin etməkdə başqaların fəsadına səbəb olar. Digər bir tərəfdən elə bir firqə, məzhəb, millət yoxdur ki, rəhbəri, başçısı və idarə edəni olmadan öz həyatını davam etdirə bilsin. Buna əsasən Allah-Təala da öz yartdıqlarını rəhbərsiz və başçısız qoymayıbdır. Allah bilir ki, belə bir şəxs hökmən olmalıdır və onların davamı onun olmasından asılıdır. Camaat onun rəhbərliyi ilə düşmənlərlə döyüşür, onun vasitəsilə ümumi gəlir aralarında bölünür, cümə və camaat namazları qılınır və təcavüzkarların əli kəsilir.**

**Habelə, əgər Allah insanlara imam, nəzarətçi, nizam-intizam yaradan və ədalətli başçı təyin etməsə, din köhnəlib çürüyəcək, ain aradan gedəcək, islam əhkamı dəyişikliyə məruz qalacaq, bidətçilər dinə bir şey əlavə edəcək. Müşriklər və dinsizlər isə ondan bir şey əskildəcəklər. Onu müsəlmanlara əksinə təqdim edəcəklər. Ona görə**

**ki, camaatın ağlı naqisdir və kamilləşməyə möhtacdır. Üstəlik insanlar bir-birləri ilə fərqli olub, və müxtəlif keyfiyyətlərə malikdirlər. Deməк, əgər (Allah) nizam-intizam bərpa edən Peyğəmbərin yolunu davam etdirən bir şəxsi başçı seçməsəydi, cəmiyyət fəsada uğrayar, islam qanunları dəyişikliyə məruz qalar, müqavilələr və əhd-peymanların səbatı olmazdı. Nəticədə, bütün bəşər fəsada çəkilərdi».**[1]

Görürsünüz ki, İmam Rza (ə) hökümət qurmaq üçün müxtəlif sübutlar irəli sürmüşlər. Bu sübutlar xas bir zamana aid olmur, elə ona görə də həmişə hökümətin olması lazımdır. İslam üçün təcavüz, başqaların hüququnu tapdalamaq, şəxsi mənafeyini üçün başqaların haqqına əl uzatmaq həmişə baş verən işlərdəndir. Demək olmaz ki, bu yalnız Həzrət Əli (ə) dövrünə aid idi və sonralar camaat mələk kimi oldu!

Buna əsasən həmişə qayda-qanunlarını qoruyan, təcavüzkar, zülm etmələr, quldurluq və başqaların hüququnu tapdalamaqların qarşısını almaq, insanları qorumaq, camaata islam təlimlərini, hökmlərini öyrətmək, dinə xələl qatanların, mülhid (kafir) və düşmənlərin dində bidət qoymalarının qarşısını almaq üçün bir hakim, vəliyyi-əmr və rəhbər olmalıdır. Məgər Həzrət Əlinin (ə) rəhbərlik etməsi buna görə deyildi. Həzrət İmam Rza (ə) qeyd etdiyi dəlillər indi də mövcuddur. Burada müəyyən şəxsdən söz getmir, mövzunun həmişə diri (aktual) qalması üçün onu «Ünvani»[2] şəkildə qeyd etmişdir.

Əgər islam hökümətləri davam etməlidirsə, hakimlərin quldurluqlarının qarşısı alınmalıdırsa, islam nizam-intizamı yaranmalıdırsa, hamı islam qaydalarını əsasında rəftar etməlidirsə, saxta məclislərin vasitəsilə olan anti-islam qanunlarının və bidətlərin qarşısı alınmalıdırsa və əcnəbilərin müsəlman ölkələrdən əlləri kəsilməlidirsə, hökümət qurmaq lazımdır. Bu işləri hökümət olmadan görmək olmaz. Əlbəttə, saleh hökümət lazımdır, yoxsa hal-hazırda olan hökümətlərin faydası yoxdur. Ona görə ki, hamısı fasid və müstəbiddirlər.

Keçmişdə hökümət qurmaq və xain hakimləri aradan aparmaq üçün birlikdə hərəkət etmədiyimiz və hətta bəzilərinin süstlük və tənbəllik edib İslam hökümlərini təbliğ etməkdən çəkinib, bəzən quldur hakimlərə dua etməklə məşğul olduqları üzündən bu vəziyyət yarandı. İslam hakimiyyəti

---

[1] «İləlüş-şaraye» cild 1, səh. 251.

[2] Ünvani o deməkdir ki, məsələ ümumi olaraq qaldırılsın və müəyyən şəxsin rəhbər olması deyil, cəmiyyətdə rəhbərliyin zəruri olduğu məsələsi qeyd edilsin. Məsələni bu şəkildə qaldırmağa «ünvani» mövzu deyilir.

öz mövqeyini itirdi, İslam hökümləri həyata keçirilmədi və dəyişikliklərə məruz qaldı. İstismarçılar qara niyyətlərinə çatmaq üçün öz qanunlarını müsəlman ölkələrdə həyata keçirdilər. Bu işlər ona görə oldu ki, bizim düzgün bir rəhbərimiz, hökümətimiz yoxdur.

Biz saleh bir hökümət istəyirik. Bu ki, açıq-aydın bir istəkdir.

## ÜÇÜNCÜ HİSSƏ

## İSLAM HÖKUMƏTİNİN MAHİYYƏTİ

### İslam hökümətinin başqa hökümət sistemləri ilə fərqi

İslam hökümətinin mövcüd olan hökümətlərin heç biri ilə oxşarlığı yoxdur. Diktator[1] deyil ki, başçısı zülmükar olsun, camaatın malına və canına təcavüz etsin, istədiyi şəxsi öldürsün, istədiyi şəxsə mükafat versin və ya xalqın əmlakına yiyələnsin və əmvalını ona-buna bağışlasın. Həzrət Rəsuli-Əkrəmin (s), Həzrət Əli (ə) və başqa xəlifələrin bu ixtiyarları yox idi. İslam höküməti nə diktatorluqdur və nə də mütləqə[2], məşrutə[3] hökümətdir. Əlbəttə, bu mənada deyil ki, qanunları qərara almaq şəxslərin və əksəriyyətin səsindən asılı olsun. Məşrutə bu mənadadır ki, bu hökümətə rəhbərlik edənlər icra və idarə etməkdə bir sıra şərtlərin qeydində olmalıdırlar, bu şərtlər Quranda və Peyğəmbərin sünnəsində müəyyən edilmişdir. Bu şərtlər, İslam qanunları və hökümləridir ki, ona riayət etmək lazımdır. Buna əsasən də demək olar ki, İslam höküməti (hakimiyəti) ilahi qanunlar hökümətidir (hakimiyyətidir).

İslam hökümətinin isə «padşahlıq»[4] cümhuriyyət[5] və ilə fərqi budur ki, bu kimi sistemlərdə xalq deputatları ya padşahın nümayəndələri qanunvericiliyə başlayırlar, halbuki, islamda qanunvericilik Allah-Təalaya məxsusdur. İslamın müqəddəs şareyi yeganə qanunvericidir. Heç kimin qanun qərara almağa haqqı yoxdur və şareyin hökümündə başqa heç bir qanunu icra etmək olmaz. Buna əsasən İslam hökümətində qanunvericilik məclisi yerinə proqramlaşdırma məclisi vardır ki, müxtəlif nazirliklər üçün proqram hazırlayır və bu proqramlarla ümumi abadlıqların keyfiyyəti müəyyən edilir.

Quran və sünnədə olan İslam qanunları müsəlmanlar tərəfindən qəbul olunub bu, hökümətin işini asanlaşdırmışdır. Halbuki, səltənəti və cümhuri-məşrutə hökümətlərində, özlərini bu hökümətlərin nümayəndəsi

---

[1] Diktator olan hakimyyətdə xalq öz müqəddəratını təyin etməyə heç bir hüququ yoxdur. Bu kimi hökümətlərdə hökmdarın ixtiyarı çox genişdir.

[2] Padşahlıq - kral höküməti.

[3] Məşrutə hökümət, o hökümət sisteminə deyilir ki, onda xalq öz müqəddəratını təyin etməyə haqlıdır. Bu kimi sistemlərdə əsas qanun qanunvericiliyin və hakimiyyətin xəttini təyin edir. Əsas qanunda bütün şəxslərin, qrupların və digər ictimai və siyasi təşkilatların hüququ müəyyən edilib. Məşrutə sistemi iki növdür: 1-Kral höküməti; 2-Cümhuriyyət.

[4] Kral hökümətində ölkənin başçısı və rəhbəri padşah yaxud məlikdir. Kral hökümətində bəzən padşahın ixtiyar və qüdrəti çox geniş və naməhdud olduğu üzündən digər hakimiyyət qüvvələri bir başa padşaha bağlı olur. Bu kimi hökümət tərzinə «mütləqiyyət» deyilir. Bəzən də padşahın qüdrəti məhdudlaşır, məclis qanun vericiliyi öhdəsinə götürür və qanunları qərara almaq ixtiyarı xalq deputatlarına verilir. Bu kimi hökümət tərzinə məşrutə deyilir.

[5] Cümhuriyyət sistemində ölkə başçısı tərəfindən seçilir, ixtiyar məhduddur, başçılıq müddəti də müvəqqətidir.

bilən deputatların əksəriyyəti, öz istəklərini camaata qanun kimi qəbul etdirirlər.

İslam höküməti qanun hökümətidir, bu kimi hökümətdə hakim mütləq Allahın və qanun Allahın hökmüdür. İslam qanun ya Allahın əmri hamıya tam rəhbərlik edir, hamı Həzrət Rəsuldan (s) tutmuş, Həzrətin xəlifələri və başqa şəxslər əbədi olaraq qanuna boyun əyməlidirlər. Allah-Təala tərəfindən nazil olan Quran və Peyğəmbərin dilindən bəyan olunan qanun. - Həzrət Rəsulu (s) xəlifəliyi Allahın əmri ilə idi. Allah-Təala onu yer üzündə xəlifə etmişdir (Xəlifətullah fil-ərz).

Digər tərəfdən ümmətin içində ixtilaf yaranacağı ehtimalı üzündən – ona görə ki, yenicə iman gətirmişdilər - Allah-Təala Həzrət Rəsuli-Əkrəmə (s) vəhy etdi ki, olduqları yerdə səhrada dayansın və xəlifəliyə dair sözünü desin.[1] Həzrət Rəsuli-Əkrəm (s) qanuna əsasən Həzrət Əlini xəlifəliyə təyin etdi. Kürəkəni olduğuna görə deyil, Allahın hökmünə itaət etmək üçün təyin etdi.

Həm də islamda hakimiyyət qanun çərçivəsində olmalıdır. Cəmiyyətdə qanun hakim olmalıdır. Hətta Həzrət Rəsulun (s) malik ixtiyarları da Allah vermişdir. Həzrət Peyğəmbərin dediyi sözlər qanun çərcivəsində idi. Hamı qanuna tabe olmalıdır. Tabeliyində olmalı olan yeganə hökm ancaq Allahın hökmüdür. Həzrət Rəsulun (s) itaətində olmaq da Allahın hökmüilədir. Hökümət başçılarının itaətində olmaq da Allahın əmri ilədir. Allah buyurub:

أطيعُوا اللّهَ وَ أطيعُوا الرَّسولَ وَ أولِي الأمْرِ مِنْكُمْ

***«Allaha, Peyğəmbərə və özünüzdən olan ixtiyar (əmr) sahiblərinə itaət edin!»***[2]

Şəxsi fikirlərin, hətta Həzrət Rəsulun (s) şəxsi fikri ilahi qanuna təsiri yoxdur. Hamı Allaha tabe olmalıdır.

İslam hökuməti padşah hakimiyyəti və imperiya[3] hökuməti kimi deyildir. Bu kimi hökumətlərdə hakimlər qulduqluq edirlər. İslam hökuməti bu kimi hökumət üsulundan uzaqdır. Buna görə də İslam hökumətində böyük saraylar, bunalar, büdcənin yarısını özünə ixtisas

---

[1] Qədir Xum macərasına işarə olunur.

«يا ايها الرسول بلغ ما انزل اليك من ربك فان لم تفعل فما بلغت رسالته...» «Ey Peyğəmbər! Rəbbin tərəfindən sənə nazil olanı çatdır. Əgər bu işi görməsən, öz risalətini yerinə yetirmiş olarsan». «Maidə» surəsi, ayə 67; «Əlğədir» çild 1, səh. 214-229.

[2] «Nisa» surəsi, ayə 59.

[3] İmperiya geniş sahəli, əhalisi çox olan və müxtəlif xalqlardan ibarət olan və bir rəhbərin hökuməti altında olan ölkələrə deyilir.

verən vəliəhd dəftərxanası kimi təşkilat yoxdur. Həzrət Peyğəmbər (ə) özü hökümət başçısı ikən, sadə yaşayışı var idi. O Həzrət sonra «Bəni-Ümeyyə» dövrünə kimi bu üsul davam edirdi. Birinci və ikinci xəlifə bir sıra işlərdə uyğun hərəkət etməmələrinə rəğmən sadə yaşamağa riayət edirdilər. Sonra, xüsusilə Osman dövründə[1] azğınlıqlar baş verdi. Həzrət Əli (ə) dövründə hökümət üsul-idarəsi düzəldi. O Həzrət İran, Misir, Hicaz və Yəmən kimi böyük ölkələrə başçılıq etməsinə baxmayaraq bir yoxsul tələbə kimi yaşayırdı. Rəvayətə görə iki köynək alıb lap yaxşısını öz qulamı Qənbərə verdi, özü isə uzun qollu köynəyi götürüb, qolunu qısaldıb geyindi.[2] Əgər bu üsul-idarə davam etsəydi və hökümət islam üsulu ilə olsaydı bu kimi fəsadlar və üzdən iraq işlər baş verməzdi. Hakimiyyətdə olanlardır ki, fəsad yeri düzəldir, meyxana tikdirir, vəqf olan yerləri kino yerinə çevirirlər. Əgər bu tör-töküntü, israfçılıq olmasaydı ölkə büdcəsində kəm-kəsir olmazdı. Onlar tam zəlilliklə Amerika və İngiltərədən borc istəyirlər. Ölkə bu israfçılıq üzündən möhtac olubdur, məgər bizim neftimiz azdırmı? Bizim hər şeyimiz var. Lakin bu müftəxorlar və əyyaşlar ölkəni ayaqdan saldılar. Əgər bunlar olmasaydı, ölkə möhtac olmazdı və buradan Amerikaya gedib boynunu çiyninə qoyub o nakişidən (Amerika prezidenti) yardım istəməzdi.

Digər tərəfdən İslam idarəçiliyinə yad olan bürokratiya ölkənin büdcəsinə ağır xərclər təhmil etdirir ki, birinci haram xərclərdən az deyildir. Bu üsul-idarə islamla yaddır. Misal üçün, iddialara və şikayətlərə baxılması islam məhkəmə üsulunda çox asan və az bir müddətdə baxılır. İslamın məhkəmə üsulu həyata keçirilən dövrdə bir qazı iki yardımçısı ilə iddiaları həll edirdi.

İndi isə ədliyyə təşkilatlarının bu qədər geniş olmasına baxmayaraq heç bir iş görülmür. Bunlar ölkəni iflic edir.

## RƏHBƏRLİYİN ŞƏRAİTİ

### İki əsas şərt

Hakimə zəruri olan şərait bir başqa hökümət tərzindən mənşələnir. Əql və idarəçilik ümumi şərtindən əlavə iki əsas şərt də lazımdır:

---

[1] İbn Əbil-Hədid «Nəhçül-bəlaqənin şəhri» çild 2, səh. 126-161; 3-cü xütbənin şərhi səh. 324-333; çild 3, səh 3-69; cild 9, səh 3-30, 135 xütbənin şərhi; «Əlğədir» çild 8, səh. 97-323.

[2] «Biharul-ənvar» çild 40, səh. 324.

1- Qanun bilmək (hüquqşünas)

2- Ədalət

Həzrət Rəsul (s)-dən sonra xəlifə olan şəxsin fəzilətli şəxs olması barədə heç bir ixtilaf yox idi. İxtilaf ancaq mövzuda idi.

1 - İslam hökuməti qanun hökuməti olduğuna görə İslam rəhbəri üçün qanun bilmək əsasən lazımdır. Bu rəvayətdə də qeyd olunmuşdur. Təkcə rəhbər deyil hər bir işlə məşğul olan şəxsə lazımi elm gərəkdir. Lakin hakim isə daha alim olmalıdır. İmamlarımız öz imamlıqların üçün həmin mətləbə istinad etmişlər ki, imam başqalarından üstün olmalıdır.[1] Şiə alimlərinin başqalarına tutduqları eyb və həmin barədə idi. Alimlər deyirlər ki, xəlifədən bir məsələ barədə soruşduqda cavab verə bilmədiyinə görə imam və xəlifə olmağa laiq deyildir, yaxud bir işi İslam qanunlarının və hökümlərinin xilafına olaraq gördüyü üçün imam ola bilməz.[2]

Ədalət və qanun bilmək (hüquqşünas) müsəlmanların nöqteyi-nəzərlərinə görə əsas şərtdir. Başqa şeylərin ona dəxli yoxdur. Misal üçün, mələklərin necəliyini, Allah-Təalanın nə kimi sifətlərə malik olduğunu bilməyin – imam olmaq məsələsinə heç bir dəxli yoxdur. Necə ki, bir şəxs sadəcə təbii elmləri bilsə, bütün təbiət qüvvələrini kəşf etsə və ya musiqi bilsə belə xəlifə olmağa səlahiyyəti olmaz və bu kimi elmlərə malik olmaq üçün İslam qanununu bilən və adil olan şəxslərdən bir üstünlüyü ola bilməz. Xəlifəliklə əlaqədar olan və Həzrət Rəsul (s) və imamların zamanında bəhs olunub araşdırılan məsələ budur ki, hakim və xəlifə mütləq İslam əhkamını bilməli, yəni hüquqşünas olmalı və habelə etiqadi və əxlaqi məsələlərdə yüksək dərəcəli və ədalətli olmalıdır. Əql də bunu deyir. Ona görə ki, İslam hökuməti qanun hökumətidir. Sadəcə bir şəxsin xalqa rəhbərlik etməsi deyildir. Əgər rəhbərlik edən şəxs qanun bilməsə hakim və rəhbər olmağa haqqı yoxdur, ona görə ki, əgər təqlid etsə qüdrətindən azalar və əgər təqlid etməsə, qanunu həyata keçirə bilməz. Bu sübüt edilmişdir ki, «الفقهاءُ حكّام على السلاطين»[3] hökümət başçıları islamın tabeliyində olsalar, fəqihlərə tabe olmalı, İslam hökümləri və qanunlarını onlardan soruşmalı və həyata keçirməlidirlər. Belə olan halda, həqiqi hakimlər fəqihlərdir. Hökümət başında olub qanun bilmədiklərinə görə

[1] Əli (ə) buyurur: ايهاالناس، ان أحق الناس بهذا ألامر أقواهم عليه و أعلمهم بأمرالله منه «Biharul-ənvar» çild 25, səh. 116; «Nəhçül-bəlağə» səh. 558.

[2] «Kəşfül-mürad fi şərhi təcridil-etiqad» Əlammə Hilli.

[3] İmam Sadiq (ə) buyurur: « الملوك حكام على الناس، والعلماء حكام على الملوك » «Biharul-ənvar» çild 1, səh. 183.

fəqihlərə təqlid edənlər deyil, hökümət başında ancaq ki, fəqihlər olmalıdır.

Bunu da qeyd etmək lazımdır ki, dövlət işçiləri, sərhəd qoruqcuları tamamilə İslam qanunu bilib fəqih olmaları lazım deyildir, ancaq məşğul olduqları işlərə aid olan qanunları bilmək kifayətdir.

Peyğəmbər və Həzrət Əlinin zamanında da belə idi. Rəhbər bu iki məziyyətə malik olmalıdır, lakin müavinlər şəhərlərə göndərilən icra hakimləri, dövlət işçiləri ancaq öz vəzifə və işlərinə aid olan qanunları bilməli və başqa sahələrdə öz rəhbərlərindən soruşmalıdırlar.

2 - Rəhbər etiqadiyyat, əxlaqiyyat baxımından kamil olmalı, ədalətli olmalı və pisliklərdən uzaq olmalıdır. İslamın hədd kimi cəza qanununu həyata keçirmək istəyən, ölkənin əmlak və malını idarə etmək istəyən və Allah bəndələrinin ixtiyarı əlində olan şəxs günahkar olmamalıdır. «وَ لاَ يَنَالُ عَهْدِي الظالِمين»[1] Allah-Təala zülmkara belə bir ixtiyarı vermir.

Rəhbər ədalətli olmasa, müsəlmanların haqqını verməkdə, vergiləri alıb yerində xərc etməkdə, cəza qanunlarını həyata keçirməkdə vəzifəsini düzgün yerinə yetirə bilməyəcəkdir. Mümkündür ki, öz köməkçilərini, yaxın qohumlarını cəmiyyətə təhmil etsin və müsəlmanların malını öz şəxsi məqsədləri və nəfsani istəkləri uğrunda istifadə etsin.

Buna əsasən, hökümət üsulu haqqında şiənin nöqteyi-nəzəri aydındır. Şiənin nöqteyi-nəzərindən imam yüksək mənəvi dərəcəyə malik olan, islam hökümlərini bilən və qanunlarını həyata keçirməkdə ədalətli olan şəxs olmalıdır.

## Qeybət dövründə hökümət başçısının xüsusiyyətləri

Qeybət dövründə islam hökümlərinin həyata keçirilməsinin zəruri olduğu üçün anarxizmə uğramamaq, müsəlmanların namus və abırlarını qorumaq, təcavüzkarların, cəmiyyətdə hüquqların tapdalanmasının qarşısını almaq, iddiaları həll etmək və qanunları həyata keçirmək üçün hökümət lazımdır. Ona görə ki, bu kimi işlər öz-özünə görülməz, onları həyata keçirmək üçün hökümət lazımdır. Hökümət büdcə də lazım olduğu üçün müqəddəs qanunverici zəkat, xums və xərac kimi çeşidli vergilərin ödənilməsini də vacib etmişdir.

---

[1] «Bəqərə» surəsi, ayə 124.

Qeybət dövründə hökümtə başçılıq etmək üçün Allah-Təala tərəfindən bir şəxsin müəyyən olunmaması halda bizim vəzifəmiz nədir? Görəsən artıq islamı buraxmalıyıq? Hökümət qurmamalıyıq? Gözümüzün qarşısında müsəlmanların haqları tapdalandıqda sükut etməliyikmi? Yoxsa cəmiyyətə hökümət lazımdır. Allah qeyb dövründə müəyyən bir şəxsi hökümtə başçılıq etməsi üçün təyin etməsə də, lakin hökumətə başçılıq edən şəxsin xüsusiyyətlərini Həzrət Peyğəmbərin (s) zamanında Həzrət Sahibəz-zəman (ə)-ın çağına qədər müəyyən etdiyi kimi qeybət dövründə də müəyyən etmişdir. Yəni hökümətə başçılıq edən şəxs qanun bilən (hüquqşünas-fəqih) və ədalətli olmalıdır. Bu iki xüsusiyyət bizim əsrimizdə olan fəqihlərin çoxunda mövcuddur. Əgər fəqihlər birləşsələr, dünyada ədalət bayrağını qaldıraraq ədalət hökümətini təşkil edə bilərlər.

## Vilayəti-fəqih

Əgər bu iki xüsusiyyətə (rəhbərlik şərtlərinə) malik olan şəxs hökümət təşkil etsə, o, Həzrət Rəsulun (s) cəmiyyəti idarə etməkdə malik olduğu vilayətə malikdir və hamı onun əmrinə boyun əyməlidir.

Həzrət Rəsuli-Əkrəmin (s) ixtiyarı Həzrət Əmirin ixtiyarından çox olması və Həzrət Əmirin hökümətdə ixtiyarı fəqihlərin ixtiyarıından çox olması təsəvvürü batil, və səhv təsəvvürdür. Əlbəttə, Həzrət Rəsuli-Əkrəmin (s) fəzilətləri bütün aləmdən çoxdur və ondan sonra Həzrət Əmirin (ə) fəziləti hamıdan çoxdur. Lakin mənəviyyat üstünlüyü hökümətə aid ixtiyarın çox olduğuna dəlil ola bilməz. Qoşun təşkil etməkdə, icra hakimləri təyin etməkdə, vergi alıb onu müsəlmanların xeyrinə xərcləməkdə Həzrət Rəsulun (s) və digər imamların səlamüllahi əleyhim əcməin malik olduqları vilayət və ixtiyarlara eləcədə indiki hökümət də mailkdir. Lakin müəyyən bir şəxs deyildir.

## Vilayəti-etibari

«Həzrət Rəsulun (s) və İmamların (ə) malik olduğu vilayətə qeybətdən sonra adil fəqih malikdir» - deməyimiz bu təsəvvürü doğurmamalıdır ki, fəqihlərin dərəcələri Həzrət Rəsulun (s) və imamların dərəcələri ilə eynidir. Ona görə ki, burada məqam və dərəcədən deyil, vəzifədən danışılır. Vilayət, hökümət ölkəni idarə etməkdir və ağır bir vəzifədir. Müəyyən bir şəxsə qeyri-adi üstünlük gətirmir; və onu adi insan səviyyəsindən yuxarı yüksəltmir. Başqa sözlə, bəhs etdiyimiz «vilayət»

hökümət etmək və idarəçilik deməkdir, çoxların təsəvvürlərinin xilafına olaraq məziyyət deyil, ağır vəzifədir.

Vilayəti-Fəqih sözü əqlən etibari bir məfhumdur və həqiqətdə təyin etməkdir. Misal üçün səğirlər üçün qəyyum[1] təyin edir. Səğirlərin (yetimlərin) qəyyumu arasında vəzifə və mövqe baxımından heç bir fərq yoxdur. Misal üçün imam qəyyumluq üçün bir şəxsi müəyyən edir və ya bir şəxsə müəyyən iş tapşırır. Bu kimi işlərdə Həzrət Rəsul (s), imam və fəqihin fərqli olması ağla sığışmaz dərəcədədir.

Məsələn, fəqihin görəcəyi işlərdən biri İslam cəza qanununa aid olan hüdud qanununu həyata keçirməkdir. Görəsən bu hüdud qanunu həyata keçirməkdə Həzrət Rəsul (s), İmam və fəqih arasında bir fərq ola bilərmi? Məsələn 100 taziyanəsi olan zinakarın həddini Həzrət Rəsul (s) icra etdikdə 150, Əmirəl-möminin (ə) icra etdikdə 100 və fəqih icra etdikdə 50 taziyanə vurmalıdırmı? Yaxud hakim icra orqanının başçısı olduğuna görə, Allahın həddini icra edənin kimliyi istər Rəsulullah (s), ya Həzrət Əmir, ya onun Bəsrə, ya Küfədəki nümayəndə və qazısı və ya fəqih olsun – fərqi yoxdur.

Həzrət Rəsuli-Əkrəm (s) və Həzrət Əmirin (ə) digər işlərindən biri də vergi, xums, zəkat, cizyə və «xəraciyyə[2] yerlərindən» xərac almaqdır. Görəsən Həzrət Rəsul (s) zəkat alsa, nə qədər alar? Bir yerdən onda bir və başqa yerdən iyirmidən bir alar? Həzrət Əmir (ə) xəlifə olduqda zəkatı neçədən bir alar? Sən əsrin fəqihi olsan necə? Bu kimi işlərdə Həzrət Rəsulu (s) və Həzrət Əmir (ə) fəqihin vilayəti (hakimiyyəti) fərqlidirmi? Allah-Təala Həzrət Rəsulu (s) müsəlmanlara «vəli» (rəhbər) etmişdir və o Həzrət nə qədər ki, vardır hətta Həzrət Əmir (ə) vəlidir. O Həzrətdən sonra İmamın bütün müsəlmanlara və hətta özündən sonra olacaq İmama belə vilayəti (rəhbərliyi) var. Yəni onun hökumətçiliyə aid əmrlərinə hamı boyun əyməlidir.

Həzrət Peyğəmbər (s) hökmləri həyata keçirməyə və İslam sistemini qurmağa məmur olduğu kimi və Allahın onu müsəlmanlara başçı edib onun əmrlərinə boyun əyməyi hamıya vacib etdiyi kimi, adılı fəqihlər də başçı olmalı, hökmləri həyata keçirməli və islamın ictimai sistemini bərpa etməlidirlər.

---

[1] Uşağı və dəlini saxlamaq. Uşağı saxlamaq ilk növbədə ata-ananın vəzifəsidir. Bu ikisi olmayan halda hakim tərəfindən o uşaq üçün qəyyum təyin edilir.

[2] «Xəraciyyə» Peyğəmbərin (s) yaxud İmamın (ə) fərmanı ilə müsəlmanların aldıqları torpaq sahələrinə deyilir. Bu kimi torpaq sahələri bütün müsəlmanlara aiddir, onların alış-verişi qadağandır.

Fəqihlər üçün lazımdır ki, təklikdə və cəmlikdə qanunu həyata keçirmək və sistemi bərpa etmək üçün hökümət təşkil etsinlər. Bu iş bir şəxsin imkanında olsa «Vacibi-eynidir»[1], yoxsa «Vacibi-kifaidir».[2] Hətta imkan olmasa da vilayət saqit olmur (vəzifəsi alınmır - mürtəcim). Ona görə ki, Allah tərəfindən mənsubdurlar. İmkan daxilində vergi, zəkat, xums, xərac almalı və müsəlmanların işlərində xərcləməli və hüdudu (qanunu) həyata keçirməlidirlər. Bu, demək deyildir ki, ümumi hökümət təşkil edə bilmədikdə işdən kənara çəkilək. Müsəlmanların möhtac olduğu işləri və İslam hökümətinin öhdəsində olan vəzifələri, imkan daxilində həyata keçirmək lazımdır.

## Vilayəti-təkvini

İmam (ə)-ın vilayətini sübut etmək bu demək deyildir ki, mənəvi dərəcəsi olmasın. İmamlar hökümətə başçılıq etmək vəzifəsindən əlavə yüksək mənəvi dərəcələrə də malikdirlər. O isə ilahi xəlifəlikdir ki, bəzən İmamlar (ə) onu qeyd etmişlər. Ona «təkvini» vilayət deyilir ki, onun əsasında bütün varlıq vəliyyi-əmrin (imamın) ixtiyarındadır. Bu bizim etiqadiyyatımızdandır ki, heç kəs imamların mənəvi dərəcələrinə çata bilməz. Məliki-müqərrəb, peyğəmbərlər, Həzrət Rəsul (s) və İmamlar (ə) (rəvayətlərə əsasən) bu aləm xəlq olmamışdan əvvəl Ərşə bir nur idilər, rüşeym bağlanmaları və paklıq etibarı ilə başqa insanlardan fərqli olub.[3] Sonsuz mənəvi dərəcələrə malikdirlər. Necə ki, meracda Həzrət Cəbrail dedi:

لَوْ دَنَوْتُ أنْمُلَةً، لاحْتَرَقْتُ

Əgər bir az yaxınlaşsaydım yanmışdım.[4]

مَعَ اللَّهِ حالاتٌ لا يَسَعُهُ مَلَكٌ مُقَرَّبٌ وَ لا نَبِيٌّ مُرْسَلٌ

---

[1] «Vacibi-eyni» o vacib deyilir ki, onu yerinə yetirmək hamı üçün vacibdir və başqaları o işi görməklə onun boynundan vəzifə götürülmür. Namaz və oruc kimi.

[2] «Vacibi-kifaidə» məqsəd işin görülməsidir. Hər hansı işi kimsə yerinə yetirsə, başqalarının boynundan götürülür və daha onu həyata keçirmək lazım deyil. Əmrbe-məruf, nəhyəz-münkər, meyidə qüsl vermək, meyidə namaz qılmaq və onu kəfənlənmək etmək kimi işlər.

[3] «Bəsairüd-dərəcat» çild 1, səh. 20.

[4] «Biharül-ənvar» çild 18, səh. 382.

**«Bizim Allahla elə hallarımız var ki, müqərrəb mələk və peyğəmbərlərin yoxdur».**[1]

Bu bizim məzhəbimiz əsaslarındandır. Bu kimi yüksək mənəvi dərəcələrə Həzrət Zəhra (s.ə) da malikdir.[2] (Baxmayaraq ki, o xanım nə hakim idi, nə qazi idi və nə də xəlifə). Bu mənəvi dərəcələr hökümət vəzifəsindən başqadır. Biz deyəndə ki, Həzrət Zəhra (s.ə) xəlifə və ya qazi deyildir, bu mənaya deyil ki, o Həzrət bizim kimi adi şəxsdir, ya bizdən mənəvi baxımdan üstünlüyü yoxdur. Bunu demək olmaz.

النَّبِىُّ أَوْلَى بِالْمُؤْمِنِينَ مِن أَنفُسِهِمْ

***«Peyğəmbər möminlərin özlərindən daha üstündürlər».***[3] Bu söz bunu ifadə edir ki, Həzrət Rəsul (s) möminlərə hakim olmaqdan əlavə üstün dərəcələrə də malikdir. Biz bu sahədə çox söhbət etmək istəmirik.

## Hökümət vəsilədir (vasitədir)

Hökümət etmək əslində yalnız rəhbərlik etmək deyil, eyni zamanda vəzifəni yerinə yetirmək, əhkamı həyata keçirmək və islamın ədalətli sistemini bərpa etmək üçün bir vəsilədir. Həzrət Əli (ə) hökümət haqqında İbn Abbasa[4] deyir: «Bu ayaqqabı neçəyə dəyər?» Dedi: «Heç neçəyə!» Buyurdu ki, sizə hakim olmaq mənim yanımda bu ayaqqabından da dəyərsizdir. Amma onda dəyərli olar ki, «sizə hökm etməklə haqqı (yəni qanun və islamı) bərpa edə biləm və batili (yəni zülm sistemini) aradan qaldıram».[5] Deməк hakim olmağın özlüyündə bir dəyər yoxdur və Allah adamları üçün əgər bu vəsilə yaxşı işlərdə və yüksək məqsədlər yolunda işlənilməsə, heç bir dəyəri yoxdur. Buna əsasən Həzrət Əli (ə) «Nəhçül-bəlağədə» buyurur: **«Əgər mənim üçün bir qaçaq yolu olsaydı və bu işə məcbur olmasaydım – yəni hökümətə – onu buraxardım».** Aydındır ki, hökümət başçısı olmaq bir vəsilədir, mənəvi bir məqam deyildir. Mənəvi məqam olsaydı nə onu qəsb etmək olardı və nə də ki, buraxmaq olardı. Əgər hökümət ilahi hökmləri həyata keçirmək və islamın ədalətli sistemini bərpa olunması üçün bir vəsilə kimi olsa, qiymətlidir və onun başçısı yüksək mənəviyyata malik olar.

---

[1] Əllamə Məclisi «Ərbəin» səh. 177.
[2] «İləlüş-şəraye» çild 1, səh. 123; «Biharül-ənvar» çild 43, səh. 12.
[3] «Əhzab» surəsi, ayə 6.
[4] Abdüllah ibn Abbas ibn Əbdülmüttəlib Həzrət Rəsulun (s) və Həzrət Əlinin (ə) əmisioğludur. O, Quranın təfsirini Həzrət Əli (ə)-dan öyrənmişdir.
[5] «Nəhçül-bəlağə» xütbə 33.

Bəziləri belə xəyal edirlər ki, hökümət İmamlar (ə) üçün bir məqamdır ki, başqası o məqamı yiyələnsə dünya bir-birinə dəyər. Halbuki, Amerika Prezidenti, İngiltərə və Sovet İttifaqının baş nazirirləri kafir olduqlarına baxmayaraq hakimiyyətdədirlər və üzdən iraq qanunları həyata keçirməklə öz ziddi-insani məqsədlərinə çatırlar.

Ədalətli fəqihlər və imamlar gərək hökümət təşkilatlarını ilahi hökmləri həyata keçirmək, ədalətli İslam sistemini qurmaq və xalqa xidmət etmək yolunda işlətsinlər. Sırf hökümətdə olmağın onlar üçün küllü problemlərdən başqa bir mənfəəti yoxdur. Vilayəti-Fəqih mövzusu vəzifəni yerinə yetirməkdir.

## Hökümətin üstün məqsədləri

Həzrət Əli (ə) hakimin hökümətə sahib olmaq istəməsi barədə deyir ki, hökümətə başçılıq etmək haqqı bərpa etmək və batili aradan aparmaq üçündür. Həzrətin sözü budur: «İlahi sən bilirsən ki, biz hökümət üçün deyil, məzlumları qurtarmaq üçün qiyam etmişik. Mənim hökümət başçılığını qəbul etməyə səbəb olan şey budur ki, «Allah alimlərdən söz almışdır ki, zülmkarların zülmü, istismarı və məzlumların üzücü aclıqları qarşısında süküt etməsinlər».[1] Ya buyurdu:

اللّهُمّ، إنّكَ تَعْلَمُ أنّهُ لَمْ يَكُنِ الّذى كانَ مِنّا مُناقَسَةً فِى سُلطانٍ، وَ لا الْتِماسَ شَيْءٍ مِنْ فُضُولِ الحُطام

**«İlahi, sən bilirsən ki, bizim gördüyümüz işlər qüdrət, artıq gəlir əldə etmək üçün deyildir».**

Dərhal ondan sonra səhabələrinin nə məqsədlə səy göstərmələri barədə buyurur:

وَ لكِنْ لِنَرُدَّ المَعالِمَ مِنْ دينِكَ، نُظْهِرَ الإصلاحَ فِى بلادِكَ فَيَأمَنَ المَظلُومُونَ مِنْ عِبادِكَ، وَ تقامَ المُعَطَّلَةُ مِنْ حُدُودِكَ

**«Buna görə idi ki, dinin aydın üsulunu qaytaraq, bərpa edək və ölkəni islah edək ki, nəticədə məzlum bəndələr əmin-amanlıqda olsunlar, icraları dayandırılmış qanunlar (cəza qanunları) həyata keçirilsin».**

## Bu məqsədlərə çatmaq üçün lazımi xüsusiyyət

[1] «Nəhçül-bəlağə» xütbə 3 (Şiqqiqiyyə).

Dövlət təşkil etməklə islamın yüksək məqsədlərinə çatmaq istəyən şəxs bundan əvvəl dediyimiz qanunu bilmək və ədalətli olmaq xüsusiyyətlərinə malik olmalıdır. Bunan görə Həzrət Əli (ə) hökümətin məqsədlərini sayarkən hakimin lazım xüsusiyyətlərini də qeyd edir:

اللهُمَّ انّى أوَّلُ مَنْ انابَ وَ سَمِعَ وَ أجابَ. لَمْ يَسْبِقنى إلاّ رَسُولُ اللَّهِ صلّى اللّه عَلَيهِ وَ آلِه بالصّلاةِ. وَ قدْ عَلِمْتُمْ أنّهُ لا يَنْبغى أنْ يَكونَ الوالي عَلى الفُرُوجِ وَ الدّماءِ وَ المَغانِمِ وَ الأحْكامِ وَ إمامَةِ المُسلِمينَ البَخيلُ. فتَكونَ فى أموالِهِمْ نَهمَتُهُ. و لا الجاهِلُ فيُضِلُّهُم بجَهلِهِ. وَ لا الجافِى فيقطَعهم بجَفائِهِ، وَ لا الخائِفُ لِلدُّوَلِ فيَتَّخِذ قوماً دُونَ قوْمٍ. وَ لا المُرْتَشى فِى الحُكم فيَذهَبَ بالحُقوقِ وَ يَقِفَ بها دُونَ المَقاطِعِ، وَ لا المُعطِّلَ لِلسُّنَةِ فيُهْلِكَ الامَّةَ.

**«Pərvərdigara mən sənə üz gətirən və dinini qəbul edən ilk şəxsəm. Heç kəs, (Peyğəmbərdən başqa) məndən əvvəl namaz qılmayıb. Siz camaat bilirsiniz ki, müsəlmanların namusuna, qanına, gəlirinə və əhkamına vilayəti (hakimiyyəti) olan və müsəlmanlara rəhbər olan şəxs paxıl ola bilməz, yoxsa müsəlmanların malına göz tikər».**[1] Cahil də olmamalıdır, yoxsa camaatı cəhli ilə düz yoldan azdırar. Zülmkar və sərt olmamalıdır ki, camaat onun sərtliyinə görə onunla əlaqədə olmasınlar. Dövlətlərdən qorxmamalıdır ki, birilə dost olsun və başqası ilə düşmən. Məhkəmə işində hökm verəndə rüşvətxor olmamalıdır, yoxsa camaatın hüququ tapdalanar və haqq sahibinə yetişməz. Qanunu tətil etməməlidir, yoxsa ümmət zəlalətə və fəlakətə düşər.

Dürüst diqqət edin ki, bu rəvayətdə iki mövzu barəsində söz gedir. Biri «elm» o birisi «ədalət»-dir. Bu iki xüsusiyyət hakim üçün lazımdır. «لا الجاهل فيضلهم بجهله» ibarətində «elm» xüsusiyyətini göstərir və başqa ibarətlərdə isə ədalətə işarə edir. Həqiqi ədaləti göstərir. Həqiqi ədalət isə dövlətlərlə, camaatla davranmaqda, məhkəmə işlərində, büdcəni bölməkdə Həzrət Əli (ə) kimi davranmaqdır. Malik Əştərə[2] və ümumiyyətlə bütün hakimlərə[3] göstərdiyi proqram üzrə əməl etmək həqiqi ədalətdir. Fəqihlər də hakim olsalar buna bir düstur kimi əməl etməlidirlər.

---

[1] «Nəhçül-bəlağə» xütbə 131.

[2] Malik Əştər adı ilə məşhur Malik ibn Harisi-Nəxəi İslam sərkərdələrindən olub Cəməl və Siffeyn müharibələrində Həzrət Əli (ə) ilə birlikdə döyüşüb sonra Misirə imamın tərəfindən vali göndərilmişdir. Malik Misir yolunda Müaviyənin hiyləsilə zəhərlənərək şəhid edildi. İmamın Malikə xitabən fərmanı «Nəhçül-bəlağə» 53 nömrəli məktubda Maliki-Əştərin əhdnaməsi adı ilə dərc olunmuşdur.

[3] «Nəhçül-bəlağə» məktub 53.

## DÖRDÜNCÜ HİSSƏ

## RƏVAYƏTLƏRƏ GÖRƏ VİLAYƏTİ-FƏQİH

### Həzrət Rəsuli-Əkrəmin (s) canişinləri ədalətli fəqihlərdir

Dəlil olmasında şübhəsi olmayan rəvayətlərdən biri bu rəvayətdir:

قال امير المؤمنين (ع) قال رَسول اللّٰه (ص): اللّٰهُمَّ ارْحَمْ خُلَفائى (ثلاث مرّاتٍ) قيل: يا رسول اللّٰهِ، و مَن خلفاؤك؟ قالَ: الّذينَ يَأتُونَ مِنْ بَعْدى، يَرْوُونَ حَدِيثى وَ سُنّتي فَيُعلِّمُونَها النّاسَ مِنْ بَعْدي

Əmirəl-möminin buyurur: Həzrət Rəsulu (s) buyurdu: «İlahi mənim canişinlərimə rəhmət göndər» və bu sözü üç dəfə təkrar etdi. Soruşdular: «Ya Rəsulallah! Sənin canişinlərin kimlərdir?» Buyurdu: «Məndən sonra gəlib mənim hədis və ənənəmi nəql edib xalqa öyrədənlərdirlər».[1]

Şeyx Səduq (ə.r)[2] bu rəvaəti «Maaniyül-əxbar»[3], «Üyunul-Riza»[4] və «Məcalis»[5] kitablarında beş təriqlə (ikisi ortaq olduğuna əsasən dörd təriqə ilə) nəql edib. Rəvayət «Müsnəd»[6] şəklində zikr olan yerlərdə bir yerdə «فَيُعلِّمُونَها» və qalan yerlərdə «فَيُعلِّمُونَها النّاسَ» zikr olmuşdur[7] və «Mürsəl»[8] sürətdə zikr olan yerlərdə ancaq rəvayətin baş hissəsi var «فَيُعلِّمُونَها النّاسَ» və ondan sonrakı sözlər yoxdur.[9]

## Biz bu rəvayəti iki baxımdan araşdırırıq

Tutaq ki, rəvayət «vahidə» (bir rəvayət) olub « فَيُعلِّمُونَها » cümləsi artıq olsun, yaxud bu cümlə varmış və sonralar çıxarılıbdır, cümlənin şıxarılması həqiqətə yaxındır; ona görə ki, əgər əlavə edilmiş olsa, demək olmz ki, səhv üzündən əlavə edilmişdir. Və dediyimiz kimi rəvayət neçə təriqlə (sürət və şəkildə) rəvayət olmuşdur, ravilər isə bir-birindən uzaqda yaşayırmışlar: Biri Bəlxdə, biri Neyşaburda və biri də başqa yerdə.

[1] «Vəsalüş-şiə» sahibi bu hədisi qəza kitabında gətirmiş və «Maaniyül-əxbar», «Məcalisdə» və «Uyunda» da yazılmışdır ki, sənədləri müxtəlifdir, onların hər biri bir yerdə (Mərv-Neyşabur və Bəlxdə) yaşayıblar. (müəllif)

[2] Məhəmməd ibn Əli ibn Hüseyn ibn Musa ibn Babaveyhi əl-Qumi. «Səduq» ləqəbi və «İbn Babavey» adı ilə məşhur olub (381 h.q.) böyük şiə fəqihi olub İmam Zamanın qeybəti süğrasında (kiçik qeybətində) anadan olub. O, atası Əli ibn Babavey, Məhəmməd ibn Həsən ibn Vəlid və Cəfər ibn Məhəmməd qoliyədən və şeyx Müfid, ibn Şazan, Ğəzairi və şeyx Əbu Cəfər ondan rəvayət etmişlər. Səduqun 300 kitabı olub, ən məşhurları bunlardır: «Mən la yəhzəuhul-fəqih», «Əl-xisal», «Ət-tövhid», «Uyunul-əxbarir-Rza», «Ələmali», «Maaniyül-əxbar», «İləlüş-şəraye», «Kəmalüd-din».

[3] Şeyx Səduq bu kitabda məsumların sözləri və rəvayətlərinin təfsirindən olan hədisləri toplamışdır.

[4] Cild 2, səh 37, bab 31, hədis 94. Bu kitab Həzrət İmam Rzanın hədisləri və şərh-halını ehtiva edir. (139 babdır)

[5] Cild 152, məc. 34, hədis 4. Bu kitab «Əmali» ya «Məcalis» adlanır, 97 məclisdir və Şeyx Səduqun əsərlərindəndir.

[6] «Müsnəd» o rəvayətə deyilir ki, bütün ravilər məsum İmama çatana kimi adı verilir.

[7] «Məcalis» kitabında « فَيُعلِّمُونَها » və «Üyunül-əxbarda» «فَيُعلِّمُونَها النّاسَ » gəlmişdir.

[8] Mürsəl o rəvayətə deyilir ki, onun ravilərinin hamısı ya bəzisinin adı sənəd silsiləsindən düşümüş ola.

[9] «Mən la yəhzəuhul-fəqih» cild 4, səh 302, «ənnəvadir» babı, hədis 95.

Bununla bu cümləni qəsdən əlavə etmək olmaz və bir-birindən uzaq yaşayan üç şəxsin beynində eyni cümlənin yaranması çətin işdir. Deməkrəvayət «vahidə» olmuş olsa biz inanırıq ki, «فَيُعلِّمُونَها» cümləsi Şeyx Səduqun nəql etdiyi təriqdən (surətdən) düşmüş və kitab onu yazmamışdır, yaxud Səduq (r.ə) onu zikr etməmişdir.

İkinci fərziyyə budur ki, iki hədis və rəvayət olmuş olsun: Biri fəyuəllimunəha cümləsi və biri də hədisin əvvəlində olan cümlə olsun. Bu cümlənin hədisdə olmasını təqdirə almaqla peşələri nəql edib sahib rəy və sahib fətva olmayan şəxsləri ehtiva etmir və demək olmaz ki, hədisdən baş açmayan və « رُبَّ حامل فقهٍ لَيْسَ بفقيهٍ »[1] etibarı ilə bir vasitə kimi rəvayət, hədis yazan hədisçilər də xəlifədirlər və İslam elmlərini təlim edirlər. Əlbəttə, onların zəhmətləri dəyərlidir və onların bir çoxu fəqih və sahib-rəy idilər. Küleyni,[2] Şeyx Səduq və Şeyx Səduqun atası[3] fəqih olub İslam əhkam və elmlərini təlim edirmişlər. Bizim «Şeyx Səduqla Şeyx Müfid[4] fərqlidirlər», deməkdə məqsədimiz Şeyx Səduqun fəqih olmadığını sübut etmək deyil, yaxud şeyx Müfiddən səviyyəsi aşağı idi; Şeyx Səduq o şəxsdir ki, bir məclisdə bütün üsul və firuatı izah edib.[5] Lakin onun Müfidlə fərqi odur ki, Şeyx Müfid kimi müctehidlər öz nəzərlərini hədis və rəvayətlərə daxil edirdilər və Səduq (r.ə) o fəqihlər zümrəsindən idi ki, öz nəzərlərini ya heç daxil etmir ya da az miqdarda daxil edirdi.

Hədis İslam elmlərini və hökmlərini bəyan edib yayanlara aiddir. Necə ki, Həzrət Rəsul (s) və imamlar (ə) İslam əhkamını yayırdılar. Elm mərkəzləri yaradıb neçə min nəfər şagirdlərə elm öyrədib və bilməyənlərə öyrətməli idilər. «Yuəllimunəhən-nasə»-nin mənası budur ki, İslam elmlərini xalqın içində yaysınlar və İslam əhkamını xalqa çatdırsınlar. Əgər «islam bütün dünya xalqları üçündür» - deyiriksə, onda aydınlaşır ki, müsəlmanlar və xüsusilə İslam alimləri islamı və əhkamını dünya xalqlarına tanıtdırmalıdırlar.

---

[1] Həzrət Rəsulu (s) Xif məscidində demişdir:
«فرب حامل فقه ليس بفقه الى من هو أفقه منه»
«Bir çox şəxslər var ki, elm kitabları daşıyırlar, lakin alim deyillər və bir çox elm xadimləri var ki, onu özlərindən daha aliminə çatdırırlar». «Üsuli-kafi» çild 2, səh. 258.

[2] Mühəmməd Yəqub ibn İshaq Kuleyni (250-329 h.q) «Siqətül-islam» ləqəbi ilə məşhur olmuş və şianin böyük hədisçilərindəndir. O, «kütübi-ərbəən»-in ilk müəllifidir və «Kafi» kitabını üç hissədə «üsul», «fiqhi» və «rövzə»-də yazmışdır.

[3] Əli ibn Hüseyn ibn Musa ibn Babaveyh (329 h.q) fəqih və hədisçi olub, «Əttövhid», «Əssəlat», «Əşşəraye» onun əsərləridir.

[4] Əbu Abdullah Məhəmməd ibn Məhəmməd ibn Nöman əl-Bağdadi (336 ya 338-413 h.q) «Şeyx Müfid» ləqəbi ilə məşhur olmuşdur. Ələmülhüda seyid Rəzi, seyid Mürtəza, şeyx Tusi onun şagirdləri olub. 200 əsəri var, o cümlədən «əl-İrşad», «ixtilas», «əmali»...

[5] «Ələmali» səh 5, 9-52 və «Biharül-ənvar» çild 10, səh. 393-405.

Desək ki, «Yuəllimunəhən-nasə» cümləsi hədisin sonunda yoxmuş, gərək Peyğəmbər həzrətlərinin

اللّهم ارحم خلفائي ... الّذين ياتون من بعدى يروون حديثى و سُنتى

deməsinin nə mənası vardır. Bu surətdə rəvayət «fəqih» olmayan şəxsləri də ehtiva edir. Ona görə ki, bütün hökmlərdən ibarət olan ilahi ənənə, Peyğəmbərə nazil olduğuna görə Rəsulullah Ənənəsi adlanır. Demək Həzrət Rəsulun (s) ənənəsini yaymaq istəyən şəxs bütün ilahi hökmləri bilməlidir. Düzü səhvdən ayırd edə bilməlidir, «itlaq» və «Təqyidi»[1], «Amm» və «Xassı»[2] və «Cəmi-üqəlanı»[3] başa düşməlidir.

«Təqiyyə» vəziyyətində deyilmiş rəvayətləri seçə bilsin. İctihad dərəcəsinə yüksəlməyən hədisçilər bunları və Həzrət Rəsulun həqiqi ənənəsini ayırd edə bilməzlər. Bunun Həzrət Rəsulun nəzərində qiyməti yoxdur. Məlumdur ki, o Həzrət istəmirdi ki, ancaq «qalə Rəsulullah» və «ən Rəsulullah» xalqın arasında məmul olsun. Həzrətin məqsədi bu idi ki, həqiqi ənənə məmul olsun və islamın həqiqi əhkamı xalq arasında yayılsın.

«مَنْ حَفِظَ عَلى امّتى أرْبَعينَ حَديثاً، حَشَرَهُ اللّهُ فَقيهاً»[4]

və bu sahədə olan digər hədislər[5] hədisin mənaca nə olduğunu bilməyən şəxslərə aid deyildir. Bu hədislər o şəxslərin haqqındadır ki, Həzrət Rəsulun (s) hədislərini İslamın həqiqi hökmü əsasında seçə bilsinlər. Ancaq müctəhid və fəqih olan şəxslər əllərində olduqları qaydalarla islamın həqiqi hökmlərini əldə edə bilərlər. Bunlar Rəsulullahın xəlifələridirlər ki, İslam əhkamını yayır və İslam elmlərini

---

[1] Üsul elmləri terminində «mütləq» o sözə deyilir ki, öz əfradına məna etibarı ilə mütləq olsun, məsələn «Kişi» sözü hər bir erkək insana deyilə bilər və «müqəyyəd» o sözə deyilir ki, mütləq olmasın məsələn «alim olan kişi». [hər bir erkək olan şəxsə alim deyilməz].

[2] Amm üsul elmləri terminologiyasında o sözə deyilir ki, öz əfradını məna etibarı ilə əhatə etsin. Amm ədatları ilə ifadə olunan sözlər həmin mənadadır məsələn «hər bir alimə hörmət et» cümləsi «hər bir alim» amm adatıdır və bütün alimləri ehtiva edir və «Xass» isə o sözə deyilir ki, ancaq bəzi şəxslərə aid olsun, yəni müstəsna olan ədatlarla ifadə olunsun, məsələn, «Pəhrizkar olmayan alimlərdən başqa bütün alimlərə hörmət elə» cümləsində «başqa» ədatı alimlərin bəzisini müstəsna etmişdir.

[3] «Cəmi-üqəlayi» ona deyilir ki, zahirdə zidd olan iki ifadəni birləşdirib heç birini etibardan salmayasan və bu yolla natiqin məqsədini məlum edəsən. Misal üçün hər bir zinakar kişi və qadına yüz taziyanə vurun və «Evli zinakarı daşlayın» (daş qalaq edin). Zahirdə bu iki ifadə ziddiyətlidir, amma aqil şəxslər birincisini «Amm», ikincisini isə «Xass» tutub, başqa sözlə xassı ammın dairəsindən çıxarıb hər iki dəlilə əməl edirlər.

[4] Bu məfhum şiə və sünni qaynaqlarda müxtəlif şəkildə ifadə olunmuşdur. Məsələn «Xisal» cild 2. ixtisas səh 2; «Biharül-ənvar» çild 2.

[5] «Üsuli-kafi» cild 1; «Biharül-ənvar» çild 2, bab16-20-21.

xalqa öyrədirlər. Ona görə də Həzrət onların haqqında اللّهم ارحم خلفائی deyə dua etmişdir.

Deməkşübhə yoxdur ki, اللّهم ارحم خلفائی rəvayəti ancaq katib olub rəvayəti yazan şəxslər Həzrət Rəsulun (s) xəlifəsi ola bilməz. «Xəlifələr» dedikdə «fəqihlər» nəzərdə tutulur.

Əhkamı yaymaq və xalqı tərbiyə etmək adil olan fəqihlərin işidir, ona görə ki, əgər adil olmasalar. İslam ziddinə rəvayət düzəldən qızılar kimi olarlar. Həzrət Əli (ə)-ın ziddinə rəvayət saxtakarlıq edən Səmərət ibn Cündəb[1] kimi. Əgər fəqih olmasalar fiqhin nə olduğunu və İslam hökmünün hansısı olduğunu bilməzlər və mümkündür ki, hakimlərin tərifində saray axundları minlərcə rəvayət saxtakarlıq etmiş olalar. Gördüyünüz kimi iki [sənəd və doğruluq baxımından] zəif rəvayətlə nə büsat açmışlar![2] Və onu Quranın qarşısına çıxarmışlar – o Quranın ki,

---

[1] Əbu Əbdür-rəhman Səmərət ibn Cündəb ibn Məval ibn Cüreyh (58 h.q) Peyğəmbərdən bir çox rəvayətlər etmişdir. O, (Ziya öləndən) sonra Bəsrədə onun xəlifəsi oldu və sonra Müaviya onu işdən azad etdi. Təbəri yazır ki, Səmrə Bəsrədə olan vaxtda 8 min nəfərin öldürülməsinə hökm verdi. Küfəyə gəldikdə Ziyad: «Günahsız şəxs öldürdüyündən qorxmursan?» deyə soruşdu. Dedi: «Bundanda çox öldürsəydim qorxmazdım». İbn Əbil-Hədidən «Nəhçül-bəlaqənin şəhr»hində nəql olmuşdur ki, Müaviya ona 100 min dirhəm verib təklif etdi ki « من الناس من يعجبك قوله فى الحياه الدنيا » «Bəqərə» surəsinin 204-cü ayəsini Əli ibn Əbutalibin şənində və « و من الناس من يشرى نفسه ابتغاى مرضات الله » («Bəqərə» surəsi, ayə 207) ayəsi Mülcəmin barəsində göndərilməsinə dair rəvayət düzəltsin, Səmərə isə 400 min dirhəm aldı ki, saxta rəvayət yazsın.

[2] Rəvayətlərin arasında padşahlara itaət etməyə dair azaraq rəvayət tapılar. Bu rəvayətlər bəzilərin əlində zülümkarın qarşısında sükut etməyə əsas olmuşdur. Baxmayaraq ki, rəvayətlər sənəd baxımından zəif və dəlalət baxımından yetərsizdir, amma burada məsələni aydınlaşdırmaq üçün üzərində dayanmağı lazım bildik. Bu rəvayətlərdən ikisini qeyd edirik:

عن جماعه عن أبى المفصل، عن بن جعفر بن محمد، عن آبائه (عليه السلام) عن النبى (ص)، قال: السلطان ظل الله فى الارض، يأوى اليه كل مظلوم، فمن عدل كان له و على الرعيه الشكر. و من جار كان عليه الوزر و على الرعيه الصبر حتى يأتيهم الامر

Peyğəmbər buyurdur: **«Padşah Allahın yer üzündə kölgəsidir, hər bir zülm görmüş şəxs ona müraciət edə bilər. Əgər ədalətli olsa, mükafata laiqdir və xalq ona təşəkkür etməlidir və zülm etsə, günah edibdir. Xalq isə Allahın əmri gələnə kimi dözməlidir».** «Biharül-ənvar» çild 72, səh. 354.

محمد بن على بن بشاره، عن على بن ابراهيم القطان، عن محمد بن عبدالله (ص): طاعه الشيطان واجبه و من ترك طاعه السلطان، فقد ترك طاعه الله عزوجل، و دخل فى تهيه. ان الله عزو جل يقول: و لا تلقوا بأيدكم الى التهلكه.

Peyğəmbər buyurdur: **«Padşaha itaət etmək vacibdir. Ona itaət etməyən Allaha itaət etməmək kimidir. Və onun nəhyində gəlmişdir ki, öz əlinizlə özünüzü təhlükəyə salmayın».** (Həmən qaynaq)

Amma birinci rəvayətdə ravilərin əbil-müfəzzəli zəifdir. Əli ibn Həsən naşünasdır və Hüseyn ibn Zeyd də mötəbər deyil. İkinci rəvayətin ravilərindən Əli ibn İbrahim və Məhəmməd ibn Məsəb tanış deyil və Məhəmməd ibn Əbdullah, Əhməd ibn Bəkr,

şahlar əleyhinə qiyam etmiş və Həzrət Musanı şahlar əleyhinə qiyam etməyə vadar etmişdir.[1] Qurandan əlavə zülmkarlarla mübarizə aparmağa dair çoxlu rəvayətlər vardır.[2] Bu kimi, rəvayətləri qoyub iki zəif rəvayəti - hansı ki, bəlkə də saray vaizləri düzəldiblər - əldə əsas tutub deyirlər ki, padşahlarla yola gəlmək lazımdır. Əgər bunlar rəvayətşünas və dinşünas olsaydılar zalımlara zidd olan rəvayətlərə əməl edərdilər. Rəvayətşünas olsalar da ədalətləri yoxdur, buna görə də Qurana və rəvayətlərə baxmayaraq iki zəif rəvayəti əldə əsas tuturlar. Onların bu iki zəif rəvayətə bağlanmaları elmlərindən deyil, acgözlüklərindən irəli gəlir. Həqiqətən də rəvayət deyil, tamahkarlıq irəli gəlir. Həqiqətən də rəvayət deyil, tamahkarlıq insanı saraya yaxınlqaşdırar.

Hər halda İslam elimlərini yaymaq adil fəqihlərin vəzifəsidir. Ona görə ki, onlar həqiqi hökmləri və habelə imamların «Təqiyyə» üzündən dedikləri rəvayətləri seçə bilirlər. Bizim imamlarımız bəzən elə vəziyyətə olublar ki, həqiqi hökmü deyə bilməyiblər. Təqiyyədə (sükut halında) və qorxuda yaşamamışlar (əlbəttə özlərinə görə deyil, məzhəbə görə qorxurdular). Əgər bəzən təqiyyə etməsəydilər zülmkar hakimlər məzhəbin kökünü kəsərdilər.

Amma hədisi-şərifin «Vilayəti-fəqihə» etməsində şübhə yeri yoxdur. Ona görə ki, «xilafət» Peyğəmbərin hər bir işində ona canişindir və «اللهم ارحم خلفائی » cümləsi «عَلِيٌّ خليفتي» (Əli mənim xəlifəmdir) cümləsi kimidir və hər iki cümlədə «xilafət» eyni maənadır və

الذين يأتون من بعدي ويروون حديثي

cümləsi xəlifələri tanıtdırır, xilafətin mənası deyil. Ona görə ki, islamın ilk dövründə xilafət məchul bir mövzu deyil idi ki, izah edilməli olaydı, ona görə də sual edən xilafətin mənası sual etmədi. Həzrətdən şəxslərin tanıtdırılmasını istədilər və Həzrət də belə təqdim etdi. Təəccüblüdür ki, heç kəs «عليّ خليفتي» və «الائمه خلفائي» cümlələrində «xilafət» sözündə sual qaldırmayıbdır. Lakin «ارحم خلفائي» cümləsində «xəlifə» sözündə dayanmışlar. Onlar belə güman ediblər ki, güya Həzrət Rəsulun xilafəti bər həddə məxsusdur və ya məxsus şəxslərə aidddir. Güya İmamların hər biri xəlifə olduqlarına görə imamlardan sonrakı alimlər xəlifə ola bilməzlər, və İslam başsız qalmalı, əhkam tətilə uğramalıdır, nəticədə

---

Himad ibn Sələmə, Sabit və Ənəs mötəbər deyillər. Bu rəvayətlərin qarşısında çoxlu rəvayətlər var.

[1] «Əraf» surəsi, ayə 103; «Yunis» surəsi, ayə 75-85; «Taha» surəsi, ayə 23-43; «Mümtəhinə» surəsi, ayə 45-47; «Naziat» surəsi, ayə 17.

[2] «Vəsalüş-şiə» çild 11, «Əlcəəhad» hissəsi, əmr be məruf və nəhəz münkər hissəsi...

İslamın sərhədləri din düşmənləri əlində olsun və islam həmin uzaq olduğu inhiraflara uğrasın.

محمد بنُ يحيى، عن احمد بن محمد، عن ابنِ محبوبٍ، عن عليّ بنِ ابى حمزةَ، قال سمعت أبا الحسن موسى بنَ جعفر، عليهما السلام، يقول: إذا ماتَ المُؤْمِنُ، بكَتْ عَلَيْهِ الملائِكَةُ وَ بقاعُ الارْضِ الّتي كانَ يَعْبُدُ اللَّهَ عَلَيْها، و أبْوابُ السّماءِ الّتي كانَ يصْعَدُ فيها بأعْمالِهِ؛ وَ ثُلِمَ فى الاسلام ثُلمةٌ لا يَسُدّها شَيْءٌ، لأنّ المُؤْمِنينَ الفقهاءَ حُصُونُ الاسْلام كَحِصْنِ سُورِ المَدِينَةِ لها

Deyir: «İmam Musə ibn Cəfər Sadiqdən eşitdim ki, deyirdi: Mömin (mömin fəqh) öldükdə ona mələklər, Allahı pərəstiş etdiyi yerlər və əməlləri yüksəldiyi göylər ağlayar. İslam qalasında elə bir yarıq icad olar ki, heç şey onu doldurmaz. Ona görə ki, mömin fəqihlər İslamın qalxanı və islam şəhər divarları kimi divardırlar».[1]

## Bu rəvayətin mətni bairədə

Bu barədə «Üsuli-kafi»də başqa bir rəvayət var ki, اذا مات المؤمن الفقيهُ gəlmişdir.[2] Halbuki, yuxarıdakı rəvayətdə əlfəqih sözü düşübdür, lakin ondan sonra gələn «لأن المؤمنين الفقهاءَ» cümləsi onun varlığını subut edir. Xüsusilə «sülmün fil-islam», «hisn» və bu kimi sözlərdən nəticə alınır ki, məqsəd fəqihlərdir.

## Rəvayətin anlayışı

«Fəqihlər islamın sipəri (qalxanı)-dır» deməsi həqiqətdə fəqihləri islamı qorumağa məcbur edir. Aydındır ki, imamın sözü ciddidir. Bizim kimi deyildir ki, sən mənə «şəriətçi» deyəsən və mən də sənə. Yaxud məktubda bir-birimizə həzrəti-müstətab, hüccətül-islam yazaq. Əgər fəqih mənzilinin bir güşəsində oturub heç nəyə qarışmasa, nə İslamın qanunlarını qorusa və nə İslam hökmlərini yaysa, nə müsəlmanların ictimai məsələlərinə qarışsa və nə də ki, müsəlmanların işləri ilə maraqlanmasa, ona İslamın «qoruqçusu» (hisni) demək olarmı? O İslamı qoruyurmu? Əgər hökümət başçısı ordu başçısına müəyyən bir hissəni qorumaq əmr etsə, sərkərdə gedib evdə otura bilərmi? Yoxsa oranı tam

[1] «Kafi» çild 1, səh. 47, «fəzlül-elm» kitabı fiqhül-üləma, hədis 3.
[2] «Kafi» çild 1, səh. 46, «fəzlül-elm» kitabı fiqhül-üləma, hədis 2.

ciddiyyətlə qorumağa çalışmalıdır? Desəniz ki, biz İslamın bəzi hökümlərini qoruyuruq, mən sizdən soruşuram: İslam cəza qanunlarını icra edirsinizmi? Əllbətə ki, yox. Belə olan halda burada bir nöqsanlıq törənir, sanki qarovulçuluq etdiyiniz (qoruduğunuz) vatda qalanın bir divarı təxrib olunur. İslam torpağının ərazi bütövlüyünü qoruyursunuzmu? Əlbəttə ki, yox, işiniz dua oxumaqdır. Demək, qala divarının başqa bir hissəsi də təxrib olundu. Yoxsulların haqqını sərvətlilərdən alırsınızmı? Ona görə ki, sizin islami vəzifəniz haqqı sahibinə çatdırmaqdır. Əlbəttə ki, yox, «bunların bizə dəxli yoxdur, inşallah başqaları bu işi görər» - deyirsiniz. Demək divarın başqa bir hissəsi də uçdu. Sizin İslamı qorumağaınız şah sultan Hüseynin İsfahanı «qorumasına» bənzəyir.[1] Bu necə bir qoruqçuluqdur ki, onu hər hansı qoruqçuya verdikdə üzr istəyir. Qoruqçuluğun mənası budurmu?

«Fəqihlər İslamın qoruqçularıdır» - dedikdə məqsədiniz budur ki, onlar İslamı qorumalı və İslama qoruqçu olmağa şərait yaratmalıdırlar. Bu məşrut[2] deyil, mühüm və mütləq vacib olan məsələlərdəndir. Fəqihlər onu izləməlidirlər. Din hövzələri islamı hər tərəfli qorumaq üçün təşkilatlandırma işlərini görməməlidirlər. Necə ki, İslam Peyğəmbəri və İmamlar (ə) islam qoruyur və İslam əhkamını və sistemlərini saxlayırdılar.

Biz bütün məsələləri bir kənara qoyub ancaq əhkamın bir miqdarını ələ alıb ardıcıl şəkildə mübahisə edirik. İslam hökümlərinin çoxu «qəribə elmlər»[3] olmuşdur. Əslində İslam yadlaşmışdır, ondan ancaq bir ad qalmışdır. Bəşər üçün gəlmiş ən mütərəqqi cəza qanunlarından olan islamın cəza qanunları tamamilə unudulmuşdur «ولم يبق الا اسمه»[4]. Cəza və hüdud barədə nazil olan ayələri biz ancaq ki, qiraət edirik.

---

[1] Birinci Hüseyn Səfəviyyə sülaləsinin son padşahıdır (1135 h.q) (nalaiq şah idi). Onun zamanında Mahmud Əfqan İsfahana hüçüm edərkən, sultan Hüseyn onu İsfahandan yayındırmaq üçün Cülfa və Fərəhabadı ona verdi, amma o İsfahanı alıb şah Hüseyni öldürdü.

[2] Əgər bir vacib məsələnin vacibliyi bir şeydən asılı olmasa o vacib məsələ o şeyə görə vacibi-mütləqdir. Məsələn, namazın vacibliyi dəstamaza görə. Əgər vacib məsələnin vacibliyi bir şeydən asılı olsa, o şeyə görə vacibi-məşrutdur. Məsələn, həccin istitaətdən asılı olması kimi.

[3] Sehr, Caduçuluq, Cəfr. Ruhlar ya cinlərin təsxiri (ixtiyarına gətirmək).

[4] Həzrət Rəsulu (s) və Əli (ə) buyurmuşdur:

« سيأتى على امتى زمان لا يبقى من القرآن الارسمه و لامن الاسلام الا اسمه ...»

**«Bir gün gələr ki, Qurandan bir nişanə və islamdan ancaq bir ad qalar».** «Nəhçül-bəlağə» 361-ci hikmət; «Biharül-ənvar» çild 2, səh. 109, kitabül-elm.

«الزّانية و الزّانى فاجْلِدُوا كلّ واحِدٍ مِنْهُما مِاةَ جَلْدَةٍ»[1]

Bu ayəni ancaq tilavət edirik. Biz qiraətin gözəlləşməsinə diqqət edir. Lakin cəmiyyətin vəziyyətinə, fəsad-fəhşanın necə yayılmasına diqqət və hökümətin zinakarları himayə etməsinə etiraz etmirik. Biz ancaq bilirik ki, zina edən (pis işlə məşğul olan kişi ya qadına) nə qədər hədd müəyyən edilmişdir, amma «zinakar ilə mübarizə etmək üçün bu həddi icra etmək kimin öhdəsindədir» - məsələnin bizə dəxli yoxdur» - deyirik.

Soruşuram ki, məgər Həzrət Rəsul belə idimi? Məgər ilk müsəlmanlar Quranı oxuyub kənara qoyurdular, və onun icrasına fikir vermirdilər? Ondan sonrakı xəlifələr xalqı öz başına ötürürdülər? Yaxud əksinə qanunu icra edib [cinayətkarlara və təqsirkarlara] şallaq vurur, rəcm edir, həbsə alır və sürgün edirdilər? «Hüdud» və «Diyat» fəslinə baxın, görürsünüz ki, bunlar İslamdandır. İslam gəlmişdir ki, cəmiyyətə nizam versin. Hökümət və rəhbərlik cəmiyyətin işini tənzim salmaq üçündür.

Biz İslamı qorumalıyıq. Bu ən vacib məsələdir, hətta oruc və namazdan da vacibdir. Bu həmin vəzifədir ki, qanların tökülməsi tələb edir.

İmam Hüseyn (ə)-ın qanından müqəddəs qan yoxdur ki, İslam yolunda töküldü.

Biz bunu başa düşməli və başqalarına da öyrətməliyik. Siz o halda İslam xəlifəsi ola bilərsiniz ki, islamı xalqa öyrədəsiniz. Deyin ki, İmam Zaman gəlsin, siz məkər namazı İmam Zaman (ə) gələndən sonra qılmağa başlayacaqsınız? İslamı saxlamaq namazdan da vacibdir. Xomeyn şəhərində olan hakimin məntiqini əsas göstərməyin. O, deyirdi: «Günahları artırmalıyıq ki, İmam Zaman (ə) gəlsin, məsiyət olmasa İmam zühür etməyəcəkdir». Burada oturub ancaq mübahisə etməyin, islamın başqa hökmlərini də mütaliə edin, həqiqətləri yayın, mən təcrübə etmişəm təsiri olacaqdır.

***

Həzrət Rəsuli-Əkrəm (s) buyurur:

[1] Hər bir qadın və kişi zinakar yüz şallaq vurun.

علی عن ابیه، عن النّوفلي، عن السکونی، عن ابی عبد اللّه، عَلَيْهِ السّلام، قال قال رَسُولُ اللَّهِ (ص) الفُقهاءُ أُمَناءُ الرّسُلِ ما لَمْ يَدْخُلُوا فی الدّنیا. قِیلَ یا رَسول اللَّه وَ ما دُخولهم فی الدّنیا؟ قالَ: اتّباعُ السّلطانِ. فَاذا فَعلُوا ذلِكَ، فَاحذَرُوهُمْ عَلَی دینِکُمْ

**«Fəqihlər nə qədər ki, hərisliyə qapılmayıblar (yersiz ləzzət və sərvəttələbliyə (tamahkarlığa) tutulmayıblar) Peyğəmbərin etibar etdiyi o şəxslərdir». Soruşuldu ki, ya Peyğəmbər «hərisliyə qapılmayıblar» deməyinizdə məqsəd nədir? Buyurdu: «Hakim qüdrətə boyun əyməkdir, belə olduqda onlardan uzaq olun».**[1]

Bu rəvayətlərin hamısını araşdırmaq geniş fürsət tələb edir, biz ancaq «الفقهاء امناء الرسل» cümləsi barədə söz açacayıq. Əvvəl görək ki, peyğəmbərlərin nə vəzifələri var və işləri nədir? Sonra məlum olar ki, onların əmanətdarı və etibar etdikləri olan fəqihlərin öhdələrinə nə vəzifələr qoyulmuşdur.

### Besətlərin məqsədi və Peyğəmbərlərin vəzifələri nədir

Əql baxımından Peyğəmbərlərin işi ancaq əhkamı bəyan etmək deyildir. Belə deyildir ki, məsələn əhkam vəhy yolu ilə Həzrəti Rəsuli-Əkrəmə (s) çatmış olsun, Həzrət Rəsul (s) və Həzrət Əmir və imamlar (ə) Allahın əhkamını azaldıb-çoxaltmadan bilməyənlərə nəql edən şəxslər olmuş olsunlar, onlar isə bu əmanəti fəqihlərə çatdırıb ki, onlar da xəyanət etmədən camaata çatdırsınlar. Əlfüqəha ümənaür-rəsulun mənası isə guya bu olmuş olsun ki, əhkamı deməkdə əmanətdar olsunlar! Lakin həqiqət Peyğəmbərlərin həqiqi və ən mühüm vəzifəsi əhkam və qanunları həyata keçirməklə ədalət üzərə ictimai bir sistem qurmaqdır ki, bu sistemdə əlbəttə, əhkamı bəyan etməyi, ilahi təlimləri yaymağa tələb edir. Necə ki, bu mənda bu ayədən alınmışdır.

«لَقَدْ ارْسَلْنا رُسُلَنا بِالبَيّناتِ وَ انْزَلْنا مَعَهُمُ الكِتابَ وَ الميزانَ لِيَقُومَ النّاسُ بِالقِسْطِ»[2]

Demək, besətlərin məqsədi budur ki, cəmiyyət ədalətli əlaqələr əsasında nizam tutub insanlığa çatsın. Bu da hökümət təşkil edib əhkamı bərpa etməklə ola bilər. İstər peyğəmbər Həzrət Rəsuli-Əkrəm (s) kimi

---

[1] «Üsuli-Kafi» cild 1, səh. 58. Habelə «Nəvadiri-Rəvəndi»də, «Dəaimul-islam», «Müstədrəkül-vəsail»də bu kimi rəvayətlər vardır. «Kafi» kitabında belə gəlib:

«سادة والأنبياء حصون والأتقياء امناء العلماء) ع (عبداللهابي عن»

«Alimlər etimadlı şəxslərdir, təqvalılar qoruqçudurlar, peyğəmbərlər ağadırlar».

[2] «Həqiqətən Peyğəmbəri aydın nişanələrlə göndərdik və onlarla kitab və mizan nazil etdik ki, xalq ədalətli hökümət qursun». Hədis 25.

özü hökümət təşkil edə bilsin, istərsə də ondan sonra onun ardıcılları hökümət qura bilsinlər. Allah-Təala xums sahəsində buyurur:

وَ اعْلَمُوا أَنَّمَا غَنِمْتُمْ مِنْ شَيْءٍ فَأَنَّ لِلَّهِ خُمُسَهُ وَ لِلرَّسُولِ وَ لِذِي الْقُرْبَى ...

***«Bilməlisiniz ki, həqiqətən hər bir şeydən qazandığınızın beşdən birini Allaha, peyğəmbərə, onun yaxın adamlarına, yetimlərə, çarəsizlərə verməlisiniz».***[1]

Ya «Zəkat» haqqında buyurur: « ...خُذْ مِنْ أَمْوَالِهِمْ صَدَقَةً » ***«Mallarından sədəqə al»***[2] ya «Xəracat» barəsində göstərişlər verir. Həqiqətdə Allah Rəsuli-Əkrəmi (s) ancaq əhkamı xalqa çatdırmaq üçün deyil onların həyata keçirməyə məcbur edir. Peyğəmbər bu əhkamı xalqın içində yaymalı olduğu kimi icra da etməlidir. Xums, zəkat və xərac kimi vergiləri alıb müsəlmanların xeyrinə xərc etsin. Xalqlar arasında ədaləti yaysın. Qanunu icra edib ölkənin ərazi bütövlüyünü qorusun və qoymasın ki, İslam dövlətinin malını bir şəxs aradan aparsın.

Allahın «أَطِيعُوا اللَّهَ وَ أَطِيعُوا الرَّسُولَ وَ أُولِي الأَمْرِ مِنْكُمْ» ***«Allaha, Peyğəmbərə və içinizdən olan başçılara itaət edin»***[3] - deyə Həzrət Rəsulu (s) başçı qarar verib və ona itaət etməyi vacib bilmişdir. Bu, o demək deyil ki, əgər Peyğəmbər əhkəm desə qəbul edək və əməl edək. Əhkama əməl etmək Allaha itaət etməkdir. Əhkama aid olan bütün ibadi və qeyri-ibadi işlərin hamısı Allaha itaət etməkdir. Həzrət Rəsula (s) tabe olmaq əhkama əməl etmək deyil, başqa bir şeydir. Əlbəttə, Həzrət Rəsula (s) tabe olmaq bir baxımdan Allaha itaət etmək kimidir, ona görə ki, Allah əmr etmişdir ki, Peyğəmbərə itaət edək. Əgər Həzrət Peyğəmbər əmr etsəki, hamı Üsamə[4] ordusu ilə birlikdə döyüşə getməlidir, heç kəs bundan boyun qaçıra bilməz.[5] Bu Allahın əmri deyil, Peyğəmbərin əmridir. Allah, hököməti Həzrətə tapşırmışdır və Həzrət də ordu toplayır, qazi təyin edir və ya işdən azad edir.

---

[1] «Ənfal» surəsi, ayə 41.

[2] «Tövbə» surəsi, ayə 105.

[3] «Nisə» surəsi, ayə 59.

[4] Üsamə ibn Zeyd (54 h.q) atası-anası Peyğəmbərin azad etdiyi bəndələrdən idilər. Peyğəmbər Üsaməni mühacir və ənsardan təşkil edilən ordunun başçısı kimi İslam və Fələstinə doğru yönəlmişdir.

[5] Həzrət Peyğəmbərin Üsamənin yollandığı vaxtda dediyi sözə işarədir - Həzrət buyurdu: «جهزوا جيش اسامة لعن الله من تخلف عنها» Üsamənin ordusunun məlzumatını hazırlayın. Allah o adama lənət eləsin ki, bu ordu ilə birləşməyə. «Əlmiləlvən-nihəl» səh.14

**Fəqihlər – qanunları həyata keçirmək, qoşuna rəhbərlik edib cəmiyyəti idarə etmək, ölkəni müdafiə edib məhkəmə işlərini görmək üçün Peyğəmbərin etibar etdiyi şəxslərdirlər.**

Deməli «الفقراء أمناء لالرّسو» - cümləsi bunu demək istəyir ki, Peyğəmbərin öhdəsinə qoyulan bütün işləri adil fəqihlər görməlidirlər. «Əmanət» sözünün məfhum dairəsi «Ədalət» sözünün məfhumundan geniş olduğuna baxmayaraq – [yəni mümkündür ki, bir şəxs mali işlərdə əmanətdar olsun və eyni halda ədalətli olmasın] Ümənaür-rəsul o şəxslərə deyilir ki, qanuna zidd iş görməyib pak-pakizə olsunlar.

Hədisin ardınca gələn hissə də bunu təsdiq edir «ما يدخلوا في الدنيا» - «Yəni nə qədər ki, dünyapərəst olmamışlar». Demək dünya malı toplamaq fikrində olan fəqih ədalətli deyildir və Həzrət Rəsuli-Əkrəm (s) üçün əmin, etibarlı və etimad edilməli, İslam hökmlərini icra edən hər şəxs ola bilməz. Ancaq ədalətli fəqihlər İslam hökmlərini həyata keçirib sistemi möhkəmləndirir, hüdud və qisası (cəza qanunlarını) icra edir, müsəlman ölkələrinin ərazi bütövlüyünü qoruyurlar. Nəhayət hakimiyyətə aid olan bütün qanunları həyata keçirmək fəqihlərin vəzifəsidir: xums, zəkat, sədəqə, vergi, cizyə alıb müsəlmanların xeyrinə xərcləmək, cəza qanunlarını icra etmək, sərhədləri qorumaq, ölkəni əmin-amanlıqda saxlamaq.

Həzrət Peyğəmbər (s) əhkamı icra edib İslam sistemlərini qurmağa məmur olduğu və Allah onu müsəlmanlara hakim və sədri edib itaətini vacib sandığı kimi ədalətli fəqihlər də hakim və sədr olmalı, əhkamı həyata keçirməli və İslam sistemini qurmalıdır.

## Qanun əsasında rəhbərlik etmək

İslam höküməti qanun əsasında olduğuna görə hüquqşünaslar, dinşünaslar – yəni fəqihlər hakimiyyətdə olmalıdırlar. Fəqihlər bütün icra, idarə işlərini görməlidirlər. Fəqihlər ilahi hökmləri icra etməkdə etibarlıdırlar. Fəqihlər qoymamalıdırlar ki, İslam qanunlarının icrası dayandırılsın və onun icrasında ifrat və ya təfritə yol verilsin. Əgər fəqih zina edən şəxsə hədd vurmaq istəsə, müəyyən tərtibatla camaat arasında gətirib 100 şallaq vurmalıdır, haqqı yoxdur ki, bir şallaq artıq vursun ya pis söz desin ya bir gün belə həbsə alsın və ya vursun. Habelə vergi almaq istədikdə İslam qanunları əsasında almalıdır, bir abbası artıq ala bilməz.

Əgər bir fəqih İslam qanunlarına zidd hərəkət etsə, ya «nəuzu billah» fəsada batsa, öz-özünə hökümətdən kənara edilir, ona görə ki, etibardan düşür.

Əslində hakim qanundur. Hamı qanunun amanındadır. Müsəlmanlar və camaat şəriət qanunları çərçivəsində azaddırlar, yəni İslam qanunlarına uyğun əməl etdikdə bir şəxsin haqqı yoxdur ki, ona bir söz desin. İslam höküməti belə bir hökümətdir. Başqa hökümətlər kimi deyildir ki, hamı ondan qorxsun və vahimədə olsun. Müaviyyə dövründə və onun kimi olan hökümətlərdə camaat əmin-amanlıqda deyildi. Araşdırmadan məhkumu öldürür, sürgün edir ya həbsə alırdılar. İslam höküməti təsis edilsə, hamı qanunu nizamı altında tam əmin-amanlıqda yaşayar və heç bir hakim şəriət qanunlarına zidd hərəkət edə bilməz.

Deməк «Əmin» və «etibarlı» olmağın mənası budur ki, fəqihlər İslamın bütün hökmlərini əmanət kimi həyata keçirməlidirlər və təkcə şəri məsələ söyləməklə kifayətlənməməlidirlər. Məgər İmam təkcə şəri məsələ söyləyən və təkcə qanun açıqlayan idimi? Məgər Peyğəmbər ancaq məsələ söyləyən idilər ki, fəqihlərdə məsələ söyləməkdə onlara «Əmin» olsunlar? Əlbəttə məsələ söyləmək ya qanunları açıqlamaq böyük fiqhi vəzifələrdən biridir. Yəni cəmiyyətdə ədaləti yaymaq üçün bir vəsilədir və insanın əxlaq və etiqadiyyatının islahı üçün bir vasitədir. Qanun, ictimayyətdə münasibətləri qayda üzrə möhkəmləndirməklə insanı tərbiyə etmək üçündür. Peyğəmbərin mühüm vəzifəsi əhkamı həyata keçirmək, hökümət etmək və işləri nəzarət altına almaq idi.

Həzrət İmam Rza (ə) buyurur:

لو لم يجعل لهم اماماً قيّماً حافظاً مستودعاً

Ümumiyyətlə, bu rəvayət onu demək istəyir ki, camaat üçün bir rəhbər, qoruqçu və qəyyum lazımdır. Bu rəvayətdə Həzrət buyurur ki, «fəqihlər peyğəmbərlər üçün əmin və etibarlı şəxslərdirlər». Bu müqəddimələrdən[1] bu nəticə əldə edilir ki, fəqihlər millətin rəhbəri olmaqla İslamın aradan getməsinə və əhkamının tətilə uğramasına mane olmalıdırlar. Müsəlman ölkələrdə ədalətli fəqihlərin hökumət etmədiyinə görə İslam köhnəlmiş və əhkamı tətilə uğramışdır. Həzrət Rza (ə) sözü doğrulubdur. Təcrübə onun sözünün düzlüyünü sübuta yetirmişdir.

---

[1] Həzrət imamın müqəddimə dedikdə məqsədi bu iki cümlədir: «Fəqihlər peyğəmbərlərin əminidirlər» və «xalqa imam və əmin rəhbər lazımdır». Yəni fəqihlərin Peyğəmbərin həzrətlərinə əmin olması, həm də xalq üçün əmin bir rəhbərin lazım olmasını bilmək tələb edir ki, fəqihlər rəhbər və hakim olsunlar.

Məgər indi İslam köhnəlməmişdirmi? Hal-hazırda İslam ölkələrində İslam hökmləri həyata keçirilmir, hüduda əməl edilmir, İslam sistemi aradan getmiş, anarxizm və laqeyidlik hər tərəfi bürümüşdür. Belə olan halda məgər İslam köhnəlməmişdirmi? Görəsən İslam ancaq kitablarda yazılmalı olan bir şeydirmi? Məsələn, «Kafidə» yazılıb kənar qoyulsun? İslam əhkamı həyata keçirilməyib, cəza qanunları icra edilməyib, oğru cəzalandırılmayıb zülmkarlar və ixtilas edənlər (milli sərvəti oğurlayanlar) öz cəzalarına çatdırılmasa, ancaq Quranı öpüb «Yasin» surəsini oxumaqla İslam qorunub qalarmı?

Bizim çoxumuz inanmamışıq ki, İslam xalqını İslam hökuməti idarə etməlidir, iş indi o yerə çatıbdır ki, nəinki İslam ölkələrində İslam sistemli qanunlar hakim deyildir [və fəsa törədilən qanunlar İslam qanunları yerinə həyata keçirilir,] hətta İslam proqramları ağaların öz nəzərində göhnəlmişdir, elə ki, şəri bəhsdə «لالرّسو أمناء الفقراء» dedikdə, deyirlər ki, məsələ deməkdə əmindirlər. Quranın ayələrini eşitmirlər və qeybət vaxtında İslam alimlərinin hakim olmalı olduğuna dəlalət edən rəvayətləri başqa şəkildə yozurlar. Əmanətdarlıq budurmu? Fəqihlər qoymamalıdır ki, İslam hökümlərinin icrası dayandırılsın və fasidlər cazasız qalsın. Bundan başqa məgər ölkədə gəlir və maliyyə işlərinə nəzarət edilməməlidir? Aydındır ki, həqiqətən də əmin şəxsə ehtiyac vardır. Fəqihlərin vəzifəsi budur ki, əmanətdar olsunlar.

## Məhkəmə işlərinə kim rəhbərlik etməlidir

عن محمد بن يحيى، عن محمد بن احمد، عن يعقوب بْنِ يزيدَ، عن يحيى بن مبارك، عن عبد اللّه بْنِ جبلة، عن ابى جميلة، عن اسحاقٍ ابن عمارٍ، عَنْ أبي عَبْد اللّه (ع) قال قالَ اميرُ المُؤمنين، صَلَواتُ اللّه عَلَيْهِ، لِشُرَيْحٍ: يا شُرَيْحُ قَدْ جَلَسْتَ مَجْلِساً لا يَجْلِسُهُ (ما جلسه) الاّ نَبىّ أوْ وَصىٌّ نَبىٍّ أوْ شَقىّ

Həzrət Əmirəl-möminin (ə) Şüreyhə[1] buyurur: **«Sən elə bir vəzifədəsən ki, Peyğəmbər, Peyğəmbərin vəsisi və ya şəqi (zülmkar) olan şəxsdən başqası ona çatmaz».**[2]

Şüreyh Peyğəmbər və Peyğəmbərin vəsisi olmadığı üçün şəqavətli şəxs olub ki, məhkəmə vəzifəsinə çatmışdır. Şüreyh bir şəxs idi ki, 50-60

[1] Əbu Ümeyyə Şüreyb ibn Harisin (78 h.q) əsli Yəməndən olub İslamdan əvvəl dünyaya gəlmişdir. Peyğəmbəri (s) görmədi və buna görə də sahəbələrdən sayılmır. Ömər, Osman, Həzrət Əli (ə) və Müaviyə dövründə Küfə şəhərində qazi olubdur. Aşura hadisəsində ibn Ziyada tərfdar çıxıb camaatı imamın əleyhinə qaldırdı.

[2] «Vəsailüş-şiə» çild 18, səh. 7, kitabi qəza.

il Küfədə məhkəmə vəzifəsində idi və o axunlardan olub ki, Müaviyə sarayında olduğundan İslam hökuməti əleyhinə fitvalar verib zidd hərəkətlər etmişdir. Həzrət Əmir (ə) hökumət etdiyi dövrdə də onu işdən kənara edə bilmədi. Bəzilər «onu şeyxeyn[1] vəzifəyə qıldırmışlar və siz onların xilafına əməl etməyin» - deyə onu Həzrətin ədalətli hökumətinə daxil etdirdilər. Lakin Həzrət Əli (ə) qoymurdu ki, o, İslam qanunlarına xilaf olaraq hökm etsin.

## Məhkəmə işini adil fəqih idarə etməlidir

Rəvayətlərdən belə əldə edilir ki, məhkəmə vəzifəsinə ancaq Peyğəmbər ya onun nümayəndəsi çata bilər. Məhkəmə işlərini adil fəqihlərin öhdəsinə almaqda ixtilaf yoxdur.

«Vilayət»[2] mövzusu isə ixtilaflıdır. Məsələn, mərhum Nəraqi[3] və mərhum Naini[4] «imamın malik olduğu ixtiyara fəqih də malikdir»- deyirlər.[5] Məhkəmə vəzifələrinin ədalətli fəqihə aid olmasında heç bir şübhə yoxdur.

Bilirik ki, fəqihlər peyğəmbərlik məsuliyyətinə malik olmayıb və şübhəsiz ki, «zülmkar» da deyillər. Deməк, onlar Həzrət Rəsulun (s) canişinləridirlər. Peyğəmbərin nümayəndəliyinin məfhumu genişdir və bu baxımdan fəqihlər də Peyğəmbərin nümayəndəsi ola bilərlər. Əlbəttə Həzrət Peyğəmbərin bir başa nümayəndə və vəsisi Həzrət Əli (ə)-dır. Ondan sonra imamlar xalqı idarə etməlidirlər. Belə təsəvvür edilməsin ki, hakimiyyətdə olmaq imamlar həzrətləri üçün mühüm və dəyərlidir. Hakimiyyətin imamlar həzrətləri üçün ancaq ədaləti yaymaq və içtimai bərabərliyi camaatın arasında genişləndirmək baxımından əhəmiyyətlidir. Onların ruhani məqamları hökumətdə olmalarından asılı deyildir. Demək Həzrət Əmir (ə) Həzrət Rəsulun (s) nümayəndəsi olmasaydı da belə o Həzrətin mənavi məqam və dərəcəsinə xələl yetirməz idi. Hakimiyyətdə

---

[1] Şeyxeyn – iki şeyx, yəni Həzrət Əlidən əvvəl iki xəlifə deməkdir.

[2] Vilayət – hakimiyyət deməkdir.

[3] Əhməd ibn Nəraqi 1245-ci ildə böyük fəqih, riyaziyatçı olub təqvalı olmaqla məşhur idi. O, atasının və Kaşifül-qita və Bəhrül-ülumun şagirdi olub, şeyx Ənsarinin və seyid Məhəmməd Şəfinin ustadıdır. «Meracüs-səadət», «Miftahül-əhkam», «Münhacül-vüsul», «Əvadül-əyyam», «Müstənədüş-şiə» onun əsərlərindəndir.

[4] Mirzə Hüseyn Naini (1273-1355-də) böyük şiə alimi olub məşrutiyyətdən sonra «Tənzihul-millə» və «Tənbihül-ümmə» kitabını yazdı. Şeyx Məhəmməd Tağı Şirazidən sonra şiənin mərcəyi oldu. «Ürvətül-vüsqanın haşiyəsi», «Məşkuk paltar» onun əsərlərindəndir.

[5] «Əvaidül-əyyam» səh. 187; «Münyətüt-talib» cild 2, səh. 325-327.

olmaq və vəzifə sahibi olmaq insan üçün şan-şöhrət və mənəvi dərəcə gətirməz, əksinə mənəvi yüksəkliklər insanın hakimiyyətə çatmasına və ictimai vəzifələrə yetişməsinə səbəb ola bilər.

Nəjayət rəvayətdən belə başa düşürük ki, fəqihlər Həzrət Rəsulun (ə) ikinci dərəcəli nümayəndələridir və Həzrət Rəsulun tərəfindən imamlar (ə) tapşırılan işləri onlar da görməlidirlər, Həzrət Əmir kimi Həzrət Peyğəmbərin icra etdiyi bütün qanunları həyata keçirməlidir.

Birinci rəvayətdən sənəd və sübut etibarı ilə daha etibarlı məhkəm olan və sözümüzü sübut edən rəvayətlərdən biri də Kuleyninin nəql etdiyi rəvayətdir. Bu rəvayət bu təriqə ilə nəql olunduğuna görə zəifdir.[1] Lakin şeyx Səduq (r.ə) Süleyman ibn Xalidin[2] təriqi ilə nəql etdiyinə görə səhih[3] və mötəbərdir. Rəvayət belədir:

«و عن عدة من اصحابنا، عَنْ سهْلِ بْن زياد، عن محمد بن عيسى عن ابى عبد اللّه المؤمن، عن ابن مسْكانَ، عن سليمانَ بْنِ خالد، عن ابى عبد اللّه (ع) قال: اتّقوا الْحكومَةَ، فَإنّ الْحُكومَةَ إنّما هِيَ للإمام العالِم بالقضاءِ العادِلِ فِي الْمُسْلِمينَ، لِنَبىّ (كَنَبىّ)، اوْ وَصى نَبِىٍ.»

İmam buyurur: **«Hökm verməkdən (məhkəmə və qəzavət işi) çəkinin! Ona gərə ki, hökm vermək hakimliyə aid elmləri (hüquq və qanunlar) bilən və müsəlmanların arasında adil olan imama aiddir. Peyğəmbər və ya qanun nümayəndəsinə gərəkdir».**[4]

Görürsünüz ki, hakim **əvvəla** imam olmalıdır, burada imam dedikdə məqsəd rəhbərlikdir. Buna əsasən də peyğəmbər də imam sayılır. Əgər imam sözünün məqsədi sözün əsl mənası olsaydı «alim» və «adil» sözlərinin əlavə edilməsi yersiz olardı.

**İkincisi**, qəzavət (məhkəmə) və hüquq elmlərini bilməlidir, əgər rəhbər olub İslam hüququ və qanunlarını, sübutları bilməsə hakim ola bilməz.

**Üçüncüsü**,- adil olmalıdır.

Deməк o şəxs məhkəmə işini görə bilər ki, bu üç sifətə (sədirlik, alimlik və adillik) malik olsun. Sonra buyurur ki, bu üç sifət ancaq peyğəmbərdə ya onun canişinində ola bilər.

---

[1] Küleyninin nəqlində ravilərin bəzisi qarışmışdır və Səhl adlı ravinin etibarlı olduğu ixtilaflıdır.

[2] Süleyman ibn Xalid əqih, qari, hədisçi olub və Həzrət İmam Baqir (ə) və Həzrət İmam Sadiq (ə) səhabələrindəndir.

[3] «Səhih» o rəvayətə deyilir ki, raviləri tamamilə imama inanan, ədalətli və mötəbər olsun.

[4] «Vəsailüş-şiə» çild 18, səh. 7 əlqəza bab. 3, hədis 3; «Mən la yəhzuruhul-fəqih» cild 3, səh 4, «əlqəzaya vəl əhkam» babları bab 3, hədis 1.

Bundan əvvəl demişdik ki, məhkəmə işini ancaq adil fəqih idarə edə bilər və bu mövzu fiqhin zəruriyyatındandır və onda ixtilaf yoxdur. İndi görək fəqih qəzavət şəraitinə malikdirmi? Fəqih hüquq elmlərini bilir, ona görə ki, fəqih nəinki İslam hüququnu, hətta əxlaqiyyət və etiqadiyyatı da bilsin, yəni sözüm əsl mənasında dinşünas olsun. Fəqih ədalət sifətinə də malikdir. Digər şərt imam və rəis olmaq idi. Qeyd etdik ki, adil olan fəqih İmam (ə)-ın təyini ilə qəzavət vəzifəsinə seçilmişdir. Sonra Həzrət İmam (ə) bu şərt və sifətləri peyğəmbər və onun canişinində həsr etmişdir. Deməkfəqihlər peyğəmbər olmadıqlarına görə onun nümayəndəsi kimidirlər. Beləliklə, də bu qənaətə gəlmək olar ki, fəqih Həzrəti Rəsulun (s) nümayəndəsidir və qeyb dövründə müsəlmanların rəhbəri [ölkə] və rəisdir, o ancaq hakim olmalıdır və ondan başqa bir şəxsin bu işə haqqı yoxdur.

## İctimai hadisələrdə kimə müraciət etməliyik?

Üçüncü rəvayət «tövqi» (əlyazma)[1]-dır; bu rəvayətə belə istinad edilmişdir.

فی كتاب إكمال الدين و إتمام النِعْمَةِ [2]

عَنْ محمد بن محمد بن عِصام، عن محمد بن يعقوب، عن إسحاقَ بن يعقوب، قال: سألت محمد بنَ عُثمانَ العُمَري أن يوصل لي كتاباً قد سألتُ فيه عن مسائل اشكلَتْ علىَّ. فورد التوقيعُ بخط مولانا صاحبِ الزمان (ع): امّا ما سَألتَ عَنْهُ. أرْشَدَكَ اللّهُ و ثبّتَكَ (الِي ان قال) وَ أمّا الحَوادِثُ الواقِعَةُ، فارْجعُوا فيها الى رُواةِ حَديثِنا. فإنَّهُم حُجّتي عَلَيْكم، و أنا حُجةُ اللّه. و أمّا مُحَمَّدُ بنُ عُثمان العُمَري، فَرَضيَ اللّهُ عَنْهُ وَ عَنْ أبيهِ، فإنَّهُ ثِقتي وَ كِتابُهُ كِتابي.[3]

İsaq ibn Yaqub[4] Həzrət Vəliyyi-Əsrə məktub yazır, qarşılaşdığı problemlər barəsində müraciət edir və O Həzrətin nümayəndəsi Məhəmməd ibn Osman Öməri məktubunu Ona çatdırır. Həzrət də

---

[1] «Tövqi» məktubun üzərinə vurulan əlamətə deyilir. Məsumların və xüsusilə İmam Zaman (ə)-ın tərəfindən olan məktublar tarix və hədis kitablardında «Tövqi» adı ilə məşhurdur.

[2] «İkmaluddin və itmamü-nemə» adı ilə məşhur olan bu əsəri şeyx Səduq (381 h.q) Həzrət İmam Zamanın qeyb olunması barədə yazmışdır.

[3] «Kəmaluddin» cild 2, səh. 484.

[4] İsaq ibn Yaqub Kulleyni özü təkid edibdir ki, Mühəmməd ibn Osman Ömərin vasitəsilə bir sıra məsələləri İmam Zaman (ə.c) çatdırmış və cavab almışdır. İmamın ona xitabən əlyazmasında bu ibarətlət gəlmişdir.

"أما ما سألت عنه أرشدك الله و ثبتك من أمر المنكرين لی من أهل بيتنا و بنی عمنا السلام عليكم يا اسحاق بن يعقوب و علی من اتبع الهدی"

- Bu haqda «Vəsailüş-şiə»də çoxlu rəvayətlər var.

məktubun cavabını mübarək xətti ilə belə yazır: **«Rast gəldiyiniz bəzi problemlər barəsində. Bizim hədislərimizi rəvayət edənlərə müraciət edin, ona görə ki, onlar mənim höccətimdirlər və mən də Allahın».**

Bu rəvayətdə qeyd olunan «həvadisi-vaqiə» - (qarşılaşdığınız problemlər) şəriət məsələləri deyildir. Katib yenicə baş verən şəriət məsələlərindən soruşmaq istəmir, ona görə ki, bu barədə fəqihlərə müraciət etməyə dair çoxlu rəvayətlər var. İmamlar sağ ikən də fəqihlərə müraciət edilirdi. Həzrət Sahibə Zamanın dövründə «dörd nümayəndə»[1] ilə əlaqədə olan və həzrətə məktub yazıb cavab alan şəxs bu mövzuya diqqət edib ki, bəzi məsələləri öyrənməkdə kimə müraciət edilməlidir.

«Həvadisi-vaqiə» deməkdə, müsəlmanların həyatında baş verən ictimai hadisələr və çətinliklər nəzərdə tutulur. Katib ümumi halda üstü örtülü belə sual etmişdir ki, bizim sizə əlimiz çatmayan bir vaxtda ictimai hadisələrdə nə etməliyik və vəzifəmiz nədir?

Nəzərə belə gəlir ki, Katib üstü örtülü sual etmiş və Həzrət onun sualına uyğun cavab vermişdir ki, baş verən bəzi hadisələrdə, çətinliklərdə bizim hədislərimizi rəvayət edənə müraciət edin, yəni fəqihlərə. Onlar mənim höccətimdir və mən də Allahın höccətiyəm.

«Allahın höccəti» nə deməkdir? Siz «höccətullah» sözündən nə başa düşürsünüz? «Xəbəri vahid höccətdir», sözünün mənası nədir?[2] Əgər Zürarə[3] bir rəvaytə nəql etsə, höccətdir? Həzrət İmam Zaman da Zürarə kimidir ki, Həzrət Rəsuldan (s) bir xəbər nəql etsə höccət bilib əməl etməliyikmi? «Vəliyyi-əmr» Allahın höccətidir» deyildikdə görəsən şəriət məsələlərində höccətdir ki, bizə ancaq şəriətə aid məsələləri izah etsin?! Əgər Həzrət Rəsul (s) desə ki, Həzrət Əmir (ə) mənim höccətimdir, siz belə başa düşürsünüzmü ki, Həzrət dünyadan getdikdə hər iş tətil edilir və ancaq məsələ demək qalır ki, o da Həzrət Əmirə həvalə edilmişdir. Yaxud

---

[1] «Dörd nümayəndə» Həzrət İmam Zamanın kiçik qeyb olunması dövründə (260-329) imamla şiələrin arasında əlaqə yaradırdılar. O, dörd nəfər bunlardan ibarət idi: 1-Əbu Ömər Osman ibn Səid ibn əmrül-Ömər, İmam Hadinin sahəbələrindən olub və İmam Əsgəri (ə) onu qaib İmam üçün nümayəndə seçilmişdir. 2- Əbu Cəfər Məhəmməd ibn Osman ibn Səid imam Əsgərinin naibi və sahəbəsi olub və imam Əsgəri onu İmam Qaib üçün nümayəndə seçilmişdir. 3- Əbul Qasim Hüseyn ibn Ruh Növbəxti. 4- Əbül-Həsən Əli ibn Mühəmməd Səməri. O, Həzrətin son naibi olmuşdur.

[2] «Xəbəri-vahid» odur ki, təvatür həddinə çatmasın, yəni onu nəql edənlər o miqdarda olmasın ki, onların dediklərindən yəginlik əldə edilsin, nəql edənlər isə etimadlı olsa «mötəbər» deyilər və şəriət hökmlərində ona istinad etmək olar. «Xəbəri-vahid» höccət olmasının mənası odur ki, ona əməl etmək vacibdir.

[3] Əbd Rəbh ibn Əyni Şeybani Kufi, Zürarə adı ilə məşhur olub. İmam Baqir və İmam Sadiqin (ə) səhabələrindən olub və böyük fəqihlərdən sayılır. Bütün rical alimləri onu təsdiq ediblər və Həzrət İmam Sadiqin ona hörmət göstərdiyinə dair bir rəvayət də vardır.

«höccətullah» bu deməkdir ki, Həzrət Rəsul (s) höccət olub, Allah onu xalqın işlərinə baxmaq üçün təyin etdiyi kimi fəqihlər də ölkə işlərini idarə etməyə məsuldurlar və camaat onlara müraciət etməlidirlərmi?

«Höccətullah» o şəxsdir ki, Allah onu bir sıra işləri görmək üçün təyin edibdir və onun bütün hökm və göstərişlərinə əməl etmək müsəlmanlara vacibdir. Əgər bir şəxs nalaiq hərəkət etsə, o höccətə istinad ediləcəkdir. Əgər bu işi görün, qanun belə icra edin, qənimətlər, zəkat və sədəqələri lazım olan yerlərə xərc edin, - deyə hökm etdikdə siz əksinə hərəkət etsəniz, Allah qiyamət günündə ehtiyacac edəcəkdir (dəlil gətirəcək). Əgər hüccət olmaqla qəzavət üçün zalimə müraciət etsəniz, Allah qiyamət günündə sizə dəlil gətirəcəkdir ki, mən sizə höccət qərar vermişdim, nə üçün zülmkarlara müraciət etdiniz. Allah Həzrət Əmirəl-mömininin vücuduna ehticac edəcəkdir. Xəlifəliyi haqsızcasına yiyələnənlərə, Müaviyə, Bəni-Ümeyyə və Bəni-Abbas və onların yolunda olanlara deyiləcəkdir ki, niyə müsəlmanların hakimiyyətini qəsbkarlıqla əldə etdiniz? Siz ki, rəhbərlik etməyə laiq deyilsiniz! Nə üçün hökuməti qəsb etdiniz (zorakılıqla yiyələndiniz).

Allah zülmkar hakimləri və İslam qanunlarının xilafına hərəkət edən hər hansı bir hökuməti mühakiməyə çəkəcək və soruşacaq ki, «niyə zülm etdiniz?», «niyə müsəlmanların mallarını pis işlərdə xərc etdiniz?», «Niyə «neçə min illik» adında şənliklər[1] tərtib etdiniz?», «Nə üçün xalqın malını «tacqoyma» və şənliklərdə[2] xərc etdiniz?» Əgər desə ki, günün tələbatına uyğun əməl etməli idim, sarayım, imarətim və sairə olmalı idi, ona görə də təcgüzarlıq edirdim ki, bu ölkənin tərəqqi və inkişafını göstərəm. Onda ona deyərlər ki, Həzrət Əmir (ə) da hakim idi, müsəlmanların hakimi idi,

---

[1] Məhəmməd Rza Pəhləvi 1350-ci şəmsi ilin payızında İranda 2500 il tarixə malik olan padşahlıq üçün şənliklər mərasimi qurdu. Bu şənliklərdə 69 ölkədən 20 padşah və ərəb əmiri, 5 mələkə, 21 şahzadə, 16 prezident, 3 baş nazir, 4 prezident müavini və 2 xarici işlər naziri iştirak edirdilər. Bir həftə davam edən bu mərasimdə 200 milion dollar pul xərc edilmişdir. Rəsmi qəzetlərdə bu şənliklər mərasiminin xərci 133 milion tümən elan edilirdi. Bu mərasimin qidaları bunlardan ibarət idi: Bildirçin yumurtası, kərgək, quzu kababı, göbələk, qızardılmış tovuzquşu, Fransadan gəlmiş timişik və əncir şirəsi idi. Bir nəfər Fransadan 159 nəfərlə birlikdə qida hazırlamaq üçün mərasimə on gün qonaq gəlmişdir. Parisdə məşhur bir restoran şərab göndərmişdi, 600 qazetçi, müxbir, kino işçisi şənlik mərasimindən xəbərlər və reportajlar hazırlamışdı. Ameriknın «N.B.C» televiziya kanalı bu mərasimi bir başa yaymışdı. «İranın siyasi tarixi» Q. Nicati səh. 348-351.

[2] Məhəmməd Rza 1346-ci ilin Aban ayında ağır pulla bir şənlik mərasimi təşkil etdi və müəyyən təşrifatla tacgüzarlıq etdi. Bu mərasim bir ay davam etdi. Bu şənliyi təşkil etmək üçün paytaxtın xiyabanlarını 100 ton dəmir, 300 kilometr işıq telləri, çoxlu alüminium ilə bəzəmişdilər. Şah və mələkənin tacını Fransalı «Praril» ağ qızıldan düzəldib ağır qiymətli cəvahirlərlə bəzəmişdi.

sən İslam və müsəlmanların əzizliyini çox istərdin ya bu Həzrət? Sənin rəhbərlik etdiyin ölkələr çox idi ya bunun. İraq, Misir, Hicaz və İran bütün onun əlində idi, eyni halda onun imarəti məscid idi, qəzavət yeri məscidin bir güşəsi idi, qoşun məsciddə hazırlaşırdı, namaz qılanlar, imamlar və onların nəslindən olanlar məsciddən yola düşür, müharibəyə gedirdi və gördünüz ki, necə irəliləyirdilər.[1]

Bu gün İslam fəqihləri insanlara «höccət»dirlər. Necə ki, Həzrət Rəsul (s) Allahın höccəti idi və cəmiyyətin bütün işləri ona tapşırılmışdı. Fəqihlər İmam (ə)-ın tərəfindən höccətdirlər, müsəlmanların bütün işləri onlara tapşırılmışdır. Hökümətdə, müsəlmanların işlərinə Allah onları höccət qərar vermişdir. Qeyd etdiyimiz rəvayətdə heç bir şübhə yoxdur, lakin onun sənədinin mötəbər olması araşdırılmalıdır.[2]

## Qurani-məciddə ayələr

Sözümüzü sübut edən rəvayətlərdən biri də «Məqbuleyi - Ömər ibn Hənzələ»[3]-dir

Bu rəvayətdə ayəyə istinad edildiyi üçün lazımdır ki, o ayənin əvvəli bəhs edilsin və sonra rəvayət barədə danışaq.

«إِنَّ اللَّهَ يَأْمُرُكُمْ أَنْ تُؤَدُّوا الأَمانَاتِ الى أَهْلِها وَ اذا حَكَمْتُمْ بَيْنَ النّاس انْ تَحْكُمُوا بالعَدْلِ، إنّ اللَّهَ نِعِمّا يَعِظُكُم بهِ، إنَّ اللَّهَ كانَ سَميعاً بَصيراً. يا أَيُّهَا الّذينَ آمَنُوا أطيعُوا اللَّهَ وَ أَطيعُوا الرَّسُولَ وَ أُولي الأَمْرِ مِنْكُمْ، فَإنْ تَنازَعْتُمْ في شَيءٍ فَرُدُّوهُ الىَ اللَّهِ وَ الرَّسُولِ إنْ كُنْتُمْ تُؤمِنُونَ باللَّهِ وَ اليَوْمِ الآخِرِ ذلِكَ خَيْرٌ وَ أَحْسَنُ تَأويلاً.»

***«Allah sizə əmanətləri öz sahiblərinə qaytarmanızı və insanlar arasında hökm etdiyiniz zaman ədalətlə hökm etmənizi əmr edir. Həqiqətən, Allahın bununla (belə bir tapşırıqla) sizə verdiyi öyüd necə də gözəldir! Əlbəttə, Allah (hər şeyi) eşidəndir, görəndir! Ey iman***

---

[1] «Tarixi Təbəri» cild 3, 4. Əlfituh.

[2] Sənədinin mötəbər olması barədə bu baxımından fikirləşmək lazımdır ki, İsaq ibn Yəqubun etibarı barədə fikirlər müxtəlifdir.

[3] «Məqbulə» o hədisə deyilir ki, fəqih və hədis alimləri onun sənədinin doğru olub-olmamasına baxmayaraq məzmununu qəbul etmiş və ona əməl etmişlər, Ömər ibn Hənzələnin hədisi kimi.

***gətirənlər! Allaha, Peyğəmbərə və özünüzdən olan ixtiyar (əmr) sahiblərinə itaət edin! Əgər bir iş barəsində mübahisə etsəniz, Allaha və qiyamət gününə inanırsınızsa, onu Allaha və Peyğəmbərə həvalə edin! Bu daha xeyirli və nəticə etibarilə daha yaxşıdır».***[1]

Allah əmr etmişdir ki, «əmanətləri sahiblərinə qaytarın» bəziləri belə inanırlar ki, «əmanət dedikdə» məqsəd mütləq əmanət nəzərdə tutulur. (yəni camaatın malı) və ya şəri əhkamdır, və «ilahi əmanəti qaytarmaq dedikdə» məqsəd İslam əhkamını olduğu kimi həyata keçirməkdir.[2] Bəziləri də deyirlər ki, «əmanət» dedikdə məqsədi imamətdir.[3] Rəvayətdə göstərilmişdir ki, bu ayənin məqsədi İmamlar (ə)-dır[4] ki, Allah-Təala Həzrət Rəsul (s) və imamlara əmr etmişdir ki, imamət və rəhbərliyi öz sahiblərinə qaytarsınlar. Yəni Həzrət Rəsul (s) rəhbərliyi Həzrət Əliyə və O da özündən sonrakı imamlara təhvil versin və bu qayda ilə davam etsin.

Ayənin ardınca buyurur:

وَ اذا حَكَمْتُمْ بَيْنَ النّاس انْ تَحْكُمُوا بالعَدل

(Hökm etdikdə ədalətlə hökm edin). Bu ayə qazilərə deyil, hökümət edənlərə aiddir. Qazi rəhbərlik etmir qəzavət edir. Qazı ancaq bir baxımdan hökm edir, onun hökmü isə icra hökmü deyil, qəzavət hökmüdür. Necə ki, qazılar indiki hökümət sistemlərində də hökümət edənlərin bir dəstəsi kimidirlər. Və o biri dəstlərin biri nazirlər (icra orqanı) və məclis deputatlarıdıır (qanunvericilik orqanı). Əslində qəzavət hökümət işlərindən biridir. Deməк qəbul etməliyik ki, « اذا حَكَمْتُمْ » ayəsi hökümətə aiddir, həm qazını və həm də digər hökümət orqanlarını ehtiva edir. Demək bütün dini işlər «ilahi əmanət» hesab edilsə, əmanət öz sahibinə verilməlidir. Onlardan biri də hökümətdir. Bu ayənin dediyinə görə hökümət işləri tamamilə ədalət, şəriət və İslam qanunları əsasında olmalıdır, qazi qeyri-islami qanun əsasında hökm etməməlidir. İstinad etdiyi qanun və həm də məhkəmə prinsipləri nahaq əsasında olmasın. Məclisdə qanunvericilər ölkənin maliyyə işlərinə dair qanun qərara aldıqda əkinçiləri himayə etməlidirlər. Onlara ədalətə riayət edərək vergi müqaviləsi bağlamalıdırlar, elə olmasın ki, onları zəiflətsin və vergilərin ağır olması onların işlərində gerilik yaratsın və onları əkinçilikdən uzaqlaşdırsın. İcra orqanları məhkəmə hökmlərini icra etdikdə qanuna

[1] «Nisa» surəsi, ayə 58-59.
[2] «Məcməül-bəyan»; «Nisa» surəsi, ayə 50.
[3] «Məcməül-bəyan»; «Nisa» surəsi, «Təfsiri-Bürhan».
[4] «Üsuli-Kafi» cild 2, səh. 22-24 «Məcməül-bəyan».

zidd hərəkət etməməlidirlər, bir şallaq artıq vurmamalıdırlar. Həzrət Əli (ə) iki oğrunun əlini kəsəndən sonra onlara elə məhəbbət göstərib dərman edir ki, onlar Həzrəti alqışlamağa başlayırdılar.[1] Və ya Müaviyyənin zülmkar qoşunundan bir nəfərə əhli-zimmə olan qadın ayaqbağını almasını eşitdikdə elə narahat oldu ki, öz nitqində belə dedi: **«Belə bir iş görən adamın ölməsi yaxşıdır».**[2] Bu qədər insanpərvərliklə bəzən də qılınc çəkib fasid şəxsləri aradan aparırdı. Ədalətin mənası budur. Ədalətli hakim Həzrət Rəsuldur (s), müəyyən yerin alınmasına, müəyyən evin təxrib edilməsinə, İslam zərərli olan müəyyən bir tayfanın aradan aparılmasına əmr edibsə də ədalətlə əmr etmişdir. Bu kimi vəziyyətlərdə əmr etməsə, ədalətə zidd əməl etmiş olar. Ona görə ki, İslam və müsəlmanların vəziyyətlərinin qeydinə qalmamış kimi olar. Müsəlmanlara hökümət edən şəxs həmişə ümumxalqın mənfəətini qorumalı və şəxsi mənfəətə göz yummalıdır. Buna əsasən, İslam rəhbəri cəmiyyətin xeyrini nəzərə alaraq bir çox şəxsləri öldürmüş, cəmiyyətə zərərli olan bir çox fəsad salan xalqları aradan aparmışdır. Həzrət Rəsul (s) Bəni-Qureyzə yəhudilərini aradan apardı, ona görə ki, İslam cəmiyyətində fəsad törədir, İslam zərər-ziyan yetirirdilər.[3] Əslində bu möminin xüsusiyyətlərindəndir ki, hissə qapılmadan tam qüdrətlə ədaləti həyata keçirsin və məhəbbət məqamında isə tam məhəbbət və səmimiliklə yanaşsın. Cəmiyyətdə müsəlman ya qeyri-müsəlman üçün əmin-amanlıq yaratsın və hər kəs onun hököməti sayəsində rahatlıqla yaşasın və qorxuda olmasın.

Camaat ona görə hökümətlərdən qorxur ki, bunların hökümətləri qanun çərçivəsində deyildir. Lakin Həzrət Əmir kimi bir şəxsin

---

[1] «Firui-Kafi» cild 7, səh. 264; «Vəsailüş-şiə» çild 18, səh. 528; «Biharül-ənvar» çild 40, səh. 281.

[2] "و لقد بلغنى أن الرجل منهم كان يدخل على المرأه المسلمه و الاخرى المعاهده، فتيزع حجلها و قلبها و قلائدها و رعثها ما تمتنع منه الا بالاسترجاع و الاسترحام؛ ثم انصرفوا وافرين ما نال رجلا منهم كلم ولا اريق لهم دم. فلو أن امرا مسلما مات من بعد هذا أسفا، ما كان به ملوما بل كان به عندى جديرا"

Mənə xəbər catdı ki, İslam pənahında olan və müsəlman bir qadın hücuma məruz qalmış və hücum edənlər o qadınların boyunbaq, qolbaq və ayaqbağılarını zorla almışlar. Onlar isə haqlarının qaytarılmasını istəmişlər. Amma onların işinə yetişilməyib, hücum edənlər isə cəzalarına çatdırılmayıbdır. Əgər müsəlman olan şəxs baş verən bu kimi məsələdən ötrü ölsə yaxşıdır. «Nəhçül-bəlağə» xütbə 27.

[3] Bəni-Qureyzə Mədinənin yaxınlığında yaşayan yəhudilərdən idilər ki, Peyğəmbərlə dostluq müqaviləsi bağlamışdılar, amma Xəndəq müharibəsində əhdlərinə sadiq qalmayıb Qüreyşlə birləşib müsəlmanların əleyhinə Mədinəni təhlükədə qoydular. Müsəlmanlar qələbə çaldıqdan sonra Peyğəmbər onları mühasirə etdi. Onlar qəbul etdilər ki, Səd ibn Məaz onlar barəsində hökm versin. Səd hökm etdi ki, onların kişiləri öldürülsün, arvad-uşaqları əsir alınsın və malları müsəlmanların arasında bölünsün.

hökümətində ancaq zülmkarlar və xəyanətkarlar qorxurlar. Bu ümumxalq üçün əmin-amanlıqdır.

İkinci ayədə buyurur:

«يا أيُّهَا الّذينَ آمَنُوا أطيعُوا اللهَ وَ أطيعُوا الرَّسُولَ وَ أولِي الأمْرِ مِنكُم...»

Rəvayətdə gəlmişdir ki, birinci ayə « ان تُؤَدُّوا الأماناتِ إلى اهْلِها » imamlara, «و إذا حكمتم بين الناس» ayəsi əmirlərə və « أطيعُوا الله » ayəsi isə müsəlmanların cəmiyyətinə aiddir.[1] Onlara əmr edir ki, Allah, Həzrət Rəsula (s) və imamların itaətində olsunlar, onların təlimlərinə qulaq assınlar və hökümət əmrlərinə boyun əysinlər.

Dedim ki, Allah-Təala əmrlərinin itaətində olmaq Həzrət Rəsuli-Əkrəmin (s) itaətində olmaqdan fərqlərdir. İbadətə aid olan və başqa şəriət hökmləri Allah-Təalaın əmr və hökmləridir. Həzrət Rəsuli-Əkrəmin (s) namaza dair heç bir hökmü yoxdur. Camaatı namaz qılmağa təbliğ etməsi də Allahın hökmünü icra etməkdir. Biz də ki, namaz qılırıq, əslində Allahın əmrini yerinə yetiririk.

Həzrət Rəsulun (s) itaətində olmaq da Allahın itaətində olmaqdan seçilir. Həzrət Rəsulun (s) əmrləri odur ki, məhz o Həzrət tərəfindən verilən və hökümətə aid olan əmrlərdir. Məsələn, əmr edir ki, Üsamənin ordusunda qoşulun, sərhədləri necə qoruyun, vergiləri necə toplayın, camaatla necə davranın... Bu kimi göstərişlər Həzrət Rəsulun (s) əmr və buyuruqlarıdır. Allah bizə vacib etmişdir ki, Həzrət Rəsulun (s) itaətində olaq, necə ki, Ülil-əmrin yəni imamların itaətində olmalıyıq. Hökümət işlərinə aid olan imamların göstərişlərinə əməl etmək, Allahın itaətindən fərqlənir. Əlbəttə Allah-Təalanın Həzrət Rəsul (s) və İmamların (ə) itaətində olmağımızı vacib etdiyi baxımından onların itaətində olmaq əslində Allahın itaətində olmaqdır.

Ayənin ardınca buyurur:

"...فَإنْ تَنازَعْتُم في شَيْءٍ فَرُدّوهُ إلَى اللهِ و الرَّسُولِ إنْ كُنتُمْ تُؤمِنُونَ باللهِ وَ اليَوم الآخِرِ ذلِكَ خَيْرٌ وَ أحْسَنُ تَأويلاً."

***«Əgər bir iş barəsində mübahisə etsəniz, Allaha və qiyamət gününə inanırsınızsa, onu Allaha və Peyğəmbərə həvalə edin!»***

Camaat arasında baş verən mübahisələr iki növ ola bilər: Biri budur ki, bəzən iki dəstə ya iki şəxs arasında bir mövzu barədə ixtilaf törənir, məsələn, biri iddia edir ki, alacaqlıdır və o birisi inkar edir. Bu kimi

[1] «Üsuli-Kafi» cild 1, səh. 276; «Təfsiri-Bürhan» cild 1, səh. 379-386, 1–4-cü ayənin təfsiri.

mübahisələrdə qaziyə və məhkəməyə müraciət etmək lazımdır və qazi məsələni araşdırdıqdan sonra hökm etməlidir.

İkinci növ budur ki, iki dəstə arasında bir məsələ haqqında ixtilaf olmur, zülm və cinayət məsələsi var. Məsələn zalım zorla bir şəxsin malını alsa, ya camaatın haqqını yesə və sairə. Bu kimi məslələr qaziyə müraciət edilməz. Müddəiyül-ümumi (prokuror) məsləyə yetişməlidir. Bu kimi məsələlər cinayət işləri hesab edilir, bəzən həm mülki həm də cinayət işləridir. Prokuror araşdırmalar aparır və cinayətkarın cəzalandırılmasını istəyir və qazi isə araşdırdıqdan sonra hökm edir. Bu hökmlər istər cəza hökmləri istərsə də mülki olsun, icra orqanı adlanan başqa bir dəstə tərəfindən icra edilir.

Quran buyurur: «و إذا تنازعتم» hər məsələdə aranızda ixtilaf baş versə mərcəiniz əhkamda Allahdır və icrada Həzrət Rəsuldur (s). Həzrət Rəsul (s) əhkamı Allahdan alıb icra etməlidir. Əgər bir ixtilaf varsa, Həzrət Rəsul (s) qazı kimi məsələni həll etməlidir.

Başqa növ ixtilaflarda da zülm və zorakılıq kimilərdə də Həzrət Rəsula müraciət etmək lazımdır. O İslam dövlətinin başçısı olduğuna görə, işə yetişməlidir, haqqı alıb sahibinə qaytarmalıdır.

Bilmək lazımdır ki, Həzrət Rəsul (s)-ın mərcə olduğu məsələlərdə imamlar da mərcədilər və imamların itayətində olmaq Həzrət Rəsuli-Əkrənin itaətində olmaq kimidir.

Nəhayət, birinci ayə « إذا حكمتم بين الناس », ikinci ayə « أطيعُوا اللّٰه » «وَ أطيعُوا الرَّسُولَ» və «فَإنْ تَنازَعْتُم في شَيْءٍ » ayəsi hökümət və qəzalətin hər ikisinini ehtiva edir və təkcə qəzavətə aid deyildir. Baxmayaraq ki, bəzi ayələr hökümətin icra məfhumuna dəlalət edir.

Sonrakı ayədə buyurur:

"أَلَمْ تَرَ إِلَى الَّذينَ يَزْعُمُونَ أَنَّهُمْ آمَنُوا بما أُنْزِلَ إِلَيْكَ وَ ما أُنْزِلَ مِنْ قَبْلِكَ يُريدونَ أَنْ يَتَحاكَموا إِلَى الطّاغُوتِ وَ قَدْ أُمِروا أَنْ يَكفُرُوا بِهِ ..."

***«Məgər sənə nazil olana və səndən qabaq nazil olanlara inandıqlarını təsəvvür edən şəxsləri görmədinmi? Onlar qəzavət üçün tağutlara müraciət edirlər, halbuki, tağutlardan üz döndərməyə əmr olunmuşdur».***

Bizcə «Tağut» sözünün mənası ilahi hökümət qarşısında üsyan edib zülmkar hökumətlər olmasa da, ən azı inanmalıyıq ki, həm qazıları həm də hökümət adamlarını etiva edir. Ona görə ki, cinayətkarı cəzalandırmaq üçün məhkəmə orqanlarına müraciət edilir, məhkəmənin qərarlarını isə

hökumət adamı sayılan icra orqanları həyata keçirirlər. Zülmkar hökumətlər, istər qazılar istərsə də icra hakimləri hamısı «tağutdurlar». Ona görə ki, Allahın hökmündən boyun qacırmış, öz başına qanun qərara alıb onun əsasında hökm sürmüş və icra etmişlər. Allah əmr etmişdir ki, onlardan üz çevirin və onlara qarşı üsyan qaldırın. Aydındır ki, «Tağutdan» üz çevirmək istəyən və onların əleyhinə üsyan qaldırmaq istəyən şəxslər ağır məsuliyyət daşıyırlar ki, imkan daxilində onu yerinə yetirməkdə səy göstərməlidirlər.

## Ömər ibn Hənzəlin məqbuləsi

İndi bu rəvayəti araşdırırıq:

"محمد بن يعقوب، عن محمد بن يحيى، عن محمد بن الحسين، عن محمد بن عيسى، عن صفوان بن يحيى، عن داود بن الحصين، عن عمر بن حنظلة: قالت سألت أبا عبْد اللّهِ (ع) عنْ رجلين من أصحابنا بينهما منازعة في دَين او ميراث فتحاكما إلى السلطان وَ إلى القضاة أ يحلّ ذلِكَ؟ قال: مَنْ تَحاكَمَ إلَيْهِمْ، في حَقٍّ أوْ باطِلِ، فإنَّما تَحاكَمَ إلَى الطّاغُوتِ وَ ما يُحْكَمُ لَهُ، فإنّما يَأخُذُهُ سُحْتاً و إنْ كانَ حقّاً ثابتاً لَهُ؛ لأنّهُ أخَذَهُ بحُكم الطّاغُوتِ وَ ما أمَرَ اللّهُ أنْ يُكفَرَ بهِ. قالَ اللّهُ تَعالى: يُرِيدُونَ أنْ يَتَحاكَمُوا إلَى الطّاغُوتِ وَ قدْ أمِرُوا انْ يَكفُرُوا بهِ. قلت: فكيف يصنعان؟ قال: يَنظُرانِ مَنْ كانَ مِنْكمْ مِمَّنْ قدْ رَوى حَديثنا وَ نَظرَ فِي حَلالِنا وَ حَرامِنا وَ عَرَف أحكامَنا ... فليَرْضَوْا بهِ حكَماً. فإنّي قدْ جعَلتُهُ عَلَيْكمْ حاكِماً ..."

Ömər ibn Hənzələ[1] deyir ki: «İrs ya borc üstündə mübahisə edən və məsələnin həlli üçün qazıya müraciət edən iki şiənin barəsində İmam Sadiqdən (ə) bu işin rəva olub-olmamasını soruşdum. Buyurdum: **«İstər haqq, istərsə nahaq iddiaları onun yanında qaldırmaq tağuta müraciət etmək kimidir, o qazının hökmü ilə hər nə əldə etsə əslində haramdır, baxmayaraq ki, aldığı şey onun öz haqqıdır. Ona görə ki, onu tağutun hökmü ilə almışdır və bir halda ki, Allah ondan uzaq olmağı əmr edibdir. Allah-Təala:**

يُرِيدُونَ انْ يَتَحاكَمُوا إلَى الطّاغُوتِ وَ قدْ أمِروا أنْ يَكفُرُوا به

Soruşdum ki, neyləməlidirlər.

---

[1] Ömər ibn Hənzələ Əcəli kufi, Şeyx Tusi İmam Sadiq və İmam Baqirin (ə) səhabələrindən olmuşdur. O, məşhur ravilərdən olub Zürarə, Hişam ibn Salim, Əbdullah ibn Bəxir, Əbdullah ibn Məskan və Səfvan ibn Yəhya, ondan rəvayətlər nəql etmişlər, bu isə onun mötəbərliyini göstərir.

Buyurdu: **«Bizim rəvayətlərimizi nəql edən halal və haram üzərində mütaliə edən, əhkam və qanunları bilən şəxsi araşdırıb sizin içinizdə tapmalıdırlar».**[1]

Bu rəvayətdən və imamın ayəyə istinad etməsindən məlum olduğu kimi sualın əhatə dairəsi geniş olduğundan imam da cavabı geniş bəyan etmişdir. Dedim ki, mülki və cəza iddialarını həll etmək üçün həm məhkəmə orqanlarına və həm də icra orqanlarına müraciət edilir. Ona görə qazılara müraciət edilir ki, haqlı müəyyən olsun və icra orqanlarına ona görə müraciət edilir ki, cəza və mülki hökmlər icra edilsin, buna əsasən rəvayətdə imamdan sual edilir ki, qazılar hökümət adamlarına müraciət etsinlərmi?

## Nahaq qüdrətlərə müraciət etməyin təhrimi (haram edilməsi)

Həzrət öz cavabında nahaq hökümətlərə iddiaların həll edilməsi üçün müraciət etməyi təhrim (qadağan) edir və əmr edir ki, müsəlmanlar öz işləri üçün zülmkar hökümətə və qazılara müraciət etməməlidirlər, baxmayaraq ki, haqlı olub haqlarını tələb etmək üçün müraciət edirlər. Əgər bir müsəlmanın oğlunu öldürüb ya evini qarət ediblərsə, yenə zülmkar hakimə müraciət etməməlidir. Habelə, tələbkar zülmkar hakimin xadimi olan qazının yanında iddia qaldırmamalıdır. Bu kimi vəziyyətlərdə onlara müraciət etsə, əslində «tağuta» müraciət edibdir. Əgər bu batil sistemlərin vasitəsilə öz haqqlarına çatsalar, haram yolla çatmış kimi olurlar və haqları yoxdur ki, ona yiyələnsinlər.

فإنما يأخذه سُحْتاً و إن كان حقا ثابتاً له

Hətta bir sıra fəqihlər «eyni-şəxsi»[2] haqda demişlər ki, əgər məsələn geyim paltarlarını aparsalar və zülmkar hakimin vasitəsilə onu qaytarsanıızsa ona yiyələnə bilməzsiniz.[3] Biz bu hökmü qəbul etməsək də ən azı ümum mövzularda (eyni-küllidə) şübhə etməməliyik. Məsələn, əgər bir şəxs tələbkar olub tələbini almaq üçün Allah müəyyən etməmiş məsula müraciət etsə və onun vasitəsilə tələbini alsa, ona yiyələnə bilməz. Şəriət qaydaları da bunu tələb edir.

---

[1] «Üsuli-Kafi» cild 1, səh. 86; «Vəsailüş-şiə» çild 18.

[2] Əgər bir şəxs iddia etsə ki, başqası ona bir pul borcludur, lakin o, müəyyən olmasa, tələb edilən şeyə «eyni-küllü» deyilir, amma iddia etsə ki, müəyyən bir pul ya şey borcludursa, o şeyə ya pula «eyni-şəxsi» deyilir.

[3] Mühəqqiqi Səbzvari «Kifayətlü-Əhkam»da ona ehtimal üzrə inanmışıdır.

## İslamın siyasi hökmü

Bu İslamın siyasi hökmüdür. Bu hökmə əsasən müsəlmanlar zülmkar və nahaq orqanlara müraciət etməkdən çəkinirlər. Bununla qeyri-islam və zülmkar dövlətin geniş təşkilat dairələri bağlanır və camaatı zəhmətə salan məhkəmə orqanı tətilə uğrayır, İmamlar (ə) və onların tərəfindən nümayəndə olan şəxslərə yol açılır. Əsas məqsəd budur ki, zülmkar hökümətin xadimi olan qazıların mərcə olmalarının qarşısı alınsın. İslam xalqlarına elan edilmişidir ki, bunlar mərcə deyillər. Allah əmr etmişdir ki, camaat zülmkar hökümətlərə qarşı üsyan qaldırmalıdırlar. Onları nahaq bilməklə onlara müraciət etmək uyğun gəlmir. Siz onları nahaq və ləyaqətsiz bilirsinizsə, onlara müraciət etməməlisiniz.

## İşləri İslam alimləri idarə etməlidirlər

Bununla bağlı İslam xalqının vəzifəsi nədir? Və baş vermiş bəzi hadisələrdə, münaqişələrdə nə etməli və kimə müraciət etməlidirlər?

قال: ينظران من كان منكم ممن قد روى حديثنا و نظر فى حلالنا و حرامنا و عرف أحكامنا

İmam buyurdu: «**Bizim hədislərimizi nəql edən Allahın haram və halal etdiklərini bilən və bizim hökmlərimizi qayda-qanunlarla əldə edə bilən şəxslərə müraciət etməlidirlər».**

İmam (ə) heç bir anlaşılmaz sahə qoymamışdır ki, bəziləri desinlər ki, hədisçilər də mərcə və hakimdirlər. İmam hər bir şeyi demişdir və halal-haramı qayda və prinsip vasitəsilə əldə edə bilən və əhkamı tanıyan şəxs olmasını qeyd edərək bunu başa salmaq istəyir ki, o şəxslər təqiyyə üzündən olan rəvayətləri tanısın və həqiqəti ondan seçə bilsin. Aydındır ki, əhkamı bilmək və hədisi tanımaq hədis söyləməklə fərqlidir, və ondan başqadır.

## Alimlər hakimliyə nəsb olmuşlar

Buyurur: « فإني قد جعلته عليكم حاكماً » (mən bu şəraitə malik olan şəxsi sizin üçün hakim qərar vermişəm) Bu şəraitə malik olan şəxs müsəlmanların hökumət və qəzavət işlərini idarə etmək üçün təyin olunmuşlar və müsəlmanlar ondan başqasına müraciət etməməlidirlər. Buna əsasən əgər bir zalım sizin malınızı mənimsəsə, şikayətinizi imamın

təyin etdiyi mücrilərin yanına aparmalısınız. Əgər borc üstündə birisi ilə mübahisə etsəniz, yəni İmam (ə) təyin etdiyi qazının yanına getməlisiniz. Bu ümum müsəlmanların vəzifəsidir: təkcə «Ömər ibn Hənzələ» deyildir ki, bu kimi məsələ ilə qarşılaşmışdır.

İmamın (ə) verdiyi bu fərman ümumi bir fərmandır. Həzrət Əmir (ə) özünün hökumət etdiyi dövrdə icra hakimi, qubernator və qazi müəyyən edib müsəlmanlar onun itaətində olduğu kimi Həzrət İmam Sadiq (ə) də mütləq vəliyyi-əmr olub bütün düya xalqlarına, alim və fəqihlərə hakim olduğu etibarı ilə özü sağ ikən və özündən sonrakı dövrəyə də icra hakimi, qazı təyin edə bilər. Həzrət bu işi də gördü, bu vəzifəni fəqihlərə tapşırdı və «hakim» sözü ilə ifadə etdi ki, təkcə məhkəmə işlərinə deyil, hökumətin digər işlərini də əhatə etsin.

Habelə rəvayət və ayədən məlum edilir ki, burada ancaq qazının təyin edilməsindən söz getmir ki, İmam (ə) ancaq qazının təyin edilməsi barədə cavab versin və müsəlmanların başqa siyasi işlərdə vəzifələrini müəyyən etməsin, belə olan halda sualların biri cavabsız qalardı.

Bu rəvayət mötəbərdir və sənədində heç şübhə yoxdur. Şübhə yoxdur ki, İmam (ə) fəqihləri hökumət və qəzavət işini idarə etməyə təyin etmişdir və bütün müsəlmanlara vacibdir ki, İmamın (ə) itaətində olsunlar.

Mətləbin aydınlaşması üçün Əbu-Xədicənin[1] rəvayətini də burada dərc edirik:

محمّد بْنِ حَسن باسْنادِهِ عن محمد بْنِ علي بْن محبوب، عن أحمد بْن محمد، عن حسين بْنِ سعيد، عن أبي الجَهْم، عن أبي خدِيجة، قال بعثني أبو عبد الله (ع) إلى أحد مِن أصحابنا فقالَ: قُلْ لهُمْ: إيّاكُمْ، إذا وَقعَتْ بَيْنكُمُ الخُصُومةُ أوْ تَدارَى في شَيْءٍ مِنَ الاخْذِ وَالعَطاء انْ تَحاكمُوا إلى أحَدٍ مِنْ هؤُلاء الفُسّاقِ. اجْعلُوا بَيْنَكمْ رَجُلا قدْ عَرَفَ حَلالَنا وَحَرامَنا؛ فإنّي قدْ جَعَلتُهُ عَلَيْكُمْ قاضِياً. وَإيّاكُمْ أنْ يُخاصِمَ بَعْضُكُم بَعْضاً إلى السُلطانِ الجائِر

Əbu Xədicə deyir ki, İmam Sadiq (ə) mənə əmr etdi ki, bu peyğamı şiələrə çatdırım: **«Sizin aranızda bir düşmənçilik baş versə və ya alacaqlı ya verəcəkli olduğunuz barədə ixtilafınız olsa, məsələnin həlli üçün pis əməlli şəxslərə müraciət etməyin. Öz içinizdə haram və halalı tanıyan bir şəxsi hakim və münsif edin. Ona görə ki, mən onu sizin üçün qazı seçilmişəm və məbada biriniz digəriniz əleyhinə zülmkar hakimin yanına şikayətə gedəsiniz».**[2]

---

[1] Salim ibn Məkrəm ibn Əbdullah, Əbu Xədicə İmam Sadiq və İmam Kazımın (ə) sahabələrindən olub, mötəbər olması şübhəsizdir.

[2] «Vəsalüş-şiə» çild 18, səh. 100.

Rəvayətdə qeyd edilən «Tədarəyə fişşey» sözünün mənası mülki ixtilaflardır. Yəni mülik münaqişələrdə bu fasiqlərə müraciət etməyin. Onun ardınca «mən sizin üçün qazi müəyyən etmişəm» - deməsindən məlum olur ki, fasiqlər batil hakimdirlər və əmirləri tərəfindən məhkəmə vəzifəsinə malik olan şəxslərdir. Hədisin ardınca buyurur:

وَ إيّاكم أن يخاصم بعضكم بعضاً إلى السلطان الجائر

«Münaqişələrdə zülmkar sultana (padşaha) müraciət etməyin». Baxmayaraq ki, «zülmkar sultan» sözü bütün qeyri-islam hökümətləri, həm də icra, qanunvericilik və məhkəmə orqanlarını əhatə edir. Amma bundan əvvəl zülmkar olan məhkəmə orqanlarına müraciət etməkdən çəkindirməsindən məlum olur ki, icra orqanlarına müraciət etməkdən çəkindirir. Sonrakı cümlə əvvəlki mətləbin, yəni fasiqlərdən çəkindirməyin təkrarı deyilir. Ona görə ki, əvvəl araşdırma, sübut toplama və bu kimi məhkəmə işlərindən ibarət olan işlərdə fasiq qazıya müraciət etməkdən çəkidirir və özü də qazı müəyyən edib ardıcıllarının vəzifəsini məlum edir, sonra isə sultana da müraciət etməkdən cəkindirir. Buradan aydınılaşır ki, qəzavət sahəsi «sultana müraciət etmək» sahəsində başqadır. Ömər ibn Hənzələnin rəvayətində hər ikisinə (sultan və qazı) müraciət edilməkdən çəkindirilmişdir və bu rəvayətdə isə ancaq qazını deyir və ancaq qazı müəyyən etmişdir. Hənzələnin rəvayətində isə həm icra hakimini və həm də qazını təyin etmişdir.

## Alimlər hökumətə çata bilməzlərmi?

İndi bunu araşdırmaq lazımdır ki, İmam (ə) öz sağlığında bu rəvayətə əsasən məhkəmə işini fəqihlərə tapşırmış və Hənzələnin nəql etdiyi rəvayətə görə həm məhkəmə işini və həm də icra (dövlət) işlərini fəqihlərə tapşırmışdır, görəsən İmam dünyadan rehlət etdikdən sonra fəqihlər öz-özünə vəzifədən düşürlərmi? İmamların vəzifə sahibləri etdikləri qazılar və icra hakimləri imamların rehləti ilə vəzifədən azad edilirlərmi, yoxsa yox?

Baxmayaraq ki, imamın vilayət və rəhbərliyi başqalarla fərq edir və şiə məzhəbinə görə imamların bütün göstəriş və hökmlərinə istər sağlıqlarında istərsə dünyadan köçəndən sonra olsun, əməl edilməlidir; amma bilmək lazımdır ki, onların vəzifə sahibi olmalarına aid hökmləri özlərindən sonra davam etməlidirmi, yoxsa yox?

Dünya hökümət sistemlərində istər padşahlıq, istərsə də respublika üsulunda ya hər hansı bir formada olsun, prezident ya kral dünyadan köçdükdən sonra ya rejim dəyişildikdən sonras hərbi, ictimai vəzifələr pozulmaz. Yəni bir Generalın dərəcəsi öz-özünə ondan alınmaz, səfir səfirlikdən düşməz, nazir, icra hakimi, qəsəbə hakimi və rayon müdiri öz-özünə öz vəzifələrindən azad edilməzlər. Əlbəttə, hakimiyyətə gələn yeni rejim onları vəzifədən azad edə bilər, lakin bu vəzifələr öz-özünə aradan getməz. Bir sıra işlər var ki, öz-özünə pozular, məsələn, Fəqihin müəyyən şəxsə verdiyi nümayəndəlik vəzifəsi, yaxud fəqihin bir şəxsə hisbi işlərə[1] aid verdiyi icazə, o fəqihin dünyadan keçməsi ilə aradan gedər. Amma əgər Fəqih bir səğir uşaq üçün bir şəxsi qəyyum ya vəqf mal üçün başçı seçsə, Fəqih ölməklə o şəxs vəzifədən azad edilməz.

## Alimlərin vəzifələrində qalmaları həmişəlikdir

İmamların İslam fəqihlərinə verdikləri məqam və vəzifə pozulmazdır. İşində qəflət etməyən və mövzunu hər tərəfli bilən imam bunu bilir ki, bir rəisin dünyadan köçməsi ilə vəzifələr və məqamlar aradan getmir. Əgər fikrində olsaydı ki, onun rehləti ilə fəqihlərə verdiyi vəzifə və məqam da fəqihlərdən səlb olunur, (alınır) onda «özünün dünyadan köçməsi ilə fəqihlərin də vəzifədən azad edildiyini» qeyd edərdi.

Deməк, İslam alimləri – bu rəvayətə əsasən – İmam (ə) tərəfindən hökümət və qəzavət işlərini idarə etməyə seçilmişlər. Onlar həmişəlik bu vəzifədə olmalıdırlar. Sonrakı imamın bu hökmü batil etməsi və fəqihləri bu vəzifədən çıxarılması ehtimalı nadürüstdür. Ona görə ki, «öz haqqınızı almaq üçün onların hakim və qazılarına müraciət etməyin və onlara müraciət etmək tağuta müraciət etmək kimidir», deyən sonra da «Allah əmr etmişdir ki, tağutun əleyhinə üsyan qaldırasınız» məzmunlu ayəyə istinad edib, sonra özü də qazı və hakim seçən imamdan sonra gələn imam bu hökmü pozub hakim və qazı müəyyən etməsə, onda müsəlmanların vəzifəsi nə olar? Müsəlmanlar ixtilaf və münaqişələrdə kimə müraciət etməlidirlər? Fasiqlər və zülmkarlara müraciət etməlidirlər, bir halda ki, bu iş Allahın əmrinin ziddinədir? Yaxud oturub dinməsinlər

[1] Hisbi işlər o işlərə deyilir ki, şəriət o işlərin görülməsini istəmişdir ki, bir şəxsin ya dəstənin o işləri yerinə yetirilməsilə başqaların boynundan götürülür. Qəzavət, əmr be məruf, müdafiə işləri kimi, Qeybət əsrində bu kimi işləri ədalətli fəqih və ya onun icazə verdiyi nümayəndə görməlidir.

və nəticədə anarxizmə qatılsınlar? Hər kəs özbaşınalıqdan başqaların malını mənimsəyib, haqqını əzsin və bundan başqa işlər də görsünmü?

Biz inanırıq ki, İmam Sadiq (ə) fəqihləri bu vəzifəyə təyin etmişdir və İmam Musə ibn Cəfər və ya sonrakı İmamlar (ə) isə onu pozmamışlar. Yəni poza da bilməzlər və deyə bilməzlər ki, öz işlərinizdə ədalətli fəqihlərə müraciət etməyin! Yaxud deyə bilməzlər ki, zülmkarlara müraciət edin ya dinməyin və qoyun haqqınız tapdalansın. Əlbəttə, bir imam bir şəhərə qazı təyin etmiş olsa, ondan sonra gələn imam o qazının vəzifədən çıxarıb başqasını onun yerinə qoya bilər. Lakin aydındır ki, müəyyən edilmiş məqam və dərəcələri pozmaq olmaz.

İndicə nəql etdiyimiz rəvayət sözümüzü sübut edir. Əgər bizim sübutlarımız ancaq bu rəvayətlərdən biri olmasaydı sözümüzü və iddiamızı sübut edə bilməzdik. Hər halda deyilən rəvayətlər kifayət idi.

## Səhiheyi Qəddah

علیِ بُن إبراهیم، عن أبیه، عن حمّاد بن عیسی، عنْ القدّاح (عبد الله بن میمون) [1]
عَنْ أبی عبدِ اللّه (ع) قالَ: قالَ رَسُولُ اللّهِ (ص): منْ سلَكَ طَریقاً یَطلُبُ فیهِ عِلماً، سَلَكَ اللّهُ به طُریقاً إلی الجنّهِ. وَ إنّ الملائِكةَ لتَضَعُ أجْنِحَتَها لِطالِبِ العِلم رِضاً به. وَ إنّهُ یَسْتَغْفِرُ لِطالِبِ العِلم مَنْ فِی السّماءِ وَ منْ فِی الأرْض حَتیَّ الحُوتِ فی البَحْرِ. وَ فَضْلُ العالِمِ عَلی العابدِ كفَضْلِ القمَرِ عَلی سایِرِ النّجُوم لیْلةَ البَدْرِ. و إنّ العُلماءَ ورثةُ الأنبیاءِ. إنّ الأنبیاءَ لمْ یُورّثُوا دیناراً وَ لا دِرْهَماً؛ وَ لكِنْ ورّثوا العِلمَ. فمَنْ أخَذَ مِنهُ، أخَذَ بحظٍّ وافر.

İmam Sadiq (ə) Həzrət Peyğəmbərin (s) dilindən nəql edir və deyir: **«Allah elm öyrənmə yolunda səy göstərən şəxsin üzünə cənnət yolunu açar və mələklər Allahın razılığı üçün sevincək qanadlarını o tələbənin ayağı altına döşəyərlər. Göydəkilər, yerdəkilər, hətta dənizlərdəki balıqlar belə o tələbə üçün bağış-əfv diləyirlər. Alimin abiddən üstünlüyü on dörd gecəlik ayın ulduzlardan üstünlüyü kimidir. Həqiqətən alimlər peyğəmbərlərdən irs aparmışlar. Peyğəmbərlər puldan irs qoymazlar, onlar elmi irs qoyarlar. Buna əsasən elmdən faydalanan şəxs, çox və dəyərli biliklərə sahib olur».**[2]

---

[1] Əbdullah ibn Meymun ibn Qəddah, İmam Biqir (ə) və İmam Sadiqin (ə) səhabələrindən olub Nacaşi və Əllamə onu mötəbər biliblər.

[2] «Üsuli-Kafi» cild 1, səh. 42.

Hədisi nəql edənlərin hamısı mötəbərdirlər hətta Əli ibn İbrahimin[1] atası olan (İbrahim ibn Haşim)[2] hədis nəqlində mötəbərlərin böyüklərindəndir. Bu rəvayət məzmun baxımından bir az fərqli olaraq başqa bir sənədlərdə nəql olub ki, o zəifdir. Yəni Əbulbuxtəraya qədər sənəd səhihdir, lakin Əbulbuxtəranın[3] özü zəifdir.

### Əbulbuxtərinin rəvayəti

عن محمد بن يحيى، عن أحمد بن مِحمِد بن عيسى، عن محمد بْن خالد، عن ابى البخترى، عن ابى عبد الله (ع)، قالَ: إنَّ العُلماءَ ورثةُ الانْبياءِ. وَ ذاكَ أنَّ الانْبياءَ لَمْ يُورِثوا دِرْهَماً وَ لا دِيناراً؛ وَ انّما أوْرَثوا أحادِيث مِنْ احادِيثِهِمْ. فَمَنْ أخَذَ بِشَىْءٍ مِنْها، فَقَدْ أخَذَ حَظّاً وافِراً. فَانْظُروا عِلْمَكُمْ هذا عَمَّنْ تَأخُذُونَهُ. فَإنّ فينا، اهْلَ البَيْتِ، فى كُلّ خَلَفٍ عُدُولاً، يَنْفُونَ عَنْهُ تَحْرِيْفُ الغالِينَ وَ انْتِحالَ المُبْطِلينَ وَ تَأويلَ الجاهِلِينَ.

İmam Sadiq (ə) buyurur: **«Alimlər irs aparandırlar ona görə ki, peyğəmbərlərdən pull irs qalmaz, lakin onların kəlamları, nəsihətləri onlar üçün irsdir. Buna əsasən onların hədislərindən barlanan şəxs çox bilik əldə edər. Deməkk, baxın görün ki, bu elmi kimdən öyrənirsiniz. Ona görə ki, Peyğəmbər Əhli-beyti olan bizim içimizdə hər bir əsrdə elə düz şəxslər var ki, təhrifçiləri, yersiz təfsirçiləri dindən uzaq salır, dini müğrizlər və nadanların dəyişmələrindən qoruyurlar».**[4]

### Rəvayətin araşdırılması

Rəhmətlik Nəraqinin[5] də istinad etdiyi bu rəvayəti nəql etməkdə məqsədimiz budur ki, bu rəvayətdə qeyd edilən «العلَماءُ ورثةُ الأنبياء» alimlər peyğəmbərlərin vərəsələridir» cümləsinin mənası məlum olsun. Burada bir neçə bəhs var:

1- «Alimlər» dedikdə kimlər nəzərdə tutulur? Ümmətin alimlərimi yoxsa imamlardırmı (ə)? Bəzi şəxslər etimal vermişlər ki, bu imamlar

---

[1] Bu şəxs üçüncü əsrdə təfsirçi, fəqih və hədisçi olub bir çox əsərlərin o cümlədən «məğazi», «Əşşəraye», «Quranın təfsiri» və s. müəllifidir. Məzarı Qumdadır.

[2] İbrahim ibn Haşimi Qumi İmam Cavadın (ə) səhabələrindən olub çox rəvayətlər eşitmişdir. Deyilənlərə görə birinci şəxsdir ki, Küfəlilərin hədislərini Qumda nəşr etmişdir. Nəvadir və Əmirəl-möminin sərgüzəşti kitabları onun əsərləridir.

[3] Vəhab ibn Vəhab ibn Kəsir ibn Əbdullah İmam Sadiq (ə) ravilərindən olubdur. Sünni alimlər, o cümlədən Əhməd ibn Həmbəl onu saxtakar və yalançı biliblər. Şeyx Tusi də onu zəif bilir. Lakin İmam Sadiqdən (ə) bir sıra doğru rəvayətləri də var.

[4] «Üsuli-Kafi» cild 1, səh. 39 Kitab, fəzlül-elm hədis 2.

[5] «Əvaidül-Əyyam» səh. 186.

əleyhissəlamdır.[1] Lakin aydındır ki, məqsəd ümmətin alimləridir və hədisin özü göstərir ki, məqsəd İmamlar (ə) deyildir, ona görə ki, imamların barəsində olan mənqəbətlər bunu göstərmir. «Peyğəmbərlər özlərindən hədislər yadigar qoymuşlar və onu əldə edən şəxs üçün çox faydalıdır» kimi cümlələr imamlar üçün tərif ola bilməz. Bu kimi cümlələr məqsədin ümmət alimləri olduğunu göstərir. Habelə, Əbulbuxtərinin «العلماء ورثة الانبياء» cümləsinin ardınca «فانظروا علمكم هذا عمن تأخذونه» cümləsi gəlmişdir. Zahirən bunu demək istəyir ki, alimlər Peyğəmbərin yadigarıdırlar, lakin diqqət etmək lazımıdr ki, onlar Peyğəmbər yadigarı olmaq üçün elmi kimdən öyrənməlidirlər. «İmamlar Peyğəmbərin vərəsələridir və camaat elmi imamlardan öyrənməlidirlər», deməyimiz zahirən nadürüstdür. Hər kəs İmamlar (ə)-ın haqında olan hədislərə baxsa və onların Həzrət Peyğəmbərin yanında nə kimi məqam və dərəcəyə malik olduqlarına diqqət yetirsə, başa düşəcəkdir ki, bu rəvayətdə imamlar deyil, ümmət alimləri nəzərdə tutulur. Necə ki, alimlərin mərhəmətində bu rəvayətə oxşar rəvayət çoxdur. Məsələn

علماءُ أمَّتی کسائِر انبیاءِ قبْلی و علماءُ أمَّتی کأنبیاءِ بَني إسرائیل

**«Mənim ümmətimin alimləri qabaqkı peyğəmbərlər kimidirlər. Ya mənim ümmətimin alimləri Bəni-İsrail peyğəmbərləri kimidirlər».**[2]

2- Mümkündür deyilsin ki, «العلماء ورثة الانبياء» - sözü ilə təklikdə sübut edəcəyimiz mətləbi (Vilayəti-Fəqih) sübut edə bilmərik. Ona görə ki, Peyğəmbərlər ancaq peyğəmbərlik baxımından diqqət yetirməlidirlər və onlar elmi məbdəyi-əladan, Vəhy, ilaham ya başqa yolla öyrənirlər və bu xüsusiyyətə malik olmaq isə insanlara və möminlərə rəhbər olmağı tələb etmir. Əgər Allah-Təala onlara imamlıq və vilayət məqamını verməsə, onlara ancaq peyğəmbər ola bilərlər. Əgər təbliğ etməyə də məmur olublarsa, əldə etdiklərini insanlara çatdırmalıdırlar. «Rəsul» ilə «Nəbi» fərqləndirilmişdir. Yəni «Rəsul» təbliğat almağa məmurdur. «Nəbi» isə ancaq mətləbi Allahdan alır.[3] Və «Peyğəmbərlik» rəhbərliklə mahiyyət etibarı ilə fərqli olduğuna görə və «العلماء ورثة الانبياء» [əlüləmau vərəsətül-ənbiya] ibarətində peyğəmbərlərin ancaq «Vəsfi-ünvanisi»[4]

---

[1] «Bülğətül- fəqih» cild 3, səh. 226.

[2] «Biharül-ənvar» çild 2, səh. 22.

[3] «Üsuli-Kafi» cild 1, səh. 245-246.

[4] «Vəsfi-ünvani» o deməkdir ki, hədisin məzmunu ancaq «peyğəmbərliyə» aid olsun. Yəni alimlər peyğəmbərlərin yadigarıdır və peyğəmbərlər isə din maarifini Allahdan

məqsəd götürülüb, alimlər və həm də bu kimi vəsf etmək rəhbərliyi tələb etmədiyinə görə, bu cümlədən alimlərin rəhbərliyini sübut etdirmək olmaz. Əlbəttə əgər desəydi ki, alimlər Musa və İsa peyğəmbərlər kimidirlər, biz başa düşərdik ki, Həzrət Musanın malik olduğu bütün cəhətlərə, o cümlədən «Vilayət» və rəhbərliyə alimlər də malikdirlər.

Cavabında deməliyəm ki, rəvayətlərin və sözlərin məfhumunun nə olduğunda meyar elmi araşdırmalar deyil, ümum xalqdır. Biz də ümum xalqın nəzərinə tabeyik. Fəqih rəvayətləri araşdırmaqda dəqiq elmi nöqteyi-nəzərlə baxsa, bir çox mətləblərdən qalar. Əgər «العلماء ورثة الانبياء» cümləsinin ümum xalq mühakiməsinə versək onlar bu rəvayətdən nə başa düşərlər? Əgər ümum xalqdan soruşsaq ki, filan fəqih Musa və İsa kimidir ya yox? Cavabda deyəcək ki, bu rəvayətə görə bəli. Əgər soruşsaq ki, fəqih Həzrət Rəsulullahın varisidirmi ya yox, deyəcək ki, bəli, çünki Həzrət Rəsul peyğəmbərlərdəndir.

Demək, ənbiya sözünü vəsfi-ünvanı təsəvvür etmək olmaz, xüsusilə, cəm olduğu üçün, heç olmaz. Tək olsaydısa, ehtimal verilərdi. Lakin Ənbiya deməkdən məqsəd «külli fərdin minəl-ənbiya»dır.[1] Demək «كل فرد من الانبياء بما هم انبياء» deyil ki, «Vəsfi-ünvani» məqsəd olsun və bununla başqa sifətlər seçilsin və deyilsin ki, fəqih Rəsul kimi deyil, Nəbi kimidir. Bu kimi araşdırmalar ümum xalqın əqlinə ziddir.

3- Tutaq ki, alimlər peyğəmbərlər «bima hum ənbiya» kimidirlər, onda Allah-Təalanın peyğəmbərə görə verdiyi hökmü alimlərə də qəbul etməliyik. Məsələn, əgər deyilsə ki, filan şəxs ədalətli şəxs kimidir və sonra desə ki, ədalətli şəxsə hörmət göstərmək lazımdır; bu sözdən başa düşürük ki, o şəxsə də hörmət etmək vacibdir. Buna əsasən biz «النّبى اوْلى بالمُومِنينَ مِنْ انفُسِهم»[2] ayəsi ilə sübut edə bilərik ki, «Vilayətlik» məqamı alimlərə də verilmişdir. Yəni «اوْلى» sözü vilayət və rəhbərlik deməkdir. Necə ki «Məcməül-bəhreyndə»[3] bu ayənin ardınca Həzrət İmam Baqirdən (ə) belə bir rəvayət edir:

---

alırlar. Demək hədisin məzmunundan əldə edilmir ki, bəzi peyğəmbərlərin öhdəsində olan rəhbərlik məsuliyyətinə peyğəmbərlərin yadigarları da malikdir.

[1] « كل فرد من الانبياء » yəni peyğəmbərlərin hər biri bütün məsuliyyətləri ilə belə « كل فرد من الانبياء بما هم انبياء » - Yəni peyğəmbərlərin hər biri peyğəmbər olduqlarına baxmayaraq imamlıq və vilayət vəzifəsinə də malikdirlərmi ya yox.

[2] «Əhzab» surəsi, ayə 6.

[3] Bu kitab Quranın və hədislərin sözlərinin izahı üçün yazılmışdır. Müəllifi Fəxriddin ibn Mühəmməd Mədəliyy ibn Əhməd ibn Tərihidir. O, «sihah Tamus» və «Nihayə» kitablarından istifadə edərək bu kitabı yazmışdır.

Həzrət buyurub: **«Bu ayə əmirlik (hökümət və vilayət) barəsində nazil olmuşdur».**[1] Demək Nəbi möminlərə başçıdır və Həzrət peyğəmbərin malik olduğu vilayətə alimlər də malikdir. Ona görə ki, ayədə hökm vəsfi-ünvani əsasında gəlmişdir və rəvayətdə də vəsf-ünvani əsasındadır.

Bundan əlavə Həzrət Rəsuli-Əkrəmə (s) aid olan ayələrə istinad edə bilərik, məsələn « أطيعُوا اللهَ وَ اطيعُوا الرّسُول ».

Tutaq ki, «Rəsul» ilə «Nəbi» arasında fərq yoxdur – baxmayaraq ki, bir sıra rəvayətlərdə «rəsul» ilə «nəbi» sözü fərqləndirilmişdir.[2] – Vəli, nəbi və rəsul ümum xalq fikrincə eyni məna daşıyırlar. Ümum xalq nöqteyi-nəzərincə «nəbi» - Allah tərəfindən xəbər verən şəxsə və «rəsul» - Allahın əmrini xalqa çatdıran şəxsə deyilir.

4. Mümkündür deyilsin ki, Həzrət Peyğəmbərin vəfatından sonra qalan əhkamın özü bir növ «mirasdır». – Baxmayaraq ki, termində ona «miras» deyilmir – və bu əhkamı öyrənən şəxslər isə peyğəmbərin varisləridirlər. Lakin haradan məlum olsun ki, Həzrət Rəsuli-Əkrəmin (s) malik olduğu «vilayət» vəzifəsi irs və ya yadigar qala bilər? Bəlkə də ancaq hədislər və əhkam irs olmaq qabiliyyətindədir. Bu rəvayətə də qeyd olunmuşdur ki, peyğəmbərlər «elmi» irs qoyarlar. Habelə Əbulbuxtərinin rəvayətində də deyilmişdir ki,

انما اورثوا احاديث من احاديثهم

Demək məlum olur ki, ancaq «hədisləri» irs qoymuşlar və vilayət irs olmaq qabiliyyətində deyildir.

Bu nəzər də düz deyildir. Ona görə ki, «vilayət» və «əmirlik» mövzuları etibari və subyektiv mövzulardandır. Bu kimi mövzularda əql nəzər verə bilər. Gərək aqil şəxslər vilayət və hökumətin bir şəxsdən başqa bir şəxsə irs qala bilməsini təsdiq edirlərmi? Məsələn aqillərdən soruşsalar ki, bir səltənətin vərəsəsi kimdir? Görəsən cavabda «vəzifə irsə qalmaz» deyəcəklər, yoxsa deyəcəklər ki, vəzifə bir şəxsə irs qalıbdır? Əslində «tac-taxt» sözü məruf sözlərdəndir. Şübhəsiz ki, «vilayət» də aqillərin nəzərində maldan irs qalan kimi bir şəxsdən başqa bir şəxsə irs qala bilər. Əgər

النّبىُ اوْلى بالمُؤْمِنينَ مِنْ انفُسِهِمْ

---

[1] «Məcməül-bəhreyn» çild 1, səh. 457.

[2] «Üsuli-Kafi» cild 1, səh. 176-177.

ayəsinə baxsaq və əgər «العلماء ورثة الانبياء» rəvayətinə diqqət etsək, biləcəyik ki, məqsəd həmin etibari mövzulardır ki, aqil insanlar onu birindən başqasına daşına bilməsini təsdiq edirlər.

Əgər «العلماء ورثة الانبياء» ibarəti İmamlara (ə) aid olsaydı, (necəki, rəvayətdə gəlmişdir) imamlar hər sahədə Peyğəmbər (s)-in varisləridir.[1] Şübhəsiz ki, «imamlar hər sahədə Peyğəmbər (s)-in varislərdir və təkcə elm və şəriət hökmləri varisliyi deyildir» - deyərdik.

Buna əsasən əgər ancaq «العلماء ورثة الانبياء» «Əlüləma vərəsətül-ənbiya» ibrəti bizim əlimizdə olsaydı da nəzərə gələrdi ki, Həzrət Rəsuldan irs qalan bütün sahələr, o cümlədən özündən sonra imamlara irs qalan rəhbərlik mövzusu, fəqihlər üçün də irs qalır. Amma başqa sübutlara xaric olan sahələri biz də xaric edirik.

Yuxarıdakı iraddan qalan böyük hissə budur ki, «العلماء ورثة الانبياء» ibarəti bir sıra cümlələrlə bəyan edilmişdir ki, irsin «hədislərdən» ibarət olmasına bir nişanə ola bilər. Necə ki, «səhiheyi-qəddah»-da gəlmişdir:

إن الأنبياء لم يورثوا ديناراً و لا درهماً و لكن ورثوا العلم

Və Əbulbuxtəranın «انما اورثوا احاديث من احاديثهم». Bu rəvayət göstərir ki, peyğəmbərlərin irsi ancaq hədislərdir və onlarda irs qabiliyyəti olan bir şey yoxdur. Xüsusilə cümlə «innəma» ilə başlanıb ki, həsri yetirir.

Bu şübhə də yersizdir. Ona görə ki, əgər məqsəd budursa ki, Həzrət Peyğəmbər (s) ancaq hədislər yadigar qoymuşdur və ondan başqa bir şey qalmamışdır ki, irs qoysun. Bu isə məzhəbimizin zəruriliyinin ziddinədir. Ona görə ki, Həzrət Peyğəmbər (s) çoxlu yadigarlar qoymuşdur. Şübhə yoxdur ki, Həzrət Rəsul (s) ümmətə vilayəti olmuş və ondan sonra vilayət Həzrət Əmirəl-mömininə və sonra da imamlara (ə) yetişmişdir. «İnnəma» sözü də burada həsr üçün deyildir və məlum deyil ki, innəma sözü həsr mənasını daşısın. Bundan əlavə İnnəma sözü «səhiheyi qəddah»-da deyil, Əbul-büxtəri rəvayətindədir ki, onun sənəd etibarı ilə zəif olduğunu qeyd etdim. Biz indi «səhihənin» ibarətini qeyd edirik ki, sizə məlum olsun ki, peyğəmbərlərin yadigarları ancaq hədislərlə bitmir.

« من سلك طريقاً يطلب فيه علما سلك الله به طريقاً الى الجنة»

Bu cümlə alimlərin mədhindədir. Belə təsəvvür edilməsin ki, bu hər bir alimi əhatə edir. «Kafi»də alimlərin xüsusiyyətləri barədə rəvayətlərə

[1] «Üsuli-Kafi» cild 1, səh. 321-343.

baxsanız[1] görərsiniz ki, az miqdarda elmlə məşğul olana alim deməzlər və nəticədə peyğəmbərlərin varisi ola bilməz.

«وَ إن الملائكة لتَضَع أجنِحتها لطالب العلم رضاً به»

*(«Məlakələr, Allaha görə - elm axtaranlar üçün qanadlarını açarlar»)*

«Qanadlarını açmaq» sözü əlaqədar şəxslər üçün məlumdur,[2] indi ondan bəhs etməyin yeri deyil. Bu əməl ehtiram üçündür.

«وَ إنّهُ يستغفر لطالب العلم من في السماء و من في الأرض حتى الحوتِ فى البحر»

Bu cümlənin şərhi uzundur, hələlik bizim bəhsimizdən xaricdir.

« و فضل العالم على العابد كفضل القمر على سائر النجوم ليلة البدر»[3]

Bunun da mənası məlumdur. و إن العلماء ورثة الانبياء Rəvayətin başlanğıcından buraya qədər alimlərin xüsusiyyət və fəzilətlərindən söz gedir, onlardan biri peyğəmbərlərə varis olmaqdır və bu da o zaman ola bilər ki, peyğəmbərlər kimi xalqa vilayətləri olsun və onların itaətində olmaq vacib olsun.

Amma « ان الانبياء لم يورثوا ديناراً و لا دِرهَما » - «Peyğəmbərlərdən heç bir dinar və dirhəm də irs qalmaz». Bu cümlənin mənası budur ki, onlara hökümətdə olmaqlarına baxmayaraq ilahi şəxs olduqlarına görə dünya malı yığmaq fikrində deyillər. Peyğəmbərlərin hökümətі mal yığan və sərvət toplayan səltənəti hökümətlər kimi deyillər. Həzrət Peyğəmbəri-Əkrəm (s)-in çox sadə yaşayışı var idi və vəzifəsindən öz yaşayışı üçün istifadə etmədi. Ondan yadigar qalan hər şeydən vacib olan elmdir və xüsusilə ki, Allah-Təala tərəfindən yetişən elm. Bu rəvayətdə «Elm» sözünü xüsusilə, yad edildiyinin səbəbi də elə bu ola bilər. Buna əsasən demək olmaz ki, rəvayətdə alimlərin xüsusiyyətləri zikr olub elmdən irs aparıb başqa şeydən irs aparmaması qeyd olunduğuna görə alimlər ancaq elm və hədisdən irs apara bilərlər.

Bəzən də bu hədisə «ما تَرَكناه صدقة» cümləsi artırılmışdır ki, hədisdən deyildir və siyasi məqsədlərə görə artırılmışdır, ona görə ki, bu hədis ammənin (sünnilərin) fiqhində də var.[4]

---

[1] «Üsuli-Kafi» cild 1, səh. 420-450.

[2] İmam Xomeyni (s) «Ərbəin hədis» səh. 414-416, hədis 26.

[3] Alimin abidlə müqaisədə üstünlüyü bədr gecəsində Ayın başqa ulduzlardan işıqlı olduğu kimidir.

[4] «Səhih Buxari» cild 1, səh. 25, «Sünən ibn Davud» cild 4, səh. 57, «ما تَرَكناه صدقة » ibarəti olmadan Əhməd Həmbəlin «Müsnəd» cild 1, səh. 10-da zikr olunmuşdur.

Burada deyilə bilən son söz bu ola bilər ki, bu cümlələrin əlamət olduğu ehtimalı ilə biz «العلماء ورثة الانبياء» cümləsinə istinad edərək deyə bilmərik ki,

«كل ما كان للانبياء للعلماء»

Amma belə deyildir, bu cümlələrin əlamət olması bunu deməyinizə səbəb olsun ki, rəvayət alimlərin ancaq elmdə peyğəmbərlərdən irs aparmaqlarına dəlalət edir. Belə olduqda bu rəvayətlə bundan əvvəl dediyimiz rəvayətlər ziddiyətli olur. Və bu rəvayət mətləbləri nəfy edər və belə bir nəticə bu rəvayətdən alınmır.

## Vilayəti-fəqihin nəss yolu (Quranla) sübutu

Əgər deyilsə ki, rəvayətlərdən əldə edildiyinə görə Həzrət Rəsulullah elmdən başqa bir irs qoymamışdır, vilayət və xəlifəlik də irs ola bilməz və hətta Həzrət Rəsulullah (s) özü desəydi ki, « علیّ وارثی » «Əli mənim varisimdir», Həzrət Əli (ə)-nin xəlifəliyinə sübut ola bilməzdi, belə olduqda Həzrət Əlinin (ə) xəlifə olduğunu nəssilə (Quran ayələri) sübut etməliyik və deməliyik ki, Həzrət Rəsulullah (s) Həzrət Əlini (ə) xəlifəliyə seçmişdir və həmin sözlə fəqihin də vilayətliyinə istinad edə bilərik. Ona görə ki, bundan əvvəl qeyd etdiyimiz rəvayətə görə fəqihlər də Həzrət Rəsulullahın tərəfindən hökümətə seçilmişlər. Bununla bu rəvayət də başqa rəvayətləri cəmləmiş olaraq.

## Fiqhi-rəzəvidən bir sübut

Nəraqi «Əvaid»[1] əsərində «Fiqhi-rəzəvidən»[2] belə bir rəvayəti nəql edir:

« مَنزِلَةُ الفقيهِ فی هذَا الوَقتِ كَمَنزِلَةِ الانبياءِ فِي بَني إسْرائيلَ»[3]

(bu zamanda fəqihin rolu Bəni-İsrail peyğəmbərlərin rolu kimidir) əlbəttə demək olmaz ki, fiqhi-rəzəvi İmam Rzadan (ə) sadir olmuşdur, amma bir sübut kimi istinad etmək olar.

---

[1] «Əvaidül-əyyam min mühimmati-ədilləti-əhkam» - molla Əhməd ibn Məhdi Nəraqinin əsəridir və şəriət hökmləri sübutları üzərindədir.

[2] «Fiqhi-riza», fiqh hökmlərinin məcmuəsidir ki, bəzi alimlər onun İmam Rzanın (ə) olduğunu söyləmişlər, lakin bəziləri buna şübhə etmişlər.

[3] «Əvaidül -əyyam» səh. 186.

Bilmək lazımdır ki, Bəni-İsrail peyğəmbərlərindən məqsəd Həzrət Musanın zamanında olan fəqihlər deyil, o fəqihlər Həzrət Musanın tabeliyində olmuşlar və bəlkə də Həzrət Musa onları bir yerə təbliğə göndərdikdə vəliyyi-əmr də edirmiş. Əlbətttə, biz onların vəziyyətlərini dəqiq bilmirik, amma məlumdur ki, Həzrət Musa (ə) Bəni-İsrail peyğəmbərlərindəndir və dərəcə, rütbə baxımından fərqli olduqlarını nəzərə alaraq Həzrət Rəsulun (s) malik olduğuna Həzrət Musa da malikdir. Deməк biz «mənzilət»[1] sözünün ümumi mənasından başa düşürük ki, Həzrət Musa xalqa hökümət edirdi və fəqihlər də onun kimidirlər.

## Başqa sübutlar

«Cammeul-əxbardan»[2] bir hədis nəql edilmişdir ki, Peyğəmbəri-Əkrəm buyurdu:

« أفتَخِرُ يَوْمَ القِيامَةِ بعُلَماءِ امّتي. وَ عُلَماءُ امّتي كَسائرِ أنْبياءِ قبْلي»[3]

(ümmətimin alimlərinə qiyamət günü fəxr edərəm və onlar məndən qabaqkı peyğəmbərlər kimidirlər) bu rəvayət də bizim sözümüzü sübut edir.

«Müstədrəkdə»[4] Ğurərdən[5] bu məzmunda bir rəvayət nəql edilmişdir « العُلَماءُ حُكامٌ عَلَى الناس »[6] «Alimlər camaata hakimdirlər» və «حكما على الناس » ibarəti ilə də nəql edilmişdir. Amma nəzərə belə gəlir ki, səhih deyil. Bu rəvayətin də əgər sənədi mötəbər olsaydı[7] dəlaləti aydın idi. Başqa rəvayətlər də var ki, onları bir sənəd kimi qeyd etmək olar.

Bu rəvayətlərdən biri də «Töhəfül-üqül»[8] rəvayətidir. Bu rəvayət iki hissədən ibarətdir. Birinci hissəsini Həzrət Seyyidüş-şühəda Həzrət

---

[1] Mənzilət sözünün ümum mənası odur ki, fəqihlər hər baxımdan Bəni-İsrail peyğəmbərinə oxşayırlar.

[2] Bu kitab deyilənlərə görə şeyx Səduqundur, lakin tədqiqatlara görə Məhəmməd ibn Əlinindir ki, 6-cı əsrdə yaşayırmış

[3] «Camiül -əxbar» səh. 38.

[4] «Müstədrəkul-vəsail» Mirzə Hüseyn Mühəmməd Təbərsi Nurinin əsəridir. O, bu kitabda 23000 hədis toplamışdır. Müəllif təfsilatlı bir mündəricat, rical və dirayə elmi sahəsində bir sonuc artırmışdır.

[5] «Ğürərül-hikəm» Əbulfəth Əbdül Vahid ibn Muhəmməd Amidinin əsəridir (51 h.q). Əsər Həzrət Əli (ə)-ın qısa sözlərini ehtiva edir.

[6] «Ğürərül -hikəm» hədis 559; «Müstədrək» cild 17, səh. 316.

[7] Rəvayət «Ğürərül -hikəm»dən nəql edilmişdir.

[8] «Töhəfül-üqul» Əbu Məhəmməd Həsən ibn Əli ibn Hüseyn ibn Şöbə Hərrani Hələbinin topladığı əsərdir. O, dördüncü əsrin alimlərindəndir.

Əlidən əmrbe-məruf və nəhyəz-munkər barədə nəql etmişdir. İkinci hissə isə Həzrət Seyyidüş-şühədanın vilayəti fəqih barəsindəki nitqidir. Həzrət bu rəvayətdə fəqihlərin zülmkar hökümətlər əleyhinə mübarizə aparıb İslam hököməti təşkil edib əhkamı icra etməkdə vəzifələrini qeyd edir. Bu nitqi Həzrət «Mina»-da söyləmiş və ondan əməvi dövləti əleyhinə öz daxili cihadına işarə edir. Bu rəvayətdən iki mühüm mətləb əldə edilir: Biri «Vilayəti-Fəqih» və o birisi budur ki, fəqihlər öz cihad, əmrbe-məruf və nəhyəz-münkərlə zülmkar hakimləri rüsvay edib xalqı ayılmalıdırlar ki, müsəlmanlar ayılıb zülmkar hököməti aradan qaldırıb İslam hökumətini təşkil etsinlər. Rəvayət belədir:

اعْتَبرُوا ايّهـــا النّاسُ بمـــا وَعَظَ اللّهُ بِهِ أَوْلِيـــاءَهُ مِنْ سُوءِ ثَنائِهِ عَلَى الأحبـــارِ اذْ يَقُولُ: لَوْ لا يَنْهـــــاهُمُ الرّبّانِيّونَ وَ الأحبـــارُ عَنْ قَوْلِهِمُ الإثـــمَ[1] و قـــال: لُعِنَ الّذينَ كَفَرُوا مِنْ بَني إسْرائيلَ. الـى قولـه: لَبِئْسَ مـــا كـــانُوا يَفْعَلونَ[2]. وَ إنّمـــا عـــابَ اللّهُ ذلِكَ عَلَيْهِمْ، لِأَنّهُمْ كـــانُوا يَرَوْنَ مِنَ الظَّلَمَةِ الّذينَ بَيْنَ أَظْهُرِهِمُ المُنْكَرَ وَ الفَســـــادَ، فَلا يَنْهَوْنَهُمْ عَنْ ذلِكَ رَغْبَةً فيمـــــا كـــــانُوا يَنـــــالُونَ مِنْهُمْ وَ رَهْبَةً مِمّا يَحْذَرُونَ؛ وَ اللّهُ يَقُولُ: فَلا تَخْشَوُا النّاسَ وَ اخْشَوْنِ[3]. وَ قـــالَ: وَ المُؤمِنُونَ وَ المُؤْمِنـــاتُ بَعْضُهُمْ اوْلِيـــاءُ بَعْضٍ يَأْمُرُونَ بالمَعْرُوفِ وَ يَنْهَوْنَ عَنِ المُنْكَرِ.[4] فَبَدَأَ اللّهُ بالأمرِ بالمَعْرُوفِ وَ النّهْيِ عَنِ المُنْكَرِ فَريضَةً مِنْهُ، لِعِلْمِهِ بأنّهـــــــــا اذا أُدّيَـــتْ و أُقيمَتْ، اسْتَقامَتِ الفَرائِضُ كُلّهـــا، هَيِّنُهـــا وَ صَعْبُها. وَ ذلِكَ أَنّ الأمْرَ بالمَعْرُوفِ وَ النّهْيَ عَنِ المُنْكَرِ دُعـــاء الَى الإسْلامِ مَعَ رَدِّ المَظـــالِمِ وَ مُخالَفَةِ الظّـــالِمِ، وَ قِسْمَةِ الفَيْءِ وَ الغَنـــائِمِ، وَ أَخْذِ الصّدَقاتِ مِنْ مَواضِعِها وَ وَضْعِها فـــى حَقِّهـــا. ثُمّ أَنْتُمْ أَيّتُهَا العِصـــــابَةُ، عِصـــابَةٌ، بالعِلْمِ، مَشْهُورَةٌ وَ بالخَيْرِ مَذْكُورَةٌ وَ بالنّصـــيحَةِ مَعْرُوفَةٌ، وَ باللّهِ فِي أَنْفُسِ النّاسِ مَهابَةٌ، يَهـــــابُكُمُ الشّريفُ وَ يُكْرِمُكُم الضّعيفُ، وَ يُؤثِرُكُمْ مَنْ لا فَضْلَ لَكُمْ عَلَيْهِ وَ لا يَدَ لَكُمْ عِنْدَهُ تَشـــفَعُونَ فِى الحَوائِجِ اذا امْتُنِعَتْ مِنْ طُلّابِهـــا، وَ تَمْشُونَ فـــى الطّريقِ بِهَيْبَةِ المُلـــوُكِ وَ كَرامَةِ الأكـــابِرِ، أَلَيْسَ كُلّ ذلِكَ إنّمـــا نِلْتُمُوهُ بمـــا يُرْجَى عِنـدَكُمْ مـــنَ القِيامِ بحَقِّ اللّهِ، وَ إنْ كُنْتُمْ عَنْ أَكْثَرِ حَقِّهِ تَقْصُرُونَ؛ فَاسْتَخْفَفْتُمْ بحَقّ الأئمّةِ: فَأَمّا حَقّ الضّعَفاءِ فَضَيّعْتُمْ. وَ امّا حَقَّكُمْ بزَعْمِكُمْ فَطَلَبْتُمْ. فَلا مـــالاً بَذَلْتُمُوهُ؛ و لا نَفْساً خـــاطَرْتُمْ بهـــا لِلّذى خَلَقَهـــا؛ وَ لا عَشـــيرَةً عادَيْتُمُوهـــا فـــي ذاتِ اللّهِ. أَنْتُمْ تَتَمَنَّوْنَ عَلَى اللّهِ جَنّتَهُ وَ مُجـــاوَرَةَ رُسُلِهِ و اماناً مِنْ عَذابِهِ؛ لَقَدْ خَشِيتُ عَلَيْكُمْ، ايُّهَا المُتَمَنُّونَ عَلَى اللّهِ، أَنْ تَحِلَّ بكُمْ نِقْمَةٌ مِنْ نَقماتِهِ. لأنّكُمْ بَلَغْتُمْ مِنْ كَرامَةِ اللّهِ مَنْزِلَةً فُضّلْتُمْ بهـــا؛ وَ مَنْ يُعْرَفُ باللّهِ لا تُكْرِمُونَ وَ انْتُمْ باللّهِ فـــي عِبـــادِهِ تُكْرَمُونَ. وَ قَدْ تَرَوْنَ عُهُودَ اللّهِ مَنْقُوضَةً فَلا تَفْزَعُونَ، وَ أَنْتُمْ لِبَعْضِ ذِمَمِ آبـــــــائِكُمْ تَفْزَعُونَ؛ وَ ذِمّةُ رَســـــوُلِ اللّهِ (ص) مَحْقُورَةٌ، وَ العُمْيُ وَ البُكْمُ وَ الـــزُّمْنُ فـــي المَدائِنِ مُهْمَلَةٌ، لا تـــرْحَمُونَ؛ وَ لا فـــي مَنْزِلَتِكُمْ تَعْمَلُونَ وَ لا مَنْ عَمِلَ فيهـــا تُعينُونَ؛ وَ بالادّهـــانِ وَ المُصـــــانَعَةِ عِنْدَ الظَّلَمَةِ تَأْمَنُونَ. كُلُّ ذلِكَ مِمّا أَمَرَكُمُ اللّهُ بِهِ مِنَ النّهْيِ وَ التّنـــاهِى، وَ أَنْتُمْ عَنْهُ غـــــافِلُونَ. وَ أَنْتُمْ أَعْظَمُ

[1] «Maidə» surəsi, ayə 63.
[2] «Maidə» surəsi, ayə 80-81.
[3] «Maidə» surəsi, ayə 44.
[4] «Tövbə» surəsi, ayə 71.

النّاس مُصيبَةً لِما غُلِبْتُمْ عَلَيْهِ مِنْ مَنازِلِ الْعُلَماءِ لَوْ كُنْتُمْ تَسْعَوْنَ. ذلِكَ بأَنَّ مَجارِي الأُمُورِ وَ
الأَحْكامِ عَلى أَيْدِي الْعُلَماءِ بِاللهِ الأَمَناءِ عَلى حَلالِهِ وَ حَرامِهِ. فَأَنْتُمُ الْمَسْلُوبُونَ تِلْكَ الْمَنْزِلَةَ. وَ ما
سُلِبْتُمْ ذلِكَ، إِلّا بِتَفَرُّقِكُمْ عَنِ الْحَقِّ وَ اخْتِلافِكُمْ فِي السُّنَّةِ بَعْدَ الْبَيِّنَةِ الْواضِحَةِ. وَ لَوْ صَبَرْتُمْ عَلَى
الأَذى وَ تَحَمَّلْتُمُ الْمُؤُونَةَ فِي ذاتِ اللهِ، كانَتْ أُمُورُ اللهِ عَلَيْكُمْ تَرِدُ وَ عَنْكُمْ تَصْدُرُ وَ إِلَيْكُمْ تَرْجِعُ. وَ
لكِنَّكُمْ مَكَّنْتُمُ الظَّلَمَةَ مِنْ مَنْزِلَتِكُمْ وَ اسْتَسْلَمْتُمْ أُمُورَ اللهِ فِي أَيْدِيهِمْ يَعْمَلُونَ بِالشُّبُهاتِ وَ يَسِيرُونَ فِي
الشَّهَواتِ. سَلَّطَهُمْ عَلى ذلِكَ فِرارُكُمْ مِنَ الْمَوْتِ وَ إِعْجابُكُمْ بِالْحَياةِ الَّتِي هِيَ مُفارِقَتُكُمْ. فَأَسْلَمْتُمُ
الضُّعَفاءَ فِي أَيْدِيهِمْ؛ فَمِنْ بَيْنِ مُسْتَعْبَدٍ مَقْهُورٍ، وَ بَيْنِ مُسْتَضْعَفٍ عَلى مَعِيشَتِهِ مَغْلُوبٍ. يَتَقَلَّبُونَ فِي
الْمُلْكِ بِآرائِهِمْ وَ يَسْتَشْعِرُونَ الْخِزْيَ بِأَهْوائِهِمْ اقْتِداءً بِالأَشْرارِ وَ جُرْأَةً عَلَى الْجَبّارِ. فى كُلِّ بَلَدٍ
مِنْهُمْ عَلى مِنْبَرِهِ خَطِيبٌ يَصْقَعُ؛ فَالأَرْضُ لَهُمْ شاغِرَةٌ؛ وَ أَيْدِيهِمْ فِيها مَبْسُوطَةٌ. وَ النّاسُ لَهُمْ خَوَلٌ،
لا يَدْفَعُونَ يَدَ لامِسٍ؛ فَمِنْ بَيْنِ جَبّارٍ عَنِيدٍ، وَ ذِي سَطْوَةٍ عَلَى الضَّعَفَةِ شَدِيدٍ، مُطاعٍ لا يَعْرِفُ
الْمُبْدِئَ الْمُعِيدَ. فَيا عَجَباً، وَ ما لِي لا أَعْجَبُ، وَ الأَرْضُ مِنْ غاشٍّ غَشُومٍ وَ مُتَصَدِّقٍ ظَلُومٍ وَ عامِلٍ
عَلَى الْمُؤْمِنِينَ بِهِمْ غَيْرِ رَحِيمٍ. فَاللهُ الْحاكِمُ فِيما فِيهِ تَنازَعْنا وَ الْقاضى بِحُكْمِهِ فِيما شَجَرَ بَيْنَنا.
اللّهُمَّ، إِنَّكَ تَعْلَمُ أَنَّهُ لَمْ يَكُنْ ما كانَ مِنّا تَنافُساً فى سُلْطانٍ وَ لا الْتِماساً مِنْ فُضُولِ الْحُطامِ. وَ لكِنْ
لِنُرِىَ الْمَعالِمَ مِنْ دِينِكَ؛ وَ نُظْهِرَ الاِصْلاحَ فى بِلادِكَ؛ وَ يَأْمَنَ الْمَظْلُومُونَ مِنْ عِبادِكَ؛ وَ يُعْمَلَ
بِفَرائِضِكَ وَ سُنَنِكَ وَ أَحْكامِكَ فَإِنْ لَمْ تَنْصُرُونا وَ تُنْصِفُونا قَوِيَ الظَّلَمَةُ عَلَيْكُمْ وَ عَمِلُوا فِي إِطْفاءِ
نُورِ نَبِيِّكُمْ. وَ حَسْبُنَا اللهُ، وَ عَلَيْهِ تَوَكَّلْنا، وَ إِلَيْهِ أَنَبْنا، وَ إِلَيْهِ الْمَصِيرُ

«Ay camaat «Əhbarı» pisləməklə Allahın öz dostlarına verdiyi nəsihətlərdən ibrət əxz edin; Deyir: «Nə üçün din alimləri və əhbar onların (Yəhudilərin) günah sözlərini və haram işlərinin qarşısını almırlar». Doğrudanda gördükləri işlər nə qədər pismiş və buyurur: «kafir olan Bəni-İsraillilər lənətləndilər». Sonra deyir: «Həqiqətdə Allah onu bu baxımdan eyb sayır və danlayır ki, onlar öz gözləri ilə zülmkarların fəsada və pis işlə məşğul olduqlarını görərək onları çəkindirmədilər. Ona görə ki, onlardan aldıqlarına bağlanmışdılar və onların əziyyərtlərindən qorxurdular. Bir halda ki Allah buyurur: ***«Camaatdan qorxmayın, məndən qorxun»*** və buyurur: ***«Möminlər bir-birlərinin dostu, rəhbəridirlər. Bir-birlərinə əmr be-məruf və nəhyəz-münkərdən edərlər».*** (gördük ki, bu ayədə möminlərin sifətləri sayılır) Allah əmr be-məruf və nəhyəz-münkərdən başlayır. İlk dəfə onu vacib sayır. Ona görə ki, əgər əmr be-məruf və nəhyəz-münkər yerinə yetirilsə, bütün vacibatlar, asandan çətinə kimi hamısı yerinə yetiriləcəkdir. O da buna görədir ki, əmr be-məruf və nəhyəz-münkər İslama çağırışdan, məzlumları haqqına yetirməkdən, zülmkarlar əleyhinə mübarizə aparmaqdan, ümumi sərvətlər və müharibə gəlirinin ədalətlə bölünməsindən və sədəqələrin (zəkat və digər könüllü ya icbari vergilər) düzgün yolla toplanması və düz yolunda xərclənməsindən ibarətdir.

Bundan əlavə, siz ey elm və biliklə məşhur olan və adınız yaxşılıqla tanınan, cəmiyyətdə xeyrxahlıq və bələdçiliklə məşhur olan və Allah üçün

camaatın qəlbində hörmətlə yer tapan, onun səbəbi ilə qüdrətlilər sizdən qorxan, çarəsizlikdən sizə hörmət göstərən və onların xəyalında onlardan üstün olan şəxslər, məgər bu hörmət və mənəvi qüdrətləri ona görə əldə etməyibsiniz ki, sizdən Allahın əhkamını həyata keçirməyə himmət bağlamağınız gözlənilir? Baxmayaraq ki, Allahın bir çox qanunlarını həyata keçirməkdə səhlənkarlıq edibsiniz. Misal üçün, millətin haqqını tapdaladınız, çarəsizlərin haqqını ödəmədiniz, bu halda öz haqqınız güman etdiyinizin ardınca oldunuz. Nə bir pul xərclədiniz və nə də canınızı təhlükəyə saldınız və nə də ki, Allah üçün bir qəbilə ilə toqquşdunuz. Siz arzu edirsiniz ki, o, behişti, peyğəmbərlə müsahib olmağı və əzabından amanda qalmağı sizə bəxş etsin. Ey o kəslər ki, Allahdan bu kimi təvəqqe edənlər, qorxuram ki, sizə acığı tutsun, ona görə ki, Allahın əzəmət və izzəti sayəsində uca yerlərə çatıbsınız, lakin xudaşünaslığı təbliğ edən xudaşünaslara hörmət göstərmirsiniz, halbuki, siz, Allah naminə onun bəndələri arasında hörmətlisiniz. Habelə, ona görə sizin üçün qorxuram ki, Allahın ilqar və əhdinə[1] vəfasız çıxıbsınız, nigaran deyilsiniz, halbuki, atalarınızın bir sıra əhd-qərarlarına görə nigaran və pərişansınız, və indi peyğəmbərlə əhdləşdiyiniz qərarlara[2] etinasızlıq edirsiniz. Korlar, lallar və yerlərindən tərpənə bilməyən çarəsizlər şəhərlərdə başsız qalıblar, onlara rəhm edilmir. Onlara layiq bir iş görmürsünüz və sizin çəlalınızın artmasına səy göstərənlərə etinasızlıq edirsiniz. Yaltaqları və zülmkarları pərəstiş etməklə onların qarşısında amanda olduğunuzu təmin edirsiniz. Bunların hamısı Allahın göstərişləridir ki, siz ondan qafil olubsunuz. Sizin müsibətiniz hamıdan ağırdır, ona görə ki, ölkənin icra işləri və hökumət işləri halal-haram bilən alimlərin əlində olmalıdır, halbuki, siz o vəzifədən kənar edilibsiniz... Onun səbəbi sizin haqdan ayrılmağınız sünnə üzərində aydın sübutları görməklə ixtilaf törətməyinizdir. Əgər sizlər çətinliklərə qatlaşsaydınız və Allaha xatir dözsəydiniz, hökmləri siz verəcəkdiniz. Lakin siz zülmkarlara imkan yaratdınız və ilahi hökuməti onlara təslim etdiniz ki, onlar şübhə və güman əsası ilə əməl edib şəhbət üzrə hərəkət etsinlər. Onların istila tapmasının səbəbi sizin ölümdən qorxmağınız və yaşayışa bağlı olduğunuz idi. Zəifləri onlara təslim etdiniz ki, bir dəstəsi tapdalanmış qul olsun bir dəstəsi də gündəlik maaşını qazanmağa məşğul olan çarəsiz olsun. Və onlar öz başına əməl etsinlər, şəhvət hissiyatları ilə

[1] İslam cəmiyyətində münasibətləri tənzimləyən əhdlər və qərarlar.

[2] Peyğəmbərlə beyət etmək yolu ilə əhdləşdikləri münasibətlər. Məsələn Qədir-Xumda Həzrət Əlinin vilayətinə aid bağladığı əhd.

həyasızlıq etsinlər. Pislərə təqlid edib Allah qarşısında üsyan qaldırsınlar. Hər yerdə onların tərəfindən gəlib minbərə çıxan bir natiq var. Yer üzü sanki onlar üçün döşənilmişdir, əlləri açıqdır, camaat onlara qul olub müdafiə qüdrətləri yoxdur, hakimlərdən biri zülmkardır, o birisi isə Allah tanımayan, axirət bilməyən bir hakimdir. Əcaba, yer üzü hiyləbaz, zülmkar icra hakiminin əlindədirmi? Allah özü keşməkeşlə olduğumuz barədə mühakimə edəcək və bizim aramızda baş verən məsələ barədə hökm edəcəkdir. Pərvərdigara! Sən özün bilirsən ki, bizim tərəfdən törənən əməllər[1] siyasi qüdrətə çatmaq üçün yaşamaq deyildir və sərvət qazanmaq üçün də deyildir, ona görə olub ki, dinin qayda-qanunlarını göstərək, ölkədə islahat aparaq, əmin-amanlıq yaradaq və sənin qərara aldığın qanunlara əməl edək.

Buna əsasən, siz (din alimləri) əgər bizə bu yolda himayə etməsənizsə və haqqımızı qəsbkarlardan almasanızsa, zülmkarlar sizə istilah tapacaq və Peyğəmbərimizin işığını söndürməyə çalışacaqlar. Yeganə Allah bizə kifayətdir, ona arxalanıb, ona üz gətirəciyik, taleyimiz onun əlindədir və ona qayıdacağıq»[2]

Buyurur:

اعْتَبروُا ايّها النّاسُ بما وَعَظَ اللّهُ بهِ أوْلِياءَهُ مِنْ سُوءِ ثنائِهِ عَلَى الأحبارِ

Bu söz müəyyən bir dəstə, məclis iştirakçıları, şəhər əhalisi, ölkə ya vaxtın dünya xalqlarına xitabən deyil, bu səsi eşidən hər hansı şəxsə şamildir. Allah-Təala da Quranda يا ايّها النّاسُ xitab edir. Allah-Təala yəhud alimləri əhbara etiraz edib, işlərini pisləyərək öz övliyalarını nəsihət edir. Övliya nəsihət etməkdə məqsəd Allahı tanıyıb cəmiyyətdə bir məsuliyyətləri olan şəxslərdir. İmamlar (ə) məqsəd deyildir.

لَوْ لا يَنهاهُمُ الرَبّانِيّونَ وَ الاحْبارُ عَنْ قوْلِهمُ الاثمَ وَ أكلِهمُ السّحْتَ لبئسَ ما كانُوا يَصْنَعُونَ.

«Allah-Təala bu ayədə «rəbbaniyyun» və «əhbarı» ona görə pisləyir ki, onlar yəhudilərin din alimləri olub zülmkarları «qovli-ismdən» yəni yalançılıq, töhmət, həqiqəti təhfir etmə və bu kimi günah danışıqlardan və «əkli-söht»-dən yəni haramxorluqdan çəkindirməyiblər. Aydındır ki, bu pisləmək təkcə yəhudi ya xristian alimlərinə deyil, İslam alimləri və ümumiyyətdə bütün din alimlərinə aiddir. İslam alimləri də zülmkarların yürütdükləri siyasət qarşısında sakit oturub dinməsələr Allahın pisləmə və təqbihinə məruz qalacaqlar. Bu hökm bir əsrə həsr edilməyib. Bütün

[1] Yəni əməvilər əleyhinə başladığımız mübarizə.
[2] «Töhəfül-üqul» səh. 271.

nəsilləri ehtiva edir. Həzrət Əli (ə) da bunu Qurana istinad edərək buyurmuşdur ki, İslam alimləri də ayılsın və ibrət alsınlar, əmrbe-məruf və nəhyəz-munkərdən qalmasın, zülmkar hakimlərin qarşısında sükut etməsinlər. Həzrət «لَوْ لا يَنهاهُمُ الرَّبّانِيّون» ayəsini misal çəkərək iki şeyi xatırladır.

1. Alimlərin öz vəzifələrini yerinə yetirməkdə səhlənkarlıqlarının zərər-ziyanı başqalarından çoxdur. Məsələn əgər bir tacir nalayiq iş görərsə, zərəri ancaq özünə aiddir və əgər alim vəzifəsində qüsurluq etsə, məsələn zülmkarlar qarşısında sükut etsə, zərəri İslama aid olar və əgər öz vəzifəsinə əməl etsə, çıxış etməli yerdə sükut etməsə, mənfəəti İslama çatar.

2. Baxmayaraq ki, şəriətə zidd olan bütün hərəkətlərdən çəkindirmək lazımdır, lakin «qovli-ism» yəni yalançılıq və «əkli-söht» yəni haramxorluq üzərində təkid etmişdir ki, bu iki pis işin digər pis işlərdən daha pis olduğunu başa salsın. Ona görə çox təhlükəlidir ki, bəzən zülmkar hakimlərin təbliğatları siyasət və əməllərindən daha çox İslama zərərlidir və əksər halda İslam və müsəlmanların heysiyyətini təhlükəyə salır. Allah-Təala danlayır ki, nə üçün zülmkarların nadürüst təbliğat və günah sözlərinin qarşısını almadılar? Nə üçün Allahın xəlifəsi olduğunu iddia edən və (ədaləti başa düşmədiyi halda) İslam ədaləti budur ki, mən icra edirəm deyən şəxsin qarşısını almadılar? Bu kimi sözlər «qovli-ism»dir. Nə üçün bu kimi cəmiyyətə zərərli olan sözlərin qarşısını almadılar? Boş söz danışan, xəyanət edən, bidətlər qoyan və İslama zərbələr endirən zülmkarları günahdan nə üçün çəkindirmədilər?

Əgər bir şəxs Allahın razılığı olmadığı kimi əhkamı yazdıqda və İslam ədaləti adına İslamda bidət yaratdıqda və İslam əhkamına xilaf olan əhkamı icra etdikdə, alimlər müxalif olduqlarını bildirməlidirlər. Əgər müxalifliklərini bildirməsələr Allahın lənətinə məruz qalacaqlar. Bu, ayədən də əldə edilir və habelə hədisdə var ki,

«إذا ظَهَرَتِ البدَعُ، فَلِلعالِمِ أنْ يُظهِرَ عِلمَهُ؛ و إلاّ فَعَلَيْهِ لَعْنَةُ اللّهِ[1]»

(Bidətlər meydana gəldikdə alim üçün vacibdir ki, elmini (dinini) bəyan etsin, yoxsa Allahın lənətinə məruz qalacaqdır) Müxalifliyi elan etməyin özü və Allahın əhkamını bəyan etmək faydalıdır. Ona görə ki, ümumxalqın ictimai fəsada xain, fasiq və dinsiz hakimlərin zülmünü başa düşüb mübarizə aparmalarına və zülmkarlarla əməkdaşlıq etməyib fasid

[1] «Üsuli-Kafi» cild 1, səh. 54.

və xain hakimlərin itaətində olmamasına səbəb olar. Bu kimi vəziyyətlərdə din alimlərə müxalif olduqlarını bəyan etmələri səbəb olar ki, bir müxalif cəbhə yaransın və nəhyəz-münkər geniş səviyyədə başlansın. Bu elə bir hərəkatın yaranmasına səbəb olar ki, bir müxalif cəbhə yaransın və nəhyəz-münkər geniş səviyyədə başlasın.Bu elə bir hərakatın yaranmasına olar ki, bütün dindar və qeyrətli şəxslər onda iştirak edər. Əgər zülmkar hakimlər o hərəkata təslim olmayıb siratı-müstəqimə üz gətirməsələr və silahla onu sakitləşdirmək istəsələr, həqiqətdə silaha əl aparmış olarlar, belə halda «fieyi-baqiyə» olacaqlar və müsalmana vacibdir ki, «fieyi-bağiyə»[1] ilə, yəni təcavüzkar hakimlə döyüşsün.

Sizin ki, indi hakimlərin bidətlərinin qarşısını almağa və bu fəsadları aradan aparmağa qüdrətiniz yoxdur, ən azı sakit oturmayın, etiraz edin. Fəryad qoparın, zülmə boyun əyməyin. Etiraz edin, inkar edin, fəryad qoparın, təkzib edin. Onların təbliğat və mətbuat orqanları müqabilində onların yalanlarını təkzib etmək üçün təbliğat və mətbuat orqanları yaratmaq lazımdır ki, desin bu yalandır, İslam ədaləti onların iddia etdikləri kimi deyildir. Bu sözlər deyilməlidir ki, camaat başa düşsün. Gələcək nəsil bunların sükutunu hüccət və dəlil etməsinlər və deməsinlər ki, bəlkə zülmkarların əməlləri şəriətə uyğunmuş və İslam dini zülmkarların əkli-sohtunu yəni haramxoluqlarını və camaatın malını qarət etməyi tələb edirmiş.

Bəzilərinin fikir əhatəsi bu məscidin divarlarından kənara çəkilə bilmədiyi və dünya görüşləri dar olduqlarından, onlara «əkli-soht» yəni haramxolıqdan söz açanda nəzərlərində ancaq küçə başında ələyuzu billah yüngül çəkən baqqal çilvələnir. Daha böyük bir sərvəti istismar edən, beytül-malı oğurlayan, neftimizi yeyən, xarici şirkətlərin nümayəndəliyi kimi ölkəmizi əcnəbilərin ağır qiymətli və bizə lazım olmayan malları üçün çatmış bazarına çevirən böyük müftəxorluqlar və soyğunçular nəzərlərinə gəlmir.

---

[1] Məsum imamların əmrindən çıxan ya nahaq yerə müsəlmanların əleyhinə müharibə başlayan dəstəyə «fiəyi-bağiyə» deyilir. Quranda gəlmişdir:

فان بغت اخداهما على الاخرى فقاتلوا التي تبغى حتى تفيء الى امرالله

***«Müsəlmanlardan bir dəstəyə başqa bir dəstəyə təcavuz etdikdə onunla Allahın əmrinə qayıdana kimi döyüşün».*** «Vəsalüş-şiə» çild 11, səh. 16, 54, 55; «Zübdətül-əyan» səh. 319.

Bizim ölkəmizin neftini neçə əcnəbi ölkə çıxarır və aparır[1] və öz əl altıları olan hakimlərinə də verdikləri azacıq bir miqdarı da başqa yollarla özlərinə qaytarırlar. Dövlət xəzinəsinə də tökülən azacıq bir miqdarda Allah bilir ki, haralarda xərclənir. Bu Beynəlxalq miqyasda və keçmiş şəkildə olan bir «əkli-soht» və müftəxorluq. Dəhşətli və ən təhlükəli münkərdir (pis iş). Siz cəmiyyəti, dövlətin işlərini və orqanları diqqətlə mütaliə etsəniz görərsiniz ki, nə kimi dəhşətli «əkli-sohtlar» (haramxorluqlar) olur. Ölkənin müəyyən bir yerində zəlzələ baş verdikdə, hakim soyğunçular üçün zəlzələdən ziyan görənlərə humanitar yardımları öz ciblərini tökürlər. Zülmkar hökmdarlar xarici şirkətlər və dövlətlərlə bağladıqları anti-xalq müqavilələrlə xalqın milyonlarla tümən pulunu oğurlayırlar və milyonlar da xaricilərə və ərbablarına bağışlayırlar. Bunlar bizim gözümüzün qarşısında olan geniş müftəxorluqdur və hələdə davam etməkdədir. İstər xarici ticarət olsun və istərsə də mədən çıxarma, meşələrdən istifadə etmə və ya başqa yataqlar üzərində tədqiqat işləri aparmaq, bina və yol çəkmə işləri, Kommunist ya qərb istismarçılardan silah almaq bəhanəsilə bağladıqları müqavilələr olsun (bunlar özü müftəxorluqdur).

Biz bu soyğunçuluqların və müftəxorluqların qarşısını almalıyıq. Bu hamının vəzifəsidir: Din alimlərinin vəzifəsi daha ağır və əhəmiyyətlidir. Biz başqa müsəlman şəxslərdən qabaq bu müqəddəs cihad və ağır vəzifəyə, bizim malik olduğumuz məsuliyyətə görə hamıdan əvvəl girişməliyik. Bu gün bu işlərin qarşısını almağa, müftəxorlar, xainlər, böyük oğrular və hakimləri cəzalandırmağa gücümüz çatmır, lakin biz qüdrət əldə etməyə səy göstərməliyik. Eyni halda qüsurluq etməyib həqiqətləri bəyan edib haramxorluq və yalanları açmaqdan çəkinməməliyik. Qüdrət əldə etdikdə nəinki ölkənin siyasət, iqtisad və idarəsini səhmana salacağıq, hətta haramxorlar və yalançıları cəzalandıracağıq.

---

[1] Hicri 1280-ci ildə Müzəffərəddin şahla ingiltərəli Vilyam Faks Darsinin bağladıqları müqavilə əsəsında İran neftinin çıxarılması İngiltərəyə verildi. Bu müqavilə 60 illik idi və İran ancaq xalis gəlirin 16 faizinə malik ola bilirdi. 32 il ondan sonra bağlanan müqavilədə bu gəlir 20 faizə çatdı. Müsəddiqdən sonra 1333-də yeni konsorsium təşkil edildi. Bu konsorsiumda İran-İngiltərə şirkəti 40 % Amerikanın «Akson», «Mobil», «Qolf», «İsoron», «Teqzako» şirkətləri 40 %, Hollandiya şirkəti 14% və Fransa şirkəti 6 % payla 24 il ərzində 205891947800 boşka xam neft və 10152212 090 000 həcmdə qaz qərb ölkələrinə ixrac edildi.

Pəhləvinin zühur və süqutu. OPEK. Qüdrət ilğımı və sairə.

Məscidi-Əksaya od vurdular. Biz fəryad edirik ki, qoyun məscid yanıq şəkilində dursun, bu cinayətin izini pozmayın.[1] Amma Şah hesab açır, sandıq qoyur Məscidi-Əksanın binasını düzəltmək adı ilə camaatdan pul yığır ki, həm öz ciblərini doldursun və həm də İsrailin cinayətinin izini itirsin.

Bunlar İslam ümmətini çulğalayan müsibətlərdir. İslam alimləri bunları deməməlidirmi?

لَوْ لا يَنهاهُمُ الرَبّانِيّون َ وَ الاحْبارُ عَنْ أكلِهِمُ السّحْتَ

«Hə üçün fəryad qoparmırsınız? Nə üçün bu soyğunçuluqlardan söz açmırsınız?»

Sonra « لُعِنَ الّذينَ كَفَرُوا مِنْ بَنِي إسْرائيلَ » ayəsinə istinad edilmişdir ki, onu qeyd etmək bəhsimizin dairəsindən kənardır.

Sonra buyurur:

وَ إنما عاب اللَّه ذلك عليهم لأنهم كانوا يرون من الظلمة الذين بين أظهرهم المنكر و الفساد فلا ينهونهم عن ذلك رغبة فيما كانوا ينالون منهم و رهبة مما يحذرون

Allah-Təalanın «rəbbaniyundan» sual etməsi bu əsas üzlərindəndir ki, onlar zülmkarların gördükləri işləri və törətdikləri cinayətləri görürdülər, lakin sühut edib dinmirdilər və onları işlərindən çəkindirmirdilər.

Onlar sükut etmələri bu rəvayətə əsasən iki səbəbə görə idi. 1 - Mənfəəttələblik. 2 - Alçaqlıq. Onlar ya tamahkar şəxslər idi ki, zülmkarlardan maddi istifadələr edirdilər və ya qorxaq və yaltaq adamlar idilər ki, onlarda qorxurdular. Əmrbe-məruf və nəhyəz-münkər rəvayətlərinə baxın, o rəvayətlərdə əmrbe-məruf və nəhyəz-münkərdən qaçmaq üçün bəhanələr gətirən şəxslərin əməlləri pislənilmiş və o sükut eyb sanılmışdır.[2]

وَ اللَّه يَقُولُ: فلا تَخْشَوُا الناسَ وَ اخْشَوْنِ

---

[1] 1348-ci ilin mordad ayının 30-da sionistlər müsəlmanların ilk Məscidi-Əksanı oda çəkdilər. İran mətbuatında bu barədə düzgün məlumat verilmədi. İranın saray nazirliyi bu cinayəti törədənin adını çəkmədən ancaq öz təəssüfünü bildirdi. Şah məscidin təmiri üçün bir milyon rial pul ayırdı. Məlik Feyysəl islam İslam ölkələri konfransının təşkilini istədi. Dünya müsəlmanları nümayişlər keçirdilər. O günlərdə Bağdadda nəşr olan «Əl-cümhuriyyə» qəzəti imamım sözlərini dərc etdi: İmam müsəlmanları birliyə çağıraraq «rəbat» konfransını cinayəti ört-basdır etməkdə ittihamlandırdı və dedi: «Nə qədər ki, Fələstin işğalçı sionistlərin əlindədir, məscid təmir (abad) olunmamalıdır və cinayətin izi pozulmamalıdır».

[2] «Firui-Kafi» cild 5, səh. 55-60; «Vəsalüş-şiə» çild 6, səh. 393.

- Allah-Təala buyurur ki, onlardan qorxmayın məndən qorxun. Zindana salmaq, kənar edilməkdən və öldürməkdən başqa nə iş görə bilərlər. Bizim övliyamız İslam yolunda can verdilər, siz də hazır olun.

«و الْمُؤمِنُونَ وَ الْمُؤْمِناتُ بَعْضُهُمْ اوْلِياءُ بَعْضٍ يَأمُرُونَ بالْمَعْرُوفِ وَ يَنْهَونَ عَنِ الْمُنْكَرِ...»
ayənin ardınca buyurur:

«وَ يُقيمُونَ الصَّلوةَ و يؤْتُونَ الزَّكاةَ وَ يُطيعُونَ اللَّهَ وَ رَسُولَهُ ...»
فَبَدأَ اللَّهُ بالأمْرِ بالْمَعْرُوفِ وَ النَّهْى عَنِ الْمُنْكَرِ فَريضَةً مِنْهُ لِعِلْمِهِ بأنَّها إذا اُدّيَتْ وَ اُقيمَت اسْتَقامَتِ الفَرائِضُ كُلُّها هَيِّنها وَ صَعْبُها وَ ذلِكَ أنّ الأمرَ بالْمَعْرُوفِ وَ النَّهْيَ عَنِ الْمُنْكَرِ دُعاءٌ الى الاِسْلام مَعَ رَدّ الْمَظالِمِ وَ مُخالَفَةِ الظّالِمِ وَ قسمَةِ الفَيْء وَ الغَنائِمِ وَ أَخْذِ الصَّدَقاتِ مِنْ مواضِعِها وَ وضْعِها في حَقِّها

Əgər əmrbe-məruf və nəhyəz-münkər yaxşı icra olunsa, digər vaciblərə də əməl ediləcəkdir. Əgər əmrbe-məruf və nəhyəz-münkər içra olunsa, zülmkarlar camaatın malını ala bilməzlər və vergiləri tələf edə bilməzlər, Mərufa əmr edən və münkərdən çəkindirən İslama carçı və zülmkarla müxalif olar.

Əmrbe-məruf və nəhyəz-münkərin vacib olduğunun əsası bu işlər üçündür. Biz əmrbe-məruf və nəhyəz-münkərin dairəsini kiçik götürmüşük və zərəri şəxsin özünə aid olan işlərə həsr etmişik. Bizə təlqin ediblər ki, «münkərat» bu gördüklərimiz və eşitdiklərimizdir. Misal üçün avtobusda musiqi kassetindən istifadə edilməsi, qəhvəxanada xilaf işin görülməsi ya bazarda birinin oruc yeməsi ancaq münkərdir və ondan çəkindirmək lazımdır. Amma o böyük münkəratı unutmuşuq. İslamı rüsvay etməyə çalışanın və zəifinlərin haqqını tapdalayanın və s... qarşısı alınmalıdır. Əgər xilaf iş görən ya cinayət törədən zülmkarın əleyhinə kütləvi etirazlar başlansa və onlara hər yerdən etiraz teleqrafı yazdırılsa, onlar bu işlərdən qətiyyətlə əl götürərlər. İslamın heysiyyatı və cammatın mənfəətinin ziddinə bir iş görən şəxsin əleyhinə nitqlər söylənilsə, ölkənin bütün şəhər, qəsəbə və kəndlərindən onlara etiraz edilsə, tez geri çəkiləcəklər. Xəyal edirsiniz ki, geri çəkilə bilərlər? Heç də edə bilməzlər. Mən onları tanıyıram. Mən bilirəm ki, onlar nə cür adamdırlar! Çoxları qorxaqdırlar, çox tez geri oturarlar. Amma onlar bizim onlardan bacarıqsız olduğumuzu gördükdə atlarını səyirdirlər. Bir mətləbdə alimlər birləşdi, yığışdılar, şəhərlərdən dəstələr gəldi, nitqlər olundu və nəticədə

dövlət sözünü geri aldı və lahiyəni pozdu.[1] Sonra tədriclə bizi sakitləşdirdilər; aramıza ayrılıq salıb hər birimizə «şəri vəzifə» təyin etdilər. Bu ixtilaf və pərakəndəlikdən istifadə etdilər. İndi isə müsəlmanlar və İslam ölkələri əleyhinə istədikləri işləri görürlər.

دعاء الى الاسلام مع رد المظالم و مخالفة الظالم

Əmrbe-məruf və nəhyəz-münkər bu işlər üçün lazımdır. O, əttar (ətir satan) əgər xilaf iş görsə də İslama deyil özünə zərər yetirir. İslam zərər yetirənləri daha çox əmrbe-məruf və nəhyəz-münkər etmək lazımdır. Müxtəlif bəhanələrlə camaartın var-yoxunu soyanlları vəhy etmək lazımdır.

Bu sözlər bəzən satirik və ciddi şəkldə-qəzetlərdə yazılır. Seldən və zəlzələdən ziyan çəkənlərə edilən humanitar yardımları özləri yeyiblər. Məlayir alimlərindən biri nəql edirdi ki, yük maşınının təsadüfü nəticəsində ölən şəxslərə kəfən aparırdıq ki, məmurlar onları almaq istəyirdilər!! Bu kimi şəxsləri əmrbe-məruf və nəhyəz-münkər etmək lazımdır.

İndi mən sizdən soruşmaq istəyirəm ki, məgər Həzrət Əlinin (ə) bu hədisdə buyurduğu sözlər ətrafında olan şəxslərə aiddirmi? Görəsən « اعتبروا ایها الناس» - bizə aidd deyilmi? Məgər biz «nas» yəni camaatdan deyilik. Bu nitqdən ibrət dərsi almamalıyıqmı?

Əvvəlcə dediyim kimi bu sözlər müəyyən bir dəstə - cəmiyyət üçün deyil. Həzrətin sözləri bütün əmirlər, hökmdarlar, vəzirlər, fəqihlər, bütün dünya, bəşər və hər bir yaşayan insana xitabən deyilmişdir. Həzrətin göstərişləri Quranla çiyinbəçiyindir və Quran kimi qiyamət gününə qədər itaət edilməsi vacibdir. İstinad edilən ayədə də « لو لا يَنْهاهُمُ الرَّبّانِيّونَ » - baxmayaraq «rəbbaniyyun və əhbara» xitabən deyilmişdir. Lakin ümum xalqa aiddir. Rəbbaniyyun və əhbara zülmkarların zülmü qarşısında qorxu və tamahkarlıqlarından sükut etdiklərinə görə (baxmayaraq ki, fəryad, etiraz və çıxışlarla zülmün qarşısını ala bilərdilər) Allah-Təala tərəfindən sorğu-suala çəkildilər. İslam alimləri də zülmkarların qarşısında qiyam etməsələr və sükut etsələr, sorğu-suala çəkildilər.

---

[1] «Əyaləti-vilayəti əncümənlər layihəsinə» işarədir. Bu layihədə seçicilər və seçilənlərin müsəlman olmaları şərti götürülmüş və Qurana and içmək söz yerinə səmavi kitaba and içmək sözü qeyd olunmuşdu. Həzrəti İmam onu birinci dəfə pislədi. İmamın ardınca mərceyi-təqlid və xalq kütləri etiraz etdi və dövlət azərin 17-də rəsmi olaraq bu layihəni ləğv edildiyini bildirdi.

Xalq müraciət etdikdən sonra İslam alimləri xitab məqamında qərar tapmışlar.

عصابة بالعلم مشهورة و بالخير مذكورة و بالنصيحة معروفة و بالله في أنفس الناس مهابة يهابكم الشريف و يكرمكم الضعيف و يؤثركم من لا فضل لكم عليه و لا يد لكم عنده، تشفعون فى الحوائج إذا امتنعت من طلابها و تمشون في الطريق بهيبة الملوك و كرامة الأكابر، أ ليس كل ذلك إنما نلتموه بما يرجى عندكم من القيام بحق الله.

*Sizin cəmiyyətdə şövkətiniz var, İslam xalqları sizə hörmət bəsləyir, sizi üstün bilirlər. Cəmiyyətdə malik olduğunuz bu əzizlik və şövkət ondan irəli gəlmişdir ki, xalq sizin zülm qarşısında qiyam edəcəyinizi, məzlumların zalımlardan haqlarını alacağınızı güdürlər və ümid bağlayıblar ki, siz qiyam edib zülmkarların təcavüzlərinin qarşısını alacaqsınız.*

و إن كنتم عن أكثر حقه تقصرون، فاستخففتم بحق الأمة، فأما حق الضعفاء فضيعتم و أما حقكم بزعمكم فطلبتم فلا مالاً بذلتموه و لا نفساً خاطرتم بها للذي خلقها و لا عشيرة عاديتموها في ذات الله. أنتم تتمنون على الله جنته و مجاورة رسله و أماناً من عذابه. لقد خشيت عليكم أيها المتمنون على الله أن تحل بكم نقمة من نقماته لأنكم بلغتم من كرامة الله منزلة فضلتم بها و من يعرف بالله لا تكرمون، و أنتم بالله في عباده تكرمون

*Siz məqam və şövkət əldə etdiniz, lakin məqama çatdıqda vəzifənizi yerinə yetirmədiniz.*

و قد ترون عهود الله منقوصة فلا تفزعون و أنتم لبعض ذمم آبائكم تفزعون و ذمة رسول الله محقورة (محفورة)

*Atanızı başına bir hadisə gəlsə, ona bir şəxs hörmətsizlik etsə, narahat olub fəryad qopapasınız. Halbuki, gözünüzün qabağına Allahın əhdlərini sındırırlar, İslam hörmətsizlik edirlər səsiniz çıxmır, hətta qəlbən narahat da olmursunuz. Əslində narahat olsaydınız bir səs salardınız.*

« و العمي و البكم و الزمن في المدائن مهملة لا ترحمون »

*Korlar, lallar və bədən xəsarəti olan əlillər aradan getməkdədir, heç kəs onların fikrində deyildir. Heç kəs ayaq-yalın qalanların fikrində deyildir.*

Xəyal edirsiniz ki, radioda dedikləri düzdür? Gedib yaxından görün, hər bir yüz-iki yüz kənddə bir xəstəxana yoxdur. Aclar və yoxsullara fikir verilmir, fürsət də vermirlər ki, İslam yoxsullara aid proqramlarını həyata keçirsin. İslam yoxsulların problemini həll etmişdir. «إِنَّمَا الصَّدَقَاتُ لِلفُقَرَاءِ»

İslam diqqət yetirmişdir ki, əvvəl yoxsullara yetişmək lazımdır, lakin əməl olunmağa qoymurlar.

Xalq ac və ağır şəraitdə yaşayır və İranın hakim aparatı gündə camaatdan vergi alıb boş yerə xərcləyirlər. Hərbi təyyarə alır ki, İsrail hərbçiləri bizim ölkədə hərbi təlimat görsünlər! İsrail müsəlmanlarla müharibə halındadır və onu təsdiq edənlər (rəsmən tanıyanlar) də müsəlmanlarla müharibədədirlər. - İsrailin bizim ölkədə əl-qolu elə açıqdır və hakim qüvvə tərəfindən elə himayə olunur ki, hərbçiləri təlim almaq üçün bizim ölkəyə gəlirlər. Ölkəmiz onların bazarlarına çevrilmişdir! Bizim bazarımız da onların əlindədir. Əgər bu vəziyyət davam etsə və müsəlmanlar süst hərəkət etsələr müsəlmanların bazarı aradan gedəcəkdir.

« وَ لا فی منزلتكم تعلمون و لا من عمل فيها (تُعيئونَ) » - Siz öz məqamınızdan istifadə edib bir iş görmürsünüz və vəzifəsinə əməl edən şəxsi də himayə etmirsiniz.

وَ بالادهان و المُصانعة عندَ الظلمه تَأمَنون. كل ذلك مما أمركم الله به من النهي و التناهي و أنتم عنه غافلون.

*Sizin dilxoşluğunuz ondadır ki, zalım sizi himayə etsin və sizə hörmət göstərsin. Məsələn, Əyyühəş-şeyxul-kəbir desin ki, Millətin başına nə oyun açırlar və dövlət nə edirlər, onunla işiniz yoxdur.*

و انتم اعظم الناس مصيبة لما غلبتم عليه من منازل العلماء لو كنتم تسعون. ذلك بأن مجارى الامور و الاحكام على أيدى العلماء بالله الامناء على حرامه و حلاله. فأنتم المسلوبون تلك المنزلة.

*İmam (ə) deyə bilərdi ki, mənim haqqımı apardılar, siz qiyam etmədiniz, imamların haqqını apardılar dinmədiniz, lakin* « علماء بالله » *yəni rəbbaniyyun və rəhbərlərdən ibarət olan alimlərin adını çəkdi.* «عالم بالله » - *Allah əhkamını bilən alimdir. Ona ruhani və rəbbani də deyilir. Əlbəttə ruhaniliyə və Allah-Təalaya diqqət etmək onda yüksək dərəcədə olmalıdır.*

فأنتم المسلوبون تلك المنزلة. و ما سلبتم ذلك إلا بتفرقكم عن الحق و اختلافكم في السنة بعد البينة الواضحة. و لو صبرتم على الأذى و تحملتم المئونة في ذات الله كانت أمور الله عليكم ترد و عنكم تصدر و إليكم ترجع.

*Əgər siz düz adam olsaydınız və əmrbe-məruf etsəydiniz görərdiniz ki, işləri idarə etmək sistemi sizin əlinizdədir. Siz hökm verirsiz və onların da icrası sizin ixtiyarınızdadır. Əgər İslam istəyən hökümət meydana*

*gəlsəydi, indiki dünya hökümətləri onun qarşısında davam gətirə bilməzdi, təslim olardılar. Lakin çox təəssüf ki, belə bir hökümətin yaranmasında qüsurluluq olub. İslam dövründə də müxaliflər belə hökümətin yaranmasına Allah və Peyğəmbərin (s) razı olduğu şəxsin əlinə keçməsinə mane oldular və beləliklə də iş bu yerə çatdı.*

«و لكنّكم مكّنتم الظلمة من منزلتكم» - Siz vəzifəniz əsasında qiyam etməyib hökümət işini buraxdıqda, zülmkarlara bu məqamı əldə etmək üçün imkan yarandı.

و استسلمتم أمور الله في أيديهم، يعلمون بالشبهات و يسيرون في الشهوات، سلطهم على ذلك فراركم من الموت و إعجابكم بالحياة التي هي مفارقتكم، فأسلمتم الضعفاء في أيديهم فمن بين مستبد مقهور و بين مستضعف على معيشة مغلوب.

Bu mətləblər bizim zamanımızla uyğunlaşır. Bizim əsrimizlə əlaqədar olması o zamana nisbətən daha çoxdur.

يتقلبون في الملك بآرائهم و يستشعرون الخزي بأهوائهم اقتداء بالأشرار و جرأة على الجبار. في كل بلد منهم على منبره خطيب يصقع.

O vaxtlar natiqlər mənbərdə zülmkarı alqışlayırdı və indi də radiolar hər gün İslamın xilafına, onların mənafeyinə danışır və İslam əhkamını tərsinə təqdim edirlər.

«فلأرض لهم شاغرَة» - İndi ölkələr zülmkarlar üçün maneəsizdir və heç kəs qarşılarını almır.

و أيديهم فيها مبسوطة و الناس لهم خول لا يدفعون يد لامس، فمن بين جبار عنيد و ذي سطوة على الضعفة شديد مطاع لا يعرف المبدئ المعيد. فيا عجباً و ما لي لا أعجب و الأرض من غاش غشوم و متصدق ظلوم و عامل على المؤمنين بهم غير رحيم. فالله الحاكم فيما فيه تنازعاً و القاضى بحكمه فيما شجر بيننا. اللهم إنك تعلم أنه لم يكن ما كان منا تنافساً في سلطان و لا التماساً من فضول الحطام و لكن لنري المعالم من دينك و نظهر الإصلاح في بلادك و يأمن المظلومون من عبادك و يعمل بفرائضك و سننك و أحكامك. فإن لم تنصرونا و تنصفونا قوي الظلمة عليكم و عملوا فى إطفاء نور نبيكم و حسبنا الله و عليه توكلنا و إليه أنبنا و إليه المصير

Gördüyünüz kimi rəvayət əvvəldən axıra kimi alimlərə aiddir və «üləman-billahın» imamlar olmasına dair heç bir xüsusiyyət yoxdur. İslam alimləri «üləmaü-billah» və rəbbanidirlər. Rəbbani o şəxsə deyilir ki, Allaha inansın, Allahın əhkamını qorusun, əhkamı bilsin və habelə Allahın halal və haramına sadiq olsun.

«İdarəetmə işləri alimlərin əlində olmalıdır deməsi bir ya iki ilə aid deyil, bu söz ancaq Mədinə əhlinə xitabən deyilməmişdir. Rəvayətdən

məlum olur ki, Həzrət Əlinin (ə) məqsədi qiyam etməli olan böyük ümmətdir.

Əgər ilahi halal və harama əmin olan, elmə və ədalətə malik olan alimlər ilahi hökmü həyata keçirsəydilər hüdudu icra edib İslam əhkamı onların əlində olsaydı daha, millət ac qalmazdı və İslam əhkamı tətilə uğramazdı.

Bu rəvayət bizim sözümüz təsdiq edir və əgər sənəd baxımından zəif olmasaydı bir sübut ola bilərdi. Baxmayaraq ki, rəvayətin məzmunu məsum (ə)-dan olduğunu göstərir.

Biz «Vilayəti- fəqih» bəhsini bitiririk və bu barədə daha danışmırıq və firuatda məsələn, zəkat və hüdudun necə icra edilməsi kimi məsələlərdə bəhs etməyə ehtiyac duyulmur. Biz vilayəti-fəqihi (islam hökümət) bir prinsip kimi araşdırdıq və dedik ki, Peyğəmbər (s) və imamların malik olduqları vilayətə fəqih də malikdir. Bu barədə heç bir şübhə yoxdur.

Bundan əvvəl dediyim kimi vilayət-fəqih mövzusu yeni bir mövzu deyildir, bu mövzu barədə əvvəldən mubahisələr gedir. Mirzayi Şirazinin[1] tənbəkini haram etməyə dair hökmü siyasi bir hökm idi ki, başqa fəqihlər də ona əməl etməli idilər. İranın bütün alimləri - bir neçə nəfərdən başqa - bu hökmlə razılaşdılar.[2] Bu hökm bir neçə nəfərin arasında baş verən ixtilafı həll etmək üçün özünün şəxsi nəzərinə əsasən verilən hökm deyildi, müsəlmanların mənafeyi əsasında hökm-sanəvi[3] kimi bu siyasi

---

[1] Mirzə Həsən Şirazi (1230-1312 h.q) öz əsrində fəqih və müctəhid idi. Şiraz, İsfahanda təhsil aldıqdan sonra 22 il şeyx Ənsarinin üsul və fiqh dərslərində iştirak etdi. Tənbəki macarası və təhriminə dair hökmü və milyonlar nəfərin o hökmə əməl etməsi nəticəsində İngiltərə ilə müqavilənin ləğv edilməsi onun dini qüdrətinə və açıq siyasi görüşünə aydın bir faktdır. Mirza Hüseyn Nuri, Kaşifül-ğita və seyid Kazim Yəzdi onun tələbələrindəndir.

[2] «Tarixi-bidariyi İraniyan», «Nazimül-islam Kirmani» cild 1, səh. 14; «Həyati-Yəhya»; «Yəhya dəblətabadi» cild 1, səh. 1, 9; «Təhrim-tənbaku»; «İbrahim Teymuri» səh. 119.

[3] Şəriət hökmü əlaqə bağlayan mövzuların iki halı var:

A – Mövzu (iztirab, zərurət, cəbr) kimi vəziyyətlərə şərti olmayan surətdə, ona dair verilən hökmə, «hökmü-əvvəli» deyilir.

B – Mövzu (iztirar, ikrah, zərər, fəsad və məşəqqət) kimi vəziyyətlərə şərti olan surətdə ona dair verilən hökmə «hökmi-sanəvi» deyilir. Misal üçün murdar əti yemək «əvvəli hökmün» əsasında haramdır, amma əgər şəxs iztirar (əlacsız və dözülməz) şəraitdə olsa, aclığının qarşısını almaq miqdarında yeməsi məsləhətdir (hökmi-sanəvi əsasında) Ya tütünün alış-verişi və işlədilməsi, hökmi-əvvəli əsasında halal və məsləhətdir, lakin müəyyən şəraitdə müsəlmanlara ziyan yetirib kafirlərin qalibliyinə səbəb olduğuna görə hökmi-sanəvi əsasında onun halallığı aradan gedir.

hökm verdi. Nə qədər ki, ünvan (mövzu) dururdu hökm də eləcə davam edirdi, mövzu gedəndən sonra hökm də götürüldü.

Rəhmətlik Mirzə Məhəmməd Təqi Şirazinin[1] cihad hökmü siyasi hökm idi.

Deyilənlərə görə mərhum Kaşifül-ğita[2] da bu mətləblərin çoxunu demişdir. Dedim ki, mərhum Nəraqi Həzrət Rəsulu-Əkrəmin (s) malik olduğuna fəqihlərin də malik olduğunu inanır və rəhmətlik Naini də bu mətləbin «Ömər ibn Hənzələnin məqbuləsindən» əldə edildiyini söyləmişdir.[3] Hər halda bu bəhsin təzəliyi yoxdur və biz daha çox mövzunu araşdırırıq ki, məsələ aydınlaşsın. Və Allah-Təalanın əmrinə itaət etmək məqsədi ilə günün aktual məsələlərini də qeyd etdik. Yoxsa mətləb hamıya aydındır.

Biz mövzunu qaldırdıq. İndiki və gələcək nəsl isə onun ətrafında düşünməli və mübahisə aparmalıdırlar. Sustluyu, soyuqluğu və naumidliyi aradan qaldırın. İnşaəllah təşkil edilməsinin necəliyini məsləhətləşməklə öyrənərlər. İslam hökuməti işlərini aqillərə tapşırar, xainin əlini müsəlmanların beytul-malından, vətən və hökümətindən kəsərlər. İnanın ki, Allah onlardan qüdrətlidir.

## BEŞİNCİ HİSSƏ

## İSLAM HÖKÜMƏTİ QURMAQ UĞRUNDA MÜBARİZƏ ÜÇÜN PROQRAMLAR

Biz İslam hökumətini qurmaq üçün ciddi səy göstərməliyik, bizim fəaliyyətimiz təbliğatla başlanmalıdır. Biz təbliğat yolu ilə irəliləməliyik. Bütün dünya həmişə bu cür olubdur, bir neçə təşkilatın fikirlərinin ardınca təbliğata başlayıblar, tədriclə onların da həmfikirləri artıb, nəhayət, böyük

---

[1] Mirzə Əli Şirazinin (1338 h.q) Samirrada böyük Mirzayi Şirazinin şagirdi olub. Ondan sonra Samirrada mərcəi-təqlid məqamına yüksəldi. Məşhur fətvası ilə İraqda İngiltərə əleyhinə cinad hökmü verdi və xalqı İngiltərə dövləti əleyhinə mübarizə aparmağa dəvət etdi. «Elmi-üsul haqqında risalə», «Məkasibə haşiyə» və «Əhli-beytin mədhində şeirlər» onun əsərləridir.

[2] Cəfər ibn Xizr ibn Yəhya (1228 h.q) şeyx Cəfər Kaşifül-ğita adı ilə məşhur olub ustadı Əllamə Bəhrül-ülumun (1212) vəfatından sonra şiənin mərçəliyini öhdəsinə götürdü. O, yaxşı istidlal edər və şeir də deyərmiş. Kaşifül-ğita «Əllamənin qəvaidinin şərhində», «Kitabi-təharət», «Ğayətül-məmul fi elmil-üsul» onun əsərlərindəndir.

[3] «Münyətül-talib fi Haşiyətil-məkasib» cild 2, səh. 327.

bir qüvvə kimi hökumətə nüfuz edib yaxud onunla mübarizəyə başlayıblar. Məhəmməd Əli Mirzanı[1] aradan aparıb məşrutə hökuməti təşkil edirdilər. Qoşun və qüdrət əvvəldən olmayıb, hamı təbliğat ilə mübarizəyə başlayıblar. Zorakılıqları məhkum edib, xalqı başa salıblar ki, bu zorakılıqlar qanuna ziddir. Tədriclə təbliğatın dalğaları genişləndikdən cəmiyyət bütün siniflərin bürüyəndən sonra camaat ayılıb, sonra fəallaşıb və bir nəticəyə çatıblar.

Sizin indi nə bir ölkəniz və nə qoşununuz var, amma təbliğat işi sizə əlverişlidir. Düşmən təbliğat vasitələrini sizin əlinizdən ala bilməmişdir. Əlbəttə, ibadətə aid məsələləri öyrənməlisiniz, lakin ən mühüm olan məsələ İslamın siyasi, habelə, İslamın iqtisadi və hüquqi problemləridir. Bunlar əsas olub və əsas da olmalıdır. Bizim vəzifəmiz budur ki, indidən İslami bir dövləti qurmaq üçün səy göstərək, təbliğ edək, təlim işləri aparaq, elə bir təbliğat dalqası yaratmalıyıq ki, bir ictimai proses yaransın və tədriclə ayıq, vəzifəşünas və dindar kütlələr İslami hərəkatda təşəkkül tapıb qiyam etsinlər və İslami hökumət qursunlar.

Təbliğat və təlimat işi iki mühüm fəaliyyətdir. Fəqihlərin vəzifəsi İslam hökmlərini və etiqadiyyatını təbliğ etmək və xalqa öyrətməkdir ki, cəmiyyətdə İslam sisteminin yaranması və İslam hökmlərinun icra edilməsi üçün şərait yaransın. Rəvatətdə gördünüz ki, Peyğəmbəri-Əkrəmin (s) canişinlərinin vəsfində gəlmişdir ki, «يعلمونها الناس » yəni dini xalqa təlim edirlər, xüsusilə indiki şəraitdə ki, istismarçılar, zülmkarlar, xain, yəhudi, xristianlar və materialistlər İslamın həqiqətlərini təhrif etməyə və müsəlmanları azdırmağa səy göstərirlər. Belə bir dövrdə bizim təbliğat və təlim sahəsində məsuliyyətimiz daha əhəmiyyətlidir. Bu gün görürük ki, yəhudilər, خذلهم الله (Allah onları zəlil etsin) Qurana əl aparmışlar və işğal edilmiş ərazilərdə çap olunan Quranlarda dəyişiklər aparmışdlar. Biz bu kimi xəyanətlərin qarşısını almalıyıq. Fəryad qoparmalı və xalqın diqqətini cəlb etməliyik. Bilsinlər ki, yəhudilər və onların xarici himayəçiləri İslamı əsası ilə müxalif olan şəxslərdir. Onlar istəyirlər ki, dünyada Yəhud hökumətini təşkil etsinlər və fəal, əziyyətçi bir xalq olduqlarına görə qorxuram ki, nəuzu billah bir gün öz məqsədlərinə çatsınlar. Bizim bəzilərimizin səhlənkarlığı səbəb olsun ki,

---

[1] Məhəmməd Əli şah (1289-1343 h.q 1308 h.ş) Müzəffərəddin şah – Qacarın böyük oğlu və Mirzə Təqixan Əmir Kəbirin qızı Tacül-Mülkün oğludur. Onun dövründə məclis topa tutuldu. Bir dəstə deputatlardan həlak oldu və bir dəstə də sürgün edilib ya dustaq edildi. Bir il bundan sonra o, səltənətdən kənar edilib və on altı il müxtəlif ölkələrdə yaşayıb və nəhayət İtaliyada ölmüşdür.

bir gün yəhudi hakim bizə rəhbərlik etsin. Allah günü gətirməsin. Digər tərəfdən istismarçı müəssisələri təbliğat xadimləri olan şərqşünaslardan bir dəstə fəaliyyət göstərirlər ki, İslamın həqiqətlərini təhrif edib əksinə göstərsinlər İstismarçı təbliğatçılar fəaliyyətə başlayıblar, müsəlman ölkələrinin hər bir nöqtəsində öz zəhərli təbliğatları ilə gənclərimizi bizdən ayırır, Yəhudi ya xaçpərəst deyil, fasid, dinsiz edirlər və elə bu da istismarçılara kifayət edər.

Tehranda, sevgilisi və sionizm[1] və bəhai[2] təbliğat təşkilatı yaratmışdır ki, camaatı yolundan azdırır, İslam hökmləri və təlimatlarından uzaq salır. Görəsən İslama zərər yetirən bu mərkəzləri aradan aparmaq bizim vəzifəmiz deyildirmi? Görəsən Nəcafin bizim əlimizdə olması kifayətdirmi? (təəssüf ki, o da bizim əlimizdə deyil). Görəsən oturub matəm saxlamalıyıq ya xlqı hərəkətə vadar etməliyik?

Siz hövzələrin gənc nəsli, ayıq olmalısınız və Allahın əmrinin həmişə keçərli saxlamalısınız. Siz cavan nəsilsiniz, fikrinizi inkişaf etdirib kamilləşdirməlisiniz. Elmlərin, həqiqətlərin haşiyəsində olan fikirlərin

---

[1] «Sionizm» - ifrat milli bir cəryanın adıdır ki, müstəqil yəhud ölkəsi yaratmaq məqsədi ilə yaranmışdır. Onun adı Beytul-müqəddəsdə olan «sion» dağından götürülmüşdür ki, Davud peyğəmbərin məzarı oradadır. «Sionizm» Avropa ölkələrinin yahudilərə qarşı apardıqları təzyiqlərə qarşı bir əks-əməl idi. Bu hərəkətlərin rəhbərlərindən biri Macarlı yəhudi, qazetçi Teodor Hertsel adlı bir şəxs idi ki, 1897-ci ildə dünya sionistlər konqresini İsveçrədə təşkil etdi. Bu konqresdə sonralar İsrail prezidenti olan Vayzmen konqresdə iştirak edənlərə qəbul etdirdi ki, Fələstini yəhudilərin vətəni kimi tanısınlar və yəhudilərin bu ölkədə yerləşməsinə razılıq versinlər. Balfor elamiyyəsinin yayılması və ingiltərənin yəhudilərinin Fələstinə köçməsinə dair razılıq verməsi ilə sionistlər çoxlu yəhudiləri Fələstinə köçürtdülər və Amerikanın yardımı ilə ərəblərin evləri, əkin sahələri və torpaqları əllərindən aldılar. İndi sionizm təşkilatının maliyə qüvvəsi dünyanın ən böyük kompaniyalarının sərvəti miqdarında olar. Bu təşkilatın mərkəsi Amerikadadır və Amerika sionist cəmiyyətləri və dəstələrinin fəaliyyəti dünyanın 60 ölkəsinə rəhbərlik edir. Sionist təşkilatı 18 ana təşkilata, 281 milli-yəhudi təşkilata və 251 federativə malikdir. Habelə müxtəlif məsləhətləşmə mərkəzlərinə, pul sandığına, bir çox siyasi və iqtisadi imkanlara malikdir. Habelə bu təşkilatın dünya ölkələrinin çoxunda casusluq və məlumat vasitələri mərkəzləri vardır. Dünyanın müxtəlif informasiyalarından yardım alır. Sionistlərin əlində 1030 qəzet və jurnal vardır ki, onların ən məşhuru «Ney-York tayms»-dır.

[2] 1260 h.q ilində Seyid Əli Məhəmməd adlı bir şəxs özünü «imamın qapısı» kimi təqdim etdi və sonralar məhdəviyyət iddiası qaldırdı. Seyid Əli Məhəmməd Bab yaxalanıb öldürüldü. Lakin onun ardıcıllarının içində «Sübhi-əzəl» və «Bəha» adlı iki qardaş iddia etdilər ki, onlar Babın canişinidirlər. Sübhi-Əzəlin ardıcılları özlərinin «bab» və Bəhaüllahın izləyiciləri özlərini «Bəhai» adlandırdılar. Osmanlı dövləti Bəhaüllahı və onun izləyicilərini Fələstində olan «Əkkaya» və «sübhi-əzəl»-i və tərəfdarlarını Qibriz yarımadasına sürgün etdi. Bəhailər İngiltərənin yardımı ilə Fələstində gücləndilər və onralar İsrail də onlara yardım etdi. Bəhailər Məhəmməd Rza Pəhləvi şah dövründə yüksək mövqeyə malik oldular və İranı xarici siyasətində və sionizmin mənfəətinin təminində əsas təsir göstərirdilər.

çoxunu kənara qoyun, çünki bu kimi cüzi məsələlərə diqqətlər bizi bir çox vəzifələrimizi yerinə yetirməkdən saxlamışdır. İslamın dadına çatın, müsəlmanları təhlükədən qurtarın. İslamı aradan aparmaq istəyirlər. İslam hökmləri və Həzrət Rəsulun adı ilə İslamı məhv edirlər. Daxili və xarici təbliğatlar, İranın bütün kəndlər və qəsəbələrinə gedib İslamı qorumağa çalışan gənclərimizi azdırırlar. Onların harayına çatın.

Siz öyrəndiklərinizi, xalqın arasında yaya bildiklərinizi onlara çatdırın. Rəvayətlərdə elm əhli və fəqihə[1] bir o qədər tərif və mədhləri olması ona görədir ki, İslamın əhkam və etiqadiyyatını düzgün təqdim edir və Həzrət Rəsul-Əkrəmin (s) sünnəsini xalqa öyrədir. Siz İslamın tanıtmaq uğrunda təbliğat və təlimlərə ciddi əhəmiyyət verməlisiniz.

Biz İslama qarşı olan anlaşılmazlıqları bir tərəflik etməliyik. Nə qədər ki, bu anlaşılmazlıqlar vardır bir iş görə bilmərik. Biz hamıya tapşırmalıyıq ki, hökmən İslamın əleyhinə olan və bir çox təhsil almış sinifdə təsir buraxan zəhərli təbliğatların əsər və izini aradan qaldırmalı və İslam dünyagörüşünü olduğu kimi təqdim etməliyik. İslam hökümətini tanıtmaq lazımdır ki, camaat İslam və onun qanunlarının nə olduğunu bilsinlər. Bu gün Qum, Məşhəd və digər hövzələr İslamı yaymalıdırlar. Camaat İslamı tanımır, siz özünüz İslam höküməti və rəhbərliyinin nümayəndələrini tanıtdırmalısınız. Xüsusilə universitetlərdə tələbələrin dünyagörüşləri genişdir. İnanın ki, İslam hökümətini universitetlərə təqdim etsəniz, tələbələr onu yaxşı qarşılayacaqlar. Tələbələr zülmlə, asılı hökümətlərlə, quldurluq, soyğunçuluq, müftəxorluq və fırıldaqçılıqlarla müxalifdirlər. Belə hökümət tərzinə və təlimata malik olan İslama heç bir universitet tələbəsi müxalif ola bilməz. Bunlar Nəcəf hövzəsinə baxırlar ki, bir fikir irəli sürsünlər. Görəsən biz oturmalıyıq ki, onlar bizi mərufa əmr edib, vəzifəmizlə tanış etsinlər? Cavanlar Avropadan bizi əmr-be-məruf etsinlər: «bizim İslam təşkilatımıza yardım edin!» - deyə bizə müraciət etsinlər?

Bizim vəzifəmizdir ki, bu mətləbləri xatırladaq, İslamın rəhbərləri və hökümətləri barədə söz açaq və deyək ki, onların məhkəmə orqanı məscidin bir guşəsində yerləşirdi. Hökumətləri İran, Misir, Hicaz və Yəməni ehtiva edirdi. Təəssüflə, hökumət sonrakı təbəqəyə çatdıqda hökumət tərzi səltənəti (diktatorluq) və ya ondan da pis bir hökumətə çevrildi. Biz bir neçə hökumət istəyirik. Rəhbərlərimiz nə kimi xüsusiyyətlərə malik olmalıdır. İslam cəmiyyətinin rəhbəri o şəxsdir ki,

[1] «Usuli-Kafi» cild 1, səh. 37-48; «Fəzlül-elm» hissəsin.

qardaşı Əqil ilə elə davrandı[1] ki, o, heç vaxt ayrı seçkiliyə yol verməsin. Qızı beytül-maldan ariyə götürdükdə çağırıb: «Əgər ariyə götürməsəydin sən Bəni-Haşim tayfasından əli kəsilən birinci qız olacaqdın».[2] Biz belə rəhbər istəyirik. Öz istəklərini deyil, qanunu həyata keçirən rəhbər olsun, camaatın arasında ayrıseçkiliyə yol verməsin. Camaata müsavi nəzərlə baxsın. Əgər oğlu oğurluq etsə əlini kəssin, qardaşı ya bacısı narkotik maddələr satsa edam etsin. Elə olmasın ki, bəzilərini 10 qram narkotik maddə üçün öldürsün və öz adamları isə min tonlarla narkotik maddələr al-veri ilə məşğul olsunlar.

## Yığıncaqlar təbliğat və təlimat yolunda olmalıdır

İslam əhkamının çox hissəsi siyasi-içtimai işlərə aiddir. Məsələn, camaat namazı, həcc və cümə namazı əxlaqi, etiqadi və ibadi xarakter daşıdığından əlavə siyasi təsirə də malikdir. İslam bu kimi əhkamı və yığıncaqları təşkil etmişdir ki, dini istifadələr olunsun, qardaşlıq əhval-ruhiyyəsi artsın, fikir birliyi inkişaf etsin və müsəlmanlar öz siyasi-ictimai problemlərin həlli yollarını tapsınlar. Onun ardınca birlikdə çalışmaq və cihadla məşğul olsunlar. Amma İslam elə etmişdir ki, hər kəs həccə getməyi arzu edir, könüllü olaraq camaat namazına gedir. Bu kimi yığıncaqlardan din təlimatı, siyasi-etiqadi hərəkat üçün faydalamalıyıq. Bəzilər bu fikirdə deyillər, ancaq «Vələzzallin» sözünü yaxşı və daha düzgün tələffüz etməyə fikir veriblər. Həccə getdikdə müsəlman qardaşlarla fikir birliyi etmək, İslam əhkamı və etiqadiyyatını yaymaq, müsəlmanların ümumi problemlərinin həllinə maraq göstərmək əvəzinə, Fələstini azad etmək üçün əməkdaşlıq etmək yerinə ixtilafları şiddətləndirir, dərinləşdirirlər. Halbuki, İslam dövründə müsəlmanlar bu kimi yığıncaqlarda mühüm işlər görürdülər. Cümə namazında ordu yaranır, məscidlərdən döyüş meydanlarına dəstələr səfərlər olurdu. Məsciddən döyüşə gedən şəxs ölum, yoxsulluq, əsir düşməkdən deyil, ancaq Allahdan qorxar. Belə bir ordu qətiyyətlə qalib gələr. Həzrət Əmirin (ə)[3] xütbələrinə baxsanız görəcəksiniz ki, məqsəd xalqı hərəkətə gətirmək, İslam üçün mücahid təbliyə etmək, problemləri aradan qaldırmaq idi. Əgər hər cümə günü müsəlmanların ümumi probləmləri deyilib həll olsaydı, iş bu yerə çatmazdı. Bu gün bu yığıncağları ciddi

[1] «Nəhçül-bəlağə» xütbə 215.
[2] «Biharul-Ənvar» çild 4, səh. 337-338.
[3] «Nəhçül-bəlağə» xütbə 11, 27, 29, 51, 54; «Vəsailüş-şiə» çild 11, səh. 395.

şəkildə təşkil etməli və onlardan təlim və təbliğat işləri üçün faydalanmalıyıq. Bununla İslamın siyasi-etiqadi hərəkəti çiçəklənib genişlənər.

### Bir daha Aşura yaradın

İslamı göstərin və onu göstərməklə Aşura kimi səhnələr yaradın. Necə ki, Aşuranı möhkəm saxlamışıq və hələ də camaat Aşurada sinə vurur və yığıncaqlar təşkil edir (salam olsun onu yaradana). Siz də bu gün elə bir dalğa yaradın, yığıncaqlar təşkil edilməli, təbliğat işləri başlanmalı və camaatın içində məsələ qaldırılmalıdır. Əgər İslamı təqdim etsənizsə və İslamın dünyagörüşünü (etiqadiyyat) üsul, əhkam və ictimai sistemini camaata tanıtsanız, onu tam samimiliklə qarşılayacaqlar. Allah bilir ki, onu istəyən çoxdur. Mən təcrübə etmişəm, camaatın arasında bir söz qaldırılanda, dalğalar törənirdi. Ona görə ki, hamı bu vəziyyətdən narahatdır. Qılınc altında bir söz deyə bilmirlər. Sözün tam şücaətlə deyən bir şəxsi istəyirlər. Siz, İslamın dilavər oğulları mərdanə dayanın və nitq söyləyin. Həqiqətləri sadə bir dildə xalq kütlələrinə çatdırın, onlarda hərəkət və eşq yaradın. Küçə adamlarından, fəhlələr, safürək kəndlilərdən və ayıq tələbələrdən mücahid tərbiyə edin. Hamı mücahid olacaqdır. Cəmiyyətin bütün sinif və təbəqələri xalqın azadlığı, müstəqilliyi və səadəti uğrunda mübarizə aparmağa hazırdır. Azadlıq və səadət üçün mübarizə aparmaq dini tələb edir. Din və cihad məktəbi olan İslam dinini xalqa tanıtdırın ki, camaat əxlaqiyyatlarını onun üzündən düzəldib mücahid bir qüvvə kimi istismarçı və zülmkar rejim aradan aparıb İslam hökumətini qursunlar.

O fəqihlər İslam üçün «hasar» ola bilərlər ki, İslam etiqadiyyat və sistemini xalqa tanıtdırıb onu qorumağa çalışsınlar və bu qızğın, ayıdıcı nitqlərdən, camaat hiss edəcəkdir ki, onun ölümü ilə İslam dünyası matəmə batıb və İslama ödənilməyən bir ziyan dəymişdir. Rəvayətdə deyildiyinə görə «ثُلِمَ فِى الاسْلام ثُلمة لا يسدُّها شَيْءٌ»[1] Mömin fəqih öldükdə İslam cəmiyyətində ödənilməyən və yeri dolmayan bir əskiklik tapılar» - Bu söz evdə oturub mütaliədən başqa bir iş görməyən mənə aiddirmi? Mənim ölümümlə İslam cəmiyyətində nə yoxluq yaranar? İslam İmam Hüseyn (ə)-ı əldən verdikdə ödənilməyən bir yoxluqla üzbəüz gəlir.

[1] İslamda yeri dolmayan bir əskiklik tapılar. *Tərcüməçi.*

«Xacə Nəsir»[1] və «Əllamə»[2] kimi İslam etiqadiyyatını və qanunlarını və ictimai sistemini qoruyan və İslama dəyərli xidmətlər edən şəxslər öldükdə yoxluq yaranar. Amma mən və ya sən İslama nə etmişik ki, ölsək, İslam cəmiyyətində yoxluq törənsin. Bizim kimilərdən mini ölsə, heç nə olmaz! Biz ya doğurdan fəqih deyilik və ya lazımi qədər imanımsız yoxdur.

## Uzun mübarizədə dözümlü olmaq

Heç bir aqil bizim təbliğat və təlimatımızın İslam hökümətinin təşkil edilməsi ilə nəticələnməsini gözləmir.

İslam höküməti qurmaq üçün davamlı fəaliyyətlər lazımdır. Bu isə zaman tələb edir. Ağıllı adamlar müəyyən yerdə bir daş qoyarlar ki, bir başqası 200 il ondan sonra onun üzərində bina saldırsın və ondan bir nəticə əldə etsin. Padşah qoz ağacı əkmək istəyən bir qocaya dedi ki, əlli il sonra sənin öldüyün vaxta məhsul verən bu qoz ağacını nə üçün əkirsən? Qoca dedi: «Başqaları əkdilər biz yedik, biz də əkirik ki, başqaları yesin».

Bizim fəaliyyətimizin nəticəsi gələcək nəslə səmərə verəcəkdirsə də, biz onu davam etdirməliyik. Ona görə ki, İslam və insanların səadəti uğrunda xidmət etməkdir, şəxsi iş deyildir ki, nəticəsi uzaq gələcəkdə səmərə verəcəyi üçün bizə dəxli yoxdur. Bütün varlığını təhlükəyə salan və qurban verən Seyyidüş-şühəda (ə) da bu cür fikirləşsəydisə və öz şəxsi mənfəətini nəzərə alsaydı, əvvəl bir gündən barısaqdı və məsələ həll olardı. Əməvilər hakimləri Allahdan istəyirdilər ki, İmam Hüseyn (ə) beyət edib onların hakimiyyətdə olmaqlarına razılığını bildirsin. Bundan daha yaxşı nə ola bilərdi ki, Peyğəmbərin (s) oğlu, vaxtın imamı, «Möminlərin əmiri» onlara xitab etsin və hökmlərini rəsmi tanısın. Amma o Həzrət İslam və müsəlmanların gələcəyini düşünürdü. İslam gələcəkdə o Həzrətin «müqəddəs cihad və fədakarlığı nəticəsində insanların arasında

---

[1] Mühəqqiqi-Tusi və «Xacə Nasir» şöhrəti ilə məşhur olan Məhəmməd ibn Həsən Tusi (597-672 h.q) İslamın məşhur alimlərindən olub fəlsəfə, kəlam, riyaziyyat sahəsində ustad olubdur. Əllamə Hilli, Qutbiddin Şirazi, Əbudulkərim ibn Tavus onun şagirdləri olublar. «Əmratın şərhi», «Təcritül-etiqad», «Təhriri-oqlidos» və «Əxlaqi-nasiri» onun əsərləridir.

[2] Cəmaləddin Həsən ibn Yusif ibn Əliyyb-Mutəhhər Hilli (726-h.q) fəqih, hədisci, təfsirçi, kəlamçı, ədib olub «Əllamə» ləqəbini qazanmışdır. O, mühəqqiq Hilli, Xaçə Nəsir, Əhməd ibn Tavus kimi alimlər onun ustadı olublar. «Təbsirətül-mütəllimin», «Əlmuxtəlif», «Qəvaid», «Təkzirətül-füqəha», «Kəşfül-murad fi şərhi-Təcridül», «Etiqad», «Əlfeyi», «Əlmuxtəsər» və «Əlkəşşaf» təfsirinin xülasəsi onun əsərlərindəndir.

yayılsın və onun siyasi-ictimai sistemi bərqərar olsun» - deyə mübarizə apardı və fədakarlıq göstərdi.

Bundan əvvəl gətirdiyim rəvayətə diqqət edin. Görürsünüz ki, İmam Sadiq (ə) zülmkar hakimin təzyiqatına məruz qaldığı bir şəraitdə və təqiyyə edib icra qüdrəti olmayıb əksər vaxtlarda nəzarət altında olduğu bir halda belə, müsəlmanların vəzifəsini müəyyən edir, hakim və qazi seçir. Həzrətin bu işinin mənası görəsən nədir? Və əslində bu kimi işlərin nə kimi faydası var? Böyük insanlar geniş fikrə malik olurlar, onlar heç vaxt məyus olmurlar və indiki vəziyyətlərini - yəni zindanda olub azad olub olmamalarını bilmədikləri vəziyyəti fikirləşmirlər və məqsədə çatmaq uğrunda hər hansı vəziyyətə planlar hazırlayırlar ki, sonralar imkan yarandıqda onu həyata keçirsinlər özlərinə fürsət yaranmadıqda isə başqaları 200 və ya 300 ildən sonra onu həyata keçirsinlər. Böyük inqilabların əsası bu cür qoyulmuşdur. İndoneziyanın prezidenti «Sokarno»[1] zindanda öz fikirlərini etdikdən sonra planlarını hazırlayıb proqramlar vermişdi ki, onları həyata keçirdi.

İmam Sadiq (ə) plan və proqramlar hazırladığından əlavə vəzifəyə də bəzi şəxslər seçirdi. İmamın bu kimi işləri o zamana aid idi və əlbəttə bir iş sayılırdı, lakin o Həzrət gələcəyi düşünürdü. Bizim kimi deyil idi ki, ancaq özünü düşünsün. Ümmətin, bəşəri və bütün aləmin fikrində idi. Bəşəri islah etmək və ədaləti həyata keçirmək istəyirdi. O, neçə min il bundan əvvəl planlarını irəli sürməli idi ki, xalqlar ayıldıqda və qiyam etdikdə daha heyrətə qalmayıb İslam hökümətinin sistemi və başçısı məlum olsun.

Əslində İslam dini və şiə məzhəbi və digər məzhəblər də bu cür tərəqqi etmişdir. Yəni əvvəldə bir plandan başqa bir şey olmayıbdır. Sonra isə rəhbərlər və peyğəmbərlərin ciddi olmalarının təsirində nəticəyə çatmışdır. Həzrət Musa bir çoban idi, uzun illər çobanlıq etmişdi, Fironla mübarizə aparmağa məmur olan vaxtda heç bir köməkçisi yox idi. Amma müqavimət və dayanmaqla bir çəliklə Fironun hökümətini aradan apardı. Siz belə xəyal edirsiniz ki, əgər Musanın çəliyi mənim ya sənin əlində olsaydı bu işi görə bilərdikmi? Musa tədbiri, Musa himməti və ciddiliyi

---

[1] Əhməd Sokarno (1901-1970 m.) bir müəllim oğlu idi. 19 yaşında Hollandiya müəssisəsinə daxil olub mühəndislik sahəsində məzuniyyət aldı. Zidd-istismar fəaliyyətlərinə görə uzun müddət zindanda və sürgündə qalmışdır. 1945-ci ildə İndoneziyada cumhuriyyət elan etdi və 1946-da rəsmi olaraq prezidentliyə seçildi. O, məhşur dünya siyasətçilərindən və bloklara qoşulmama hərəkatının banilərindəndir. O, 1967-də qərbin tərəfdarları olan hərb çevrilişindən sonra işdən kənara çəkildi. «İnqilab bayrağı» əsəri onun əsərlərindəndir.

lazımdır ki, o çəliklə Fironun büsatını dağıtsın. Bu iş hər adamın əlindən gəlməz. Həzrət Peyğəmbəri-Əkrəm peyğəmbərliyə seçildikdə, səkkiz yaşında olan Həzrət Əmir (ə) və 40 yaşında olan bir qadın (Həzrət Xədicə) ona iman gətirdi. Bu iki nəfərdən savayı bir kəsi yox idi. Hamı bilir ki, o Həzrətə nə qədər əziyyət edirlər və ona düşmən olub müxalif çıxdılar, lakin məyus olmadı, demədi ki: «köməyim yoxdur». Dayandı, güclü əzm və ruhiyyə ilə risalətini yox dərəcəsindən bu səviyyəyə çatdırdı ki, hal-hazırda 100 milyon insan onun bayrağının altındadır.

Şiə məzhəbi də sıfırdan başlandı. Həzrət Peyğəmbəri-Əkrəm onun əsasını qoyan vaxt istehzalarla qarşılanmışdı. Camaatı yığıb qonaqlıq edib: «Bu şəraitə malik olan şəxs mənim vəzirimdir» deyən vaxtda hələ həddi-buluğa çatmamış, lakin böyük ruha, bütün dünyadan böyuk olan bir ruha malik olan Həzrət Əmir (ə)-dan başqa heç kim ayağa qalxmadı. Bir nəfər üzünü Həzrət Əbitalibə tutub istehza edərək «Bundan sonra oğlunun bayrağı altına keçməlisən»-dedi.[1]

Həzrət Əmir (ə) vilayətini camaata bildirdiyi gün, «bəxxin, bəxxin» - deyə camaatın zahiri təbrik demələri ilə qarşılaşdı.[2]Amma müxalif çıxmaqlar, elə oradan başlandı və davam etdi. Əgər Həzrət Rəsul (s) Həzrət Əlinin ancaq şəriət məsələlərində mərcə etsəydi, heç kəs müxalif olmazdı, amma canişinlik vəzifəsini Həzrətə verdikdə və müsəlmanların hakimi elan edib İslam xalqının taleyini ona tapşırdıqda, bəziləri narahat olub müxalif çıxdılar. Siz də əgər bu gün evdə oturub, ölkənin işinə qarışmasanız, heç kəsin sizinlə işi yoxdur. O gün - ölkənin müqəddəratına qarışsanız sizinlə işləri olacaq. Həzrət Əmir (ə) və şiələr ölkənin və hökümətin işinə qoşulduqlarına görə bir o qədər əziyyətlər və müsibətlərə məruz qalır, amma cihad və mübarizədən əl çəkmirdilər. Onların təbliğat və mücahidlikləri nəticəsində bu gün təxminən 200 milyon şiə dünyada yaşamaqdadır.

## Ruhani hövzələrini islah etmək

İslamı təqdim edib tanıtmaq üçün ruhani hövzələrini islah etmək lazımdır. Yəni təhsil proqramları, təbliğat metodları və təlimat işləri təkmilləşsin, süstlük, tənbəllik, naümidlik və özünə inamsızlığın yerini ciddilik, səy, ümid və özünə inam alsın. Bəzilərinin beynindən əcnəbilərin təbliğatlarının təsiri silinsin. Camaatı ruhani hövzələrinin öz içindən İslam

[1] «Tarixi- Təbəri» cild 2 səh. 319-322
[2] «Təfsiri-Kəbir», cild 12, səh 53; «Əsədül-ğabə» cild. 4, səh. 28.

və ictimai islahatdan uzaq saxlayan müqəddəsnüma şəxslərin fikirləri islah edilsin. Dini dunyaya satan saray axundları soyundurulsun və hövzələrdən çıxarılsın.

## İstismarın əxlaqi və fikri əsərlərini aradan aparmaq

İstismarın xadimləri və onlara bağlı hökümətlərin siyasi, tərbiyəvi orqanları yüz illərdir ki, zəhərli təbliğatları ilə camaatın əxlaq və fikrini fəsada çəkirlər. Camaatın içindən ruhaniyyət hövzələrinə gələn şəxslər, fasid fikri və əxlaqi əsərləri özləri ilə gətirirlər. Ruhaniyyət hövzələri də cəmiyyətin bir hissəsi kimidir, demək biz hövzədə olan şəxslərin fikri və əxlaqi islahatında səy göstərməliyik. Əcnəbilərin təbliğatlarından və xəyanətkar, fasid dövlətlərin təlqinlərindən mənşələnən fikri və əxlaqi izləri aradan aparmalıyıq və onunla mübarizə etməiyik.

Bu tam aydındır. Məsələn, bəzilərini görürük ki, hövzədə oturub «bu işlər bizim işimiz deyil, biz dua oxuyub məsələ deməliyik» - deyrlər. Bu fikirlər əcnəbilərin zəhərli təbliğatlarının, istismarçıların necə yüz illik zəhərli təbliğatlarının nəticəsidir ki, Qum, Məşhəd, Nəcəf və sair hövzələrə daxil olmaqla, süstlük tənbəllik və uymağa səbəb olmuşdur.

Daima deyirlər ki, bu bizim işimiz deyildir. Bu kimi fikirlər səhvdir. Məgər İslam ölkələrində hökümət rəhbərləri kimlərdir ki, onlar hər biri bacarır, biz isə bacarmırıq? Onların hansısa məmul bir şəxsdən artıq ləyaqətləri var. Onların bir çoxu təhsil almayıblar. Hicazın hakimi[1] harda təhsil almışdır? Rzaxanın hec savadı yox idi, savadsız bir əsgər idi. Tarixdə də belə olubdur. Bir cox öz başına olan hakimlər cəmiyyəti idarə etməyi bacarmayıb, elmsiz və fəzilətsiz şəxslər olublar. Harun ər-Rəşid[2] yaxud böyük ölkəyə hökümət edən başqaları nə təhsil almışdılar? Elm, təcrübə, proqram hazırlamaq üçün ixtisasçı olmaq lazımdır, biz də onlardan istifadə edərdik. Ölkəni idarə etmək, ədaləti yaymaq və xalqın arasında ədalətli əlaqələri bərpa etmək işləri, həmin işlərdir ki, fəqih onların dərsini oxumuşdur. Azadlıq və müstəqilliyə lazım olan şey, həmin fəqihin malik olduğudur. Fəqihdir ki, başqalarının zorakılığı altına getməz, əcnəbilərə boyun əyməz və ömrünün axırına kimi xalqın hüququnu, azadlığını, müstəqilliyini, ərazi bütövlüyünü müdafiə edər. Fəqihdir ki, sağa və sola əyilməz.

---

[1] Feysəl ibn Əbdüləziz Ali-Səud (1906-1975) uzun müddət Ərəbistanda xarici işlər naziri və baş nazir olub və 1964-də qardaşını işdən çıxarıb özü onun yerinə keçmişdir.

[2] Abbasilərdən beşinci xəlifə (193 h.q)

Siz bu süstlüyü özündən uzaq edin, proqram, təbliğat metodunuzu məkmilləşdirin; İslamı tanıtmaqda səy göstərin; İslam hökuməti təşkil etmək qərarına gəlin; bu yolda mübariz və azadlıq istəyən xalqla əl-ələ verin; bu surətdə İslam hökuməti qətiyyətlə qurulacaqdır, əmin olun. Sizin ki, xalqın azadlığı və müstəqilliyi uğrunda mübarizə aparmağa qüdrət və cəsarətiniz vardır. Siz ki, xalqı ayıldıb mübarizə meydanına çəkibsiniz, istismar və istibdad qüvvələrini qorxuya salıbsınız. Günü-gündən təcrübə kəsb edirsiniz və ictimai işlərdə tədbir və ləyaqətiniz artır. Zülmkar hökuməti aradan apardıqdan sonra, qətiyyətlə xalq kütlələrinə rəhbərlik edib hökuməti idarə edəcəksiniz. Hökumət planı, idarə sistemi və lazımi qanunlar hazırlanmışdır. Əgər ölkəni idarə etmək üçün vergi və gəlir lazım olsa, bu İslamda ilk görülmüş işlərdən olmuşdur. Əgər qanuna ehtiyac olacaqdırsa, İslam onları qərara almışdır. Hökumət qurandan sonra oturub qanun qərara almaq lazım deyildir. Yaxud bir sıra əcnəbilərə qulluq edən hakimlər kimi başqalarına əl açmazsınız. Hər şey hazırdır, nazirliklərin proqramları ilə müxtəlif sahələrdə ixtisasçı olanların yardımı ilə hazırlanıb müəyyən edirlər.

Xoşbəxtliklə xalq da sizinlə birlikdədir. Ancaq silahlı qüvvəmiz yoxdur ki, onu da inşallah əldə edərsiniz. Həzrət Musanın çəlik və himmətinə ehtiyacımız var. Musanın çəliyini və Əli ibn Əbitalibin qılıncını götürən şəxslərə ehtiyacımız var.

Bəli hövzələrdə oturan bacarıqsız adamlar hökumət təşkil edə bilmirlər, ona görə ki, o qədər bacarıqsızdırlar ki, hətta qələmlərini də işlədə bilmirlər və heç bir işdə bir addım irəli atmırlar.

O qədər əcnəbilər və onların xadimləri bizim qulağımıza «ağa get işinə, get dərs və mədrəsənin dalınca, bu işlərin sizə nə dəxli, siz bu işləri görə bilməzsiniz» və s. kimi sözləri oxuyublar ki, biz də inanmışıq ki, bir iş əlimizdən gəlmir! İndi mən bu zəhərli təbliğatı bəzilərin qulağından çıxara bilmirəm və onları başa sala bilmirəm ki, «bəşərin rəhbəri siz olmalısınız, siz də başqaları kimi ölkəni idarə ede bilərsiniz». Məgər sizin başqalarından nəyiniz əskikdir? Onların bəziləri ancaq bəzi yerlərə gedib kef çəkiblər və ya bir təhsil alıblar.

Biz demirik ki, təhsil almasınlar, biz təhsillə elmlə muxalif deyilik. Aya getmək və atom sənayesi düzəltməyin qarşısını almırıq. Lakin o sahələrdə də təkliflərimiz vardır. Siz İslamı tanıtdırın, İslamın hökumətə, idarə etməyə aid proqramlarını dünyaya çatdırın. Bəlkə də İslam ölkələri padşahları və prezidentləri diqqət yetirib qəbul edecəklər. Biz ki, onların

əlindən (hakimiyyəti) almaq istəmirik, hər hansı ki, duz olsa yerində qalacaqdır.

Biz bu gün dünyada 700 milyon nəfərik, 170 milyon şiəmiz var, bunların hamısı bizim tabeliyimizdədirlər. Amma o qədər himmətsizik ki, onları idarə edə bilmirik. Biz xalqın etimadı olan bir hökümət qurmalıyıq ki, camaat ona inanıb öz taleyini ona həvalə edə bilsinlər. Biz əmin hakim istəyirik ki, xalqlar onun pənahında tam rahatlıqla yaşayışlarına başlasınlar.

Bunla bir sıra mətləblrdir ki, onun fikrində olmalısınız, məyus olmayın. Xəyal etməyin ki, bu olan iş deyil. Allah bilir ki, sizin ləyaqət və qabiliyyətiniz başqalarından çoxdur. Əlbəttə qabiliyyət zülm etmək və adam öldürmək olsa, bizim yoxdur.

O köpək oğlu zindanda[1] mənim yanıma gələndə, (ağai Qumi[2] səlləməhullah da orda var idi) dedi: «Siyasət bədzatlıq, yalançılıqdır ...və xülasə köpəyoğluluqdur, bunu bizim ixtiyarımiza buraxın». Düz də deyirdi. Əgər siyasət bundan ibarət olsa, onlara məxsusdur. İslamın, müsəlmanların və «səsətül-ibad»[3] olan imamların (ə) siyasəti başqa idi. O, bizi qafil etmək istəyirdi. Sonra qəzetdə yazırdı ki, ruhanilər qəbul etmişlər ki, siyasətə qoşulmasınlar![4] Biz də azad olandan sonra minbərdə təkzib etdik. Dedik ki, yalan deyiblər! Əgər Xomeyni və ya başqası belə bir sözü deyibsə, onu şəhərdən çıxarırıq.[5]

Bunlar əvvəldən sizin beyninizə yerləşdirilmişlər ki, siyasət fırıldaqçılıq deməkdir, ona görə belə demişlər ki, sizi məmləkət işlərindən yayındırsınlar və onlar öz işləri ilə siz də dua oxumaqla məşğul olasınız.

---

[1] Məqsəd vaxtın təhlkəsizlik təşkilatının sədri general-mayor Həsən Pakrəvandır 1342-də zindanda imamla görüşmüşdü.

[2] Hac seyid Həsən Qumi, Ayətullah seyid Hüseyn Quminin oğlu o vaxt imamla birlikdə həbsdə idi, inqilab qələbə çalan ilə kimi Kərəcdə sürgündə oldu və qələbədən sonra Məşhədə köçdü.

[3] «Sasə» siyasətçi olan şəxsə deyilir. Bu söz «Cameyi-Kəbir» ziyarətindən gəlmişdir. «Mən la yəhzuruhul- fəqih» cild 2, səh 370.

[4] 1342-ci ilin mordad ayının 12-də bu xəbər qəzetlərdə yayıldı.

[5] Həzrət Ruhullah Xomeyni 1343-də mənzilində danışaraq demişdi: Qəzetə yazmışdılar ki, güya rühanilər siyasətə qoşulmayacaq. Mən indi sözün həqiqətini deyirəm. Adını çəkmək istəmədiyim bir şəxs gəlib dedi: «Ağa siyasət yalançı olmaq, aldatmaq və fırıldaqçılıqdan ibarətdir, siz onu bizə buraxın». Onda məsləhətə görə onunla bəhs etmədim, dedim ki, biz əvvəldən sizin dediyiniz siyasətə girişməmişik. İndi yeri gəlmişkən deyirəm ki, İslam tamamilə siyasətdir. İslamı pis tanıdıblar. Siyasət İslamdan baş açır. Mən əlinə təsbeh alıb oturan axundlar kimi, ancaq bazar ertəsi günü mərasim keçirən və başqa işlərlə məşğul olmayan Roma Papası kimi deyiləm. «Kövsər», cild 10, səh. 104-105.

Siz burada «ملکه اللهخلّد»- deyəsiz[1], onlar da öz işi görsünlər. Əlbəttə özləri bunu bilməzlər. İxtisasçılar 300 il budan əvvəl şərqə gələn İngiltərə müstəmləkəçiləri bu proqramları hazırlamışlar. Sonra Amerikalılarda onlara qoşuldu. Mən Həmədanda olanda ruhani paltarından soyundurulmuş tələbələrimizdən biri mənə böyük bir xəritə gətirdi ki, onda qırmızı əlamətlərlə İranın yeraltı sərvətləri göstərilmişdir, o sərvərtəri xarici mütəxəsislər kəşf etmişdilər. Xaricilər bizim ölkənin üzərində çoxlu mütaliələr etmişlər. Bizim bütün yeraltı sərvətlərimizin yerlərini, harada mis ya qızıl olduğunu müəyyən etmişlər. Bizim adamlarımızın beyinlərini yoxladılar, gördülər ki, onların planlarının qarşısını alan ancaq ruhanilər və İslamdır. Onlar İslamın qudrətini Avropanı alanda gördülər. Bildilər ki, həqiqi İslam bu büsatla müxalifdir. Habelə bildilər ki, həqiqi ruhaniləri almaq və fikirlərinə nüfuz etmək olmaz. Buna görə əvvəl gündən bu maneəni yollarından götürmək istədilər, İslamı təhqir edib ruhaniləri istehzaya qoydular. Zəhərli təbliğatla bu işi gördülər. Elə olub ki, bizi nəzərimizdə İslam ancaq bir neçə məsələdən ibarətdir. Digər tərəfdən İslam cəmiyyətlərin başında olan İslam fəqihləri və alimləri iftira ilə ləkələndirmək istədilər. İstismar xadimi olan şəxs kitabında yazmışdır ki, «600 nəfər İran və Nəcəf alimləri İngiltərədən maaş alırlar! Şeyx Murtəza[2] iki il maaş aldıqdan sonra məsələni bilmişdi».[3] Onun istinad etdiyi sənədlər Hindistanda İngiltərənin Xarici işlər nazirliyinin arxivindədir! Bu istismarın əlidir ki, deyir: Bizə yaman deyin ki, nəticə alaq. İstismar bütün alimləri cirəxarı kimi təqdim etmək istəyir ki, İslam alimlərini camaatın içində bədnam etsin və camaat onlardan üz çevirsin. Digər tərəfdən, təbliğatla səy etmişlər ki, İslamı kiçik və məhdud göstərsinlər və İslam alimləri və fəqihlərinin vəzifəsini kiçik işlərə həsr etsinlər. Bizim qulağımıza oxuyublar ki, fəqihlərin şəri məsələ deməkdən başqa bir işləri yoxdur. Bəziləri də fikirləşmədən onlara inandılar. Bilmədilər ki, bunlar müstəqilliyimizi aradan aparmaq və İslam ölkələrinə xas olan hər şeyi əlimizdən almaq üçün hazırlanmış planlardır. Bilmədən istismarın təbliğat siqnallarına və siyasətlərinə yardım etdilər. İstismarın təbliğat müəssisələri çaxnaşma saldılar ki, fəqihlər siyasətə qoşulmamalıdılar və

---

[1] Allah onun hökümətini həmişəlik etsin.

[2] Böyük fəqih şeyx Murtəza Ənsari.

[3] İslam Rain, «İngiltərənin İranda maaş alanları» səh. 102. Rain «SAVAK» təsis olan gündən 1498 sirri olan nömrə ilə «SAVAK»la əməkdaşlıq edib. O frankmason kitabının «SAVAK»ın əməkdaşlığı ilə yazdı. O, şahın saray naziri Ələmlə əlaqədə olub və onun göstərişi ilə ruhaniləri ləkələmək üçün bu kitabı yazdı.

xalqın taleyinə nəzarət etməyə haqlı deyillər. Təəssüflər bir dəstə inandı. Nəticədə bu oldu ki, görürsünüz. Bu o haldır ki, istismarçılar arzu edirdilər, edirlər və edəcəklər.

Siz din elmləri hövzəsinə baxın. İstismar təbliğatının əsərlərini müşahidə edəcəksiniz. Tənbəl, işsiz, himmətsiz və karsız şəxsləri görəcəksiniz ki, ancaq məsələ deyirlər, dua edirlər və bundan başqa bir iş görə bilməzlər. Habelə bir sıra fikirlər və metodlarla üzbəüz gələcəksiniz ki, həmin təbliğat və təlqinlərin nəticəsidir. Məsələn, danışmaq axundun şəninə xələl gətirər axund və müctehid danışmamalıdır, danışsa da ancaq «لا اله الاالله»-lailahə illəllah deməlidir. Bu səhvdir, Həzrət Rəsuli-Əkrəmin (s) sünnəsinin ziddinədir, Allah nitq, bəyan və qələmi təclil etmişdir və «ər-Rəhman» surəsində buyurur «علمه البيان»[1] nitq söyləməyi böyük nemət adlandırır. Bəyan Allahın əhkamını, İslamın təlimlər və etiqadiyyatını nəşr etmək üçündür. Nitq bəyan edir ki, dini camaata öyrətmək olar və «يعلمون الناس» -ayəsinin dairəsinə beləliklə, daxil ola bilərik. Həzrət Rəsuli-Əkrəmin (s) və Həzrət Əmir (ə) nitqlər xütbələr söyləmişlər. Onlar söz ustadı idilər.

## Yalançı müqəddəslərin islahı

Bəzilərin beynində olan bu kimi axmaq fikirlər müsəlman ölkələri olduğu vəziyyətdə saxlamaq və İslam hərəkatının qarşısını almaq üçün istismarçılara və quldur dövlətlərə imkan yaradır. Bu fikirlər «müqəddəslər» adı ilə məhşur olan bir dəstəyə aiddir. Onların fikirləri islah olmalı və bizim onlara münasibətimiz müəyyən edilməlidir; ona görə ki, bunlar islahat işlərinə və hərəkata əngəl törədirlər, bizim əlimizi bağlayıblar. Bir gün rəhmətlik Bürucerdi,[2] rəhmədlik Hüccət,[3] Sədr,[4]

---

[1] «Ona söz söyləməyi öyrətdi». «Ərrəhman» surəsu, ayə 4.

[2] Ayətullahil-üzma Bürucerdi (1292-1380 h. q) böyük alim və fəqih idi. Axund Xorasani və seyid Məhəmməd Kazım Yəzdi və Əşşəri-eyi İsfahaninin dərsindən faydalandı. «Ürvətül-vüsqaya haşiyə», «Kifayətül-üsül» və «şeyx Tusinin nəhayəsinə haşiyəsi» onun əsərlərindəndir.

[3] Ayətullahil-üzma seyyid Məhəmməd Hüccət Kuhkəməri (1310-1373 h.q) Azərbaycanın Qaradağ məntəqəsində yerləşən Kuhkəmər adlı bir kənddə anadan olub fiqh və üsül sahəsində böyük alim və ustad olub şiələrin mərcəyi-təqlidi kimi adlanmışdır. Ayətullah Hairinin vəfatından sonra Qum şəhərində din elmləri hövzəsini idarə etmişdir. «İstishab, və Bey-ə adi bir risalə» və «Kifayənin izahı» onun əsərlərindəndir. Hüccət həzrətləri Qum şəhərində böyük dini bir mədrəsə tikdirmişdir ki, «Hüccətiyyə mədrəsəsi» adı ilə məhşurdur.

rəhmətlik Xansari[1] (rizvanüllah əleyhim) siyasi bir məsələ haqqında bizim mənzildə məsləhətləşmək üçün cəm olmuşdular[2]. Onlara dedim ki, siz hər şeydən əvvəl bu yalançı müqəddəslərə nə münasibət bəsləməyimizi müəyyən edin. Onların olması ona oxşar ki, düşmən sizə hücum etdiyi zaman sizin əlinizi bir nəfər bağlamış olsun. - «Həqiqi müqəddəs» - olmayan bu «müqəddəslər» xeyirlə şərri başa düşmürlər və sizin əllərinizi bağlayacaqlar. Siz bir iş görmək istədikdə, bir hökuməti almaq fikrində olduqda və bu fəsadların qarşısını almaq üçün məclisə sahib çıxmaq istədikdə onlar cəmiyyətə sizə əngəl olacaqlar. Siz hər şeydən əvvəl onlara bir fikir çəkin.

Bu gün müsəlmanların cəmiyyəti elə olmuşdur ki, saxta müqəddəslər İslam və müsəlmanların irəlliləməsinin qarşısını alırlar. İslam adı ilə İslama zərbə endirirlər. Bu kimi şəxslərin kökü ruhaniyyət hövzələrindəndir. Nəcəf, Qum, Məşhəd və digər hövzələrdə belə şəxslər var ki, müqəddəsnüma əhval-ruhiyyəsinə malikdirlər və oradan öz nadürüst fikirlərini İslamın adına təbliğ edirlər. Əgər bir nəfər tapılıb desə ki, «gəlin ayıq olun, başqaların bayrağı altına getməyin, qoymayın İngiltərə və Amerika bu qədər bizi təzyiqə məruz qoysunlar, qoymayın İsrail bu cür müsəlmanları iflicə çəksin» onda, bunlar da ona müxalif çıxarlar.

Bunları əvvəl ayıltmaq lazımdır. Bunlara təhlükəni başa salmaq lazımdır ki, İsraillilər öldürürlər, İngiltərə və Amerika da onlara yardım göstərir, siz də oturub burada tamaşa edirsiniz, siz, ayılıb xalqın bədbəxtliyinə bir fikir etməlisiniz. Təklikdə mübahisə aparmağın faydası yoxdur. Təklikdə demək bir dərdə dərman etməz. İslam təhlükədə olan bir vaxtda sükut etmətin. Xristianlılar kimi olmayın ki, ruhulqudus və üç uqnum haqqında söhbətə qızışdıqda gəlib onları öldürdülər. Ayılın! Bu həqiqitlərə diqqət edin. Günün məsələləri ilə maraqlanın. Özünüzü bu laqeyidlikdən çıxarın. Siz bu səhlənkarlığınızla belə üstəlik mələklər və cinlərin ayağınızın altında sərilmələrini də gözləyirsinizmi? Məgər

---

[4] Ayətullah Seyyid Sədruddin Sədr (1299-1373 h.q) Axund Xorasani və Naininin şagirdi olub Hairinin xahişi ilə Quma getmişdir. «Əlməhdi» və «Xülasətül-füsul» onun əsərlərindəndir.

[1] Ayətullah Seyyid Məhəmmədtəği Xonsari (1305-1371 h.q) Axund Xorasani, Naini, seyid Məhəmməd Kazım Yəzdinin şagirdi olubdur. İraq xalqının müstəmləkəçi İngiltərə əleyhinə hərəkatında iştirak edibdir. 1363-də (h.q) quraqlıq olduğuna görə Qum şəhəri əhalisinin dəvəti ilə yağış namazı qılıb və dərhal namazdan sonra yağış yağmağa başlamışdır.

[2] Cənab Dəvani, Xəlxalinin dediklərinə görə ayətullahlar «müəssisan məclisi» barədə bəhs etmək üçün cəm olmuşdular.

mələklər tənbəl adamlar becərirlər? Mələklər Həzrət Əlinin (ə) ayağı altında qanadlarını döşəyərlər, ona görə ki, İslamın qayğısına qalır, İslamı böyüdür və onun vasitəsilə İslam yayılır. O Həzrətin rəhbərliyi ilə azad, çalışqan və xoşbəxt cəmiyyət meydana gəlir. Belə olduqda əlbəttə ki, mələklər onun qarşısında təvazökər olur və hamı ona hörmət göstərir və hətta düşmən də əzəməti qarşısında onu alqışlayır. Məsələ deməkdən başqa bir işiniz olmasa, sizə hörmət edib alqışlamağın mənası yoxdur.

Əgər irşad və nəsiyyhət etməklə ayılmasalar məlum olar ki, qüsur etmələri qəflət üzündən deyil, başqa bir səbəbdəndir. Onun onlarla başqa bir şəkildə hesab getmək lazımdır.

## Hövzələri arıtlamaq (yad ünsirlərdən təmizləmək)

Ruhaniyyət hövzələri müsəlmanların dərs, təlim, təbliğ və rəhbərlik, ədalətli fəqih, ustad və tələbələrin yeridir. Peyğəmbərin varislərinin yeridir. Əmanət yeridir. Aydındır ki, İlahi əmanəti hər kəsin əlinə vermək olmaz. Bu kimi vəzifəni əldə edib müsəlmanların vəliyi-əmri Əmirəl-möminin nümayəndəsi olub camaatın əmlak, irz (-namus) və özlərinə vilayəti olub qənimət və hüdudu öz əlinə almaq istəyən şəxs pak olmalı və dünyaya həris olmamalıdır. Dünya üçün əl-qol atan şəxs – mübah iş olduğuna baxmayaraq – Allahın etimad edəcəyi şəxs deyildir. Ona arxalanmaq olmaz. Zalımın hökümət işlərində olan fəqih etibarlı şəxs deyil və ilahi əmanətə malik ola bilməz. Allah bilir ki, İslam, ilk zamandan indiyə kimi bu pis alimlərdən nə kimi müsibətlərə məruz qalmışdır. Bu kimi fəqihlərdən biri Əbuhüreyrədir.[1] Allah bilir ki, o, Müaviyə və onun kimilərin mənfəətinə nə qədər saxta hökmlər verdi. O, İslamın başına çoxlu müsibətlər gətirdi. Alimlərin zalımlar hökümətində məşğul olmaları adi adamlardan fərqləndirir. Adi bir şəxs zülmkar

---

[1] Əbuhüreyrə (57 h.q) hicrətin 7-ci ilində müsəlman oldu, üç ildən çox Peyğəmbər həzrətlərinin sahabəsi olmadığına baxmayaraq hər hansı bir sahabədən çox rəvayət nəql etmişdir. Ömər zamanı Behreynə hakim idi sonra işdən çıxarılıb beytülmalı taladığına görə 10 min dirhəm ödəməyə məhkum oldu. Osman dövründə «ona yaxınlaşsın» -deyə onu fəziləti barədə rəvayətlər saxtalaşdırdı. Həzrət Əlinin (ə) xəlifəliyi zamanı Müaviyənin mənfəətinə sükut etdi. Deyilib ki, Siffəyn müharibəsində kənara çəkilib bir gün Əlinin xeyməsində və bir gün də Müaviyənin yanında qalırdı. Namazda Həzrət Əliyə iqtida edib yemək vaxtı Müaviyənin süfrəsində otururdu. Özü deyərmiş ki, Müaviyənin yeməyi yağlıdır və Əlinin namazı fəzilətli, üstündür. Onun hədislərinin çoxunu şiə və sünni alimləri rədd etmişdir. «Əllamə Şərafətdinin və şeyxul Müzeyrənin yazdığına əsasən, «Nəhçül-bəlağənin şərhi» İbn Əbil-Hədid cild 4, səh. 93-69, «İslam Ensiklapediyası» cild 1, səh. 418-419.

hökümətin işlərinə qarışsa ancaq fasiq bir şəxs kimidir, amma bir fəqih ya qazi (Əbuhureyrə və Şüreyhi-qazi kimi) zalim hökümətin idarələrinə qoşulması, onu böyüdüb İslamı ləkələndirərlər. Bir fəqihin qoşulması bir millətin qoşulması kimidir və buna əsasən İmamlar (ə) zülmkar hökümətin idarə işlərində qoşulmaqdan daxil olmaqdan çəkindirir və buyurur ki, əgər sizlər qoşunlmasaydınız iş bu yerə çəkməzdi.[1]

İslam fəqihlərinin boynunda olan məsuliyyət başqalarının boynunda yoxdur. İslam fəqihləri fəqih məqamında olduğuna görə çox mübah işləri tərk etməlidirlər. İslam fəqihləri başqalarına təqiyyə yeri olunan yerdə təqiyyə etməməlidirlər. Təqiyyə məzhəbi qorumaq üçündür. Əgər təqiyyə etməsəydilər məzhəb qalmazdı. Amma İslamın üsulu və heysiyyəti təhlükədə olduqda təqiyyə və sükut etmək olmaz. Əgər bir fəqihi minbərdə Allahın hökmünün ziddinə danışmağa vadar etsələr, görəsən «التقية دينى و دين آبائي»[2] – hədisinə istinad edərək bu işi görə bilərmi? Bura təqiyyə yeri deyildir. Əgər bir fəqih zalım hökumətin idarəsinə daxil olmaqla zülmün genişlənməsinə səbəb olacaqsa və İslam ləkələnəcəksə, onu öldürsələr belə qoşulmamalıdır. Heç bir üzürü qəbul deyildir. Amma onun qoşulması əql əsasında olsa eybi yoxdur. Məsələn, Əli ibn Yəqtin[3] və Xacə Nəsir Tusinin hökumətə qoşulmalarının nə kimi faydaları olması məlumdur. Əlbəttə, İslam fəqihləri işıq kimi işıldayırlar və heç bir ləkələri yoxdur. O zaman hökumətlə olan axundlar bizim məzhəbimizdən deyildir.

---

[1] İmam Səccadın (ə) Məhəmməd ibn Müslimə yazdığı məktubda belə gəlib:

و اعلم أن أدنى ما كتمت و أخف ما احتمك أن انست وحشه الظالم و سهلت له طريق الغى بدنوك منه و اجابتك له حين دعيت... أوليس بدعاته اياك حين دعاك جعلوك قطبا أدروابك رحى مظالمهم و جسرا يعبرون عليك الى بلاياهم و سلما الى ضلالتهم داعياالى غبهم سالكا سبيلهم، يدخلون بك الشك على العلماء و يقتادون بك قلوب الجبهال اليهم.

Bilirsənki, gizlətdiyin ən kiçik haqq və çiyninə aldığın ən yüngül yük odur ki, zalımın vəhşətini zail etmisən və azğınlığın yolunu onun üçün asanlaşdırmısan və bununla səni tələb etdikdə icabət edirsən. Məgər elə deyildir ki, onlar bu çağırışlarla səni dəyirman daşının dəstəsi kimi öz zülmləri üçün dəstək etmək və zülmkarlarını sənin vücudunun ətrafına dalğalandırmaq? İstəyirlər səni öz zülmləri və amalları üçün bir körpü, azğınlıqlar üçün bir nərdivan, əyrilikləri üçün carçı etmək istəyirlər və səni alimləri ləkələmək üçün və cahillərin qəlblərini özlərinə cəlb etmək üçün bir vəsilə etmək istəyirlər. «Töhəfül-üqul» səhifə 214: «İmam Səccadın kəlamları».

[2] «Təqiyyə etmək mənim və atalarımın yoludur». «Müstədrəkul-vəsail» cild 12, səh. 258.

[3] Əli ibn Yəqtin (124-182 h.q) atası Bəni-Ümeyyə dövründə Ali-Abbas hökümət qurmaq istədiyinə görə, Bəni-Abbas hökumət başına gələndən sonra onların yaxın adamı olub, Harun ər-Rəşid onu vəzir etdi. O, eyni halda İmam Kazım (ə) ilə əlaqə olub və onun göstərişinə əməl edirdi. İmam (ə) onun haqqında belə buyurub: «Ey Əli: zülümkarın yanında Allah yardımçıları da var ki, onların vasitəsilə dostlarını himayə edər və sən də onlardansan».

İslam fəqihləri nəinki onların itaətində olmadılar, hətta onlara müxalif də çıxdılar, həbsə alındılar zülmlərə məruz qaldılar, amma itaət etmədilər. Belə xəyal etməyin ki, İslam alimləri bu hökumətə qoşulmuşlar. Əlbəttə, bəzən nəzarət etmək ya hökuməti çevirmək üçün daxil olurmuşlar, indi də bu kimi iş görə bilmək üçün qoşulmağımız vacibdir. Bundan söz getmir. Söz o şəxslərdən gedir ki, başlarına əmmamə qoyub savadları olmadığı halda tamahkarlıq və vəzifə üçün hökumətə qoşulurlar. Bunlarla nə etməliyik?

## Saray axundlarını qovun getsinlər

Bunlar İslam fəqihləri deyildir və bunların çoxunu İran təhlükəsizlik təşkilatı tərbiyə etmişdir ki, dua etsinlər, şənliklərdə imam-camaatı zorla iştirak etməyə vadar etsinlər ki, onlar cəllə cəlaloh desinlər! Son vaxtlar ona[1] cəllə-cəlaloh ləqəbi vermişlər. Bunlar fəqih deyillər. Camaat onları tanıyır. Rəvayətdə var ki, bu kimi şəxslərdən dininizə görə qorxun, onlar sizin dininizi aradan aparar, bunları rüsvay etmək lazımdır. Onlar rüsvay olmasalar, sakit olmasalar, İmam Zamanı (ə.f) və İslamı aradan apararlar.

Bizim cavanlarımız bunların əmmamələrini götürməlidirlər. İslam fəqihləri adı ilə müsəlmanların cəmiyyətində bu cür fəsad salan axundların əmmamələri götürülməlidir. Mən bilmirəm, məgər bizim cavanlarımız ölüblərmi? Haradadırlar? Biz olan zaman bu cür deyildi. Bunların əmmamələrini niyə götürmürlər? Mən demirə ki, öldürsünlər, bunlar ölməyə də layiq deyillər, lakin əmmamələrini başlarından götürmək lazımdır. Xalqımız və qeyrətli cavanlarımız qoymamalıdırlar ki, bu kimi axundlar (cəllə-cəlaloh deyənlər) cəmiyyətdə don-əbalı və əmmaməli çıxış etsinlər. Lazım deyildir ki, çox kötək vurasınız, ancaq əmmamələrini götürün, qoymayın əmmaməli çıxış etsinlər. Bu şərif bir paltardır, hər şəxsin əynində olmamalıdır. Dediyim kimi müsəlman alimlər bu kimi sözlərdən uzaqdırlar və təşkilatda olmayıb və yoxdurlar. Bu təşkilata bağlı olanlar bir sıra müftəxorlardırlar ki, özlərini alimlərin sırasına daxil etmiş və özlərini məzhəbə xadim kimi göstərirlər. Onların hesabı ayrıdır və camaat onları tanıyır.

Bizim də ağır vəzifələrimiz var, özümüzü hər baxımdan kamil etməliyik. Daha artıq təqvalı olub dünyadan üz çevirməliyik. Siz[2] ilahi əmanəti qorumaq üçün hazırlıq görməlisiniz. Dünyaya rəğbətli olmayın.

---

[1] Şah.
[2] Ruhanilərə xitabən.

Əlbəttə «dünya mənim yanımda keçi asqırağı kimidir» deyən Həzrət Əli (ə) ola bilməzsiniz, lakin öz nəfslərinizi paklayıb, Haqq-Təalaya diqqət yetirin və təqvalı olun. Əgər Allah eləməsin bir məqama çatmaq üçün dərs oxuyursunuz, nə fəqih və nə də Allahın əmini ola bilməzsiniz. İmam Zaman qoşunundan olun, xidmət edin ədaləti yayın. Saleh şəxslərin cəmiyyətdə olması yaxşıdır, biz bu şəxslərdən xoş (fayda) görmüşük, insan onlarla oturub-durmaqla təmizlənər. Siz elə bir iş görün ki, camaat sizin işinizin və əxlaqınızın təsirindən islah olsunlar. Sizə təqlid etsinlər və siz camaat üçün rəhbər olun. İslamı təqdim etmək və İslam hökümətini tanıtmaq üçün Allah əsgəri olun. Mən demirəm ki, tərk-təhsil edin, dərs oxumağınız lazımdır, fəqih olun, qoymayın hövzələr fəqihsiz qalsın. Fəqih olmasanız İslama xidmət edə bilməzsiniz, lakin təhsil alarkən İslamı tanıtmaq fikrində olun. İndi ki, İslam qəribdir və heç kəs İslamı tanımır, sizə lazımdır ki, İslam və İslam əhkamı camaata çatdırasınız. Qoyun camaat İslamın nə olduğunu bilsinlər. Başa düşsünlər ki, İslam hököməti nə deməkdir, imamlığın risaləti nədir və əslində İslam nə üçün gəlmişdir və nə istəyir. Tədriclə İslam tanınsın və inşallah İslam hököməti təşkil edilsin.

## Zülmkar hökümətləri aradan qaldıraq

Onların dövlət təşkilatları ilə əlaqənizi kəsməli, onlarla əməkdaşlıq etməməli və onlara yardım hesab olan hər hansı işdən çəkinməliyik. Yenə iqtisadi, mədəni, siyasi, və hüquqi təşkilatlar yaratmalıyıq.

Tağutu yəni nahaq siyasi qüdrətləri aradan aparmaq hamımızın vəzifəmizdir. Zülmkar dövlət təşkilatları öz yerini ümum xalqa xidmət göstərən müəssisələrə verməli, İslam qanununa uyğun şəkildə idarə edilməlidir. Allah-Təala Quranda tağutların və nahaq siyasi qüdrətlərin itaətində olmağı nəhy etmişdir və xalqı hakimlərin əleyhinə qiyam etməyi istəmişdir. Musanı hökmdarlar əleyhinə quyam etməyə vadar etmişdir. Bu sahədə çoxlu rəvayətlər var. İmamlar (ə) və ardıcılları yəni şiyələr həmişə zülmkar hökümətlər əleyhinə mübarizə aparmışlar. Çox vaxt zülmkar hakimlərin sıxıntısında olub təqiyyə və vahimədə yaşamışlar. Əlbəttə özləri üçün deyil, məzhəblərinə görə vahimədə olmuşlar. Bu rəvayətlər həmişə diqqət mərkəzindədir. Zülmkar hakimlər də həmişə imamlardan qorxmuşlar. Onlar bilirdilər ki, əgər İmamlar (ə)-a fürsət versələr, qiyam

edəcəklər və onların şəhvətə aludə olan yaşayışları zəhərlənəcəkdir. «Harunun» Həzrət Musə ibn Cəfər (ə) yaxalayıb neçə il həbsə almağı ya Məmunun[1] Həzrət Rzanı (ə) Mərvə aparıb orada nəzarət altında saxlaması və sonra zəhərləməsi[2], onların Peyğəmbər övladı, seyyid olmalarından və bunların Peyğəmbərlə (s) muxalif olduqlarından irəli gəlmir, Harun və Məmun hər ikisi şiə idilər;[3] onların bu işləri görmələri siyasətin ata-bala tanımamasından[4] irəli gəlir. Onlar bilirdilər ki, Həzrət Əlinin (ə) övladı İslam höküməti qurmaq üçün xəlifəliyə yiyələnmək istəyir. Necə ki, Həzrət İmam (ə)-a deyildi ki, Fədəkin[5] hüdudunu müəyyən etsin ki, o, onlara qaytarılsın. Həzrət İslam ölkələrinin sərhədlərini müəyyən etdi.[6] Yəni bu həddə kimi bizim haqqımızdır və biz gərək onlara hökümət edək və siz qəsbkarsınız. Zülmkar hakimlər görürdülər ki, nə qədər ki, İmam Müsa ibn Cəfər (ə) vardır, O, yaşayışı onlara acı edəcəkdir və mümkün ola bilər ki, Həzrət qiyam edib höküməti ələ keçirsin, buna görə də möhlət vermədilər, əgər möhlət versəydilər şüphəsiz ki, Həzrət qiyam edərdi. Siz şüphə etməyin, əgər İmam Müca ibn Cəfər üçün fürsət yaransaydı qiyam edib qəsbkar hakimlərin hökümətini çevirərdi. Habelə Məmun Həzrət Rza (ə)-mı hiyləgərliklə və «yəbnə əmmi» (əmim oglu) və «yəbnə rəsuləllah» deməklə nəzarət altında saxlayırdı ki, nəbada bir gün qiyam edib höküməti çevirsin. Axı o, Peyqəmbərin oqludur, haqqında

---

[1] Əbdullah Məmun (170-218 h.q) Harun ər-Rəşid oğlu və Abbasilərin 7-ci xəlifəsi.

[2] «Əl-İrşad» səh. 290-295; «Tarixi-Yaqubi» cild 2, səh. 148-149; «Murucuz-zəhəb» cild 3, səh. 440-441.

[3] İmam onların imamların haqq olduğunu təsdiq etdiklərinə işarə edir. Məmun özünü şiə bilirdi. O, atası harundan İmam Kazımı barəsində sual etdikdə atası ona demişdir: «Mən camaatı zahirdə rəhbəriyəm, zorla» onu ələ keçirmişəm və Müsa ibn Cəfər isə həqiqi imamdır. And olsun Allaha sən də hökümət üzərində mənə qarşı dursan gözlərini çıxardaram, bil ki, «qüdrət ata-bala tanımaz». «Biharul-ənvar» cild 48, səhifə 129-133.

[4] Harunun «qüdrət ata-bala tanımaz» deməkdə məqsədi o idi ki, hökümət üstündə savaş baş versə, qohumluqlar unudular və heç bir ata oğluna da onu vermək istəməz, sanki əvvəldən sonsuz imiş və heç bir övladı olmamışdır. İmamın məqsədi budur mənadadır.

[5] Fədək Xeybərin yaxınlığında abad bir yer idi ki, Xeybər müharibəsindən sonra oranın sakinləri Həzrətlə sülh müqaviləsi bağlayıb oranı Peyğəmbərə verdilər və Peyğəmbər də Allahın əmri ilə onu Həzrət Fatiməyə (s) bağışladı. «Sireyi ibn Hişam» cild 3, 4 səh. 393; «Tarixi Təbəri» cild 3, səhifə 20.

[6] Abbasi xəlifələrindən olan Mehdi barədə yazılmışdır ki, o, nahaq yerə tapdalanmış ya oğurlanmış haqları sahiblərinə qaytarmaq qərarına gəldi. Bu xəbər İmam Müsa ibn Cəfərə (ə) çatdıqda İmam ona dedi: «Bizim haqqımızı niyə qaytarmırsan». Mehdi dedi: «Sizin haqqınız nədir?» Həzrət buyurdu: «Fədək bizim haqqımızdır və onun sərhəddi Uhud dağı, Misrin Üreyşi, Dömətül-cəndəl və Seyfül-bəhrdir». Mehdi təəccüblə soruşdu: «Bunların hamısı sizin haqqınızdırmı?» İmam buyurdu: «Bəli bunların hamısıdır». «Biharul-ənvar» cild 48, səhifə 156-157, «Mənaqibi Ali Əbutalib» cild 4, səh. 346.

vəsiyyət olmuşdur və Mədinədə azad buraxmaq olmaz. Zülümkar hakimlər ancaq taxt-tac istəyirdilər, hər şeyi bu səltənət və hakimliyə qurban edirdilər, bir kəslə düşmənlikləri yox idi. Əgər nəuzu billah vaxt İmam saraya boyun əysəydi, ona çoxlu hörmət edər və əlindən öpərdilər. Rəvayətə əsasən İmam (ə) Harunun otağına daxil olduqda, Harun əmr verdi ki, Həzrəti taxtın yaxınlığına qədər gətirsinlər və imama son dərəcədə hörmət göstərdi. Sonra beytül-malı böldüyü vaxtda Bəni-Haşimə[1] növbə çatdıqda az məbləğ onlara verdi; orada olan Məmun yaxşı qarşılayıb və az məbləğdə pay verilməsinə təəccübləndi. Harun ona dedi ki: «Sənin fikrin çatmaz Bəni-Haşimi bu cür saxlamaq lazımdır, bunlar gərək yoxsul vəziyyətdə, həbsdə, sürkündə olsunlar. Həmişə zəhmətdə olmalıdırlar və onları zəhərləyib öldürmək lazımdır. Yoxsa qiyam edib, həyatı bizə acı edəcəklər».[2]

İmamlar (ə) nəinki özləri zülmkar hökumətlər fəsid saraylarla mübarizə aparmışlar, hətta müsəlmanları onların əleyhinə cihad aparmağa çağırmışlar. «Vəsailüş-şiə»də[3] «Müstədrək» və digər kitablarda 50 rəvayətdən çox zülmkar hökumətlərdən uzaq olmağa[4] dair nəql olmuşdur və ya «onları alqışlayanların ağzına torpaq tökün»[5] və «hər kəs onlara bir qələm versə ya qələmdanlarına su rəng (boyaq) onlarla məşhur olar»[6]. Bu kimi rəvayətlər çoxdur. Nəhayət, əmr vermişlər ki, onlara əsla yardım olunmasın və onlarla əlaqələr kəsilsin. Digər tərəfdən ədalətli fəqih və alimin barəsində olan və onların başqalarından üstünlüyünü göstərən rəvayətlər İslam hökumətinin təşkil edilməsi üçün bir plandır. Bununla xalqı zülmkarlardan üz çevirməyə, zülmün əsasını yıxmağa tərğib edir, fəqihlərin, ədalətli, təqvalı, mücahid və İslam əhkamını həyata keçirən fəqihlərin qapısını camaatın üzünə açır.

---

[1] Bəni-Haşim Qüreyşin böyük bir eli sayılır və Əbdülmüttəlibin atası olan Haşimin ləqəbi ilə məşhur olan Əbdimanafın övladlarıdır.

[2] «Üyunül-əxbarir-Riza (ə)» cild 1 səh. 88-91; «Biharul-ənvar» cild 48 səh. 129.

[3] «Təfsili- «Vəsailüş-şiə» ila «Təhsili-məsailüş-şəriə» Əllamə Hürri Amilinin əsəridir. Bu kitab hədisləri çox kamil şəkildə təsnifləşdirilmişdir.

[4] «Vəsailüş-şiə» cild 12 səh. 127-139; «Müstədrəkül-vəsail" cild 13.

[5] عن الصادف جعفر بن محمد عن ابيه عن آبائه عن رسول الله فی حديث "المناهی" انه نهی عن المدح قال احثوا فی وجوه المدّاحين التراب

[6] اذا كان يوم القيامه نادی مناد: اين اعوان الظلمة و من لاق لهم دواة او ربط كيسًا اومدّ لهم مدة قلم، فاحشروهم معهم

**«Haradadır zülmkarlara yardım edənlər, onlar ki, dəvatlarına rəng tökdülər, pul kisələrini bağladılar, ya qələmlərini rəngə batırdılar. İndi o zülümkar yoldaşları ilə məşhur edin».** «Vəsailüş-şiə» cild 12 səh. 130.

Müsalmanlar o zaman əmin-amanlıqda yaşayıb iman və əxlaqiyyatlarını saxlaya bilərlər ki, İslam nizamını planlaşdıran və idarə sistemini hazırlayan ədalət və qanun hökuməti sayəsi altında olsunlar.

İndi bizim vəzifəmiz İslam hökuməti planını həyata keçirməkdir. Ümid edirəm ki, İslamın ictimai-siyasi prinsipləri və tərz-hökuməti düzgün şəkildə bəşərə təqdim edilsin, onların fikirlərində dalğalar yaransın və xalq hərəkatından yaranan qüdrət İslam sisteminin qurulmasına səbəb olsun.

Pərvərdigara! Zülmkarın əlini müsəlman ölkələrdən kəs; İslama və İslam ölkələrinə xəyanət edənlərin kökünü kəs! İslam dövlətləri başçılarını bu ağır yuxudan oyat ki, xalqların xeyrinə fəaliyyət göstərib şəxsi mənfəətlərini qorumaq və ikitirəlik salmaqdan əl çəksinlər. Gənc nəslə, şəriət və universitet tələbələrinə bacarıq ver ki, müqəddəs İslam məqsədləri üçün səy göstərsinlər, bir sırada müstəmləkəçilərin caynağından və xəbis xadimlərin əlindən xilas olmaq və İslam ölkələrini müdafiə etmək uğrunda əməkdaşlıq etsinlər. Fəqihlər və alimlərə tövfiq ver ki, cəmiyyətin fikrini yüksəltmək və camaatı ayıltmaqda səy göstərsinlər. İslamın müqəddəs məqsədlərini müsəlmanlara, xüsusilə yeni nəslə çatdırsınlar və İslam hökuməti qurmaq uğrunda mücahidlik göstərsinlər.

إنك ولي التوفيق. و لا حول و لا قوة إلا بالله العلي العظيم

# MÜNDƏRACAT

**NƏŞİRDƏN**
**MÜQƏDDIMƏ**
Vilayəti-Fəqih mövzusunun zəruriliyi
İslamı əksinə təqdim etməkdə istismarçıların rolu
Qərbin maddi (texniki) inkişafı mərlhələsi qarşısında cəmiyyət üzvlərinin vəziyyəti
Hökümət təşkil edilməsinin zəruri olmasına inanmaq rəvayətin bir hisssəsidir

**BİRİNCİ HİSSƏ: İSLAM HÖKÜMƏTİNİN QURULMASININ ZƏRURİLİYİ:**
Qanunu həyata keçirmək üçün icra orqanlarının olmasının vacibliyi
Hökümət təşkil etmək Peyğəmbəri sünnəsidir (üslubudur)
İslam qanunları həmişə həyata keçirilməlidir
Həzrət Əli ibn Əbutalib tutduğu mövqe

**İKİNCİ HİSSƏ: İSLAM HÖKMLƏRİNDƏN BİR NEÇƏSİNİN ARAŞDIRILMASI:**
1- Maliyyə qanun-qaydaları
2- İslamın müdafiə etmək hökumət tələb edir
3- Cəza qanunları
Siyasi bir inqilab lazımdır
İslami birlik lazımdır
Məzlumları xilas etmək üçün hökumət qurmaq lazımdır
Hədislər baxımından hökümətin gərəkliyi

**ÜÇÜNCÜ HİSSƏ: İSLAM HÖKUMƏTİNİN MAHİYYƏTİ**
İslam hökümətinin başqa hökümət sistemləri ilə fərqi
Rəhbərliyin şəraiti
Qeybət dövründə hökümət başçısının xüsusiyyətləri
Vilayəti-fəqih
Vilayəti-etibari
Vilayəti-təkvini
Hökümət vəsilədir (vasitədir)
Hökümətin üstün məqsədləri
Bu məqsədlərə çatmaq üçün lazımi xüsusiyyət
Bu məqsədlərə çatmaq üçün lazımi xüsusiyyət

**DÖRDÜNCÜ HİSSƏ: RƏVAYƏTLƏRƏ GÖRƏ VİLAYƏTİ-FƏQİH**
Həzrət Rəsuli-Əkrəmin (s) canişinləri ədalətli fəqihlərdir
Biz bu rəvayəti iki baxımdan araşdırırıq
Bu rəvayətin mətni bairədə
Besətlərin məqsədi və Peyğəmbərlərin vəzifələri nədir

Fəqihlər – qanunları həyata keçirmək, qoşuna rəhbərlik edib cəmiyyəti idarə etmək, ölkəni müdafiə edib məhkəmə işlərini görmək üçün Peyğəmbərin etibar etdiyi şəxslərdirlər.

Qanun əsasında rəhbərlik etmək
Məhkəmə işlərinə kim rəhbərlik etməlidir
İctimai hadisələrdə kimə müraciət etməliyik?
Qurani-məciddə ayələr
Ömər ibn Hənzəlin məqbuləsi
Nahaq qüdrətlərə müraciət etməyin təhrimi (haram edilməsi)
İslamın siyasi hökmü
İşləri İslam alimləri idarə etməlidirlər
Alimlər hakimliyə nəsb olmuşlar
Alimlər hökumətə çata bilməzlərmi?
Alimlərin vəzifələrində qalmaları həmişəlikdir
Səhiheyi Qəddah
Əbulbuxtərinin rəvayəti
Rəvayətin araşdırılması
Vilayəti-fəqihin nəss yolu (Quranla) sübutu
Fiqhi-rəzəvidən bir sübut
Başqa sübutlar

**BEŞİNCİ HİSSƏ: İSLAM HÖKÜMƏTİ QURMAQ UĞRUNDA MÜBARİZƏ ÜÇÜN PROQRAMLAR**

Yığıncaqlar təbliğat və təlimat yolunda olmalıdır
Bir daha Aşura yaradın
Uzun mübarizədə dözümlü olmaq
Ruhani hövzələrini islah etmək
İstismarın əxlaqi və fikri əsərlərini aradan aparmaq
Yalançı müqəddəslərin islahı
Hövzələri arıtlamaq (yad ünsirlərdən təmizləmək)
Saray axundlarını qovun getsinlər
Zülmkar hökümətləri aradan qaldıraq